AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU

# MÜASİR AZƏRBAYCANDA POLİTOLOGİYA VƏ SİYASİ SOSİOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ

## II HİSSƏ

- 15995 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI «TƏKNUR» 2013

66.0 (5Aze) + 60.56.1 (5Aze)
M 87

*Kitab AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Politologiya və siyasi sosiologiya" şöbəsinin əməkdaşları tərəfindən 2013-cü ilin plan işi əsasında hazırlanmış və İnstitutun Elmi Şurasının 4 dekabr 2013-cü il tarixli 11 saylı qərarı ilə çapa məsləhət görülmüşdür.*

**Redaksiya heyəti:** **R.R. Mirzəzadə**
**Ş.X.Bağırov**
**L. C. Mövsümova**
**Z.B.Ağayeva**
**Ə.İ. İbrahimov (məsul katib)**
**T.S.Quliyev (məsul katib)**
**S.N.Quliyeva**
**N.N.Əlicanova**

**Müasir Azərbaycanda politologiya və siyasi sosiologiyanın aktual problemləri (II buraxılış) Bakı, «Təknur» 2013. 282 səh.**

Toplu iki bölmədən ibarətdir. Kitab müasir dövrdə Azərbaycanda politologiya və siyasi sosiologiyanın nəzəri məsələlərinin təhlilinə həsr olunmuşdur.

Toplunun "Müasir siyasi elm konseptual aspektdə" adlanan birinci bölməsi son 25 il ərzində müasir Azərbaycanda müxtəlif istiqamətlərdə baş verən transformasiya proseslərinin politoloji və siyasi sosioloji aspektdə təhlilinə həsr olunmuşdur. Bu hissədə siyasi sosiologiyanın predmeti, onun siyasi münasibətlərin, institutların və siyasi şüurun kompleksi kimi öyrənilən sosioloji bilik sahəsindən ibarət olması, təsviri və normativ yanaşma və s. kimi məsələlər işıqlandırılmışdır. Eyni zamanda bu hissədə siyasi elm və siyasi sosiologiyaya müasir nəzəri yanaşmalar, siyasi ideologiyaların modifikasiyası, dünyanın müasir siyasi elm məktəbləri və s. məsələlər tədqiqata cəlb olunmuşdur.

Kitabın "Müasir problemlərə empirik yanaşma" adlanan ikinci fəslində Azərbaycan diasporunun İKT istiqamətində fəaliyyəti siyasi elita, siyasi dəyər anlayışı, dövlətin uşaq siyasəti, vətəndaş cəmiyyəti, siyasi institutlar, mədəniyyətlərin dialoqu, Xəzərin həlli məsələsi, insan hüquqları, mentalitet və dövlətçilik məsələləri empirik cəhətdən təhlil olunmuşdur.

**ISBN: 978-9952-445-12-1**

**© AMEA FSHİ, 2013**

## GİRİŞ

Yarandığı vaxtdan siyasət bəşəriyyətin ümumi rifah və xoşbəxt həyata xidmət edən birlik forması kimi xarakterizə olunmuşdur.

Modernləşən Azərbaycanda elmin inkişaf istiqamətlərini müəyyənləşdirən Prezident İ.Əliyev tərəfindən "Azərbaycan Respublikasında 2003-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 4 may 2009-cu il sərəncamı imzalandı. 2012-ci il dekabrın 29-da "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması ilə bağlı imzaladığı tarixi sərəncam bu məsələlərin siyasi nəzəri və siyasi praktiki cəhətdən daha məqsədyönlü və sürətli tədqiqinə, səmərəliliyinin artırılmasına zəmin yaratmışdır. Bu Azərbaycan elmində yeni mərhələ idi. Məhz sərəncamdan irəli gələn məsələlər də tədqiqatçılar üçün yeni təhlillərə rəvac verdi. Sərəncam elm siyasətində yeni mərhələ olduğu kimi, həm də problemlərə yeni baxış, yeni kontekstdən yanaşmanı zəruri etdi. Bu baxımdan da "Müasir Azərbaycanda politologiya və siyasi sosiologiyanın aktual problemləri" adlı məqalələr toplusu məhz son 20 il ərzində müasir Azərbaycanda müxtəlif istiqamətlərdə baş verən transformasiya proseslərinin politoloji və siyasi sosioloji baxımdan təhlilinə həsr olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etdiyi kimi, Azərbaycanın dövlət siyasətinin təməlində və mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi və rifahı durur. Əsərdə də məhz müasir Azərbaycan cəmiyyəti və onun vətəndaşları üçün siyasi elmin bilavasitə mühüm əhəmiyyət kəsb edən problemləri tədqiqata cəlb edilərək işıqlandrılmışdır.

Bütün bunlar müasir Azərbaycan üçün son 20 ildə yeni iqtisadi modelin formalaşması və elmi potensialın gücləndi-

rilməsi, İKT-lərin tətbiqinin genişləndirilməsi və insan kapitalının inkişafı, gender bərabərliyinin təmin olunması və ailənin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin təkmilləşdirilməsi, ətraf mühitin qorunmasını prioritet məsələlər kimi müəyyənləşdirmişdir. Deməli, gələcəyə hesablanmış bu konsepsiya ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasının başlanğıcı olub, gələcəyə hesablanmışdır.

Kitabda siyasi elmin cəmiyyət üçün vacibliyi, daimiliyi, fasiləsizliyini təmin etmək məqsədilə tədqiqat işində müasir siyasi elm və onun çoxşaxəli inkişaf istiqamətləri, sosial-siyasi elmlər sistemindəki yeri müəyyənləşdirilmiş, sosial-siyasi elmlərin qovuşduğu, sosiologiya ilə politologiyanın kəsişdiyi nöqtədə yeni bir elmi istiqamət kimi siyasi sosiologiyanın yaranması məsələsi geniş şəkildə araşdırılaraq, bir sıra yeni elmi mənbələrə istinad edilmişdir. Siyasi sosiologiyanın predmeti, onun siyasi münasibətlərin, institutların və siyasi şüurun kompleksi kimi öyrənilən sosioloji bilik sahəsindən ibarət olması, təsviri və normativ yanaşma, siyasi dəyər kimi komponentlərlə, fəlsəfi, politoloji və sosioloji paradiqmalarla siyasi qüvvələrin mübarizə mexanizmlərinin fəaliyyətə gətirilməsi ilə bütün siyasi məqamların əks etdirilməsi açıqlanmışdır. Əsərdə həmçinin qədim sivilizasiyaya mənsub olan xalqımızın siyasi fikir tarixi, siyasi-mənəvi irsimiz tətqiq olunmuşdur.

Belə ki, dövlətçilik tariximizin önəmli səhifəsi olan Azərbaycan Cümhuriyyətinin siyasi quruluşu və bu quruluşun dövrün demokratiyasına uyğunluğu elmi-siyasi cəhətdən araşdırılmış, demokratiyanın siyasi quruluş, siyasi dəyər, siyasi ideal olduğu göstərilmişdir.

Təhlillərdə vətəndaş cəmiyyətinin yaranması və inkişafı, dövlətlə qarşılıqlı əlaqəsi və onların fəaliyyət sərhədlərinin müəyyənləşdirilməsi sosial siyasi elmlərin əsas istiqamətlərindən biridir. Məhz bu baxımdan vətəndaş cəmiyyətinin formalaşması məsələsi tədqiqata cəlb olunmuş, araşdırılaraq ümumi nəticələr çıxarılmışdır. Əsərdə demokratik təsisatlar, hüquqi dövlət tarix və müasirlik baxımdan təhlil olunmuş, hüquqların və haqların qorunması və təmin olunması demokratik hüquqi dövlətin başlıca vəzifələrindən biri kimi təhlil olunmuşdur. Eyni zamanda, siyasi ideologiyaların modifikasiyası, müasir Azərbaycanda ideoloji prosesin xüsusiyyətlərinin müəyyənləşdirilməsi, ideoloji plüralizm – müasir Azərbaycan reallığı kimi məsələlər tədqiqat obyekti seçilmişdir.



Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həm də İnformasiya Kommunikasiya Texnologiyalarının rolu mühüm əhəmiyyət kəsb edir. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının qarşısında duran əsas vəzifələrdən biri kimi qlobal informasiya cəmiyyətinin təzahürü kimi meydana çıxan virtual dünyanın tərkib hissəsi olan Virtual Azərbaycanın formalaşdırılması və inkişaf etdirilməsi prioritet məsələlərdən biridir. Bu məsələlərə də əsərdə toxunulmuş, reallıq rəsmi faktlarla işıqlandırılmışdır.

Davamlı olaraq qloballaşan dünyada internet konfedensiallığının saxlanılması ilə bağlı yetərli balansın və kiber cinayətkarlıqla mübarizədə lazımi vasitələrin təmin olunması probleminin beynəlxalq səviyyədə həll edilməsini şərləndirən vacib məsələ kimi araşdırılmışdır.

Bütövlükdə qarşıya qoyulan problemlərin kopmleks və fundamental elmi təhlili ərsəyə gətirilmiş kitab işinin geniş arenada əhəmiyyətini şərtləndirir.

# ВВЕДЕНИЕ

Предложенная Вашему вниманию монография «Актуальные проблемы политологии и политической социологии в современном Азербайджане» посвящена анализу, происходящих за последние 20 лет в различных направлениях развития нашего общества процессов, его трансформации с призмы политических и социально-политических изменений. В монографии анализируются проблемы, представляющие собой особое значение для современного азербайджанского общества, всех его граждан.

Намеченные на последующие 20 лет развития Азербайджана приоритетные направления - формирование новой экономической модели и усиление научного потенциала, расширение внедрения ИКТ и развитие человеческого капитала, обеспечение гендерного равноправия и укрепление семейных ценностей, усовершенствование гражданского общества и охрана окружающей среды, нашли отражение в историческом Указе президента Азербайджана Ильхама Алиева, подписанным 29 декабря 2012 года в связи с Концепцией Развития «Азербайджан – 2020: взгляд на будущее». Указом президента была создана почва для увеличения эффективности еще более целенаправленного, ускоренного изучения вышеотмеченных проблем с позиций политической теории и политической практики. Рассчитанная на ближайшее будущее, эта Концепция заложила в стране фундамент для нового этапа развития, в основе которого, по утверждению президента стоит гражданин Азербайджана, его приоритеты, заботы, безопасность.

В представленной монографии было определено место политической науки в системе социально-политических наук. В ней раскрывается сущность политической социологии как новой науки, находящейся на



стыке социологии и политики, широко исследуются проблемы возникновения и развития политической социологии; определяются метод и место политической социологии в совокупности наук, изучающих общество.

В исследовании раскрываются предмет политической социологии, его научная составляющая, которая состоит из комплекса политических отношений, институтов и политического мышления, которые в свою очередь являются отраслью социологических знаний. В монографии все политические явления рассматриваются с призмы описательного и нормативного подходов, в ней описываются такие компоненты как политические ценности, философские, политические и социологические парадигмы, которые приводятся в движение механизмами борьбы политических сил.

Анализу подверглись история политической мысли, политико-нравственное наследие нашего народа, являющегося представителем древнейшей цивилизации.

В монографии раскрывается политическое устройство АДР, составляющей значимые страницы истории государственности Азербайджана и проводится научно-политическое исследование соответствия этого устройства демократическим устоям той эпохи. Кроме того в исследовании демократия анализируется как политическое устройство, политическая ценность, политический идеал.

Взяв на вооружение высказывания президента Азербайджана Ильхама Алиева в монографии особый упор делается на анализ одной из важных сфер исследования социально-политических наук – изучение истоков возникновения гражданского общества, его развитие и функционирование, взаимодействие гражданского общества с государством, а также определение границ функционирования гражданского общества и государства. С этой целью в исследовании были рассмотрены

проблемы формирования гражданского общества; раскрывается понятие «Права человека»; как в историческом, так и в современном аспектах анализируется одна из основных задач правового государства – защита и обеспечение реализации прав человека.

Одновременно в монографии исследуются такие проблемы как модификация политических идеологий, дается определение особенностей идеологических процессов в Азербайджане, раскрывается сущность идеологического плюрализма как реальности современного Азербайджана.

В монографии отмечается важное значение роли ИКТ в области своевременного и достоверного освещения реалий Азербайджана. Отмечается, что одной из основных приоритетных задач, поставленных перед Хартией Солидарности Азербайджанцев Всего Мира является формирование и развитие виртуального Азербайджана как составной части Виртуального мира, являющегося в свою очередь частью глобального информационного общества.

В монографии подчеркивается, что при решении проблем связанных с соблюдением баланса при сохранении конфиденциальности интернета в глобализированном обществе, важное значение придается проблемам обеспечения необходимых средств в борьбе с кибер преступностью.

В итоге делаются обобщения и выводы, вытекающие из проведенного исследования, даются предложения и ряд рекомендаций, которые могут применяться в аналитической работе и исследованиях, связанных с теоретической политологией.

Монография рассчитана на специалистов и в целом на широкий круг читателей.



# I FƏSİL. "MÜASİR SİYASİ ELM KONSEPTUAL ASPEKTDƏ"

*Rəna MİRZƏZADƏ*

## SİYASİ ELM VƏ SİYASİ SOSİOLOGİYAYA MÜASİR NƏZƏRİ YANAŞMA

Müasir dünyanın qloballaşma mərhələsini yaşaması, siyasi xəritədə radikal transformasiyaların baş verməsi, həm də bu prosesin nəhəng miqyasla və sürətli ritmlə getməsi mövcud elmi-nəzəri baxişlar sistemində də paradiqmal dəyişikliкəri şərtləndirmişdir. Müxtəlif ölkələrin inkişafında kəskin siyasi ziddiyyətlər və böhranlar müşahidə edilir. Demokratik rejimlərin bərqərar olması və süqutu hadisələri ilə zəngin olan XX əsrin sonu – XXI əsrin əvvəllərində siyasi sistemlərin araşdırılmasında xüsusi aktuallıq kəsb edir. Qlobal cəmiyyət qarşısında duran çağırışlar onların birgə həllini mümkün etmək üçün ictimai-humanitar elmlərin nəzəri-metodoloji bazasının, tədqiqat üsulllarının və mövqelərin sintezini günün tələbinə çevirmişdir.

XX əsrin sonlarından başlanğıcını götürən demokratik tranzit prosesləri, siyasi sistemlərin və milli dövlət quruculuğunun tamamilə yeni modellərinin yaranmasını şərtləndirmişdir. Bəşəriyyətin ən yeni tarixinin əsas əlamətlərindən biri dünyanın demək olar ki, bütün qitələrində böyük dövlət qruplarının demək olar ki, qlobal siyasi modernləşmə prosesinə daxil olması, buradakı hakimiyyətlərin qloballaşan demokratik idarəetmə yolunu tutması ilə bağlıdır.

Bunun nəticəsi kimi, Azərbaycan təcrübəsi də daxil olmaqla, demokratik dövlət quruculuğunu həyata keçirən dövlətlərin uğurlu təcrübəsinin bu gün Qərb elmində mövcud olan ictimai elmlərin qənaətlərinə hansı müddəaları əlavə etməsi, siyasi nəzəriyyələrin bir-birini zənginləşdirməsi və

yaxud da əvəzləməsinə nə kimi təsir etməsi məsələsi bu gün də öz həllini gözləyən məsələlərdəndir.

Qeyd edilən məsələlər aspektində politologiya və siyasi sosiologiyanın nəzəri-metodoloji əsaslarının baş verən və "elmi inqilabların strukturu" (Tomas Kun) kimi adlandırılan proseslərdə nə kimi təsirlərə və dəyişiklikərə məruz qalması, brada hansı yeni baxışların yaranması və ya nə kimi nəzəri sintezin baş verməsi kimi mövzular tədqiqatçıların diqqət mərkəzindədir.

**Politologiyada və siyasi sosiologiyada elmi-nəzəri baxışların inkişafı istər xarici, istərsə də milli siyasətşünaslıqda, təbii və məntiqi olaraq müasir dünya sisteminin üzləşdiyi və yaşadığı çağırışların dinamikasını özündə əks etdirir. Dünyada demək olar ki, davamlı olaraq yeni güc mərkəzləri formalaşır, əvvəlki siyasi ittifaqlar dağılır və yerində yeni ümumdünya koalisiyaları yaranır, bəlkə də yeni sərhədlər müəyyənləşir.**

**Bu proseslərin nəticəsində ümumi qənaətə görə politologiyada və siyasi sosiologiyada "nəzəri partlayışın, "fırtınanın" yaşanması, nəzəri-metodoloji mübahisələrin kəskinləşməsi müşahidə edilir.**

Belə ki, tədqiqatlara müraciət edəndə nə görürük? V. Fedotova özünün "Başqa Avropanın modernləşməsi" yazısında göstərir ki, "Postsosialist cəmiyyətlərdə baş verən transformasiyaların mahiyyətini dərk etmək üçün qeyd edilən dövrün sosial-siyasi fikir tarixinə nəzər salmaq lazımdır. Bu mərhələdə sosial nəzəriyyələrin konseptual əsaslarının yenilənməsi, bəşəriyyətin indiyə qədər gəldiyi yolun qlobal miqyasda yenidən dəyərləndirilməsinə sövq edir".[1]

XX əsrin ikinci yarısında, xüsusilə 80-90-cı illərdə yeni müstəqil dövlətlərin yaranması, demokratik dövlət quruculuğu, siyasi sistemin formalaşması, demokratik siyasi proseslər, siyasi fəallıq və s. fenomenlərinin öyrəniləsinə yeni təkan verdi. Siyasi elmi fikirdə bu fenomenləri müəyyənləşdirmək, onu digər ictimai anlamlardan fərqləndirmək, onun daha çox özünəməxsus olan xüsusiyyətlərini göstərmək məqsədilə çox sayda cəhdlər edildi və bu indi də davam etməkdədir.

[1] В.К.Федотова. Модернизация "другой" Эвропы. М. 1997. http//philosophy.ru/iphras/Fedot-mot.html.



Ən ümumi şəkildə qeyd edilən problemlərin tədqiqinə münasibətdə mövcud olan yanaşmaları bir neçə əsas qrupda ayırd etmək olar: teoloji, klassik, hüquqi, siyasi-sosioloji və ən yeni – informasion-postmodernist yanaşmalar.

Onu da xüsusi vurğulamaq lazım gəlir ki, müasir dövrün siyasi institutları və proseslərin inkişafını həm də ilk növbədə, demokratikləşmə modernləşmə, siyasi fəallıq və sosiallaşma prosesləri, ümumbəşəti dəyərlərə əsaslanan hüquqi və dünyəvi dövlətin yaranması ilə səciyyələndirmək olar. Müasir şəraitdə bu dəyərlərlə bağlı "siyasi insanın" (homo politikus) formalaşması məsələlərinin getdikcə daha çox səslənməsi elmi maraqla yanaşı narahatlıq da yaradır.

Müasir şəraitdə demokratikləşmə və siyasi sosiallaşma prosesləri ilə paralel olaraq xüsusilə də "qabaqcıl" postindustrial informasiya cəmiyyətlərində texnogen- texnokratik mahiyyətli cəmiyyətlər də formalaşır. Bu cür yüksək strukturlaşmış cəmiyyətlərin idarə olunmasında qərarlar qəbul edilərkən, siyasətşünas-mütəxəssislərdən geniş istifadə edilir, müxtəlif istiqamətləri nəzərə almağa imkan yaradan yeni siyasi və humanitar texnologiyaların tətbiqi nəzərdə tutulur.

Siyasi elm və siyasi sosiogiya da digər elmi istiqamətlər kimi özünün konkret nəzəri-metodoloji bazasına malikdir və davamlı olaraq onu zənginləşdirmək çağırışı ilə üzləşir. Əksər ictimai və humanitar elmlər kimi siyasi elm həm də öz növbəsində spesifik tədqiqat metodlarına malikdir. Burada əsasən:

– Tədqiqatçının elmi mövqeyini fərdi-subyektiv baxışlardan ciddi şəkildə ayırmaq; – Araşdırılan faktların elmi obyektivliyini təmin etmək üçün bütün sosial elmlərə aid olan metodlardan istifadə etmək;

– Ümumelmi yanaşmaları və modelləri müəyyən etmək üçün faktların nəzəri sistemləşdirilməsinə çalışmaq və s. burada da araşdırmaçıya verilən əsas tələblər sırasındadır.

## MÜASİR İCTİMAİ-HUMANİTAR NƏZƏRİYYƏLƏRİN ÜMUMİ MƏNZƏRƏSİ

Biz bu mənzərəyə baxanda nə görürük?

• «Müasir dövrün siyasi və sosioloji nəzəriyyələri, konsepsiyaları və paradiqmaları" məsələsində ilk növbədə nə yada düşür?

• Müasir siyasət elmi və siyasi sosioloji nəzəriyyələrin dünyada sürətlə dəyişən reallığa nisbətən intensiv olaraq yeniləşməsinə baxış və mövqelərin həm dialoqu, həm də qarşıdurması kimi dəyərləndirilə bilən müzakirələrin öz kəskinliyinə görə «nəzəri fırtına» adlandırılan mərhələnin əsas xüsusiyytləri nədən ibarətdir?

• Müasir siyasətşünaslıq və siyasi sosioloji baxışlarının inteqral «metanəzəriyyənin» formalaşmasını necə müəyyənləşdirmək olar?

• Siyasətşünaslıq və siyasi sosiologiya nəzəriyyəsi mətninə daxil olan bütün elmi istiqamətlərin nəzəri problemləri və müasir modellərinin araşdırılması üçün o cümlədən *Avropa mərkəzçiliyi* paradiqmasının da təhlili zəruridir.

Belə ki, Avropa mərkəzçiliyin onun əsasən aşağıdakı üç metodoloji aspektindən istifadə edilir:

Bütün digər humanitar elmlərdə olduğu kimi, siyasi elmlər və siyasi sosiologiyaya aid nəzəriyyələrdə də, Avropa mərkəzçiliyi paradiqması siyasi sistemin tədqiqinin hər hansı bir konkret sahəsində ideoloji yanaşma, həmçinin elmin metodologiyasını və araşdırma istiqamətini müəyyən edir. Avropa mərkəzçiliyi ideologiyasının dünya və Azərbaycan ictimaiyyətşünaslığı üçün hansı təsir kəsb etdiyini, onun tarixi inkişaf yolunun izlənməsini, müasir mərhələdə hansı



funksiya daşıdığını konkret elmi tədqiqatlar əsasında müəyyən etmək üçün, tarixi-müqayisəli araşdırma aparılması maraqlı nəticələr verə bilər.Azərbaycanda da bəhs edilən sahədə problemlərin tədqiqi öz həllini gözləyir.

Hər dövrün elmi, o cümlədən siyasət elmi dünyanın dərki istiqamətində yeni addımlar atır. Elmin yenilikləri xüsusilə də dünyanın inkişaf qanunauyğunluqlarının izahına, yeni-yeni mövqelər əlavə edir. Siyasətçünaslıq da inkişaf qanunlarına biganəlik göstərə bilməz. Əksinə öz təyinatı və cəmiyyətdə missiyası etibarı ilə, dünyagörüş funksiyalarına görə inkişaf qanunlarının mənasını, mahiyyətini müəyyənləşdirməkdə birinci olmağa məhkumdur. Yaşadığımız dövrün bütün aspektlərlə, xüsusilə mürəkkəb, fərqli və ziddiyyətli bir mərhələyə təsadüf etdiyini nəzərə alsaq, yuxarıda sadalanan sualların sırasını çox genişləndirmək olar.

Qərb və Avropa dünyasının nın ən yeni sosioloji nəzəriyyələrinin qısa panoramını verməklə, politologiya və siyasi sosiologiyada yeni paradiqmaların metodoloji seçim obyekti olmasının səbəbini izah etmək mümkündür. Qərb-Amerika sosioloji nəzəriyyələri əsasən analitik-emprik xarakterli olduğu, əhatəli sintezedici xüsusiyyətə malik olması məlumdur.

Cəmiyyər haqqında elmin tarixinə nəzər salsaq görərik ki, görkəmli sosial-fəlsəfi, politoloji nəzəriyyələr, cəmiyyətin çox çətin və mürəkkəb şəraitə düşdüyü zaman meydana çıxmışdır. Siyasi məkanı böhran vəziyyətində demək olar ki, bu sual maraqlandırmışdır: Necə etmək olar ki, siyasi nizam bəərqərar olsun?

O.Kant "sosiologiya" sözünü elmi dövriyyəyə gətirəndə Avropada da cəmiyyət dərin tənəzzül keçirirdi. Inqilablar, qarşıdurma və vətəndaş müharibəsini ideal dünyagörüşlərin toqquşmasının nəticəsi hesab edən O.Kant cəmiyyət haqqında elmi ideoloji çərmivədən azad etməyi əsas hesab eidi. Cəmiyyət problemləri ilə məşğul olanları təbiətşünas-alimlərdən nümunə götürməyə çağırdı.

Eyni zamanda belə bir fakta diqqəti cəlb etmək lazım gəlir ki, politologiya və siyasi sosiologiya yarandığı vaxtdan fərqli hazırda dövrünü yaşayır. Bu dövrün konsepsiyaları əsasən nəzəriyyə və praktikanı birgə tətbiq etməklə fərqlənirlər. Ən vacibi odur ki, siyasi idrak bitkin elmi kimi deyil, siyasi proses kimi anlaşılmağa başlayır. Başlıca məsələlərdən biri də, gerçəkliyin dərk edilməsində rasionalizmin və mütləq obyektiv sayılan metodların imkanlarının məhdudluğunun aşkara çıxarılmasıdır. Bu isə "metodoloji plyuralizm" prinsipinin qəbul edilməsi ilə bağlıdır.

Metodoloji plyuralizm yalnız elmi ictimaiyyətdə deyil, həm də bütün cəmiyyət səviyyəsində dəstəklənməsi çeşidli mövqelər arasında meyar və hüdudların itməsinə gətirib çıxardı. Məlum oldu ki, "hərc-mərclik yalnız cəmiyyətdə deyil, həm də insanların dünyagörüşündə imiş".

Dünyanın qloballaşma mərhələsində plyüralizmin "şərhlər münaqişəsinə" səbəb olmaması üçün, onun sinkretik prizmadan konseptuallaşdırılması zərurəti dərk olunur.

İkiqütblü dünyanın birqütblü dünyaya transformasiyası, eləcə də qloballaşma prosesinin bütün istiqamətlərə gücü təsiri, "yeni dünya nizamı"na dair ümid tezliklə "dünyada yeni nizamsızlıq" haqqında ciddi düşüncələrlə əvəzlənməsinə səbəb olmuşdur. Bazar "fundamendalizmi" və qlobal kapitalizmin tənqidi "nə sosializm, nə də kapitalizm olmayan beş əsas qüsurundan biri kimi "dəyərlər (meyar) problemi və sosial vəhdət məsələsinin kölgədə qalmasını vurğulanır.

E.Giddensin "Sosiologiyanın gələcəyinə dair 9 tezis" əsərində söyləyir ki, "nəzəriyyələr və müzakirələrdə konsensusa nail olmaq yaxın zamanlarda gözlənilmir". Bunu da 9 tezisin müəllifi vurğulayır. Onun birinci tezisi isə belədir: "1. Sosiologiya XIX əsrdə dayaqlandığı nəzəri prinsiplərdən inkar edəcəkdir".

İctimai elmin ötən əsrə qədərki elmi-nəzəri əsasları yeniləşdirmək səyləri, "nəzəri baza" probleminin həllini, bu istiqamətdə cəhdləri göstərməyi çox aktual edir.



Hazırkı yeni yüzillikdə də bütün dünyanı bürüyən sistemli qlobal böhran yeni-yeni suallara cavab verməyi tələb edir.

Qlobal reallıq və ona paralel olaraq dünyanın elmi mənzərəsinin radikal dəyişikliklərə uğramasına rəğmən, metodoloji böhran dövrü ictimaiyyətşünaslıqda davam edir. Bu vəziyyəti şərtləndirən digər səbəb humanitar elmlərdə uzun müddət analitik tədqiqat üsullarının mövcud olması, nəzəri sintezə imkan verən metodların olmamasıdır.

XX əsrin 80-ci illərindən Qərb ictimai elmində ilk sintez xarakterli, bütöv yanaşmanı önə çəkən konsepsiyalar ortaya çıxmağa başladı. Bunların eyni vaxta təsadüf etməsi barədə düşünmək də olar. Çünki elmi idrak da mürəkkəb sistemdir. Böhran vəziyyətində elmi idrak vəziyyətindən çıxmaq, idrakın daha mükəmməl pilləsinə keçid almaq üçün inteqral-sintez xarakterli prinsiplərə dayaqlanır.

Cəmiyyət haqqında elmlərdə, xüsusilə də bu elmlərin nisbətən çoxdan təşəkkül tapdığı qərbdə, tərəqqi və təkamül konseptinin uğursuzluğu da metodoloji böhran vəziyyətini yaradan əsas səbəblərdən olmuşdur. Bu baxışdan sistemli yanaşma və ümumi sistemlər nəzəriyyəsinin əsas müddəalarını cəmiyyət haqqında elmə tətbiq edən Persons tərəqqi və təkamül probleminə yeni rakursdan baxaraq, neoevolyusionizm–yeni təkamülçülük adlı cərəyanın əsasını qoyur.

T.Parsons təkamülə münasibətdə mövcud olan birxətli, bəsit təsəvvürdən fərqli olan yeni mövqe nümayiş etdirirdi. "Cəmiyyət və sosial nizam" probleminə münasibətdə T.Parsons T.Hobbsun "hamının hamıya qarşı müharibəsi" tezisini qeyri-düzgünlüyünü isbat etməyə çalışmış, şəxsiyyət sistemi və mədəniyyət sisteminin, ümumilikdə sosial sistemin inteqrativ təsisat kimi mövcudluğunu mümkün etməsi irəli sürmüşdür. T.Parsons nəzəri sistemində bizim üçün əhəmiyyətli olan daha bir fikir müxtəlif cəmiyyət tiprlərinin ayırd edilməsi və onların açıq və qapalı cəmiyyətlər kimi səciyyələn-

dirməsidir. Həm də onun açıq və qapalı cəmiyyətlərə verdiyi səciyyə, R.Benediktin "sinergetik" və "qeyri-sinergetik" cəmiyyətlərinə çox bənzəyir. Cəmiyyətdə idarəetmə sisteminin kibernetik metodlarla izah etmək fikrinə görə T.Parsonsun nəzəriyyəsi də çox tənqidə məruz qalmışdır.

T.Parsonsun "sosial-sistem və sosial fəallığın strukturu", R.Metronun struktur funksionalizm, R.Darendorfun sosial münaqişə, C.Homansın sosial mübadilə və s. nəzəriyyələri, sosial gerçəkliyə bütöv yanaşmanı hələlik mümkün etmirdiş bütün dünyanı bürüyən sosial transformasiyanın dinamikası, inkişaf modellərinin qəfil dəyişməsi və qeyri-sabitliyi sosioloji sintez nəzəriyyələrinin formalaşmasını sürətləndirdi. Avropada beş əsas sosioloji məktəb kimi tanınan bu nəzəriyyələrin əsas xəttini qısa göstərmək istəyirik.

XX əsrin sonlarına doğru cəmiyyət haqqında elmi nəzəriyyələrdə obyekt subyekti "ayrıseçkiliyini" aradan qaldırmağa ilk cəhd edən fransız siyasi sosioloqu Pyer Burdye olmuşdur. 1975-ci ildən Avropa Sosiologiya Mərkəzini yaratdı. Sosial reallıqda obyektlə subyekt arasında orta yolu tapmağa çalışan Burdye cəmiyyət haqqında elmin paradoksal vəziyyətinə diqqət yetirmişdir. Bəşəriyyət sosial eksperiment kimi mövcud olduğu üçün cəmiyyət haqqında elm, "müşahidəçini müşahidə edir", buna görə də bu elm qarşısında çox çətin və məsuliyyətli vəzifə durur. Reallığı qavraya bilmək, bunun əsasında hərəkət etmək qısa zaman çərçivəsində çox çətindir. Siyasi sosiologiya elmi bu baxımdan paradoksal vəziyyətdədir, o həm anlamalı, həm əsaslandırmalı, həm də həyata keçirməlidir. P.Budyenin diqqətini çəkən digər mühüm ideya tamın hissələrin sadə cəmindən ibarət olmaması ideyasıdır.

Burdye siyasi idrakın çevik uyğunlaşmanı mümkün edən yollarını göstərmir. Qərb cəmiyyətində cəmiyyətin üzvü olan hər bir "siyasi agentin" təkamülünün tədrici (darvinsayağı) gedişinə daha çox adət edildiyindən yəqin ki, bu əsas problem sayılmır.



Politoloji nəzəriyyəyə obyektin, yaxud subyektin mövqeyindən yanaşmanı yolverilməz hesab edən və hər iki fenomeni birgə izah etməyə çalışan digər müəllif Britaniya sosioloqu, əsərlərinə hazırda ən çox istinad edilən Entoni Giddensdir. E.Giddensin nəzəriyyəsinin nüvəsini "strukturasiya" anlayışı təşkil edir. Ümumi şəkildə təsəvvür etsək, bütün nəzəri sistemlər cəmiyyətdə maksimum mümkün əlverişli strukturları ayırd edərək, cəmiyyətin bütöv sosial sxemini müəyyən etməyə çalışır. E.Giddens "strukturasiya" nəzəriyyəsində bacardığı qədər ona məlum bütün əsas sosioloji baxış və ideyaları elmi şəkildə sintez etməyə çalışmışdır. Buna görə də o, struktur və funksiya, obyekt və subyekt, struktur və iradə deyil, "sosial strukturun dual (ikili) təbiəti" nəzəriyyəsini işləmişdir. Bununla da sadalanan sosial fenomenlərin mahiyyətindəki qeyri-müəyyənliyi aradan qaldırmağa nail olur. "Strukturun dual təbiəti" konsepsiyası bunları tutur

Alman sosioloqu N. Lumananlın fikrincə cəmiyyət haqqında elmin predmeti sosial sistemlər nəzəriyyəsidir.

Avroanın ən görkəmli sosioloji məktəblərindən danışarkən Alen Turen haqqında mütləq deyilməlidir. Ən azı ona görə ki, o sosial transformasiyalar sahəsində BMT-nin məsləhətçisi və məşhur sosioloqdur. "Proqramlaşdırılan cəmiyyət" nəzəriyyəsi A.Turenin geniç yayılmış konsepsiyasıdır.

XXI əsrdə sosial-siyasi transformasiyaların ən mühüm meylini fərdlərin, (ümumiyyətlə cəmiyyətlərin deyil) səviyyəsində çox böyük fəallıq nümayiş etdirilməsində proqnozlaşdıran A.Turen, buna görə də sosiologiyanın predmetini onların fəallığının təhlilində görür. Müasirliyin sosial mənzərəsinin yaradıcıları fəal fərdlərdir. Bu müəyyən mənada sosial həyatın qloballaşması ilə əlaqədardır. Sosial nizam və təkamülün ümumi sosietal səviyyədən, individual səviyyəyə doğru hərəkətini A.Turen çox əhəmiyyətli hesab edir və XXI əsrdə bəşəriyyətin bir çox sosial sarsıntılarından məhz bu səbəbə yan keçəcəyinə ümid edir. Mürəkkəb sistem kimi

PREZİDENT KİTABXANASI

cəmiyyətin inkişafı və nizamına münasibətdə xətti prinsiplərdən çıxış edən layihə və modellərin, özünütəşkilatlanma və qeyri-xəttiliklə bi araya sığındığı, yeni baxış bucağından aşkar olunan əsas müddəaların ictimai elmin mövcud mütərəqqi tədqiqat üsulları ilə mümkün sintezi və tamamlanması araşdırmada diqqətə çəkilir.

Maraqlı cəhətlərdən biri də odur ki, informasiya texnologiyalarının "inkişafı da metodoloji istiqamətə diqqəti artırmağa şərləndirmişdir. M.Delyaqin yazdığı kimi, "İntellektual praktika və ontellektual əməyin təhlili və tətbiqi üzrə metodoloji, sistemotexnik" peşələri üzrə mütəxəssislərə ehtiyac yaranır" yəni, elmin bütün sahələrində hər hansı fəaliyyətin tədqiqindən əvvəl onun nəzəri, metodoloji prinsiplərinin müəyyənləşdirilməsi ənənəsi formalaşmağa başlayır. Bu çevriliş xarakterli bir meyl sayılmalıdır. Çünki metod və nəzəriyyəyə ehtiyac duyulması ilk növbədə ictimai elmin nüfuz və çəkisinin, həm də məsuliyyətinin artmasından xəbər verir. K.Levi-Stross bu mənada yazmışdı: "XXI yüz il ya ictimai elmlər əsri olacaq, ya da heç olmayacaq".

Göründüyü kimi, cəmiyyətin və siyasi sistemin yalnız rasional elmi qanunlara əsaslanaraq idarə edilməsi, yönəldilməsi fikri Qərb düşüncəsində mühüm komponentlərdən birini təşkil edir. Bunun da nəticəsi bu gün bütün dünyanın düçar edildiyi böhran vəziyyətində öz əksini tapır.





## SİYASİ SOSİOLOGİYA ELMİ NƏDİR VƏ BİZƏ NƏ ÜÇÜN LAZIMDIR?

***Açar sözlər:*** siyasət, dövlətçilik, demokratiya, hakimiyyət.

Siyasi sosiologiyanın tarixi qədimdir. Onun vətəni antik Yunanıstan və Romadır. Aristotel özünün «Politika» (Siyasət) əsərində ilk dəfə olaraq bu termini işlətmişdir. Lakin siyasət məvhumu hələ ona qədər də mövcud idi. Onun tarixi dövlətin tarixilə üst-üstə düşür. Platon özünün «Dövlət» və «Qanunlar» adlı əsərlərində siyasət haqqında müfəssəl məlumat verir. Orta əsrlərdə islam şərqində mütəfəkkirlərin əsərlərində siyasət, siyasi münasibətlər, siyasi vəziyyət, siyasət adamları və s. haqqında zəngin nəzəri ədəbiyyat mövcuddur. Əl Fərabi, Nizamül-mülk, İbn Xaldun, Nəsirəddin Tusi və b. siyasəti hakimiyyətlə, dövlətlə, hökmdarların fəaliyyətlərilə əlaqələndirmişlər. İntibah dövrü Avropasında siyasət elmi artıq real siyasəti əks etdirməyə başlayır və onun əsas ideoloqu kimi Nikola Makiavelli çıxış edir. Makiavelliyə görə dövlət və hökmdar real siyasətin əhəmiyyətini qiymətləndirməli və əxlaqla onun münasibətində birinciliyi siyasətə verməlidir.

Yeni tarixi dövrdən etibarən Avropada güclənən liberal dəyərlər uğrunda mübarizə, azadlıq və hüquq bərabərliyi ideyaları hakimiyyətin bölünməsi zərurətini ortaya qoydu. Burjua mütəfəkkirləri və maarifçiləri siyasəti liberallaşdırmaq uğrunda mübarizəyə qoşuldular. Bu hərəkatın fonunda da siyasət haqqında elm olan politologiya da xüsusi diqqət mərkəzinə çevrilmişdir. Siyasəti öyrənən müxtəlif cəmiyyətlər, mərkəzlər, mətbuat orqanları, tədris müəssisələri və s. yaranmağa başlamışdır. Sosiologiyanın tədqiq və tədrisilə ilkin olaraq ABŞ, daha sonra isə Avropa ölkələri məşğul olmağa başladılar. SSRİ-də isə bu elm «burjua elmi» kimi qiymətləndirilmişdi və ona görə də bu fənnin tədrisi bizdə ABŞ

və Avropadan gec başlamışdır.

Azərbaycanda siyasi sosiologiya elmi XX əsrin 90-cı illərində təşəkkül tapsa da siyasi-dövlətçilik ideyaları qədim tarixə malikdir. Hələ orta əsrlər müsəlman şərqində siyasi sosiologiya sahəsində mühüm mülahizələr söylənmişdi. İnsanlar despotik siyasi rejimlərdə, cəmiyyətdə ədalətsizliklərə məruz qaldıqlarından adil hökmdar, ədalətli dövlət və cəmiyyət ideyaları uğrunda mübarizəyə qalxırdılar.

Orta əsrlərdə Müsəlman Şərqində siyasət elminin inkişafında Xacə Nizamülmülk Həsən ibn Əlinin (1063-1072) «Siyasətnamə» əsəri xüsusi yer tutur. Onun 50 fəsildən ibarət həmin əsəri Azərbaycanın Səlcuqilər imperiyası tərkibində olduğu illərdə yazıldığından bizim siyasi fikir tariximiz üçün də qiymətlidir. Əsər orta əsrlərin hüquq qanunlarını, idarəetmə sistemini, siyasi rejimini və hərbi hakimiyyətini, daxili və xarici siyasət məsələlərini əks etdirir. Nizamülmülkün siyasi görüşlərində hakimiyyət və əxlaq problemləri müstəsna yer tutur. «Siyasətnamə»nin müəllifi dövlətin ədalətli olmasını idarəçilikdə mühüm əxlaqi meyar sayır.

Azərbaycanda siyasi biliklərin formalaşmasında Nizami Gəncəvinin mühüm rolu olmuşdur. Mütəfəkkirin «İskəndərnamə» əsərində təklif etdiyi adil şah və ədalətli cəmiyyət modelləri Avropa ictimai-siyasi fikrinə, ilk utopik sosialistlərdən Tomas Mora və Tommazo Kompanellaya, müxtəlif «ictimai müqavilə» nəzəriyyələrinin yaranıb meydana gəlməsinə ideyaca güclü təsir göstərmişdir. Höte özünün «Şərq-Qərb divanı»nda Nizaminin siyasi ideya irsində ədalət və dövlət məsələlərinin mühüm əhəmiyyətini qeyd etmişdir.

Azərbaycan siyasi fikrində M.F.Axundovun sosial-siyasi irsi mühüm mərhələdir. Siyasi fikir tədqiqatçıları, məs., M.B.Məmmədzadə, H.Baykara, Y.V.Çəmənzəminli və b. qeyd edirlər ki, «milliyyət ideyası və fikri» ən əvvəl M.F.Axundovun, sonralar isə H.B.Zərdabi və Əlibəy Hüseynzadənin əsərlərində azərbaycanlıların milli-siyasi şüurunun formalaşmasının mənbəyi kimi təqdir edilmişdir. Z.B.Göyalp, F.Köçərli yeni dövr Azərbaycan yeniləşmə hərəkatını «Axundov mərhələsi» adlandırırlar.



O dövrdə Qərb ideyaları Şərqə, Qafqazda Rusiya və İran-Türkiyə vasitəsi ilə yayılırdı. Burada yayılan yeni qabaqcıl fikirlər regionun xalqlarının məfkurəsinə mütərəqqi təsir göstərirdi. Həmin dövrdə Qərb ölkələrindəki ideya-siyasi proseslər öz əksini Azərbaycan ictimai fikrində də taparaq ölkədə formalaşmaqda olan yeni mütərəqqi ziyalılar zümrəsinin şüuruna sirayət edirdi. A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, Ə.B.Hüseynzadə, Ə.Ağayev, C.Məmmədquluzadə və onlarca digər ictimai-siyasi fikir nümayəndələri Qərbdə cərəyan edən siyasi prosesləri diqqətlə izləyir, millətin sosial inkişaf yolunu Qərb ictimai-siyasi dəyərlərinə qovuşmaqda görür, xalqın siyasi mədəniyyətə yiyələnməsinin yollarını axtarırdılar. Avropada və Rusiyada parlament, Konstitusiya, vətəndaş azadlıqları, insan hüquqları və s. haqqında ideyalar Azərbaycan ziyalılarını da düşündürürdü. «Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktub» və «Cəlalüddövlənin ona göndərdiyi cavab» əsəri M.F.Axundovun siyasi-hüquqi ideyalarının əks olunduğu ilk böyük əsəridir. 1869-cu ildə İranın Londondakı səfiri Hacı Möhsün xana «şəxsi-naməlum» imzası ilə göndərilmiş bu əsərdə mütəfəkkir siyasət və cəmiyyət problemlərinə öz münasibətini bildirir. M.F.Axundov «Aldanmış Kəvakib» əsərində siyasi fikir tariximizdə müasir ədalətli hökmdar problemini ön sıraya çəkmişdir. Hakimiyyətin sadə xalqın içindən çıxmış Yusif Sərrac kimi sənətkara tapşırılması, Yusif Sərracın qısa bir müddətdə həyata keçirdiyi siyasi-inzibati islahatlar və onların hakim sinfin mənafelərilə ziddiyyət təşkil etməsi nəticəsində hakimiyyətdən devrilib yenidən şah Abbasla əvəz olunması ilə M.F.Axundov yaşadığı cəmiyyətin liberal islahatlar üçün hələ yetişmədiyini göstərmək istəmişdir. Xalq Konstitusiyanın və demokraiyanın, despotizmin və respublikanın, monarxiyanın və tiraniyanın

siyasi hakimiyyətinin zidd mahiyyətini dərk etməli, ölkəsinin siyasi rejimini özü seçməlidir. O, «Con Stüart Milli azadlıq haqqında» məqaləsində ingilis aliminin siyasi azadlıq haqqında fikirlərinin konkret siyasi mahiyyətini açıqlayır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın ictimai həyatında canlanma və yeniləşmə hiss olunmağa başladı. Qafqazda, eləcə də Azərbaycanda mütərəqqi ziyalılar dünyada və xüsusilə Rusiyada baş verən sosial-siyasi proseslərə pozitiv reaksiya verirdilər. Azərbaycanın ümumrusiya iqtisadi bazarına cəlb olunması, iqtisadiyyatın və xüsusilə neft sənayesinin inkişafı formalaşmaqda olan milli burjuaziyanın siyasi ideyalarla mübarizə meydanına çıxmasına sosial şərait yaradırdı. Bakı tədricən Rusiyadakı siyasi hadisələrin ağırlıq mərkəzlərindən birinə çevrildikdə siyasi cəhətdən təşkilatlanmağa meylli sosial qruplar çarizmin milli və dini zülmünə qarşı milli istiqlal çağırışları ilə çıxış edir, Rusiya dövlətindən islam-türk xalqları üçün əvvəlcə muxtariyyət, sonralar isə milli müqəddərat tələb etməyə başladılar. M.F.Axundov, H.Zərdabi, N.B.Vəzirov, C.Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, S.M.Əfəndiyev, Y.B.Çəmənzəminli, Sabir, Ə.B.Haqverdiyev, N.Nərimanov kimi demokratik məfkurəli ziyalıların əsərlərində «inkişaf etdirilən respublikaları» ifadəsini işlətmişdir. Lakin bu siyasi fikirlər utopik xarakterli olduğundan həyata keçməyəcək xəyaldan başqa bir şey deyildi. N.Nərimanov mərkəzin rus-erməni agenti L.Mirzəyan kimi qatı millətçilərin əhatəsində milli məsələdə hakim rus şovinizminin siyasi mahiyyətini tənqid edirdi. V.İ.Leninə yazdığı məktubunda Azərbaycanda milli siyasətin düzgün yeridilməməsini göstərirdi.

Xalqımızın dövlətçilik və parlamentarizm tarixində ikinci respublika Azərbaycan Sovet Sosialist Respublikası (ASSR) sosial-siyasi qüsurlarına və avtoritar xüsusiyyətlərinə baxmayaraq, onun mövcudluq illəri (70 il) siyasi tariximizin ayrılmaz hissəsidir. Siyasət sahəsində hakim marksist ideologiyanın və



Kommunist Partiyasının xalqa zidd fəaliyyətinə baxmayaraq mütərəqqi ideyalar da özünə geniş yer ala bilmişdi.

Azərbaycanda kommunist rejimi siyasi fikrin azad inkişafına imkan verməmişdir. Prezident Heydər Əliyev hələ respublikaya başçılıq etdiyi illərdə mümkün qədər azad olmaq, xalqı da müstəqilliyə alışdırmaq kursunu nümayiş etdirmişdir. Milli mənafelərimiz naminə mərkəz və siyasi elita ilə yaxşı münasibətlər quraraq inzibati-amirlik rejimində Azərbaycanın inkişafına çalışmışdır. İri sənaye obyektlərinin Azərbaycanda yerləşdirilməsi, elmi və hərbi kadrların hazırlanması mərkəzin ermənipərəst qüvvələrinin təsirinə düşməməsi, hələ o dövrdə ermənilərin ərazi iddialarının qarşısını alması və s. kimi onlarla faktlar onun siyasət aləmində mühüm yer tutmasından xəbər verir. H.Əliyevin pozitiv siyasi fəaliyyəti müstəqil Azərbaycanda digər ictimai elmlərlə yanaşı siyasi sosiologiya elminin yayılmasına da imkan yaratmışdır. Hazırda Azərbaycanda siyasi-sosioloji tədqiqatlarda bu elm sahəsinin aktual istiqamətləri öyrənilir. Onlardan aşağıdakıları qeyd etmək olar: siyasət sosiologiyası, elita nəzəriyyələri, siyasi partiyalar və siyasi hərəkatlar nəzəriyyəsi, beynəlxalq münasibətlər nəzəriyyəsi, geosiyasət nəzəriyyələri, konfliktologiya problemləri və s. Azərbaycan sosioloqları elmi metodologiya problemlərini də tədqiq edirlər. Siyasi elm sahələrinin müxtəlif səviyyələrdə ümumiləşdirilməsi və sosioloji problemlərin konkret sahələrinin öyrənilməsində nəzəri, tətbiqi istiqamətlər əsas götürülür. Müqayisəli tarixi metod, empirik metod, sistemli yanaşma metodu ilə yanaşı sosioloqlar fənlərarası tədqiqat metodlarından, xüsusilə psixoloji yanaşma metodlarından da istifadə edirlər. Siyasət sosiologiyası üzrə mütəxəssislər son zamanlar sosioloji tədqiqatların metodları, siyasi hakimiyyət nəzəriyyələrini tədqiq edirlər. Azərbaycan sosioloji fikrində siyasi sosiologiyanın metodlarının siyasi hakimiyyətə keçid dövrünün tələbləri baxımından tətbiqi məsələlərinin öyrənilməsi mühüm əhə-

miyyət kəsb edir. Bu mənada siyasi sabitlik, müasir elita və hakimiyyət məsələsi; vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu, Azərbaycanın beynəlxalq siyasi və iqtisadi proseslərə inteqrasiyası, Heydər Əliyev və Azərbaycanın müstəqilliyi problemləri tədqiqatlarda önəmli yer tutur.

Sosioloji tədqiqatların intensiv aparılması bu sahədə kadr məsələsinin də həlli üçün yeni imkanlar açmışdır.

Hazırda bu problemlər araşdırılır; respublikada demokratik siyasi proseslərin obyektiv xüsusiyyətləri; cəmiyyətin ictimai həyatının transformasiyası şəraitində siyasi hakimiyyət, iqtidar və müxalifət, siyasi innovasiyalar və islahatlar, siyasi hakimiyyətin demokratikləşdirilməsi istiqamətləri, azadlıq və məsuliyyət, siyasi münasibətlərin humanistləşdirilməsi məsələləri, vətəndaş cəmiyyəti və qeyri-hökumət sektorunun və vahidlərinin çoxalması, yerli özünüidarə problemləri və s.; keçid dövrü şəraitində milli ideya və milli ideologiya problemləri, türkçülük, islamçılıq və azərbaycançılıq məsələləri, türklərin tarixi dövlətçilik ideyaları, milli-etnik proseslər və azsaylı xalqlar, millətçilik və beynəlmiləlçilik, milli diaspor və lobbi, milli-siyasi şüur və onun səviyyələri və s.; milli təhlükəsizlik və siyasi strategiya məsələləri, müasir genderologiya, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursunun prezident İlham Əliyev tərəfindən davam etdirilməsi, «Əsrin müqaviləsi», neft strategiyası, «Xəzər siyasəti, Ermənistan-Azərbaycan konflikti və onun ətrafında baş verən hadisələrin sosioloji təhlili və s. hazırda Azərbaycanda aparılan sosioloji tədqiqatlarda mühüm istiqamətdir.

Siyasi-sosiologiya ilə bizdə bir sıra tədris müəssisələri və elmi mərkəzlər məşğul olurlar. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, BDU və digər ali məktəblər, tədrislə yanaşı olaraq həm də bu sahədə elmi tədqiqatlar aparırlar. Amma bu sahədə elmi tədqiqatlar sahəsində əsas ağırlıq AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq institutunun üzərinə düşür. Burada yerinə yetirilən tədqiqatların təxminən üçdə biri siyasi sosiologiyanın payına düşür. İnstitutda «Heydər Əliyev məktəbi» fəaliyyət göstərir. Deməli, burada siyasi sosioloji tədqiqatlarla iki şöbə və bir mərkəz məşğul olur. İnstitutda keçirilən elmi konfranslarda mütəmadi olaraq Heydər Əliyev mövzusu ön plana çəkilir, bu mövzuda, məcmuələr, kitablar və məqalələr nəşr edilir. Akademik Ramiz Mehdiyevin son məqalələri ətrafında müzakirələr keçirilmişdir. (Onun materialları «Xalq qəzeti»ndə çap olunmuşdur.) Akademik R. Mehdiyev özünün bu əsərlərində ictimai elmlər, eləcə də siyasi sosiologiya elmi qarşısında mühüm vəzifələr qoymuş, bu elmin respublikanın bugünkü sosial-siyasi reallıqlarını əks etdirməli olduğunun zərurətini ortaya qoymuşdur. Siyasi sosiologiya hazırda institutda aparılan elmi tədqiqatların mühüm sahələrindən biridir.

Bu gün institutun fəaliyyətində xüsusi bir istiqamət kimi ayrılan siyasi sosioloji tədqiqatlar Cəmiyyətimizin müasir inkişaf dinamikasını özündə əks etdirərək günümüzün siyasi reallığını öyrənir. Bunlardan siyasi strateji və milli təhlükəsizlik, tarixi, politologiya və konfliktologiya, beynəlxalq siyasi proseslər, ölkə daxilində gedən sosial-siyasi proseslər və s. problemləri göstərmək olar. Siyasi sosiologiyanın bu istiqamətlər üzrə tədqiqi respublikamızın bugünkü dinamik inkişafı ilə əlaqədardır və onun gələcəkdə də öyrənilməsi zəruridir. 2009-2015-ci illərdə elmi inkişaf strategiyası proqramına görə siyasi sosiologiya elmi real həyatla, iqtidarın fəaliyyəti ilə, möhtərəm prezident İlham Əliyevin yeritdiyi konstruktiv daxili və xarici siyasət xətti ilə əlaqələndirilməlidir..

Yuxarıda deyilənləri ümumiləşdirərək demək olar ki, bu sahədəki tədqiqatların, elmi işlərin daha da genişləndirilməsi zəruridir və o, günün tələbatından irəli gəlir. Bu yönümdə bakalavr və maqistr təhsili, doktorantura yolu ilə elmi kadrların hazırlanması, dünya standartlarına uyğun gələn yeni təmayüllü elm və tədris adamlarının yetişdirilməsi respublikaya hava və su kimi lazımdır.

*Ziba AĞAYEVA*

# SİYASİ İDEOLOGİYALARIN MODİFİKASİYASI

***Açar sözlər:*** ideologiya, liberalizm, konservatizm, sosializm, dövlətçilik

Siyasi elmin vacib problemlərindən biri də uydurulmuş deyil, real ideologiyanın siyasətdə, dövlətin və digər siyasi institutların fəaliyyətində vətəndaşların siyasi şüurunun formalaşmasında, sosial-siyasi maraqların, ictimai razılığın yaranmasında və cəmiyyətdə tarazlığın saxlanılmasında, milli təhlükəsizliyin təmin olunmasında rolunun aydınlaşdırılmasıdır. Lakin göstərmək lazımdır ki, yalnız siyasi sfera deyil, eyni zamanda ictimai həyatın digər sahələri də ideoloji çalarlara malikdir.

İdeologiya latın sözü olub, iki söz birləşməsindən yaranmışdır: idea- ideya, obraz, anlayış, təsəvvür, loqos isə təlim, yəni ideyalar haqda təlim anlamını verir. İstənilən ideologiya müəyyən dəyərlər qrupunun əsaslandırılmasına yönəldilmişdir. Dəyərlər (azadlıq, insan hüquqları, bərabərlik, ədalət, qanun-qayda və s.) insanların siyasi həyatının vacib tərəflərini ifadə edir.

"İdeoloqiya" bir termin kimi ilk dəfə XVIII əsrin sonlarında fransız filosofu Destyut de Trassi (1751-1836) tərəfindən elmi dövriyyəyə gətirilmişdir. İdeologiyaya yanaşmanın sosialist izahına K. Marks və F.Enqelsdə rast gəlirik. Marks və Engels üçün ideologiya «yanlış şüur», sosial varlığın illüzor şəkildə qəbul edilməsi və xüsusilə "əmtəə fetişizmi"dir.

Ən yetkin formada ideologiya yalnız siyasi sahədə təzahür edir. Başqa sözlə desək, ictimai həyatın siyasi sferası ideologiya kimi bir fenomenlə də tənzim edilir. Çünki hakimiyyətin sayəsində yalnız siyasət ictimai həyatın bütün sahələrini əhatə edir. Hakimiyyətsiz isə istənilən təsir, eləcə də ideoloji,



qeyri-mümkündür. Siyasi ideologiya - cəmiyyətdə müəyyən sosial gücün hakimiyyətini reallaşdırması istiqamətində praktik fəaliyyətinin nəzəri əsasıdır. Siyasi ideologiya hakimiyyətə malik olduğundan həyatın bütün sahələrinə nüfuz edir və digər ideologiyalar öz istəyindən asılı olub, olmayaraq ona tabe olur. Siyasi ideologiya –bu və ya digər bir qrup insanın hakimiyyətə olan iddialarına və bu məqsədə nail olmaq uğrunda ictimai rəyi öz şəxsi ideyalarına tabe etdirməyə haqq qazandıran müəyyən doktrinadır. Başqa formada desək, siyasi ideologiya – müəyyən sosial qrupların maraqlarını əks etdirən ictimai ideyalar, nəzəriyyələr, təsəvvürlər sistemi olub, siyasi fəaliyyətin bu və ya digər strateqiyasını nəzərə almaqla onların hakimiyyətə olan iddiasını əsaslandırır. Siyasi ideologiya ictimai quruluşun optimal obrazını formalaşdırmağa və ona nail olmağın mümkün yol və üsullarını müəyyənləşdirməyə, sosial-siyasi davranış və fəaliyyəti məqsədəuyğun şəkildə istiqamətləndirməyə yönəldilmişdir. Tarixən müxtəlif növ siyasi ideologiyalar yaranmış, hazırda da mövcud olub və inkişaf edirlər.

Ümumiyyətlə isə siyasi ideologiya istənilən halda mənəvi ekspansionizmə meylliliyi ilə fərqlənən, siyasi və sosial inkişafın gedişinə şəxsi qrup nöqteyi-nəzərini əks etdirən korporativ şüurun müxtəlif növlərindən biridir.

XIX əsrin ortalarından başlayaraq üç əsas ideologiya formalaşmağa başlayır. Hər üç ideologiya XX əsrdə özünün çiçəklənmə dövrünü yaşayır. XX əsrin tarixi məzmunu məhz bu ideologiyaların qarşıdurması ilə izah olunur və bu yüzilliyin beynəlxalq, iqtisadi, fəlsəfi, mədəni kodunu müəyyənləşdirir. Hər üç ideologiya Modern epoxasına məxsus olub, onun ruhunu tərənnüm edir. Hər üç ideologiya bir-birinə əks olan, müxtəlif ideyalar sistemidir. Bu ideologiyalar bunlardır: liberalizm, sosialzm, faşizm.

İndi isə müasir dünyada əsas ideoloji axınların təhlili məsələsinə keçək.

Liberalizm ideologiyası. XVII əsrin sonu və XVIII əsrin əv-

vəllərində Avropada və ABŞ-da burjua inqilabları dövründə meydana gəlmişdir. Bu ideologiya burjuaziyanın siyasi ideologiyası kimi yaranmış və azadlığı prioritet dəyər kimi elan etmişdi. Başqa sözlə, liberalizmin (latın sözü olub, liberalis – azad deməkdir) əsasını fərdi hüquq, iqtisadi, siyasi və sosial azadlıq prinsipləri təşkil edir, yəni əsas məqsədi və dəyəri – şəxsiyyət azadlığıdır. Liberalizmin əsası Con Lokk, Tomas Qobbs, Adam Smit, Şarl Monteskye, İmanuil Kant tərəfindən qoyulmuşdur. Liberalizm ən geniş yayılmış ideologiyalar sırasına aid edilir. Vaxtı ilə Amerika mütəfikkiri Henri Devid Toronun özünün "Vətəndaş itaətsizliyi" əsərində qeyd etdiyi «Ən yaxşı hökumət odur ki, – ən az idarə edir» deyimi klassik liberalizmə gözəl nümunədir **(12).** Klassik liberalizmin əsas xidməti müasir demokratiyanın zəruri ideal və normaları olan konstitusionalizm, parlamentarizm və hüquqi dövlət prinsiplərinin işlənib hazırlanmasıdır. Liberalizmin əsas ideyaları bunlardır: Şəxsiyyətin özünü qiymətləndirməsi, onun hüquq və azadlığına hörmət; qanunun aliliyi, vətəndaşların qanun qarşısında bərabərliyi, cəmiyyət və dövlət qarşısında məsuliyyəti; dini dözümlülük; xalq hakimiyyəti və siyasi plyuralizm; konstitusionalizm və hakimiyyətin bölüşdürülməsi; sahibkarlıq azadlığı, iqtisadi sahədə xüsusi mülkiyyət və rəqabət; ictimai həyata dövlətin tənzimləyici təsirinin məhdudlaşdırılması: "dövlət-gecə gözətçısı" (C.Lokk) **(10).**

Klassik liberalizmin müasir modifikasiyasının xarakteristikası üçün neoliberalizm anlayışından istifadə olunur.

Neoliberalizmin əsası C. Keyns, C.Qelbreyt, Robert Dal tərəfindən qoyulmuşdur. 1929-1933-cü illərdə qərbi Avropada və ABŞ-da iqtisadi böhran zamanı C.Keyns iqtisadiyyatın əsas sahələrinə dövlət müdaxiləsini neoliberalizmin əsas prinsipi olan sosial zəmanətlərin yaradılması və inkişafının stabilləşdirilməsi məqsədilə təklif edir.

Neoliberalistlərin əsas ideyaları aşağıdakılardır: fərdin özünütənzimləməsi, yetkin vətəndaş cəmiyyəti və insan hüququ; dövlətin iqtisadiyyatı tənzimləmək, iqtisadi stabilliyi təmin etmək məqsədilə maliyyə-kredit fəaliyyəti aparmaq, cəmiyyətin hər bir vətəndaşına yaşayış minimumuna zəmanət vermək hüququ vardır; sənayenin idarəolunmasında kütlənin iştirakını stimullaşdırmaq vasitəsi kimi sənaye demokratiyasının inkişafı.



Müasir liberalizm (neoliberalizm) Qərbdə ən nüfuzlu ideologiyalardan biri hesab olunur. F.Fukuyama neoliberalizmi "XX əsrin sonunda qərb ideyasının qələbəsi" adlandırırdı. Onun fikrinə görə "Qərbin qələbəsi, qərb ideyasının qələbəsi ilk növbədə ona görə aydındır ki, liberalizmin yaşamaq qabliyyəti olan heç bir alternativi qalmamışdır" (11; c.134). Neoliberalizmin əhəmiyyətini bu qədər şişirdən müəlliflə, əlbəttə ki, razılaşmaq mümkün deyil.

Konservatizm ideologiyası (latın conservare – saxlamaq; azərb.- mühafizəkarlıq) XVIII əsrin sonu XIX əsrin ilk dövrlərində, yəni 1789-1794-cü illərdə Böyük Fransız inqilabı yolu ilə radikal siyasi dəyişikliklərə cəhdə neqativ reaksiya və liberalizmə alternativ kimi yaranmışdı. Bu dövrdə mühafizəkarlar torpaq aristokratiyasının maraqlarını ifadə edir və fransız burjua inqilabına feodalların reaksiyası kimi çıxış edirdilər.

Konservatizmin əsas prinsipi ənənəvilikdir. Konservatizmin yaradıcıları E.Berk, Lui Bonald, Jozef Mestr sosial nizamın şüurlu şəkildə dəyişdirilməsinə qarşı çıxır, bunun qeyri-təbiiliyi haqqında fikiri israrla təsdiq edirdilər. Konservativ siyasi ideologiyanın əsas dəyərləri sabitlik, xüsusi mülkiyyət və güclü dövlət olmuşdur. Mühafizəkarlar mövcud qayda-qanunun, ictimai bərabərsizliyin və xüsusi maraqların ümumi maraqlara tabe edilməsinin zəruriliyini əsaslandırırdılar. Klassik konservatizm ənənələrə sədaqət, hüquqi və əxlaqi normalara ciddi riayət edilməsi, möhkəm ailə, idarə edən elitanın hakimiyyətinin şərtsiz qəbul edilməsi kimi sosial və siyasi prioritetləri müdafiə edir. Mühafizəkarlığın əsas ideyaları bunlardır: cəmiyyət həyatının ənənəvi normaları – tərəqqinin əsas hərəkətverici qüvvəsidir; əsas dəyərlə-

ri: cəmiyyətdə qayda-qanun, dövlətin stabilliyi; cəmiyyətdə hakimiyyət peşəkar siyasətlə məşğul ola bilən siyasi elitaya məxsusdur; şəxsi mülkiyyət, bazar münasibətləri, azad sahibkarlıq- şəxsi azadlığın və sosial qayda-qanunun zəmanətidir; dövlət "sağmal inək deyil" (Edmund Berk) Yəni dövlətin həddən ziyadə himayəsi, sonda inqilab yaradır ideyalarından göründüyü kimi mühafizəkarlar varisliyin innovasiyalara münasibətdə prioritetliyini, hər şeyin təbii şəkildə qurulmuş nizamının sarsılmazlığını, cəmiyyətin ierarxikliyinin insanlardan asılı olmayaraq mövcudluğunu, ailənin, dinin və şəxsi mülkiyyətin əsasını təşkil rdən qanunauyğun əxlaq prinsiplərini müdafiə edir.

Müasir dövrdə yeni konservatizmin nüfuzunun güclənməsi gecikmiş kapitalizmə alternativ ideologiyaların çoxalmasına reaksiya; müharibədən sonrakı ictimai-iqtisadi inkişaf modelinin böhranı, postindustrial cəmiyyət şəraitində səmərəli iqtisadiyyata nail olmaq yolları probleminin kəskinləşməsi, 1973-1974-cü illərdə baş vermiş iqtisadi böhranla, Qərbi Avropada gənclərin kütləvi etiraz hərəkatları və keynsian (dövlətin istehsal münasibətlərinə müdaxiləsini əsaslandıran ideya) ideyalarının təsir dairəsinin genişlənməsi ilə şərtlənir. Neokonservatizm ailənin və dinin, sosial sabitliyin, vətəndaş və dövlət arasında qarşılıqlı məsuliyyətin, qanununa hörmətin, möhkəm dövlət nizamının və sabitliyin mənəvi prioritetliyini təklif edir. Neokonservatizm nəzəriyyəçiləri (D. Bell, Z. Bjezinskiy, N. Kristoll) həddən ziyadə demokratikləşmənin qarşısını almaq məqsədilə cəmiyyətin idarəolunmasında defisiti aradan qaldırmaq, elitizmin (dövlətin idarə olunmasında Makiavelli ideyalarını əsas götürən XX əsrdə İtaliyada yaranmış ideologiya) müdafiəsi mexanizmini modernləşdirmək, münaqişələrin tənzimlənməsi vasitələrini təkmilləşdirmək məqsədilə proqramlar hazırlamağa cəhd göstərirdilər. Eləcə də müasir konservatizmi xarakterizə edən tədqiqatçılar əvvəllər ona xas olmayan əlamətlərin: populizm və demokratiyanın yaranmasını diqqətə çəkirlər.



Real həyatda daha çox konkret fərdlərin və qruplaşmaların bu və ya digər baxışlarının nisbi üstünlüyündən asılı olaraq mühafizəkar liberallar a və liberal mühafizəkarlara təsadüf olunur. Hər iki ideologiya ifrat və mülayim formalara malikdir. Öz baxışlarında mülayim konservatizm mülayim liberalizmə, ifrat konservatizm ənənəçiliyə, ifrat liberalizm isə radikalizmlə yaxınlaşır.

Sosializm ideologiyası: Sosializm ideyasının kommunist variantı öz nəzəri əsasını XIX əsrin 50-ci illərində K.Marks və F.Enqelsin "Kommunist Partiyasının manifesti" və "Kapital və sonrakı inkişaf" (1848), V.İ.Leninin əsərlərində tapmışdır. Bu əsərlər XIX əsrin sonu XX əsrin başlanğıcında fəhlə sinifinin ümumi maraqlarının elmi ümumiləşdirilməsi və ifadəçisi kimi yaranmış, Avropa fəhlə hərəkatının radikal hissəsi üçün fəaliyyət proqramına çevrilmişdi. Bu ideologiyanın radikalizmi və ona uyğun olan siyasi cərəyan proletariat diktaturasının qurulması məqsədi ilə sosial inqilabının həyata keçirilməsinə, onun köməyi ilə xüsusi mülkiyyətin, sosial bərabərsizliyin məhvinə və hər bir fərdin azad və hərtərəfli inkişafını təmin edən sinifsiz cəmiyyətin qurulmasına yönəldilmişdi. Bu siyasi ideologiya liberalizmə və konservatizmə alternativ olaraq meydana gəlmişdir. Kommunuzmi bu ideologiyalardan fərqləndirən əsas cəhət onun radikalizmidir. Kommunistlər bərabərsizliyə əsaslanan köhnə ictimai quruluşun bütün variantlarının məhv edilməsini və sosial bərabəliyə əsaslanan yeni quruluşun yaradılmasını öz məqsədləri kimi elan etdilər. Kommunist ideologiyasının antikonservatizmi bundan ibarətdir. Marksizm-Leninizm ideologiyasının əsas ideyaları: kapitalizm, sosialist inqilabı və sosializmə keçid üçün zəmin yaradır; sosial ədalətli cəmiyyətin qurulması sinfi mübarizə, sosialist inqilabı, proletariat diktaturası və kommunist partiyası olmadan mümkün deyil; "hər kəsə qabliyyətinə görə, hər kəsə əməyinə görə" prinsipi, sosializm+dövlət mülkiyyəti+planlı iqtisadiyyatın

mövcud olduğu cəmiyyətdə fəaliyyət göstərə bilər; insanın insan tərəfindən istismardan azad olduğu şəraitdə şəxsiyyət harmonik və hərtərəfli inkişaf edə bilər; sosializm- həqiqi ədalətli cəmiyyətə, kommunizmə keçid mərhələsidir.

Öz xarakterinə görə bu ideologiya, inqilabi məqsəd və vəzifələrə: şəxsi mülkiyyətin aradan qaldırmasına, kapitalist və digər istismarçı cəmiyyətlərin aradan qaldırılmasına, istismardan azad, bərabərhüquqlu zəhmətkeşlərin sinifsiz cəmiyyət quruculuğuna istiqamətləndiyindən sol radikal ideologiyadır.

Hal-hazırda klassik kommunizmdən fərqlənən kommunist ideologiyasının müxtəlif modifikasiyaları mövcuddur. Onlardan biri XX əsrin II yarısında inlişaf etmiş Avropa ölkələrində yaranmış «avrokommunizm»dir. O ənənəvi kommunist dəyərlərinin inkarına və kommunizmin rəsmi dövlət ideologiyası olduğu SSRİ və keçmiş sosializm ölkələrinin təcrübəsinin tənqidinə əsaslanır.

Bu ideologiyanın tərəfdarları Avropanın (fransız, italyan, ispan) bir sıra ən böyük kommunist partiyaları sırasında əsas mövqe tuturdular. Onlar proletariat diktaturası qurulmasının və sosialist inqilabının vacibliyini inkar edir, islahat (parlamenti) yolu ilə sosializmə («sosializmin kapitalizmə yüksəlməsi») keçid yolunu, siyasi və ideoloji plüralizmi, qarışıq(dövlət-xüsusi) iqtisadiyyatı təbliğ edirdilər. Bu isə onların mövqelərinin sosialistlərin mövqeləri ilə yaxınlaşmasına və hətta seçki kampaniyaları (məsələn, 1981-ci ildə Fransanın kommunist və sosializm partiyaları) dövründə «sol güclərin ittifaqı»nın yaradılmasına imkan yaradırdı.

Sov.İKP SSRİ dağılana qədər bu cərəyanla aktiv ideoloji mübarizə aparırdı. Hal-hazırda Azərbaycanda nə klassik, nə də müasir kommunist partiyası fəaliyyət göstərmir.

Sosializm ideologiyasının sosial-demokratik (islahatçı) qanadı XIX əsrin son 25 ilində yaranmışdır. Əsası Edmund Bernşteyn, Karl Kautskiy, K.Renner, Lyudviq Blyum tərəfindən



qoyulmuşdur. Bu ideologiya əsasən «həmrəylik», «islahat», «plüralizm», «sosial əməkdaşlıq» kimi anlayışlara söykənir. Onun üçün siyasi demokratiyanın sosial zəmanəti məsələlərinə diqqət xarakterikdir. Sosial-demokrat ideologiyasının əsas dəyərləri qismində: azadlıq, ədalət, həmrəylik götürülür. Bunlar siyasi, iqtisadi, sosial, beynəlxalq demokratiya olmadan mümkün deyil. Sosialistlərin anlamında demokratiya- məqsəd deyil, bu yalnız əsas dəyərlərin reallaşdırılması üçün vasitədir.

Öz xarakterinə görə bu ideologiya inqilabi yoldan imtina etdiyinə və ictimai inkişafın təkamül yolunu seçdiyindən sol təmayüllüdür. Sosializm ideyası bir çox ölkələrdə (Almaniya, Fransa, İtaliya, İspaniya, İsveçrə, Yaponiya və s.) gedən ictimai-siyasi proseslərə əhəmiyyətli təsir göstərir. Avropada sosialistlər seçicilərin 30-40 faizini, bəzi ölkələrdə isə daha çox hissəsini öz ardınca apara bilir. Son iyirmi ilin müxtəlif dövrlərində isə İspaniya, İtaliya, Litva, Polşa, Yunanıstan, Macarıstan, Ukrayna kimi dövlətlərdə sosialistlər hətta seçkilərdə qalib gələ bilmişdilər.

Beləliklə, sosializm ideoloyasının iki fərqli növünün tarixi taleyi müxtəlifdir. Bir tərəfdən, «dövlət sosializmi» modelinin doqmatik marksizm sosial faciəsi, və eyni zamanda, sosial proqramların həllində sosial-demokratiyanın uğurları və müasir dövrün nüfuzlu siyasi gücünə çevrilməsi. Lakin inkişafındakı çətinliklərə və ziddiyyətlərə baxmayaraq, sosializm müasir siyasi fikirin əsas istiqamətlərindən biri kimi çıxış edir.

Göstərmək lazımdır ki, müasir dövrdə qeyd etdiyimiz ideologiyalarla yanaşı, milli ideologiyalar da xüsusi rol oynayır. Bunlara ekstremist təmayüllü sağ neokonservatizm, faşizm, anarxizm, «yaşılların» ideologiyası və s. aiddir. Bunların arasında zənnimizcə ən aktual olanı faşizm olduğundan faşizm və onun modifikasiya olunmuş forması neofaşizm ideologiyasının çözülməsinə cəhd göstərək.

Faşizm italyan dilindən tərcümədə fascio – dəstə, bağlama anlamına gətirir. Bu ideologiya liberalizmdən və mark-

sizmdən sonra XX əsrin 20-30-cu illərində İtaliyada, Almaniyada və İspaniyada on milyonlarla insanın mülkiyyətdən, işdən və mövcudluq vasitələrindən məhrum olmasına səbəb olan qlobal iqtisadi böhranın təsiri altında yaranmışdı. Böhrandan çıxış yolu kimi faşistlər dövlətin insanların ictimai və şəxsi həyatlarının bütün tərəflərini total nəzarətə götürən ideologiya təklif etdilər. Bu təşkilatın köməyi ilə onlar sinfi harmoniya və ümummilli rifahı təmin edə biləcək «yeni qayda-qanun» qurmağa söz verirdilər. Belə sosial yalan faşistlərə böhran və kütləvi yoxsulluq şəraitində yaşayan əhalinin xeyli hissəsinin dəstəyini qazanmaqda kömək etdi. Faşizmin əsas əlamətləri zorakılıq və rəhbərə sitayiş, dövlətin cəmiyyət üzərində qeyri-məhdud nəzarətinə zəruriliyin təbliğatı, bir irq və millətin digərləri üzərində üstünlüyü və hökmranlığı, milli problemlərin həllində müharibədən əsas vasitə kimi istifadə sayılır. Faşist baxışları ən çox xırda və orta sahibkarlar, həmçinin cəmiyyətdə öz mövqeyini itirmiş təbəqə içərisində geniş yayılmışdı. Faşizm ideologiyasının mərkəzində əhalinin bütün təbəqələrini vahid dövlət quruculuğu prosesi ətrafında birləşdirən "mütləq dövlət" (C.Centili) və ya "total dövlət" kimi anlaşılan "dövlət" durur. "Dövlət" burda ali dəyər kimi qəbul olunur. Faşizm ideologiyasının əsas ideyaları: rasizm, şovinizm, antikommunizm; rəhbər kultu və birpartiyalı diktatura; cəmiyyət həyatının bütün sahələrinin melitarizasiyası; demokratik hüquq və azadlıqların dəf edilməsi, zor və aqressiya siyasi hakimiyyətin təsdiqi vasitəsi kimi; dövlətin total hakimiyyəti, vətəndaşların şüuru və davranışı üzərində ciddi nəzarət.

Hal-hazırda bu ideologiya neofaşizm formasında mövcuddur. Neofaşistlər dünyanın bir çox ölkələrində leqal və ya qeyri-leqal formada fəaliyyət göstərirlər. Buna misal olaraq Almaniyada "Milli-demokratik partiya"nı, Fransada «Milli cəbhə» ni göstərmək olar. Müasir faşistlər, 20-30-cu illərin faşistləri kimi, əhali arasında millətçi, irqçi, qisasçı və militarist əhval-ruhiyyələrini qızışdırmağa çalışırlar. Onlar bir çox müəssisənin müflisləşməsi, kütləvi işsizlik və hökumətlərin siyasətinə qarşı kütləvi etirazlarla müşayiət edilən istehsalatın dövri böhranları zamanı xüsusilə fəallaşırlar. Bu ideologiyaların təhlili nəticəsində gəldiyimiz nəticə ondan ibarətdir ki, «klassik liberalizm», «neoliberalizm», «konservatizm», «neokonservatizm», "faşizm", "neofaşizm" anlayışları siyasi ideyaların dəyişən tarixi reallığa uyğunlaşmasını əks etdirsə də, bu ideyaların təməl prinsipləri tarixi inkişafın bütün mərhələlərində dəyişməz qalmışdır.

Bir qayda olaraq ideoloji proseslərin təhlili müasir cəmiyyətin mövcud vəziyyətinin dərk edilməsinə əsaslanmalıdır. Azərbaycan üçün ideoloji monizmdən, ideoloji plüralizmə keçid birmənalı şəkildə həyata keçmiş və hazırda ictimai həyatın müasir mərhələsinin fərqləndirici xüsusiyyətidir. Hazırda siyasi, ideoloji həyatın plüralizmi müasir Azərbaycan cəmiyyətinin reallığına çevrilmişdir. Azərbaycan müstəqil dövlətçilik tarixinə qədəm qoymuş, demokratikləşmə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün strateji məqsədi kimi irəli sürmüşdür. Azərbaycan Respublikasında ideoloji müxtəliflik tanındığından və heç bir ideologiya dövlət tərəfindən müəyyənləşdirilmədiyindən və ya məcburi şəkildə tətbiq olunmadığından təsadüfi deyildir ki, son Azərbaycan Konstitusiyasında ideologiyalarla bağlı bir maddə olsun belə öz əksini tapmamışdır. (1) "Azərbaycan Respublikası demokratik dövlətdir.Hüquq baxımından anayası ilə idarə olunan demokratik dövlətdə ideologiya olmamalıdır" (7;s.58).

Dövlətin hər hansı rəsmi ideologiyasının elan olunması əslində ideoloji diktaturanın qurulması demək olardı ki, bu da demokratik vətəndaş cəmiyyəti konsepsiyasına zidd olardı. Sinfi differensial ideyaların cəmində sinfi cəmiyyətin ideologiyası ictimai inkişafı tormozlandıran və sosial inkişafa kömək göstərən ideologiyalara ayrılır. Müasir dövrün üç böyük ideologiyası və onların qarışmış kombinasiyaları-konservatizm, liberalizm və kommunizm - tarixi inkişafın

müxtəlif mərhələlərində konkret cəmiyyətlərdə demokratik forma aldığı kimi, totalitar forma da ala bilər.

Azərbaycanın siyasi differensasiyası toplanmış nəzəri potensialın cəmiyyətdə baş verən proseslərə, müxtəlif sosial güclərin demokratik dəyişikliklərə cəlb olunması məsələsinin dərk olunması problemini irəli sürür. Hər şeydən əvvəl, müasir Azərbaycanda ideoloji prosesin anlaşılması, ideologiyanın əsas növlərinin xüsusiyyətləri, ilk növbədə onların təzahürlərinin siyasi forması, Azərbaycan dövlətinin rəsmi ideologiyasının siyasətin amili kimi zəruriliyinin məzmunu və mahiyyətinin araşdırılması prinsipial əhəmiyyət kəsb edir.

İdeya-siyasi spektrin strukturunda Azərbaycan cəmiyyətinin islahatlara başladığı ilkin mərhələdə ikiqütblü (kommunistlər – antikommunistlər) və konfrontasiyalı modelden çoxqütblü və əsasən də konsensusa keçidlə xarakterizə olunan mahiyyət etibarılə köklü dəyişikliklər baş verdi. Bu dövrdən Azərbaycanda "sintetik, yeniliklərə açıq olan, konstruktiv rol oynayan inkişaf ideologiyası formalaşmağa başladı" (4; s.17).

Bununla yanaşı, ideoloji spektrin yeni modelinin konturları: liberalizm- neokonservatizm-sosialzm-demokratizm aydın görünməyə başladı. Azərbaycanda "liberalizm və neokonservatizmin sintezi real sosialist və demokratik elementlərlə tamamlanan qüvvətləndirici ideologiyalar kimi, Azərbaycan üçün uğurlu ideoloji konstruksiya oldu" (4;s.19).

"Bütün bu dörd ideoloji cərəyanın müstəqil Azərbaycanın təşəkkülündə, əslində, eyni dərəcədə mühüm rol oynaması aşkardır və xüsusi sübutlar tələb etmir. Əgər bütün dörd ideologiyanın əsas tutduğu üstünlükləri maksimum qısa şəkildə müəyyənləşdirməyə çalışsaq, onda aydın olar ki, Liberalizm mülkiyyət hüququna, sosializm istehsalın nəticələrinin bölgüsünə, demokratizm özünüidarəyə, mühafizəkarlıq isə normativ qaydaya üstünlük verir" (4;s.23).

Bütün bunlarla yanaşı 1992-1993-cü illərdə hakimiyyətdə olmuş milli-demokratların milli azlıqların mənafeyinə



zərbə vuran və bununla da separatçılığa yol açan türkçülük, turançılıq kimi ideologiyaları bir növ zərərsizləşdirmək və arxa plana keçirmək, ölkənin uğurlu inkişafı, ümumi ideallar naminə, vətənpərvərlik hissi ətrafında birliyi üçün milli maraqlara söykənən ideologiyanın varlığı bir şərt kimi ön plana keçirdi. Politoloq Ə.Tağıyevin ifadəsi ilə desək "Dövlətçilik, millətçilik, demokratizm və azərbaycançılıq ideyaları türkçülük və islamçılığı (islam fundamentalizmi istisna olmaqla) özündə birləşdirən yeni bir xətt götürmək lazımdır" (6; s.30). Belə ideologiya, əsası Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçiliyimizin və ideoloji düşüncəmizin tarixi ənənələrini özündə ehtiva edən, tarixiliklə müasirliyin nəzəri vəhdəti əsasında qurulmuş və gələcəyə ünvanlanmış azərbaycancançılıq ideologiyası oldu. Həyat sübut etdi ki, Azərbaycançılıq, cəmiyyətin bütün təbəqələrini öz ətrafında birləşdirə bilən yeganə ideologiyadır. Milli ideologiyanın yaranması ideyası öz başlanğıcını 1994-cü ildən götürür. Dünya Azərbaycanlılarının 2001-ci ilin 9-10 noyabrında keçirilmiş I Qurultayında ümummilli lider Heydər Əliyev demişdir: «Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir».(2)

Azərbaycançılıq milli dövlətçilik düşüncəsi kimi XX əsrin sonlarından hazırki dövrə qədər qlobal geosiyasi və iqtisadi reallıqlar fonunda xalqın özünütəsdiqini təmin etmək, onun mənafeyini ifadə etmək qüdrətinə malik yeganə ideologiyadır. Bu ideologiyanın əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, milli-mədəni ənənələri zəminində onun əra-

zisində yaşayan bütün etnik qrupların, milli azlıqların birlik ideyası durur və bu ideya nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıları vahid xalq olaraq öz ətrafında birləşdirəcəkdir. "İdeologiyanın insanların ən yaxın mənafelərilə bağlı adi səviyyəsi özündə ictimai rəyi əks etdirən sağlamfikirliyin mövcudluğunu şərtləndirir. Məsələn, azərbaycançılıq ideologiyası liberal partiyaların ideya prinsipi kimi millətçilər tərəfindən ümumilikdə rəğbətlə qarşılanmasa da (AXC hakimiyyəti dövründə türkçülük, turançılıq azərbaycançılığı arxa plana keçirməklə separatçılığa müəyyən bəhanələr vermişdi), milli azlıqların mənafeyinə cavab verdiyinə görə az əhəmiyyətli deyil" (3;s.264). Lakin zaman bu ideologiyanın az əhəmiyyətli deyil, son dərəcə əhəmiyyətli olduğunu sübuta yetirdi. Hazırda "Azərbaycanda milli-azlıq probleminin olmaması onun milli-mənəvi dəyəridir" (7;s.67).

"İdeya-nəzəri və siyasi baxımdan «azərbaycançılıq» və neokonservatizm bir-biri ilə sıx bağlıdır. «Azərbaycançılıq» coğrafi məkan baxımından, sanki, neokonservatizmin bir hissəsi, milli şəraitdə bu ideologiyanın əlavəsidir. Çünki biz başlıca, mühüm prinsiplərin və elementlərin təhlilini əsas kimi götürdükdə, bunların daxilən vəhdətdə olduğunu görürük" (5;s.15).

Azərbaycançılıq ideologiyasının mahiyyətini bir tərəfdən dövlətçiliyin ardıcıl yüksəlişini təmin edən prinsiplər, digər tərəfdən isə bu vəzifənin məhz milli-mənəvi dəyərlərə söykənərək yerinə yetirilməsi təşkil edir. Çünki hər iki məsələ arasında sarsılmaz vəhdət, üzvi bağlılıq mövcuddur. Milli identikliyini bilməyən və özünü dərk etməyən xalqın milli müstəqilliyə nail olması sual altında olur.

"«Azərbaycançılıq» ideyasının bir neçə nisbətən müstəqil cəhəti var: əsasən antropologiya (etnologiya), etnoqrafiya, sosial psixologiya, linqvistika çərçivəsində nəzərdən keçirilən etnomədəni cəhət; sosiologiya, politologiya, cəmiyyətin sosial quruluşu haqqında digər elmlərin köməyi ilə açılan sosial-siyasi cəhət; beynəlxalq hüquq sahəsində kompleks elmi fənlər



vasitəsilə işlənib hazırlanan coğrafi- siyasi cəhət və s. Başlıcası odur ki, nəzərdən keçirilən problemin təkcə bir cəhəti çərçivəsində qapanıb qalmaq olmaz, çünki bu zaman biz «azərbaycançılıq» ideyasını, tarixən sabit və özünəməxsus hadisə kimi, ölkədə yaşayan bütün əhali qruplarının həmrəyliyini, onların qarşılıqlı əlaqəsini, sadəcə, əhatə edə bilmərik"(5; s.14).

Azərbaycançılıq həyat tərzində, əxlaqda, mədəniyyət və mənəviyyatda, ədəbiyyatda olduğu kimi dövlətimizin siyasi məfkurəsində təməl prinsiplərdəndir. Əsrlərdən bizə miras qalmış milli mənəvi dəyərlərimiz dövlətçiliyin nəinki mənəvi, həmçinin siyasi mövcudluğunun qarantı kimi çıxış edir. "Azərbaycançılıq" "özününkü" kimi "özgəninkini" də tez qavrayır, tarixin, cəmiyyətin və insanların sınağından çıxmış bütün dəyərlərə (milli və ümumbəşəri) açıq və həssasdır. Buna görə də böyük əminliklə demək olar ki, "azərbaycançılıq" azərbaycan dövlətinin uzun tarixi ərzində milli ideologiyanın vacib və zəruri tərkib hissəsi olaraq qalacaqdır" (8; s.77).

Azərbaycanın modernləşməsi və inkişafı istiqamətində azərbaycançılıq ideologiyasının rolu danılmazdır. Ölkənin müvəffəqiyyətli modernləşdirilməsi üçün – modernləşdirmənin mənəvi əsaslarının başlıca daşıyıcısı olan insan kapitalının bütün potensialı ilə hərtərəfli inkişaf etdirilməsi vacib şərtdir.

Dövlətin modernləşdirilməsi prosesi yalnız cəmiyyət həyatının iqtisadi, siyasi, sosial və mənəvi sahələrdə möhkəm əsaslara söykəndiyi halda uğurla nəticələnə bilər. Eyni zamanda qeyd etmək lazımdır ki, tarix öyrədir ki, cəmiyyət bir sistem kimi, yalnız o halda fəaliyyət göstərə bilir ki, aşağıdakı tələbləri yerinə yetirmiş olsun: adaptasiya, məqsədyönümlülük, dayanıqlılıq, inteqrasiya. Bu tələblər sosial sistemin tamlığının və tarazlığının saxlanmasının vacib şərtləridir (9;c.44).

Azərbaycanın inkişafı bütün dövrlərdə vətənpərvərliyin, milliliyin və islami dəyərlərin saxlanmasına əsaslanmışdır. Bunların hər üçü birgə azərbaycançılıq ideologiyasının mahiyyətində də əks olunmuşdur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Qanun", 2009, 99s.
2. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. 10 noyabr 2001-ci il. Files.preslib.az.)
3. İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: "Adiloğlu", 2005, 344s.
4. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. II cild.(məqalələr,çıxışlar, müsahibələr) yanvar 2002-dekabr 2006.Bakı: "XXI-Yeni Nəşrlər Evi", 2006, 672s.
5. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: "XXI əsr - Yeni Nəşrlər Evi", 2003, 248s.
6. Tağıyev Ə.M. Milli ideya və milli ideologiya: problemlər və onların şərhi. Bakı: Təbib, 2000,188s.
7. Yadigar Türkel. Azərbaycan və azərbaycançılıq. Bakı: 2003, 93s.
8. Abbasov A. Национальная идеология и формирование демократической государственности. Elmi-nəzəri jurnal. Azərbaycan Fəlsəfə və sosial-siyasi elmlər assosiasiyası. Bakı: 2009, №2(26) s.70-89
9. Зеленкова М.Ю. Социально-политические основы процесса модернизации Российского государства в начале XXI века. М.: Юридический институт МИИТа, 2004. 162с.
10. Локк С. Сочинения в 3-х томах. Т.3. Москва: «Мысль», 1988, 668с.
11. Фукуяма Ф. Конец истории. "Вопросы философии". 1990, №3, с.134.
12. Lib.ru Генри Дэвид Торо. О гражданском неповиновении.



*Tahirə ALLAHYAROVA*

# ƏN YENİ POLİTOLOJİ VƏ SİYASİ SOSİOLOJİ PARADİQMALARIN METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** siyasi elm, postmodernizm, siyasi proses, siyasi nəzəriyyələr.

Müasir Avropanın və Qərbin ən yeni sosioloji və politoloji nəzəriyyələrinin qısa panoramı ilə tanışlıq göstərir ki, metodoloji plyuralizm gerçəkliyin dərk edilməsində rasionalizmin və yalnız obyektiv sayılan metodların imkanlarının məhdudluğunu aşkara çıxarır. «Metodoloji monopoliya», hər hansı konkret metodların mütləqləşdirilməsi kimi, politoloji və sosioloji ideyaların, mövqelərin qarşıdurmasını şərtləndirməklə, bütövlükdə ictimai elmin öz predmetini daha uğurlu tədqiq etməsinə maneə yaradır.

Tədqiqat işinin bu fəslində müasir politologiyada, Qərb sosioloji fikrində "postmodern, postindustrial cəmiyyət" konsepsiyasının fövqəladə dərəcədə geniş yayılmasının səbəbləri izah edilir, onun özündə həm sosial-fəlsəfi, həm siyasi nəzəriyyənin, həm də tətbiqi sosioloji doktrinanın elementlərini əks etdirmək iddialarına diqqət cəlb edilir. Qeyd edilən nəzəriyyəyə ötən əsrin sonlarında olan təsəvvürəgəlməz maraq bir qədər səngisə də, bütün hallarda hazırda ona tədqiqatçıların daha çox müraciət etməsi, o cümlədən onun müasir siyasi sosiologiyanın da metodoloji bazasına çevrilməsinin davam etməsi təhlil edilir.

**"Postmodern, postindustrial cəmiyyət" nəzəriyyəsində çoxsaylı və çoxşaxəli siyasi-hüquqi, sosial-iqtisadi, mədəni-mənəvi amillər: cəmiyyətlərdə yeni siyasi sistemin formalaşması, demokratik quruluşa keçid, insan varlığının həyat tərzi və dünyagörüşündə baş verən pro-**

**seslər və s. bir-biri ilə çulğaşır. Bu həm də onu göstərir ki, postmodern (industrial) cəmiyyət nəzəriyyəsi, başqa nəzəri yanaşmalardan fərqli olaraq heç bir sosial-siyasi prosesi və ya hadisəni mütləqləşdirmir, özünün yeganə təhlili predmetinə çevirmir. Əksinə yarandığı dövrdən belə bir ənənə formalaşdırmışdır ki, siyasi-sosioloji tədqiqatlarda yeni yaranan bütün istiqamətləri, meylləri və cərəyanları öz əhatə dairəsinə daxil etməyi mümkün və təbii hesab edir.**

Siyasi elm Qərbdə yaranmışdır və Qərbin rasionallıq səviyyəsinə cavab verməklə həm nəzəri, həm də təcrübi baxımdan Qərb modernləşməsinin məqsədlərinə xidmət etmişdir. Siyasi elmin dünyanın bir sıra və ya bütün regionlarına yayılması, eyni zamanda həm də bu təcrübənin yayılmasının və tətbiqinin tərkib hissəsi kimi başa düşülməlidir.

Əslində isə cəmiyyətlər fərqli olduğu kimi, təbiəti deyil cəmiyyəti izah edən siyasi elmin təhlil müdəaları ölkədən-ölkəyə özünəməxsus şəkildə yeniləşir, dəyişir. Yaxud elmin funksiyalarının yalnız Qərb və ya Şərq anlamında qəbul edilməsi yanlışlıqdır. Bütün bunların nəticəsi kimi ictimai-siyasi nəzəriyyələr həm də onları təqdim edən müəlliflərin dünyagörüş və aşkar ideoloji-siyasi məzmunu ilə yüklənmiş olur.

Hər bir cəmiyyət elmin ümumuən sınaqdan çıxmış müqqəaları ilə yanaşı, özünün bənzərsiz inkişafını təhlil edə bilən siyasi elmin xüsusi tipini, inkişafa dair nümunəsini yaradır və dünyaya təqdim edir.

Retrospektiv baxış nəticəsində məlum olur ki, siyasətin sosiologiyasında da nəzəriyyə və anlayışların təkamülü baş vermiş, yeni baxışlar meydana gəlmişdir.

Hazırda postmodern nəzəriyyənin müddəalarını ciddi şəkildə təhlil edən politologiya və siyasətin sosiologiyasında yarandığı ilk vaxtlarda hakimiyyətin bölünməsi, sinfi mübarizə və siyasi fəallıq nəzəriyyələri üstünlük təşkil edirdi. XX əsrin ikinci yarısından başlayaraq, bu nəzəriyyələri "siyasi



sisitem", "sosial münaqişə", "siyasi mədəniyyət" kimi nəzəri baxışlar əvəz etməyə başladı. Bütün bu paradiqmal transformasiyanın təməlində bir tərəfdən siyasi gerçəkliyin, reallığın dəyişikliklərə uğraması, dünyanın əksər ölkələrində demokratiyay keçid prosesləri idisə, digər tərəfdən, bu reallığa dair elmi təsəvvürlərin dəyişməsi (metodoloji monizmdən plyuralizmə keçid) dururdu.

Hakimiyyət bölgüsü nəzəriyyəsi vətəndaş cəmiyyəti və dövlətin qarşıdurmasından çıxış edir, ayr-ayrı siyasi institutların vətəndaşlar üzərində səlahiyyətlərinin məhdudlaşdırılmasını məqbul hesab edirdi. Bu nəzəriyyə üzərində bərqərar olan "təmsilçi demokratik sistem" nəzəriyyəsi uzun müddət ərzində müxtəlif sosial təbəqələrin dövlət hakimiyyəti strukturları üzərində nəzarətini təmin edirdi. Lakin XX əsrin ikinci yarısının acı təcrübəsi (məsələn, Almaniyada nasistlərin hakimiyyətə gəlməsi) bu hakim nəzəriyyəyə də yenidən baxmağa vadar etdi.

Daha sonra 1956-cı ildə Amerika alimi Qabriel Almond "hakimiyyət bölgüsü" paradiqmasından "siyasi sistem" paradiqmasına keçməyi təklif etdi.

## *POSTMODERN CƏMİYYƏT NƏZƏRİYYƏSİ POLİTOLOJİ PARADİQMA KİMİ*

Müasir dövün politoloji və sosioloji nəzəriyyələri içərisində təbii olaraq yada düşən ilk nəzəriyyə postmodern nəzəriyyənin müasir ictimai humanitar elmin digər sosioloji doktrinalarından fərqli olması ilə xüsusi diqqət cəlb etdiyini görə bilərik. Əlbəttə ki, bu nəzəriyyəyə diqqətin cəlb edilməsi heç də həmin nəzəriyyənin sovet dövründəki ideoloji səbəblərdən yalançı adlandırılaraq inkar edilməsinə əks olan, yəni indi də onun mütləq və müstəsna olaraq təbliğinin aparılması mənasında başa düşülməməlidir.

Postmodernizm – XX əsrin sonlarının geniş yayılmış

ideya cərəyanlarından biri olub, Qərb sivilizasiyasının, elmi ənənələrinin və ictimai paradiqmasının böhranı ilə bağlı olmuşdur. «Post» sözünü başa çatmaqda olan modern dövrünün varisi və onu əvəzləyən mərhələ olduğunu göstərir. Postmodern-dünyagörüş kimi özünə qədərki bütün siyasi baxışları əhatə etməkə yanaşı ona yeni çalar da əlavə edir. Çünki bu yanaşmalar yaşanılan reallığı, milli transformasiya və inkişaf proseslərini adekvat əks etdirmir.

Postmodern- Yeni dövrdən başlanğıcını götürən, "modern" inkişaf yolunu başa vuran, müasir sivilizasiyanın təsviri üçün işlədilən politoloji, külturoloji vı sosioloji termindir. Bəzən onun bütün dünyada inkişaf proseslərinin izahı və istiqamətini ifadə etmək üçün tətbiq edilməsi halları da var. Postmodern dünya-modern inkişafın müəyyən mərhələsində yaranan, tam real və konkret ictimai-siyasi və iqtisadi ukladdır. O əvvəlki mərhələdən fərqli olan inkişaf paradiqmasıdır. Müəyyən məqamdan etibarən, ənənəvi cəmiyyətdən yenisinə keçid bitməsi ilə modernləşmənin bir fazası başa çatır.

Bu o deməkdir ki, siyasi inkişafın meyarları, prinsipləri və metodologiyası dəyişir. İqtisadi qloballaşma-planetar miqyasda postmodern və ya postindustrial meyarların təcəssümü deməkdir.

Postmodern nəzəriyyənin miqyası, rolu və əhəmiyyətini izah edən iki amilə diqqət yetirmək vacibdir.

**Həmin amillərdən biri budur ki,́ XX əsrin sonlarından ictimaiyyətşünaslığın, daha dəqiq deyilsə, politoloji elmin gündəliynə daxil olan «postmodern cəmiyyət nəzəriyyəsi» hələlik yeganə politoloji metanəzəriyyə qismində, Qərb sosioloji fikrində, ənənəsində sözün tam mənasında qəbul edilmişdir.**

Bunun necə baş verməsi, səbəbləri olduqca mürəkkəbdir və sistemli təhlil tələb edir. İlk növbədə onu qeyd etmək lazım gəlir ki, postmodern cəmiyyət konsepsiyası mahiyyət baxımından pozitivist nəzəriyyə ilə həmahəngdir və onun



qaynaqlarını bu gün paradoksal olaraq ən çox tənqid və təhlil etdiyi « industrial (sənaye) quruluşu»nun formalaşdığı zamanlarda axtarmaq lazımdır.

Postmodern nəzəriyyənin ideyadan bitkin elmi konsepsiyaya qədər inkişafı təbii və tədrici təkamül yolu ilə getmiş, heç vaxt ideoloji faktorların kəskin təzyiqi altına düşməmiş, həmişə azad elmi diskussiyalarla müşayiət olunmuşdur. Onu da qeyd etmək lazım gəlir ki, bu Qərbdə yaranan yeganə elmi nəzəriyyə olmuşdur ki, marksizmin elmi əhəmiyyətini nəinki inkar etmiş, əksinə onunla dərin konstruktiv dialoq aparmağa cəhd etmişdir.

Beləliklə, postmodern konsepsiyanın təbii təkamül axarında inkişafı, sonda onun müasir Qərb sosioloji fikrində fövqəladə dərəcədə geniş yayılmasını təmin edə bilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, bu nəzəriyyəni metodoloji əsaslarının təkmilləşməsi və ona hər hansı rəsmi statusun verilməsi kimi səbəblərlə bağlı olmamışdır. Postmodern nəzəriyyə, özünü Qərb sosioloji ənənəsinin digər heç bir istiqamətinə qarşı qoymamış, onları tamamilə inkar etmək yolunu tutmamış, eyni zamanda onların hamısından fərqli xüsusyyətə malik olduğu üçün tədricən əksər sosioloji nəzəriyyələrin, o cümlədən də siyasi sosiologiyanın obyektiv əsaslarından birinə çevrilə bilmişdir. Bunun bir neçə səbəbi mövcuddur.

Əvvəla, postmodern cəmiyyət konsepsiyası özündə həm sosial-fəlsəfi nəzəriyyənin, həm də tətbiqi sosioloji doktrinanın elementlərini əks etdirir. Müasir Qərb cəmiyyətlərinin tarixi dövrləşmə və təsnifatlaşdırma məsələsini onların strukturu. yeri və rolu ilə ahəngdar şəkildə bir araya gətirməyi təmin edir.

İkincisi, postmodernizmin yaradıcıları onun formalaşan yeni cəmiyyətlərdə gedən prosesləri-texniki tərəqqi, elmi və texnoloji nailiyyətlər kimi anlayışlarla ifadə edir ki, bu da XX əsrin ikinci yarısında olduqca doğru yanaşma olmuşdur. Belə ki, həmin dövrdə nəinki sosiologiyada, həm də ictimai şüur-

da, dünyagörüşdə elm, təhsil və texnoloji tərəqqi məsələləri getdikcə yüksək yer tutmağa başlayırdı.

Üçüncüsü, postmodern doktrina lap əvvəlindən cəmiyyətlərin «kapitalist» və «sosialist» adlandırılaraq bölünməsi kimi mövqeləri kəskin tənqid etməyə başlamışdı. Bu nəzəriyyəyə görə, həmin bölgü mahiyyəti əks etdirmir. XX əsrin 90-cı illərində kommunist rejimlərin çökməsi də həmçinin bu yanaşmanın doğruluğunu təsdiq etdi və yeni yaranan müstəqil ölkələrdə postindustrializmin tərəfdarlarının, nümayəndələrinin sayı durmadan artmağa başladı.

Nəhayət, dördüncü səbəb, postmodern dövlətlər sırasına daxil olmaq istəyən ölkələrdə baş verən proseslərin mürəkkəbliyi ilə şərtlənmişdir. Məlum olur ki, postindustrial dövlətlər səviyyəsinə çatmağın yolları və modelləri, üsulları, mexanizmləri və s. baxımından fövqəladə dərəcədə çoxçalarlıq mövcuddur. Bu proseslər dünyanı postindustrial və qalan ölkələrə bölünməsini aşkar etdi.

Beləliklə, bu nəzəriyyəyə ötən əsrin sonlarında olan təsəvvürəgəlməz maraq bir qədər səngisə də, bütün hallarda hazırda da tədqiqatçıların daha çox müraciət etməsi, o cümlədən müasir siyasi sosiologiyanın da təbii metodoloji bazasına çevrilməsi davam etməkdədir.

Postmodern nəzəriyyənin əhəmiyyətini izah edən amillərdən ikincisi onunla şərtlənmişdir ki, konsepsiyanın inkişafının bu cür gedişatı onun təməl prinsipləri ilə nəinki ziddiyyət təşkil etmir, əksinə, bilavasitə mahiyyətindən irəli gəlir.

Texnoloji inkişaf, elmə və biliyə əsaslanan cəmiyyət və s. məqamlar-postindustrial cəmiyyət nəzəriyyəsinin mahiyyətini yalnız bunlar təşkil etmir. Burada çoxsaylı və çoxşaxəli siyasi-hüquqi, sosial-iqtisadi, mədəni-mənəvi amillər: cəmiyytlərdə yeni siyasi sistemin formalaşması, demokratik quruluşa keçid, insan varlığının həyat tərzi və dünyagörüşündə baş verən proseslər və s. bir-biri ilə çulğaşır. Bu həm də onu göstərir ki, postmodern cəmiyyət nəzəriyyəsi, başqa



nəzəri yanaşmalardan fərqli olaraq heç bir sosial-siyasi prosesi və ya hadisəni mütləqləşdirmir, özünün yeganə təhlili predmetinə çevirmir. Əksinə, yarandığı dövrdən belə bir ənənə formalaşdırmışdır ki, siyasi-sosioloji tədqiqatlarda yeni yaranan bütün istiqamətləri, meylləri və cərəyanları öz əhatə dairəsinə daxil etməyi mümkün və təbii hesab edir.

Yəqin buna görədir ki, yarandığı vaxtdan etibarən postmodern cəmiyyət nəzəriyyəsinin Qərb sosioloji fikrində ciddi rəqibi və ya alternativi formalaşa bilməmişdir. Bu da ümumilikdə dünya ictimai-siyasi, sosial-fəlsəfi fikrinin inkişaf tarixində rast gəlinməyən faktlardandır. Qeyd edilən səbəbdəndir ki, hazırda bir çox tədqiqatçılar «yeni postindustrializm dalğasının» yaranmasını vurğulayırlar. Bu dalğanın nümayəndələri postmodern nəzəriyyənin ya metodoloji prinsiplərini tətbiq edir, ya da yaşadıqları konkret cəmiyyətlərdə baş verən prosesləri tədqiq edərkən, onu daha da inkişaf etdirməyə çalışırlar.

Bütövlükdə isə nəzəriyyəyə marağı tədqiqatçıların fikrinə görə bir sıra amillər və problemlər şərtləndirir. Buraya-yeni şəxsiyyət tipinin formalaşması, insanın məqsəd və motivlərinin dəyişməsi, dəyərlər oriyentasiyasının mahiyyətində baş verən dəyişikliklər, qlobal siyasi xəritədə güc mərkəzlərinin münasibəti, qlobal ekoloji problemlər və s. daxildir. Bu da bəhs edilən nəzəriyyənin XXI əsrə qədəm qoyan bəşəriyyətin inkişaf meyllərini və problemlərini daha səmərəli həll etməyə imkan verir.

*Habil HƏMİDOV*

## MÜASİR SİYASİ ELM VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** siyasi elm; mərhələ; sivilizasiya, istiqamət, müasir.

Müasir siyasi elmin inkişaf istiqamətlərini araşdırarkən bəllı oldu ki, bu prosesdə siyasi elm istər-istəməz digər elmlərin əsas elementləri ilə əlaqəyə girmək zərurətində qalır. Nəticədə siyasi elmin də digər elmlər sisteminə inteqrasiyası başlayır ki, bu da koordinasiyalı sistemin yaranmasını təmin edir.

Koordinasiyalı sistem isə müasir siyasi elmin daha mütərəqqi inkişaf istiqamətlərini müəyyənləşdirməkdə və onun gələcək inkişafının perspektivli olmasında yardımçı rol oynayır. Yəqin ki, siyasi elmin iqtisadi, ictimai, humanitar, texniki və s. elmlər sisteminə inteqrasiyası olmasaydı, bu gün Qərbin, Şərqin və digər bölgələrin dövlətlərinin yüksək inkişafından danışa bilməzdik. Deməк müasir siyasi elmin inkişafı çeşidli quruluşa və sistemlərə malik ölkələrin inkişaf istiqamətlərini düzgün müəyyənləşdirməkdə bir növ kompas rolunu oynaya bilər.

Müasir siyasi elmin inkişaf istiqamətlərindən danışarkən və onun təhlilini verməyə çalışarkən ilk olaraq ABŞ-ın adını çəkmişiksə hesab edirik ki, düzgün seçim etmiş olarıq. Qərb dünyasının müasir siyasi elminin tədqiqi göstərir ki, əksər inkişaf etmiş dövlətlərin bu istiqamətindəki müsbət nəticələri, araşdırmalarındakı uğurlar əsasən Amerika siyasi institutlarının tədqiqat metodları və obyektlərindən qaynaqlanır. Həqiqətən də ABŞ-ın siyasi araşdırmaları sahəsində böyük təcrübəsi vardır. Məhz bu baxımdan həmin təcrübəyə istinadən ümumən müasir siyasi elmin köməkçi faktor və elementlər nəzərə alınmadan onun bir neçə əsas istiqamətini müəyyənləşdirmək olar. Bunları aşağıdakı kimi qruplaşdırmaq mümkündür: Siyasi elmin müqayisəli tədqiqi; Beynəlxalq problemlər konteksində elmi-siyasi araşdırmalar; Şərq və Qərb münasibətləri müstəvisində müasir siyasi elmi araşdırmalar; ictimai rəyin dinamik inkişafı konteksində elmi-siyasi təhlil və s. Göründüyü kimi müasir siyasi elmin inkişaf istiqamətlərini qruplaşdırarkən dörd əsas istiqamət götürüldü və sonrası açıq saxlanıldı. Çünki bizim fikirlərimizə alternativ olan fikirlər və qənaətlər olarsa, onlar üçün də araşdırma obyektləri müəyyən etmək imkanı yaransın.



Birinci inkiçaf istiqaməti kimi qəbul edilən müddəanın məzmunundan göründüyü kimi bu mərhələdə müxtəlif obyektlər üzrə aparılan araşdırmaların nəticələrinin müqayisəli təhlilini aparmaq təyinatı verilir. Təbii olaraq bu yanaşma və metod digər elm sahələrindəki mövcud olan metodologiyaya uyğundur. Demək müasir siyasi elm də digər elmlərlə müqayisədə eyni metod və metodologiyalara uyğun şəkildə seçilmiş obyektləri tədqiq edir.

İkinci inkişaf istiqaməti kimi qəbul edilən müddəanın məzmunundan bəlli olur ki, burada əsas məsələ ayrı-ayrı dövlətlərin sivilizasiya və qlobal iqtisadi inkişaf müstəvisində bir-birindən asılılığının problem kimi araşdırmaqdan ibarətdir. Biz qismən də olsa bu məsələyə əvvəldə təhlil verməyə çalışmışıq. (Gələcək tədqiqatlarımızda problemi daha geniş formada təhlil edərək gəldiyimiz qənaətlərimizi təqdim edəcəyik- H.H.).

Üçüncü istiqamətdə müasir siyasi elmin qarşısında daha aktual problemlərin həllini tədqiqat obyektləri kimi qoyulur. Burada məsələnin görünən tərəfi çox ədalətli təsir bağışlayır. Yəni, bu ilkin görünüş sivilizasiyalı xarakter elementlərinə malik olsa da, onun görünməyən elementlərinin məqsədləri daha mürəkkəbdir. Yaxşı olar ki, fikrimizi xoşməramlı siyasi gedişlərə yönəldək. Bəllidir ki, XIX əsrin axırı - XX əsrin əvvəllərində dünyada baş verən proseslər yeni dövlətlərin yaranmasına səbəb oldu. Yeni yaranan həmin ölkələr isə təbii olaraq tarixi qanunauyğunluqlara əsasən sivil dövlət

kimi formalaşmaq üçün müxtəlif mərhələlərdən keçməli idi. Məhz həmin mərhələləri keçmək üçün bəzi çətinliklərin yaranmasını hər bir avtoritar rejimli keçid dövrünü yaşayan ölkələr üçün təbii sayıla bilər. Bax, belə məqamlarda inkişaf etmiş, təkmil xarici siyasət konsepsiyasına malik bəzi ölkələr yenicə müstəqillik əldə etmiş bu ölkələrə yardım göstərmək adı ilə strateji maraqlarına əsaslanan siyasətlərini yeritməyə başlayırlar. Belə ki, Qərb və Şərq kontekstində müasir siyasi elmi araşdırmalar göstərir ki, həyata keçirilən prosesdə ədalətli xoşməramlı məqamlarla yanaşı, ilk baxışdan görünməyən niyyətlər də vardır. Yəni bunlardan biri odur ki, obyekt kimi müəyyənləşdirilmiş həmin ölkələrin digər dünya dövlətləri ilə münasibətlərini qeyd olunan güc mərkəzləri diktə etməyə cəhd göstərirlər. Bu isə istər Şərq, istərsə də Qərbin bəzi dövlətlərini asılı vəziyyətə salır ki, nəticədə onlar dünya birliyinin bərabərhüquqlu üzvləri kimi beynəlxalq hüquqa uyğun olaraq ikitərəfli münasibətlərini qura bilmirlər. Qeyd olunanlar problemin çoxsaylı obyektlərindən çox cüzi bir hissədir. Məhz bunları kompleks halda tədqiq etmək, müasir siyasi elmin inkişaf istiqamətlərindən biri kimi zəruridir və onun qarşısında həlli vacib məsələlərdən olan strateji mahiyyət daşıyır.

İctimai rəyin dinamik inkişafı konteksində elmi-siyasi təhlil istiqamətinin məqbul variant kimi qəbul edilməsi dördüncü variant olaraq nəzəri məsələlərin araşdırıllmasına geniş imkanlar açır. Yəni, müasir siyasi elmi araşdırmalar prosesində müqayisəli nəzəri təhlillərin, tədqiqatların aprobasiyadan keçirilməsi və s. metodların tətbiqi baxımından problemin nəticələrinin dəqiqləşdirilməsi müstəvisində burada geniş manevr etmək imkanları vardır. Bu isə o deməkdir ki, müasir siyasi elmin tədqiqatları bir növ hərtərəfli şəraitləri olan elmi laboratoriyalara malikdirlər.

Qeyd etmək lazımdır ki, ictimai rəyin formalaşdırılması hər bir dövlətin güc mərkəzinin məqsədlərinin həyata



keçrilməsində mühüm vasitələrindəndir. Çünki hansısa bir məqsədə çatmaq üçün ilk növbədə bu istiqamətdə fəaliyyətə başlamaq üçün və yaxud baş verə biləcək hadisənin sonunda dünyanın qınaq obyektinə çevrilməməsindən ötrü qabaqcadan özünü müdafiə xarakteri daşıyır. Daha dəqiq desək, insan hüquqlarının pozulması, ərazilərin zəbt edilməsi, təcavüz faktlaru, qanunsuz olaraq müstəqil dövlətlərin daxili işlərinə müdaxilə və s. məsələlərdə haqlı olduqlarını əsaslandırmaq baxımından ictimai rəy ən etibarlı vasitələrdən biridir. Bu prosesin bir nümunəsi kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müstəvisində nümunə kimi məsələyə diqqətimizi yönəltməyə çalışaq. Reallıq budur ki, Qərbi Azərbaycan torpaqlarında vaxtilə qanunsuz yaradılmış Ermənistandan azərbaycanlıların mərhələli şəkildə deportasiyası XX əsrin sonuna yaxın, yəni soydaşlarımızın dədə - baba yurdlarından zorla qovularaq çıxarılmasının sonuncu mərhələsi tamamlandı. Həmin ərəfədə dəhşətli terrror vasitələrindən istifadə edən Ermənistan ordusu eyni zamanda Azərbaycan ərazilərinə təcavüz etməyə başladı. Məhz bu cür qanunsuz əməllərinə haqq qazandırmağa çalışan erməni qəsbkarları ictimai rəyin formalaşdırılması vasitəsindən istifadə etmək yolunu seçdilər. Nəticədə onlar geniş informasiya müharibəsini paralel olaraq Azərbaycana qarşı elan olunmamış müharibə ilə eyni vaxtda aparmağa və ilkin mərhələdə özlərinin bəd niyyətinə nail oldular. Yəni, təcavüzkar Ermənistan yalan informasiyalarla azərbaycanlıları doğma dədə-baba torpaqlarından qovularaq qaçqın vəziyyətinə saldıqlarını, terrora məruz qoyduqlarını, Azərbaycan ərazilərinin işğalı faktlarını ört-basdır etməkdən ötrü nüfuzlu dövlətlərdə guya Ermənistanın bizim respublikamız tərəfindən blokadada saxlanmasına inam yaratmağa çalışdılar. Bunun nəticəsi olaraq güclü erməni lobbisinin təsir imkanları olan ABŞ Azərbaycana qarşı ədalətsiz bir qərar qəbul etdi.

Təbii olaraq belə bir qərəzli qərarın qəbulu, yəni "907-

ci Azadlığa dəstək aktının" rəsmi təsdiqi saysız-hesabsız insan itkisinə, qaçqınlara, torpaq itkilərinə məruz qalan, yenicə müstəqillik qazanmış lakin hələ milli ordusu formalaşmamış, çətin iqtisadi durumda olan keçid dövrünü yaşayan Azərbaycan üçün böyük zərbə idi. Gətirilən bu fakta əsasən demək olar ki, Azərbaycanla ABŞ arasında xarici əlaqələr bu ərəfədə yüksək səviyyədə olmasa da, dünyanın demokratik dövlət nümunəsi kimi tanınan Amerika o vaxt əsası olmayan anti-demokratik bir addım atmışdır. Nəticədə Azərbaycan Respublikası təcavüzə məruz qalmaqla yanaşı, eyni zamanda yenicə müstəqillik əldə etmiş ölkələrdən biri kimi ABŞ-ın milyonlarla dollarlıq yardımından kənarda qalmışdır (Hal-hazırda dünya demokratiyasının nümunəvi yollarından birini seçmiş Azərbaycan modernləşmə yolunu seçərək regionda birinci, MDB məkanında isə lider dövlətlərdən birinə çevrilmişdir. Yəni, respublikamız yardıma ehtiyacı olan, sərmayə qoyulan ölkədən yardım edən və sərmayə qoyan dövlətə çevrilmişdir – H.H.).

Düzdür, sonralar Azərbaycan-ABŞ münasibətləri intensiv inkişaf mərhələsinə çatdıqdan sonra həmin yardımlar digər yollarla qismən də olsa respublikamıza ayrıldı, lakin 907-ci akt hələ də ləğv olunmayıb. Burada da müasir siyasi elmin araşdırmalı olduğu bir problemin motivləri görünür. Biz müasir siyasi elmin inkişaf istiqamətlərini ümumi elmi ictimai rəyə əsasən qruplaşdırarkən üçüncü müddəaya aid fikir və mülahizələrimizi bildirərkən bəzi qeydlər etmişdik. Onlardan birinin məzmunu belə idi ki, Qərbin daima hegomonluq iddiasında olan inkişaf etmiş dövlətləri yenicə müstəqillik əldə etmiş keçid dövrünü yaşayan dövlətləri öz maraqlarına uyğun olaraq digər ölkələrlə münasibət qurmaqdan çəkindirərək öz monopolyalarında saxlamağa çalışırlar. Real vəziyyəti təhlil etməklə problemin mövcudluğu bu mənada aydın şəkildə təzahür edir. Buna Azərbaycana qarşı tətbiq edilən "907-ci Azadlığa dəstək" aktının qəbulu ilə ölkəmizin iqtisadiyyatına ümumi siyasi vəziyyətinə



mənfi təsir göstərməyə cəhd edən Qərbin təzyiqi, təcavüzkar işğalçı Ermənistanın təqsirsizliyini sübuta yetirməyə yönələn vasitə kimi dəyərləndirmək olar. Hesab edirik ki, bu eyni zamanda təcavüzkar Ermənistana dünya birliyində müsbət imic qazandırmaq kontekstində işğalçı dövlətə müsbət mənada yaxşı ictimai rəy formalaşmasına hesablanmış bir siyasətdir.

Digər tərəfdənsə əsas məqsədlərdən biri odur ki, Qərb Cənubi Qafqazın üç dövlətindən biri olan Ermənistanı da öz təsiri altına alsın. Lakin əks qütbün ən güclü hərbi potensialına malik, özünü keçmiş SSRİ-nin varisi elan etmiş Rusiya buna imkan vermədi və bu gün ağır iqtisadi durumda olan işğalçı Ermənistanı himayəsi altına alaraq ona maddi yardımlar göstərərək özünün monopoliyasına çevirdi. Cənubi Qafqazda Ermənistan yeganə məkandır ki, Rusiyanın hərbi qüvvələri burada yerləşdirilmişdir. Qərbin siyasi araşdırıcıları(Qeyd etmək lazımdır ki, Qərb dünyasının uzun illərdən bəri Şərqin mənəvi dəyərlərini, onun milli mentalitetini, dini dünyagörüşününü öyrənməyi məqsəd kimi qarşıya qoymaları əsasən təsir imkanlarını müəyyənləşdirməyə xidmət edir və bu vacib amillərin hələ çox əvvəllər də onlar üçün strateji mahiyyət daşıdığı bəzi alimlərimiz tərəfindən vurğulanır (H.H.) iddia etsələr də ki, Rusiyanı əks qütb hesab etmək olmaz fikri ilə də qeydsiz-şərtsiz razılaşmaq olmaz. Təbii olaraq SSRİ-nin dağılması Rusiyaya ağır zərbə vurdu. Lakin onun böyük hərbi potensialı yenə qalmaqdadır.

Yəni, Qərbin siyasi dairələrinin Rusiyanın indiki durumu barədə ictimai rəy formalaşdırmaq cəhdləri bəzi müsbət nəticələrini versə də, lakin bu ölkə əks qütbdə dayanan bir güclü təsir imkanlarına malik olan dövlət kimi hələ də qalmaqdadır. Müasir siyasi elmin inkişaf istiqamətlərindən biri kimi qəbul olunan ictimai rəyin dinamik inkişafının təsir imkanlarından daima yararlanmağa çalışan Qərbin elmi-siyasi araşdırmalar mərkəzləri davamlı olaraq, ictimai rəyin formalaşmasına daha doğrusu, strateji məqsədlərinə xidmət edəcək dinamik inkişaf

edən ictimai rəyi yaratmaq naminə müxtəlif vasitələrdən istifadəni qabaqcadan proqnozlaşdıraraq onun perspektivlərini müəyyənləşdirirlər. Bunu həyata keçirmək üçünsə əsas vasitələrdən biri kimi müxtəlif layihələrin reallaşdırılmasını zəruri hesab edirlər. Həmin layihələrin dinamik ictimai rəyin inkişafında əhəmiyyətindən savayı onların başqa həyati əhəmiyyətə malik cəhətləri də vardır. Bu layihələrin reallaşdırılması bir tərəfdən keçid dövrünü yaşayan müstəqillik qazanmış dövlətlərə texniki, iqqtisadi yardım xarakteri daşıyırsa, digər tərəfdən layihəni həyata keçirən ölkələrin, birliklərin həm siyasi, həm də iqtisadi və biznes maraqlarını təmin etməyə xidmət edir. Məsələn, Avropa İttifaqının TASİC-proqramı çərçivəsində çoxsaylı layihələrin reallaşdırılmasını buna nümunə kimi göstərmək olar.

Avropa İttifaqının həmin layihələrinə həm Avropanın, həm də Asiyanın müxtəlif dövlətləri üzv olaraq bu prosesin iştirakçısı olmaqla, özlərinin iqtisadi vəziyyətlərini, enerji resursları ilə təminatını yaxşılaşdırır, beynəlxalq münasibətlərini genişləndirir və inkişaf etmiş dövlətlər sırasına qalxmağa cəhd göstərirlər. Lakin məsələyə elmi nöqtəyi-nəzərdən yanaşdıqda məlum olur ki, Avropa İttifaqının görünən xoşməramlı istəkləri ilə yanaşı, o qədər də nəzərə çarpmayan, lakin daha çox strateji maraqlara hesablanmış siyssi məqsədləri vardır. Yəni, adı çəkilən proqram və layihələrin əsas məramlarından birini eyni zamanda Avrasiya məkanında Qərbin özləri haqda müsbət imicinin formalaşdırılması, dinamik inkişaf edən ictiami rəyin hamılıqla qəbul ediləcək səviyyəyə qaldırmaq və s. məsələlər təşkil edir. Bu da onlar üçün vacib strateji əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, Avropa İttifaqının TRASEKA layihəsi də eyni zamanda özündə Avrasiya məkanının çox dövlətlərinin birliyini yaratmaq baxımından və Qərbin demokratik dəyərlərə söykənən məqamlarını ehtiva edən vasitələrdən sayıla bilər. Məhz bu proqramda əsas məqsədlərindən biri üzv dövlətlərə texniki, iqtisadi yardım olsa da, əslində Avropa İttifaqı özünə yüksək ictimai rəy formalaşdıraraq keçmiş sovet məkanında yaranmış yeni müstəqil dövlətləri Qərbə meylləndirməkdir. Məsələn, bu proqrama Cənubi Qafqazın üç dövləti – Azərbaycan, Gürcüstan, Ermənistan, Mərkəzi Asiyanınsa 5 ölkəsi – Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Tacikistan da üzvdür. Adı çəkilən dövlətlərsə postsovet məkanında olmuş, hazırda isə MDB-yə üzv ölkələrdir. (Onlardan Gürcüstan istisnalıq təşkil edir). Bu proqram həyata keçrilməyə başlandığı andan hal-hazıra kimi həmin ölkələrə yüksək dividentlər gətirmişdi ki, nəticədə onların iqtisadi qurumları xeyli yaxşılaşmışdı. İşin kordinasiyalı təşkili isə bu ölkələrin xarici əlaqələrinin və beynəlxalq münasibətlərinin inkişafına müsbət təsiri şübhəsizdir. Lakin burada bir məsələ yenə də mühüm faktlardan biri kimi, yəni ictimai rəyin dinamik inkişafına təsirsiz ötüşmür ki, bu da MDB-yə üzv dövlətlərin Qərbə meyilliyinin artmasıdır.

Diqqətimizi daha bir məsələyə yönəltməyə çalışaq. Yəni İraq, Liviya və Misir hadisələrini yada salaq. Adı çəkilən ölkələrdə hakimiyyət dəyişikliyi etmək və onları Qərbin maraqlarına tabe etdirərək təsir dairəsində saxlamaq üçün siyasi tədqiqat mərkəzlərinin rəylərinə əsasən həmin məkanlarda kütlə şüurundan istifadə edilərək dövlət çevrilişlərinə nail olundu. Beləliklə də, siyasi araşdırmalar mərkəzilərinin müəyyən zaman kəsiyi üçün hazırladıqları müsair siyasi strategiya mərhələli şəkildə həyata keçirilməyə başlandı. Əvvəlcə ixtişaşların törədilməsi, ikincisi obyekt kimi seçilmiş ölkələrin idarəetmə sistemində ədalətsizliyin olması faktına inam yaratmaq və bu müstəvidə ictimai rəyə nail olmaq, kütlə şüuruna malik qüvvələri haqlı olduqlarına inam yaratmaqla dövlət çevrilişini təşkil etmək həmin siyasi strategiyanın əsas məqsədlərindən biri olmuşdur. Müsair siyasi elmi araşdırmaların təsir qüvvəsinin gücünü gətirdiymiz iqtibas vasitəsilə əsaslandırmaq olar.

Göründüyü kimi müasir siyasi elm və onun inkişaf is-

tiqamətləri çeşidli və çoxşaxəlidir. Məhz bu istiqamətdə elmi araşdırmaları zəruri edən əsas amillərdən biri budur. Biz də bunları nəzərə alaraq müasir siyasi elmin əsas inkişaf istiqamətlərini eyni zamanda müstəqil daxili və xarici siyasəti, Cənubi Qafqazın ən inkişaf etmiş, artıq dünya siyasətində getdikcə söz sahibi olan dövlətlərdən birinə çevrilən Azərbaycanın timsalında da problemin tədqiqatını vacib hesab etdik.

## ƏDƏBİYYAT


1. Цыганков П.А. Теория международных отношений: Учебное пособие. М., Гардарики, 2004
2. Смысл и назначение истории. М.: Республика, 1994.- с.29.
3. Y.Rüstəmov. Tarix zaman daxilində insan reallığıdır. Bakı: Təknur nəşriyyatı, 2009.
4. Quliyev A. Azərbaycan siyasi-hüquqi fikrində dqvlət idarəetməyə dair ideyalar. Bakı: Qanun nəşriyyatı, 2011.
5. Аристотелü. Соб.Сочинение. Т.1.-М., 1984.- стр.380.
6. Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı: Siyasət, 2004
7. Hantiqton S. Sivilizasiyaların toqquşması. M.: П. кз, 2005.
8. Hantiqton S. Sivilizasiyaların toqquşması. M.: П. кз, 2005.
9. Rüstəmov Y. Sivilizasiyaların qarşılıqlı münasibəti. Bakı: Səda, 2007..
10. Bzejinski ilə qiyabi sqhbət. Bakı: Təknur, 2006.
11. Hantiqton S. Sivilizasiyaların toqquşması. M.: П. кз, 2005.
12. Yenə orada. Səh. 281. Əlavə olaraq bax: "Sivilizasiyaların qarşılıqlı münasibəti. Bakı: Səda, 2007. http// www.polit. Политология основные понятие политической схеми пособия. В.А. Мелника. – Мн. Высшая школа, 2003. Герасим Панов. Политология. – Киев, 2009; Григорüевич. Современная Политология.
13. Hacıyev V. Siyasi orqanizm, Bakı: Elm, 2008. Həmidov H. Azərbaycan Beynəlxalq münasibətləri Qərbə inteqrasiya. Bakı: Təknur, 2011.
15. Beynəlxalq əlaqələr (tərcümə). Bakı, 2007.
16. Liddel Qart. Strategiya. M., 1952.
17. Bəşirov A., Həmidov H. Azərbaycanın xarici əlaqələrində sosial-siaysi münasibətlər. Bakı: Qartal, 2003.
18. Баширов А. Суфизм в Английском Востоковедении. Bakı: Elm, 2005
19. Əliyev İ. Bakıda keçirilən İkinci Beynəlxalq Humanitar Forumunun materialları
20. Əhmədov Ə."Politologiya"Bakı-2000
21. Mehdiyev R."Politologiya"-izahlı lüğət, Bakı-2007
22. Azərbaycan Respublikasının Konstitusiyası. 1995-ci il 12 noyabrın
23. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005
24. Həsənov Ə. Geosiyasət. Dərslik. Bakı, 2010

# SİYASİ SOSİOLOGİYA POLİTOLOGİYADA TƏTBİQİ ELM SAHƏSI KİMİ

*Açar sözlər:* paradiqmalar; siyasi sosiologiyasnın pronsipləri; dövlətin mənşəyi; nəzəriyyələr; milli mənafe və milli təhlükəsizlik; təbəqələşdirilmə

## *§ 1. Siyasi sosiologiyanın metodoloji əsasları. Elmi paradiqmalar və siyasi sosiologiyanın prinsipləri*

Hər hansı elmin müstəqilliyi onun metodologiyasının xüsusiyyətlərində və onun predmetinin dərk olunmasının xüsusi metodlarında ifadə olunur. Metodologiya dedikdə elmi paradiqmaların (yanaşmaların) məcmuusu, bu və ya digər mövzuların tədqiqinə aid olan prinsiplər və onun keçirilməsinin əsas metodları başa düşülür. Siyasi sosialogiyanın metodologiyası, məhz «siyasi» sosiologiyanın spesifikasının (özünəməxsusluğu) xüsusi açılışına yönəldilmiş yanaşmaları, prinsipləri, metodları qabaqcadan nəzərdə tutur. Burada «siyasi» sözünün müəyyənləşməsi xüsusi qeyd edilir.

Hər hansı elmin metodologiyasının mühüm xarakteristikası həmin elmin tədqiqinin elmi paradiqmalarıdır. «Paradiqma» sözü hər hansı elmi tədqiqatın, yaxud tədqiqati vəzifələrin aparılmasında **nümunə** rolunda götürülür.

Bugünkü gündə nisbətən daha geniş yayılmış aşağıdakı elmi paradiqmalar mövcuddur: fəlsəfi, tarixi, politoloji, sosioloji, psixoloji, struktur-funksional (memarlıq), sistem və s. «Paradiqma» anlayışı mühüm əhəmiyyət kəsb edir. Paradiqmaların əvəz olunması elmi tədqiqatlarda inqilaba səbəb olur. Bir tipə, yaxud cinsə məxsusluğunu ifadə edən tədqiqatın matrisası (kağız qəlib) olmaq paradiqmaların praktik



əhəmiyyəti deməkdir. Məsələn, əgər siyasət yeni ictimai quruluşun təsdiqi üzrə müəyyən məqsədə yönəldilmiş fəaliyyət kimi nəzərdən keçirilərsə, onda nümunə kimi keçmişin timsalında hər hansı təlim götürülür. Sosializmə əsaslanaraq marksizm baniləri əsas timsal nümunəsində ictimai mülkiyyət üzərində qurulan sosializm haqqında nəzəriyyəni götürdülər. Ictimai-mülkiyyət elə bir açar təsəvvür olundu ki, sanki onunla ədalətli cəmiyyətə bağlı olan qapıları açmaq olardı. SSRI-də praktik olaraq sosializm quruculuğu başlayan kimi onda paradiqmalar nümunəsində feodalizm cəmiyyətini öz qul halına salınmış kəndliləri ilə birgə götürmək məcburiyyətində qalmışdıq. Sosializm quruculuğuna pul tapılmadı, ilkin kapital lazım idi. «Yeni iqtisadiyyat» əsərinin müəllifi E.A.Preobrajenskinin təklifinə əsasən ilkin sosialist yığım (toplanma) nəzəriyyəsi irəli sürüldü. Mahiyyət bundan ibarət idi ki, kəndlilərdən: soxsaylı və hərəkətə az qabil olan sinifdən pul götürmək və onları torpağa bağlamaq mümkün olsun. Bu çoxsaylı yoxsul sinifdən pasport alınaraq onlar yaşadığı yerdən başqa yerlərə, ölkələrə getmək imkanlarından məhrum edildilər. Çoxlu vergi qoyulmaqla əldə edilən pullarla sosializm quruculuğuna başlanıldı.

Siyasi sosializm siyasi elmlər sırasına aid edilir və bir neçə paradiqmalara əsaslanır. Onlardan birinin siyasi sosiologiya üçün olması kifayət deyildir. Ən başlıcası **fəlsəfi paradiqmadır** (1). Dövlət, siyasət, dövlət quruculuğu haqqında görkəmli filosofların nəzəriyyələri (təlimləri) götürülür və siyasi sosiologiyanın açar müddəalarının əsaslandırılması məqsədilə yenidən nəzərdən keçirilir. Siyasi sosiologiya üçün siyasi və sosioloji paradiqmaların xüsusi əhəmiyyəti vardır. Onlardan məhz siyasi sosiaologiya anlayışı təşəkkül tapmışdır.

**Politoloji paradiqma** (2) cəmiyyətin fəaliyyətinin əsas sahəsi kimi siyasətin təşəkkülünü, inkişafın yaranma tarixini müəyyən edir. Siyasət nədir, onun predmet, prinsipləri və

həyata keçirilməsinin metodları hansılardır? Hərəkətverici qüvvələr, siyasətin fəaliyyət (işlənmə) qanunları, onun nəticələrinin qiymətləndirmə kriteriyası – bütün bu kimi suallar politoloji paradiqmaları təşkil edir. Bütün bunlar müvafiq fəsil və paraqraflarda öyrənilən məsələlərdir.

**Sosioloji paradiqma** siyasi sosiologiyanın tədqiqatında çox gərəklidir, ona görə ki, siyasi sosiologiya – konkret elmdir, hadisələrin ümumi təsvirini yox, onun səbəb-nəticə əlaqələrinin açılması, onun real ilkin şərtlərinin, imkanlarının real hərəkətverici gücünün, siyasi mexanizmlərin fəaliyyətində subyektiv amillərin və obyektiv şəraitin üzə çıxarılmasını tələb edir. Siyasi sosiologiya üçün «bu gün tezdir, sabahsa gecdir» şüarı prinsipial əhəmiyyət kəsb edir. Əhəmiyyətlisi budur ki, sosialoji analiz vaxtında keçirilsin. Siyasi qüvvələrin mübarizə mexanizmlərinin faəaliyyətə gətirilməsi siyasi məqamı əks etdirir və effekt gətirə bilən, tövsiyyələrdən fikir söyləməklə mümkün olan nəticəni ən böyük dəqiqliyi ilə göstərməyə müvəffəq olur. Sosioloji paradiqma müstəvisində olduqca effektli (təsirli) əmək sərf edən K.Marks, F.Engels, Q.B.Plexanov, V.I.Lenin, K.Kautski, M.M.Kovalevsk, P.A.Sorokin və başqaları olmuşdur. Onlar sosialist cəmiyyətinin mühüm nəzəriyyəsinin matrisasını (qəlib) təşkil etdilər.

***2. Siyasi sosiologiyanın prinsipləri*** – elmin əsaslarının şərhinə olan vacib tələbləri ifadə edir. Ictimai-elmlər sahəsinə həm də siyasi sosiologiya məxsusdur və aşağıdakı əsas prinsiplərdən ibarətdir: obyektivlik, konkret-tarixi yanaşma, təbəqələşdirilmə, sistemlilik, müəyyən şəraitlərdə siyasətin məntiqi asılılığı.

**Sosiologiya** – obyektiv elmdir. O təkcə fikir-mülahizələrlə deyil, həm də siyasi fəaliyyətinin obyektiv mexanizmləri ilə əməliyyat aparır. Tarix obyektiv şəraitdən doğan vaxtilə və bəzən həllinə başlanılan xeyli məsələləri özündə əks etdirir. Eramızdan əvvəl I əsrdə Roma hakimiyyəti silahlı romalılara güzəştə getməyə məcbur olmuşdur, çünki onlar



müharibəyə getməkdən boyun qaçırmışdılar. Səbəbi də bu idi ki, sıravi vətəndaşlara qarşı aristokratiyanın soyğunçu münasibətləri baş vermişdi.

Romalılar ilk dəfə olaraq hakimiyyətin konkret fəaliyyətinin ümumxalq müzakirəsinin girişinə nail oldular ki, bu da plebisit (ümumxalqın səs verməsi) metodla və əhalinin ümumxalq sorğusu ilə mümkün oldu. Roma xalqı və hakimiyyətinin bütün hərəkatlarında həm real siyasətdə, həm də xalq əxlaqının öyrənilməsində obyektivlik prinsipi nümayiş etdirildi.

Siyasətin bu və ya digər tədqiqat metodu konkret tarixi şəraitdən doğaraq həyata keçirilməlidir. A.Yakovlevin «Siyasi sosiologiya»sından oxuyuruq: «Görkəmli qədim yunan arxontu (məmur) Klisfen (eramızdan əvvəl 5-ci əsr) Afina sakinlərindən öyrənməklə həm də Afinanın dəniz sahilində yerləşməsi barədə öz dəlillərinə əsaslanaraq dəniz donanmasının inkişafına nail oldu. Kim güclü donanmaya malikdirsə, o dənizdə ağalıq edir, deməli, bütün antik dünyada, antik dünyanın dövlətləri də ya dəniz sahillərində, ya da adalarda yerləşmişlər. Güclü donanmaya malik olaraq Afina bütün ellin dənizlərində ağalıq edən bir dövlət olmuşdur». [4.31]

Konkret hadisələrin və siyasi proseslərin öyrənilməsində **təbəqələşdirilmə** – siyasi sosiologiyanın mühüm prinsipidir. Vətəndaşların hər bir sosial qrupu öz həyatında əsas maraqları əldə rəhbər tutur: alim, yazıçı, rəssam hər şeydən yüksək yaradıcılıq azadlığını dəyərləndirir, dəzgah qarşısında olan fəhlə tələb edir ki, bütün növbə ərzində işlə təmin olunsun, öz əməyinə görə vaxtında və tam olaraq haqqı ödənilsin. Qadınlar əməyin xüsusən, sanitar-gigiyenik şərtlərinə daha həssasdırlar. Hərbçilər, komandirdən əsgərə qarşı diqqətli münasibət, döyüşün həlledici yerində qoşunun atəş gücünün bir yerə cəmləşdirilməsi şəraitinin dəqiq məlumatlarını tələb edirlər. A.Yakovlyev yazır: «O siyasətçi nəzərəçarpan müvəffəqiyyətlərə nail olar ki, o, öz fəaliyyətində konkret sosial qrupların xüsusiyyətlərini, öz işini sosial

qrupların təbəqələşdirilməsi əsasında təşkil etməyi hesaba alır (nəzərə alır).

Hərəkətin məntiqi ardıcıllığı ilə müşaiyyət edilən hər hansı fəaliyyətə bağlı təşkilat müvəffəqiyyəti təmin edir. Lazımi inşaat materialı olmadan, tikinti meydançası hazırlamadan hər hansı qurğunun tikintisinə başlamaq olmaz. Hər bir işdə əsaslandırılmış ardıcıllığın məntiqi (qanunauyğunluq) lazımdır. Siyasi sosiologiyanın məntiqiliyi – onun siyasətinin tədqiqatında müvəffəqiyyətlərin rəhnidir (sübut, dəlil)» [4... səh.31].

Siyasətin konkret prosesləri və təzahürlərini nəzərə alaraq, bir hədəfin (obyektin) yalnız bir tərəfini deyil, hamısını, götürülmüşlərlə birlikdə qarşılıqlı əlaqə və qarşılıqlı şərtlənməyə əsasən öyrənirik. Hələ o vaxt Heraklit tələb edirdi ki, fikir əsaslı surətdə bitkinləşməlidir, daha doğrusu predmet bütün tərəflərdən, yəni bu tərəflərin qarşılıqlı əlaqələri və şərtlənmələri öyrənilməlidir. Nəzərdə tutmaq lazımdır ki, siyasi sosiologiya iqtisadiyyatla, hüquqla, iqtisadi elmlərlə və mədəniyyətlə sıx surətdə qarışaraq sanki bir-birinə keçirlər. Sosial sfera özünün geniş mənasında həm də zərurətdən yaranan siyasi sosiologiyadır.

## *§ 2. Siyasi sosiologiya dövlətin mahiyyəti, mənşəyi və funksiyaları haqqında*

Dövlət müasir fəlsəfi və politoloji ədəbiyyatda müxtəlif cür müəyyən edilir. Fəlsəfi lüğətdə dövlət haqqında aşağıdakılar söylənilir: «Bu iqtisadi cəhətdən hökmran sinfin elə bir siyasi təşkilatıdır ki, digər siniflərin müqavimətini əzmək və mühüm qaydaları qorumaq məqsədinə malikdir»[1].

Politologiyanın ensiklopedik lüğətində belə bir müəyyənlik təklif olunur: «Dövlət cəmiyyətin siyasi sisteminin əsas institutu olaraq insanların, ictimai qrupların, siniflər və assosiasiyaların münasibətlərinin, birgə fəaliyyətinin təşkil

[1] Философский словарь М. 1981, стр.77



edicisi, istiqamətləndiricisi və nəzarətedicisidir. Dövlət cəmiyyətdə hakimiyyətin mərkəzi institutunu və siyasətin bu hakimiyyətlə qüvvətli həyata keçirilməsini təmsil edir. «Yeni fəlsəfi ensiklopediya» dövləti milli, yaxud çoxmillətli birlik tərəfindən siyasi elita, monopoliya edilmiş hakimiyyətin köməyi ilə müəyyən ərazidə yaradılmış siyasi tamlıq (vəhdət) kimi şərtləndirilir. Bu hakimiyyətin yardımı ilə həmçinin zorakılığa qarşı qanuni hüquq da daxil olmaqla hüquqi intizam müdafiə edilir. Tədqiqatçı A.I.Yakovlevə görə «Sosioloji ensiklopediya» 3 müstəqil tərif (şərh) təklif edir: 1) Istehsal münasibətlərin üstünlük təşkil etdiyi müəyyən sistemi üzərində əsaslanmış, tarixən formalaşmış sinfi cəmiyyətin təşkilati üsulu, bir suveren kimi; 2) siyasi sistemin əsas institutu, açıq siyasi hakimiyyətin təşkilinin forması; 3) Milli və çoxmillətli birlik tərəfindən siyasi elita, monopoliya edilmiş hakimiyyətin köməyi ilə müəyyən ərazidə yaradılmış siyasi tamlıq (bütövlük, vəhdət) [4.. səh.186].

Əgər dövlətin mənşə tarixini yada salsaq, onda o, ümumi rəy əsasında qəbilənin başında duran ən ağıllı, güclü, cəsarətli, qətiyyətli, iradəli bir rəhbər, adətən qəbilənin atası hesab edilən ilk ibtidai cəmiyyətdən əmələ gəlmişdir. Elə bu vaxtdan da cəmiyyətin varlı və yoxsullara bölünməsi başlanmışdır.

Varlılar, qaydası üzrə ictimai həyatın bütün sahələrində praktiki olaraq ağalıq etməklə məşğul idilər. Təkcə iqtisadiyyatda deyil, təşəkkül etməkdə olan dövlət həmçinin birinci növbədə özlərinin maraqlarını, rəhbər qrupun tabeçiliyindən çıxmaq ehtimalları olanda belə yoxsulluqla münasibətdə gücünü qoruyur.

Tayfada qəbilələrin birləşməsi ilə tayfa hakimiyyəti yaranır. Burada qəbilə və tayfaların bütün üzvləri üçün məcburi tələb (ehtiyac) xarakterli qərarlar əldə edilir.

A.R.Butenko və A.V.Mironov güman edirlər ki, dövlət lap əvvəldən gücə söykənmişdir. Bəli, rəhbər və onun yaxın dairələri ibtidai qəbilə icması həyatında müəyyən qaydanın

təşkili üçün gücdən istifadə etmişdilər. Dövlət müəyyən qaydalar üzrə ibtidai icma insanların həyatının təşkilində ictimai tələbkarlıqdan doğmuşdur.

Beləliklə, tarixdə dövlətin mənşəyi ilə bağlı bir neçə nəzəriyyə yarandı. Birinci yerdə **təbii yolla** yaranmış dövləti hesab etmək olar. Məsələn, insan sürüsünün başında duran rəhbərlə – qəbilə – tayfa – tayfa ittifaqı – dövlət. Bu nöqteyi-nəzərlər müxtəlif variantlarda Y.Q.Morqanın «Qədim cəmiyyət», (1877), F.Engelsin «Dövlətin, xüsusi mülkiyyətin, ailənin mənşəyi» (1884), H.Hegelin «Hüquq fəlsəfəsi», V.I.Leskinin «Dövlət və inqilab», «Dövlət haqqında» və s. (əsərlərində) irəli sürülmüşdür.

**2. Dini-patriarxal nöqteyi-nəzərdən** dövlətin dini-ilahi mənşəyi müdafiə edilirdi. Bu nöqteyi-nəzərlər müxtəlif dini kitablarda: Incil, Tovrad, Zəbur, Quran və xristian atalarının işlərində qeydə alınmışdır (Origen, Kliment Aleksandriya, Vasiliy Velikiy, Qriqoriya Niski, A.Avqustina və başqalarının işlərində).

Dövlətin mənşəyinin müqavilə konsepsiyası olduqca geniş yayılmışdır. Bu konsepsiyaya T.Hobbs və xüsusən I.I.Russo tərəfdar idilər. Hobbs öz baxışını bununla əsaslandırırdı ki, insanlar təbiətən bir-birinə düşməndirlər və həmişə bir-biri ilə vuruşurlar və «hamıya qarşı hamının müharibələri» vəziyyəti axtarırlar» [4 səh.189]. Əgər bu qarşılıqlı tələb etmə prosesi dayandırılmasa bəşəriyyət məhv olar. Bunun olmaması üçün insanlar bir araya gəlmiş və xüsusi bir orqan – dövlətin yaranması barədə müqavilə imzalamışlar. Bununla da əxlaq normaları və hər kəsin ünsiyyətini müəyyənləşdirməklə insanların birgəyaşayış qaydalarını yaratmağa girişdilər.

Amma C.C.Russo hesab edir ki, insanlar təbiətən bir-birinə qarşı düşmən deyillər, daha doğrusu insanın təbiətinə olan baxışını ifadə edərək Hobbsun baxışına tamamən əks fikir söyləyir. Bununla belə o da dövlətin mənşəyinin müqavilə konsepsiyasını müdafiə edir. Bunun arqumentləri hansılardır? C.C.Russo yazır: «İctimai müqavilə aşağıdakı tezislərlə



**müncər** olur (nəticələnən olur): «Bizdən hər kəs ümumiyə (hamıya) mülk (əmlak, var-dövlət) ötürür..... ümumi tələblərin ali rəhbərliyi altında öz şəxsiyyətini və bütün öz gücünü hazırlayır, nəticədə hamı ilə birlikdə bizim üçün hər bir üzv bütövün bölünməz hissəsinə çevrilir». [4....səh.190].

Ayrı-ayrı şəxslərlə dərhal birlikdə müqavilə münasibətlərinə daxil olmaqla təsis edilən cəmiyyətin bu aktı şərti kollektiv tamlıq yaradır ki, bu da çoxlu üzvlər və səslərdən ibarət olaraq ümumi iclasda hesaba alınır.

İctimai müqaviləyə qoşularaq hər bir individ (fərd) özünə ikili öhdəlik götürür, yəni xüsusi şəxslərin nisbətində suveren (hakimiyyəti təmsil edən) üzv kimi və suveren olan münasibətinə görə dövlətin üzvü kimi.

Hər iki filosofun xalqı vahid tamlıq uğrunda birləşdirmək cəhdi çox aydın görünür. Lakin Napaleon puşkalarla parlamenti pərən-pərən salaraq özünü 7-ci konsul elan etməklə sadəlövhlüyə xamxəyallığa, qeyri-reallığa bənzər bir nəzəriyyəni ifadə etdi. Silahsız dövlət – bu dünyanın çoğrafi xəritəsi üzərində çəkilən bir rəsm deyildi. Bu, Napaleonun vaxtında çox düzgün siyasət idi və indi də çox düzgündür. Bax bu günümüzlə də səsləşən bu cür misallar az deyil. Napaleon dövlətin zəifliyini, heç bir gücə malik olmadığını dərk etmişdisə, ətrafındakıları birləşdirərək onu yıxmağa və yenisini qurmağa nail ola bildi, nəticədə xalqın müəyyən yaralarını sağaltmağa müvəffəq oldu. Müasir sosial həyatımızın bu və ya digər sferalarının təhlilində siyasi sosiologiya anlayışının tətbiqinə də bu meyarla yanaşmalıyıq. Cəmiyyətin və fərdlərin fəaliyyətində sosioloji biliyin əldə edilməsi üçün müəyyən informasiyaların axtarışında olmalı və dövlətimizin, cəmiyyətimizin daha da inkişafı naminə siyasi təhlillərin gündəmə gətirilməsi ilə əngəlliklərin aradan qaldırılması təşkil edilməlidir.

Dövlətin yaranmasında **istilaçılıq** nəzəriyyəsi də özünəməxsus şəkildə fərqlənir. Onun müəllifləri – L.Qumploviç və F.Oppengeymerdir. Qumploviç çoxlu imperiyaların tarixi

məlumatlarına, xalqların yerdəyişmələrinə istinad edərək təsdiq etdi ki, dövlət həmişə gəlmə azlığın yerli xalqı silah gücü ilə özünə tabe etməsinə əsaslanmışdır. O, müəyyən etdi ki, dövlət azlığın çoxluq üzərində hakimiyyətinin təşkili, müəyyən etnik qrupun və irqin alətidir. Həmçinin çoxmillətli dövlətlər mövcuddur ki, onlar da millətlərin bir-biri ilə mədəni əlaqələrinə və ünsiyyətinə baxmayaraq əsrlərlə öz xüsusiyyətlərini saxlayırlar. Dövlətin idealı, əlbəttə, hər xalqın digəri üzərində zorakılığa deyil, əksinə mədənilik, qarşılıqlı hörmət, qanunun təntənəsi, xalq rifahının məqsədlərinə dövlətin tabeliyidir. Hegel «Maraqlar birliyi» nəzəriyyəsini dövlətin əsası kimi irəli sürdü. O yazır: «Vəzifə birliyi və hüquq birliyi anlayışı ən mühüm (əlverişli) müəyyənliyin biri kimi başa düşülür. Bu da dövlətin daxili gücü ilə ilgilidir». Cürbəcür maraqların bu cür birliyində Hegel dövlətin gücü və mənasını görürdü.

**Marksist nəzəriyyə** dövlətə iqtisadi, siyasi və mənəvi cəhətdən hakim sinfin iki başlıca məqsədi güdən siyasi təşkilatı kimi baxır: 1. Məzlum (yaxud devrilmiş) sinfin müqavimətini əzmək; 2. Sosializmi, bir qədər sonra dövlətin tədricən ölüb getməsi prosesində kommunizmi qurmaq. Varlı azlığın mənafeyinin qorunması və istismarçı cəmiyyətin saxlanılması məqsədilə cəmiyyətin əmlak bölgüsü dövründə dövlət meydana çıxır. Varlı və məzlum siniflər arasında antagonizmin həllinin daha üstün tutulan variantı sülh yoludur. Lakin tarix sübut edir ki, varlı siniflər öz hakimiyyətindən könüllü olaraq güzəştə getmirlər. Buna görə də, proletariat və onun partiyası güc tətbiq etməklə hakimiyyətə yiyələnməlidir. İndiki zamanda isə məhsuldar qüvvələrin inkişafında kəskin sıçrayış nəticəsində «proletariat» anlayışı və «antogonist münasibətlər»lə bağlı fiziki əməkdən daha çox istehsalçıdan əqli əməyin tələb olunması əslində mahiyyətin dəyişilməsidir. Dövlət həmçinin sosial sferaya daha çox diqqət yetirməyi üstün tutur, o mənada ki, istehsalın yeni vasitələrinə yalnız işçinin kifayət qədər təhsilə, savada malik olması ilə yiyələnmək mümkündür.



Müasir **siyasi sosiologiyada** sintetik (ümumi nəticə çıxarmaq) nöqteyi-nəzər daha çox üstün tutuldu, o mənada ki, coğrafi, iqlim, iqtisadi, siyasi, beynəlxalq və digər amillərin çoxluğu dövlətlərin konkret tiplərinin inkişafına və meydana gəlməsinə kömək edir. Özü-özlüyündə dövlətə siyasi idarəetmənin bir vasitəsi kimi dialektikcəsinə yanaşılır. Artıq burada nə mütləq rifahdan, nə də mütləq yamanlıqdan söhbət gedə bilməz, çünki real obyektiv və subyektiv şəraitlərin gah bu, gah digər tərəfə gücləndirilməsinin qarşılıqlı təsirindən asılı olaraq **balanslaşma** həmişə dəyişilir.

Dövlət hakimiyyəti. əhalinin bütün mütləq qrup və təbəqələrin mənafelərinin ən çoxundan, yaxud ən azından qane olaraq universal xarakter daşıyır.

Dövlət bir neçə tipə bölünür. C.Lokk dövlət tipinin müəyyənləşməsinin keyfiyyət meyarı kimi Ali hakimiyyətin mövqeyini seçdi. Aristotelin öz zamanında olduğu kimi Lokk hakimiyyətin bütün növlərini **«qanunvericiliyə»**, **«icraedici orqanlara»** və **«məhkəməyə»** ayırmışdır. Ali Hakimiyyəti o qanunverici hesab edirdi. Ali Hakimiyyət hakimiyyət sistemində tutduğu mövqe ilə yanaşı, dövlət tipindən də asılıdır. Tədqiqatçı Yakovlev A.I, C.Lokkun bu xüsusdakı müddəalarını belə xarakterizə edir: «İdarə forması müəyyən məkanda yerləşən ali hakimiyyətdən asılıdır, ali hakimiyyət isə qanunvericidir. Xalq kollegial orqanı seçəndə, onda dövlət özünü **tam demokratiya** ilə təmsil edir. Cəmiyyət qanunverici hakimiyəti bir neçə seçilmiş şəxslərin və onların varislərinin, yaxud davamçıların əlinə ötürəndə, onda bu **oliqarxiya** olur, əgər bir şəxsin əlinə keçəndə – **monarxiya**; əgər bir şəxsin və onun varislərinin əlinə keçəndə – **irsi monarxiya**; əgər hakimiyyət o şəxsə yalnız ömürlük verilibsə və onda onun ölümündən sonra davamçısının yerinə keçmək hüququnu əksəriyyət özünə qaytarır, onda bu **seçkili monarxiya** olur». [4,səh.193-194].

Aristotel, Siseron, F.Akvinskiy, T.Hobbs, Ş.Monteskiye, K.Marks, F.Engels, T.Cefferson, B.Franklin, N.M.Kurbskiy, I.S.Peresvetov, M.M.Şerbatov, P.I.Pestel, A.I.Qertsen, N.Q.Çernışevski, Q.B.Plexanov, V.I.Lenin və başqaları dövlət mexanizminin digər tiplərini də sadalamışlar. Lakin meyar dəyişilməz qalır, ona görə ki, qanunverici hakimiyyətin kimlərin əlində olması əsasdır. Dövlət nəzəriyyəçilərinin böyük əksəriyyəti (dövlət mənşəyinin istilaçılıq nəzəriyyəsinə tərəfdar olanlar istisna edilməklə) öz əsərlərində dövlət islahatlarının (dəyişikliklərin) dinc yolundan bəhs edirlər. Dakin nəzəriyyədə bir cür, praktikada isə başqa cür alınır. Dövlətin inkişafında bütün böyük dəyişikliklər amansız güc tətbiq edilməklə inqilabi yolla baş vermişdir. Mütəfəkkirlərin böyük əksəriyyəti inqilabi gücün (zorun) nəyə görə dinc təkamül yolundan daha üstün tutulmasına inamlı cavab vermişlər. Bütün inqilablar o səbəbdən baş verir ki, hökümət xalqın ehtiyacına laqeyddir, onların ən zəruri tələbatlarının təmin olunmasına dövlət məmurları qayğı göstərmirlər. Qraf S.Y. Vittenin bu fikrini xüsusi lövhəciklərdə həkk etmək və çoxlu müasir dövlət xadimlərinin kabinetlərində ən görkəmli yerdə asmaq pis olmazdı. Bütün bu deyilənlərdən siyasi sosioloji təhlil əsasında nəticə olaraq belə bir qənaət əldə edilmişdir ki, dövlətin bütün inkişaf mərhələləri və tipləri bir sıra sabit, ümumtarixi əlamətlər, xüsusiyyətlər və funkasiyalarla səciyyələnir. Bu qəbildən hesab edilənlər aşağıdakılardır: bu və ya digər sosial və sinfi zəmində idarəedici qüvvələrin formalaşmasının labüdlüyü zəminində müasir dövlətlərdə siyasi partiyaların, ictimai hərəkatların, hakimiyyətin seçkili subyektlərinin hesabına cəmiyyətin demokratikləşməsi meyli genişlənir, dövlətin yeritdiyi xarici siyasətlə əlaqədar onun ərazisindən kənarda siyasi məkanının genişlənməsi zəruriliyi, ölkə və xalq qarşısında bir sıra öhdəliklərin yerinə yetirilməsi, qanunauyğun hal hesab edilir. Daxildə əmin-amanlığın və qaydaların qorunması, hakimiyyətə mənsub olan ərazinin



müdafiəsi, sosial, milli, iqtisadi münasibətləri tənzimləmək, ümumi rifah məqsədlərini və vəzifələrini nəzərdən qaçırmamaq, hamı üçün mütləq xarakter daşıyan qanunlar qəbul etmək, büdcə siyasətini həyata keçirmək, müxtəlif təyinatlı silahlı qüvvələr yaratmaq, saxlamaq və bundan istifadə etmək, xarici siyasəti həyata keçirmək və dövləti xarici ölkələrdə təmsil etmək hüquqi və s. məsələlər üzərində işləmək nümunələri dövlətlərin funksiyalarına daxildir. Beləliklə, dövlət milli və çoxmillətli qurumun yaratdığı və müəyyən ərazidə möhkəmlənən siyasi təşkilatdır. Bu siyasi təşkilatın normal işləmə dinamikası sosial həyatımızda fəaliyyətdə olan sosial fərdin, şəxslərin və sosial cəmiyyətin sosial vəziyyəti, güzəranı, yaşamaq tərzi, sosial problemlərinin kriteriyası ilə bilavasitə əlaqədardır. **Siyasi sosiologiyanın** qarşıya qoyduğu məqsəd və vəzifələrin ümumi səciyyəsindən doğan müddəalara dövlətin münasibətindən bilavasitə alınmış nəticələrə baxış keçirmək, onların yerinə yetirilməsinin kriteriyalarını əvvəlki nəticələrlə müqayisəli şəkildə yoxlamaq çox mühüm əhəmiyyət kəsb edir.

İctimai elm sahələrində təzə olmasına baxmayaraq **siyasi sosiologiya** artıq müəyyən məlum nəticələrə nail olmuşdur. Bu əsasən zəhmətkeşlərin müxtəlif qrupları arasında siyasi münasibətlərin, əhalinin ən zəruri ehtiyaclarının təmin olunması üzrə orqanların fəaliyyəti, cinayətkarlıqla, korrupsiya, iqtisadiyyatın «qaranlıq kölgəli» tərəfi ilə mübarizədə, dövlətin siyasətinə münasibətdə ictimai rəyin tədqiq olunub öyrənilməsindən asılıdır.

**Siyasi sosiologiya** bu və ya digər partiyalara, seçki kampaniyaları zamanı şəxslərə olan münasibəti öynəilməklə başqalarından fərqli olan sanki bir zond vəzifəsini ifa edir. Eyni, oxşar nəticələrin əldə olunması müxtəlif sosiologiya institutlarına heç də asan başa gəlmir. Məsələn, bunlarda fikir dağınıqlığı bəzən 20-30%-ə çatır ki, əlbəttə bu da normal qəbul edilə bilməz, ona görə ki, sosioloqların siyasi orienta-

siyalarının sorğularının nəticələrinə təsiri barədə tədqiqatın metodikasının qeyri-mütəşəkkilliyindən hələ çox söhbət gedir. Lakin bununla belə qanunverici orqanlar deputatlığa namizədlər, məmurlar, prezidentlər seçicilərin sorğularının dəlillərinə həssaslıqla yanaşırlar. [4.səh.378].

**Siyasi sosiologiyanın** bir üstünlüyü də bundadır ki, o, siyasi təşkilatlar və qanunların fəaliyyətində qabardılan sosial problemlərin aşkar olunduğu sosial sfera ilə tanış olmağı və onlarla münasibətlərin qurulması ilə bağlı müəyyən müsbət nəticələrə gəlməyi təlqin edir.

Fəaliyyətdə olan siyasətçilər (politiklər) sorğuların nəticələrini böyük həvəslə mənimsəyirlər, ona görə ki, cəmiyyət daxilində onların hamı tərəfindən tanınmaları, nüfuzları ilə bağlı reytinqləri öyrənilir. Məsələn, Rusiyanın birinci prezidenti Yeltsinin reytinqi az qala sıfıra yuvarlananda o, həyəcanla özləri tərəfindən dağıdılmış böyük dövlətin yenidən qurulması üçün bir davamçı axtarışında oldu. Eynilə Azərbaycanda da xalq, öz müstəqilliyinə qədəm qoyan ölkəsinin dağılmağa doğru getdiyini zənn edəndə böyük həyəcanla onun xilası üçün ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Rusiya üçün V.Putin layiqli davamçı oldusa, Azərbaycan üçün də H.Əliyev belə bir layiqli, həm də ki, əvəzedilməz bir rəhbər oldu.

Istər Putin, istərsə də H.Əliyev dağıntıların bərpasında, kortəbii fəlakətlərdən törənmiş ziyanların aradan qaldırılmasında, xalqın güzəranının tədricən yaxşılaşdırılmasında misilsiz xidmətlər göstərdilər. Beynəlxalq arenada hər iki prezident böyük müstəqillik nümayiş etdirdilər ki, bu da üstəlik onların reytinqinə nəzərəçarpan nüfuzlar əlavə etdi.

**Siyasi sosiologiya** xalq təsərrüfatındakı vəziyyətə də mühüm təsir göstərdi. Bütün ölkələrin, xalqın rifahının yüksəldilməsində, dövlətin müstəqilliyinin və müdafiə qabiliyyətinin möhkəmləndirilməsində **siyasi sosiologiyanın** oynadığı rol əvəzsizdir. Bu elm sahəsi sosial və milli-etnik



strukturların (quruluşların) təkmilləşdirilməsi, formalaşmasına və onların tarixi təcrübə ilə dərindən öyrənilməsinə ciddi təsir göstərir. Axır vaxtlarda hələlik çoxlu problemlərlə qarşılaşırıq. Əhalinin böyük sinfi təbəqələrə ayrılması baş vermiş, supervarlıların çox kiçik təbəqəsi və superyoxsulların çox böyük təbəqəsi yaranmışdır.

Tədris vəsaitində cəmiyyətin yaranmış qeyri-sabitliyinin gah bir, gah digər tərəfə hərəkətində müşahidə edilən meylinin dərkində, cəmiyyətin siyasi inkişafında maraqların hərəkətverici rolu haqqında əsaslı nəticə çıxarılır.

Tarixdə şəxsiyyətin və xalqın rolu haqqında məsələyə yenidən baxılır. Xalq hakimiyyəti təmsil edən müstəqil və yeganə mənbədir. Hakimiyyəti təmsil edən suverenin rolu, yaxud fikri xalqı dövlətdə olan bütün mülkiyyətin sahibi etməkdir, belə ki, şəxsi mülkiyyətçilər xalqın rolunun bu cür qabardılmasına müvafiq olaraq xalqın və dövlətin mülkiyyətinin daha etibarlı idarə olunmasına borcludur.

Şəxsiyyət tarixdə o zaman mütərəqqi rol oynaya bilir ki, artıq xalqın maraqları və gizli arzularını ifadə edir. Müstəqilliyin problemi düzgün siyasətdən, bir az qabaq nəzərdən keçirildiyi kimi ölkənin, xüsusi mülkiyyətin cəmi təsərrüfatının siyasi bazasına çevrilir.

Siyasi sosiologiyanın sferasına demokratiya, xalqın və hakimiyyətin münasibəti, siyasi şüur və mədəniyyət kimi məsələlər daxildir. Tədqiqatlar və statistik faktlar göstərir ki, bu məsələlərin çoxlu tərəfləri ya ləng həll olunur, ya da qətiyyən həll olunmur. Rusiyada, eləcə də digər MDB dövlətlərində demokratiya oliqarxiyaya çevrildi. Dünya təcrübəsinə istinadən deyə bilərik ki, irili və xırdalığından asılı olaraq hər hansı ölkədə gözlənildiyindən çox milliarder və milyonçu varsa, orada demokratiyanın geniş vüsətindən danışmaq gülünc olardı, çünki hakimiyyət belə şəraitdə uzun müddət bu cür zənginlərin, böyük dövlətli və sərvətə malik olanların əllərində qalır, sanki hakimiyyət bunlar tərəfindən

zəbt olunmuş təsiri bağışlayır. Xalq isə faktiki olaraq hakimiyyətdə gündəlik iştirakdan uzaqlaşdırılır, sanki xalqın özünüidarəsi zəif inkişaf edir. Əlbəttə, xalq deyəndə burada zəngin olmayan kütlədən söhbət gedir. Bütün bunlar bir tərəfdən xalqın hakimiyyətin fəaliyyətinə qarşı aktiv inamsızlığını, digər tərəfdən xalqın öz xüsusi taleyinə və dövlətin taleyinə qarşı misli görünməmiş passivlik və laqeydlik doğurur. Tədqiqatçı-alim A.Yakovlevin təbirincə desək «xalqın siyasi mədəniyyəti son dərəcə aşağı səviyyədə olduğu zaman o, (xalq) onun mənafeyinə toxunan bəzi qanunlardan baş açmır, yaxud bunların həlli yollarını bilmir. Bütün bunlara görə oğurluq, fırıldaqçılıq, yalan, ərzağın saxtalaşdırılması ayaq açır. İqtisadiyyatın qaranlıq mənfi tərəfinin inkişafı artır. Yüz milyon və milyardlarla büdcə vəsaiti izsiz-soraqsız yoxa çıxır». [4... səh.380]. Belə olan yerdə sual olunur: Vəziyyətin yenidən bərpası üçün xalqın çıxış yolu nədədir? Bunun üçün siyasi və vətəndaş cəmiyyətləri – institutlarının qarşılıqlı münasibətləri barədə məsələ kəskinliklə qarşıya qoyulmalıdır. Məsələn, Rusiyada bu institutlar dağınıq halda (pərakəndə) fəaliyyət göstərir. Siyasi cəmiyyət faktiki olaraq mülkiliyi öz altında basıb əzirdi. Əsasən həmkarlar ittifaqı, siyasi partiyalar, vətəndaşların çoxsaylı birliyi kimi vətəndaş cəmiyyətinin İnstitutları zəif fəaliyyət göstərir, bir-birindən aralanaraq tez-tez antisosial hadisələrə qarşı olmaqdansa öz aralarında mübarizə aparırlar.

**Siyasi sosiologiya** ilə səsləşən xalqın həmkarlar təşkilatları, siyasi partiyalar, vətəndaşların çoxsaylı birlikləri, həmçinin qeyri-hökumət təşkilatları fəaliyyətlərini artıraraq sosial sferanın dinamik inkişafında müəyyən təbəddülatların həyata keçirilməsinə nail olsalar da, bununla hələ onların dövlətin tam şəkildə yaranmış sosial problemlərinin həllinə cavabını bitmiş hesab etmək olmaz.

**Siyasi sosiologiya** hələ ki, dövlət siyasətinin qaynar (xətləri) nöqtələri üzərində cəmləşdirilir. Bunsuz görünür



keçinmək mümkün deyil. Düşünmək lazımdır ki, bu qədər xırda məramlarla (məqsədlərlə) kifayətlənmək işini ciddi elmə bağlamaq olmaq. Siyasi sosiologiya elminin məqsədi – bütün siyasətin bütövlüyüdür, bütün siyasi münasibətlərin bütövlüyü, bütün hakimiyyətin bütövlüyü, xalqın bütün qarşılıqlı münasibətlərinin və hakimiyyətinin bütövlüyüdür. Artıq **siyasi sosioloqların** öz dağınıq qüvvələrini birləşdirmək və siyasətin qlobal mövzularından yapışmaq zamanı gəlmişdir. Bu mövzulardan ən yaxını – «İnformasiya cəmiyyətində dövlətin mövqeyi»ndən ibarətdir. Nə prezident, nə hökumətin nazirləri hələ ki, ölkənin sosial-iqtisadi və siyasi inkişafın inqilabi istiqamətini həqiqətən də bütün kəskinliyi ilə hiss etmirlər. Dövlətin informasiya (məlumat) verilişləri ilə bağlı problemləri birdəfəlik görülən tədbir yox, ölkə cəmiyyətinin, dərin və çətin müalicə olunan «xəstəliyi»dir. Bunun əsasında məsələlərin bütün dairəsi üzrə bir-birinin ardınca tədqiqatlar aparmaq lazımdır. Tədqiqatlar ictimai fikri həyəcanlandırmalı və onun nəticələri dövlətin icraetmə səviyyəsinə qədər çatdırılmalıdır.

Siyasi sosiologiya öz qüvvəsini yaxud, gücünü milli, qarşılıqlı münasibətlərin, əhalinin beynəlxalq dini birliklərin problemlərinin öyrənilməsinə sərf etməli və həmçinin milli mənafe və qlobal siyasi problemlərinin düzgün mahiyyətini dərk etməklə həmin anlayışların müqayisəli təhlilinə varmalıdır. Hər şeydən qabaq «**milli şüur**», «**milli mənafe**» və «**milli təhlükəsizlik**» anlayışlarının məzmununu müəyyənləşdirmək vacibdir.

Milli şüur bütövlükdə sosial, siyasi, iqtisadi, əxlaqi, estetik, fəlsəfi, dini və digər görüşlərin məcmusu olub millət və xalqların mənəvi inkişafının məzmununu, səviyyəsini və xüsusiyyətlərini səciyyələndirir. Bu o deməkdir ki, **milli şüur** millətin, cəmiyyətin müxtəlif sərvətlərinə münasibətini, yəni onun tarixi inkişaf prosesini, əldə etdiyi nailiyyətləri və gələcəkdə həll edəcəyi məsələləri təcəssüm etdirir. Milli

şüurda mili özünüdərketmə şüuru üstünlük təşkil etməlidir.

Milli özünüdərketmə (milli mənlik şüuru) şüuruna malik olan hər kəsin millətin mənsub olduğu öz milli sərvətini artırmaq naminə yaradıcı qabiliyyəti, milli mənafeyi həyata keçirmək məqsədilə sıx birləşməsi və digər milli-etnik qruplarla (məsələn, ölkəmizdə talış, ləzgi, tat, yəhudi icması, rus və s.) uğurlu qarşılıqlı münasibətləri mühüm yer tutur.

Milli şüurun adi və nəzəri səviyyələri barədə yürütdüyümüz konkret mülahizələr **milli mənafe** anlayışının məzmununu düzgün təsəvvür etməyə real imkan yaradır. Milli mənafe spesifik əlaqələrlə, mənşə etibarilə genetik və mənəvi mədəni münasibətlərlə bağlı olan milli birliklərin və qrupların mənafeyidir. Milli mənafe bu və ya digər millətin nümayəndələrinin dildə, ailədə, dini və əxlaqi adət-ənənələrdə ifadə olunan mədəniyyət ümumiliyi əsasında birləşmək səylərini təcəssüm etdirir. [5.... səh.564].

Mülli mənafe insanın mənsub olduğu milli birliklərin üzvlərinə rəğbət bəsləməsində və məhəbbətində təzahür edir, eyni zamanda milli birliyin bütövlüyünü qoruyub saxlamağa, milli ləyaqətin qərarlaşmasına yönəlir.

İctimai inkişaf tarixində milli mənafe nadir hallarda hamar, yaxud təmiz, rahat şəkildə mövcud olmuşdur. Tarixi təcrübə göstərir ki, bu və ya digər inkişaf pillələrində xüsusilə dini müharibələr gedişində, milli azadlıq müharibələrində milli mənafelərə müxtəlif etnik-dini don geyindirilmiş və məhz bu yolla onlar reallaşdırılmışdır.

İctimai-siyasi praktika təsdiqləyir ki, ideologiya milli mənafeyi ümumi səviyyəyə qaldırmağa qadirdir. Bu baxımdan sosialist, faşist və dini-ideologiyalar xüsusilə səciyyəvidir.

Unutmaq lazım deyil ki, milli ziddiyyətlərin kəskinləşdiyi vaxt və böyük sosial-psixoloji dəyişikliklər dövründə milli mənafe başqa millətlərin mənafeyini məhdudlaşdırmaq hesabına, özünü reallaşdırmaq və əldə etdiyi müvəffəqiyyətləri möhkəmləndirmək səviyyəsində çıxış edir. Təsadüfi deyil ki,



belə halda meydana çıxan milli münaqişələr silahlı toqquşmalara və hərbi qarşıdurmaya gətirib çıxarır.

Milli mənafeyin reallaşması müəyyən zəruri amillərlə yanaşı, milli təhlükəsizlik şəraitinin qərarlaşmasını tələb edir. Milli təhlükəsizlik siyasi elmin, mühüm kateqoriyalarındandır. O, sosial təşkilatların vəziyyətini, şəxsiyyətin və cəmiyyətin mövcudluğu və inkişafının səmərəli şəraitini qoruyub saxlamaq məqsədilə həmin təsisatların təsirli fəaliyyətini səciyyələndirir. Milli təhlükəsizlik anlayışı siyasi lüğətdə ilk dəfə Amerika prezidenti T.Ruzvelt tərəfindən işlədilmişdir. 1904-cü ildə T.Ruzvelt ABŞ konqresinə göndərdiyi məktubda Panama kanalı zonasının birləşdirilməsini milli təhlükəsizlik mənafeyi kimi əsaslandırmışdır. Sonrakı illərdə bu problem Amerika politoloqlarının tədqiqatlarında mərkəzi yer tutmuşdur. Amerika alimləri «milli təhlükəsizlik» anlayışının mənbəyini «milli mənafe nəzəriyyəsində görürlər. Belə mövqe sosioloq U.Lippman tərəfindən təklif edilmişdir.

XX əsrin 80-ci illərindən başlamış ta bugünkü zamana qədər tarixə bir nəzər saldıqda məlum olur ki, siyasi sosiologiya elmi həmişə olduğu kimi, yenə də öz gücünü və qüvvəsini sözün həqiqi mənasında çox böyük miqdarda yığılıb qalan, taleyüklü iri problemlər, onların dərindən öyrənilməsi və hərtərəfli, əsaslandırılmış tövsiyyələrin təkmilləşdirilməsi üzərində cəmləşdirməyi vacib sayır. Hər hansı elm və siyasi sosiologiya elə buna görə mövcuddur ki, vaxtıçatmış ictimai problemləri öyrənsin, onlar haqqında əsaslandırılmış fikirlərini söyləsin və onların ətrafında ictimai rəyi formalaşdırsın. Elmin təşkilatçılıq funksiyasından məqsəd ondan ibarətdir ki, problemi tədqiq edərək, onun nəticələrini bütün xalqa və hakimiyyət başında duran siyasətçilərə çatdırmaqdır. İndi problemin müsbət həllinin son yekununa israrlı şəkildə nail olmaq vacibdir.

# ƏDƏBİYYAT

1. Həsən Şirəliyev, Əli Əhmədov. Politologiya. Dərslik «Təbib», 1997, 416 səh.
2. Politologiya: Ensiklopedik lüğət. Bakı, «Günəş» nəşriyyatı, 2008, 831 səh.
3. Кола Доминик Политическая социология (перевод с французского А.И.Кристаловского, О.А. Неметаева). Издательство "Весь мир" 2001, 405. стр.
4. Яковлев Александр Илиц. Учебное пособие. Политеческая социология. Москва, Издательство – торговая Коорпорация "Дашков и Ко", 2009, 384. стр.
5. Məcid Əfəndiyev. Siyasi elmin əsasları «Siyasət» nəşriyyatı, 2004. 635 səh.
6. Internet saytları www......
7. Əlikram Tağıyev. Insan və siyasət. Bakı, Təknur AMEA. «MBM». MMC-nın mətbəəsində çap edilmişdir. 2005.
8. Yadigar Turkel Politologiya. Bakı, Təknur, 2008-ci il.



*Məmmədağa SƏRDAROV*

## MÜASİR DÖVRÜN TANINMIŞ SİYASİ ELM MƏKTƏBLƏRİ

***Açar sözlər:*** cəmiyyət, hakimiyyət, siyasət, müasir, elm, məktəb.

Məlum olduğu kimi, siyasət elmi çox böyük tarixi inkişaf yolu keçmişdir. O, bir elm olaraq insanların həyatında, onların dünyagörüşünün genişləndirilməsində mühüm rol oynayır. Siyasi elm yaranandan bəri ayrı-ayrı xalqların mütəfəkkirləri və siyasi xadimlərin, görkəmli alimləri və yazıçıları bu sahədə geniş fəaliyyət göstərmiş, onunla bağlı problemlərə dair maraqlı fikirlər irəli sürmüş, umumiləşdirmələr etmiş, insanlığı düşündürən dəyərli tədqiqatlar aparmışlar (5,s.20).

Dünyada siyasət elmi inkişaf edərək o səviyyəyə çatmışdır ki, artıq bir sıra ölkələrdə milli siyasi elm məktəbləri yaranmışdır. Onların arasında ilk yaranan və hazırda ən nüfuzlu sayılan siyasi elm məktəblərindən biri **Amerika Birləşmiş Ştatlarının siyasi elm məktəbidir.** Bu məktəbin əsası ölkənin Kolumbiya Universitetində tarix və siyasi iqtisad professoru Con Berces tərəfindən 1880-ci ildə qoyulmuşdur. 1903-cü ildə təşkil edilən Siyasi Elmin Amerika Assosiasiyası üç ildən sonra "Siyasi Elmin Amerika jurnalı"nın nəşrinə başlayır. XIX əsrin sonu- XX əsrin başlanğıcında ölkədə çapdan çıxan klassik politoloji əsərlər sırasında D. Vulsinin "Nəzəri, yaxud praktiki nöqteyi-nəzərdən baxılan siyasi elm, ya dövlət",V. Vilsonun "Dövlət", V. Uilloqbinin "Dövlətin təbiətinin tədqiqi" və "Siyasi fəlsəfənin öyrənilməsi" kitablarını aid etmək olar. Amerika siyasi elmi öz inkişafının ilkin mərhələsində hüquq və tarix elmlərində mövcud olan yanaşmaların təsiri altında idi. O vaxtlar siyasi təlimlər tarixi istiqamətinin banisi U. Danninq "Siyasi nəzəriyyələr tarixi: qədim dövr və orta əsrlər", "Siyasi nəzəriyyələr tarixi: Lüterdən Montesk-

yöyə qədər", "Siyasi nəzəriyyələr tarixi: Russodan Spenserə qədər" adlanan məşhur üçcildli əsərini yazır.(2,s.21).

Keçən əsrin 20-40-cı illərində ABŞ-da siyasi elmin inkişafına Çikaqo məktəbinin banisi, görkəmli politoloq Çarlz Merriam (1874-1953) çox böyük təsir göstərmişdir. Siyasi elmin bu məktəbinin yaradılmasından əvvəl Amerika universitetlərində siyasətin tədrisi hüquq, fəlsəfə və tarix fənlərinin əsasında aparılırdı. Siyasi Elmlərin Amerika Assosiasiyasının prezidenti Ç. Merriam köhnə "mücərrəd mühakimələrdən", hüquqi və müqayisəli-tarixi metodlardan imtina etməyin labüdlüyünü əsaslandırır. Onun ən məşhur əsəri "Siyasətin yeni aspektləri" kitabıdır.

Çikaqo məktəbinin digər istedadlı nümayəndəsi H. Lassveldir (1902-1978). Alim politologiyanın o vaxta qədər qaranlıq qalan aspektlərinə tam aydınlıq gətirən 6 kitab dərc edir.

O dövrdə siyasi elmin nüfuzunun artması və ali təhsil sisteminin inkişafı ilə əlaqədar bu fənn ABŞ-ın bir çox universitetlərində tədris olunmağa başlayır. Miçiqan Universitetinin nəzdində psixoloqlar tərəfindən əsası qoyulan Sosial Tədqiqatlar İnstitutu, Kolumbiya Universiteti nəzdində sosioloqlar tərəfindən yaradılan Tətbiqi Sosial Tədqiqatlar Bürosu və Çikaqo Universiteti nəzdində fəaliyyət göstərən Milli Rəy Tədqiqat Mərkəzi kimi elmi təşkilatlar ölkənin əsas akademik mərkəzləri idi.

XX əsrin ən böyük iqtisadçıları və sosial-siyasi mütəfəkkirlərindən biri 1881-1973-cü illərdə yaşamış Lüdviq fon Mizes hesab olunur. O, Avstriya və İsveçrədə işlədikdən sonra 1940-cı ildə Amerikaya mühacirət etmişdir. L. Mizes "Klassik ənənədə liberalizm", "Bürokratiya. Planlaşdırılmış xaos. Antikapitalist mentallığı " və "Sosializm" kimi dəyərli əsərlərin müəllifidir.

ABŞ-in digər tanınmış filosofu Erik Föqelin (1901-1985) Almaniya və Avstriyada təhsil almış, müharibədən əvvəlki illərdə Vyana Universitetinin professoru olmuşdur. O 1937-ci



ildə ABŞ-a mühacirət edir. Burada o özünün ən əhəmiyyətli əsərlərini yaradır. Onların sırasında cəmiyyətin siyasi təşkilinin tarixinə həsr olunmuş fundamental 5 cildli "Nizam və tarix" əsərini xüsusi qeyd etmək lazımdır.

Məşhur politoloq, iqtisadiyyatçı və sosioloqu Avqust Fridrix Hayek (1899-1992) Avstriya və İngiltərədə yaşayıb yaratmış, 1950-ci ildən sonra isə Amerikanın Çikaqo Universitetində elmi-pedaqoji fəaliyyətini müvəffəqiyyətlə davam etdirmişdir. Hayek bazar dəyərlərini, klassik liberalizmi və fərdçiliyi müdafiə edir. O, "Köləliyə yol", "Azadlığın əsas qanunu" və digər əsərlərin müəllifidir, iqtisadiyyat üzrə Nobel mükafatı laureatıdır.

Amerikanın siyasi fikir klassiklərindən biri də Hans Morgentaudur (1904-1982). O, 20 il ərzində Çikaqo Universitetində xarici və hərbi siyasətin öyrənilməsi üzrə mərkəzə başçılıq edir.

ABŞ-da sosial elmlər sahəsində 50-ci illərdən başlayaraq böyük dönüş yaranır. Ölkə alimləri siyasi fenomenlərin sistem və struktur-funksional təhlili, siyasi-mədəni yanaşma, müqayisəli politologiya məsələləri üzərində ciddi çalışırlar. Məsələn Amerika mütəfəkkiri T.Parsonsun (1902-1979) təkamül nəzəriyyəsində industrial cəmiyyət ən yüksək mərhələyə qaldırılır, kütləvi demokratiyaya, bütün əhalinin siyasi prosesdə iştirakına üstünlük verilir. Bu illərdə R.Millsin (1916-1962) vahid hökmran – elita konsepsiyası geniş yayılmışdır (4,s.178).

Hazırki dövrdə ABŞ-nın aparıcı politoloqları sırasında H. Morgentau , H.Arendt , Q.Almond , S. Verba , C.Roulz , R. Dal , D. İston , S.Hantinqton , T. Stronq , Z. Bjezinski və başqalarının adları çəkilir.

**Böyük Britaniyada müasir siyasi elmin başlanğıcı** XIX əsrin əvvəlinə təsadüf edir. Artıq həmin əsrin sonu – XX əsrin əvvəllərində o, nüfuz qazanaraq tanınmağa başlayır. 1895-ci ildə London Universiteti nəzdində İqtisadiyyat və Si-

yasət Məktəbi yaradılır. Məktəbin yaradıcısı S. Vebbdən başlayaraq, sonrakı direktoru E. Giddensə qədər burada həm siyasi elm, həm də siyasi həyatda tanınan mütəxəssislər çalışıblar.

Burada siyasi elm məktəbinin inkişafına "Publik administrasiya", "Siyasi rüblük" və "Siyasət" kimi ixtisaslaşdırılmış jurnalların nəşr olunması güclü təkan verir. Ölkədə siyasi elmin sürətli irəliləməsində tanınmış alim H.Laskinin (1893-1950) payı çox böyükdür. O,"Suverenliyin əsasları", "Müasir dövlətdə hakimiyyət" və "Dövlət nəzəriyyədə və təcrübədə" adlı məşhur əsərlərin müəllifi kimi "dövlətin plüralist nəzəriyyəsi", "siyasi plüralizm" anlayışlarını elmə gətirib.

Böyük Britaniya siyasi elm məktəbində siyasi fəlsəfə qolu kifayət qədər güclüdür və orijinallığı ilə fərqlənir. Məsələn, məşhur, filosof, sosioloq və ictimai xadim Bertran Rassel (1872-1970) fəlsəfi təhlilin siyasət və cəmiyyətin təhlili ilə birləşdirilməsi ənənəsini yenidən canlandırır. O, hakimiyyət , siyasi rejimlər, azadlıq nəzəriyyəsi və digər son dərəcə vacib politoloji məsələləri öz əsərlərində hərtərəfli araşdırır.

Britaniya siyasi elm məktəbində neoliberalizm ideologiyası geniş yayılmışdır. XX əsrin birinci yarısı və ortalarında neoliberalizmin əsas cərəyanı keynsianlıq sayılır. Bu cərəyanın yaradıcısı bütün dünyada məşhur olan "Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi" kitabının müəllifi , ingilis alimi Con Meynard Keynsdir(1883-1946). Həmin əsrin 50-60-cı illərində Keyns prinsipləri postsənaye cəmiyyəti, iqtisadi artımın mərhələləri, rifah dövləti və bir sıra başqa konsepsiyalarda inkişaf etdirilir.

XX əsr Britaniya geosiyasi məktəbində N.Makinderin yaradıcılığı mühüm yer tutur (1886- 1947).O, inqilab və vətəndaş müharibəsi ilə bağlı SSRİ-də siyasi hadisələrdə iştirak etmiş, Cənubi Rusiyada ölkəsinin səlahiyyətli nümayəndəsi olmuş, burada Rusiyanı kiçik dövlətlərə parçalamaq siyasəti yürütmüşdür. „ Demokratik ideallar və reallıq" əsərinin müəllifidir (8,s.27).



Böyük Britaniya sosial və siyasi fəlsəfəsinin görkəmli nümayəndəsi Maykl Oukkeşott (1901-1990) idealist fəlsəfi ənənəni davam etdirərək siyasət aləminin təsadüfdən , subyektivlikdən asılılığını vurğulayır. Mütəfəkkir "Nümayəndəli demokratiyada kütlələr" və digər əsərlərində siyasi fəlsəfənin kateqoriyalarını geniş tarixi-mədəni kontekstdə araşdırır.

Göstərmək lazımdır ki, ingilis siyasi elm məktəbinin parlaq nümayəndələrindən biri Tomas Barton Bottomordur. Sosioloji nəzəriyyə, sosioloji fikir tarixi, sosial stratifikasiya və mobillik, elitalar nəzəriyyəsi , inkişaf edən ölkələrin siyasi tarixi onun elmi tədqiqatlarının əsas mövzusudur. Müəllifin "Siyasi sosiologiya" (1979) əsərində müasir sosial-siyasi proseslərə verdiyi qiymət və dünyanın gələcək inkişafı haqqındakı fikirləri böyük maraq doğurur.

Böyük Britaniya siyasi elminin görkəmli simalarından biri də Hedli Bulldur (1931-1985). Britaniya beynəlxalq münasibətlər məktəbinin klassiki H. Bull Sidney şəhərində universiteti bitirir , orada doktorluq dissertasiyasını müdafiə etdikdən sonra, İngiltərəyə köçür və ömrünün axırına kimi Oksford Universitetinin beynəlxalq siyasət üzrə professoru vəzifəsində çalışır. Alimə "Anarxiyalı cəmiyyət : dünya siyasətində nizam- intizam probleminin tədqiqi" kitabı bütün dünyada şöhrət gətirir.

Ötən əsrin böyük filosofu , elm məntiqçisi və metodoloqu Karl Popper də (1902-1994) Böyük Britaniya siyasi elm məktəbini xeyli zənginləşdirmişdir. Mənşəcə avstriyalı K.Popper uzun illər London Universitetinin , London İqtisadiyyat və Siyasət Məktəbinin professoru olmuşdur. "Açıq cəmiyyət və onun düşmənləri" , "Tarixçiliyin səfaləti" əsərləri müəllifi bütün dünyada məşhur edir. Onun sosial sistemləri "açıq" və "qapalı"lara bölməsi ideyası politologiyada geniş istifadə olunur.

Qeyd edək ki, Britaniya alimləri İkinci Dünya müharibəsindən sonra davranış tədqiqatlarına meylli olmuşlar. Hə-

min tədqiqatlarda iki istiqamət (iqtisadi və sosioloji) bir-birilə rəqabət aparır. Digər Avropa ölkələrindən fərqli olaraq, məhz ABŞ və Böyük Britaniyanın elmi bir birilə sıx bağlıdır. Burada eyni dil faktoru da böyük rol oynayır.

Qeyd etmək lazımdır ki, **Almaniyanın siyasi elmi** müəyyən spesifikliyi ilə fərqlənir. Yarandığı dövrdən başlayaraq, o, fəlsəfi xarakter daşıyır və bütövlükdə klassik fəlsəfə ənənəsi istiqamətində inkişaf edir. Bu elm məktəbinin formalaşmasına bütün alman ictimaiyyətinə xas olan tarixilik prinsipi həlledici təsir göstərir.

XIX əsrdə Almaniyada sosial problematika üzrə elmi tədqiqatların sayı intensiv surətdə artmışdır. Məhz buna görə də siyasi elm məktəbinin əmələ gəlməsi və inkişafı qanunauyğun hesab olunur. Burada fəaliyyət göstərməyə başlayan hüquqi məktəbin nümayəndələri hüquq, dövlət və dövlət hakimiyyəti problemlərini dərindən öyrənirdilər. Almaniyada siyasi elm genetik baxımdan hüquq və başlanğıcında Hegel duran siyasi fəlsəfə ilə birbaşa bağlıdır. Onun təsiri altında alman alimləri dövlət problemlərinə xüsusi diqqət ayırırlar. Dövlət haqqında ayrıca elmin yaranmasında səkkiz cildlik "İdarəetmə haqqında təlim" əsərinin müəllifi , hüquqşünas Lorens Şteyn böyük rol oynamışdır. Almaniyanın 1871-ci ildə birləşməsindən sonra konstitusiya hüququ üzrə mütəxəssislər dövlət haqqında elm sahəsində çoxsaylı əsərlər yaratmışlar. Bunların sırasında G.Yellinek (1851-1991) tərəfindən yazılan "Dövlət haqqında ümumi təlim", "Müasir dövlətin hüquqları" , "Konstitusiyalar, onların tarixi və müasir hüquqda əhəmiyyəti", "İnsan və vətəndaş hüquqlarının bəyannaməsi" əsərləri xüsusi yer tutur.(2.s.139)

Bu ölkədə siyasi elmin özülünün qoyulmasında sosioloqların da payı az deyil. İlk növbədə Maks Veberi (1864-1920) qeyd etmək lazımdır. "Siyasət - istedad və peşə kimi" məşhur əsərin müəllifi olan Veber hesab edir ki, yeni dövr Avropa mədəniyyətinin əsas xüsusiyyəti rasionallıqdır. Veber yazır



ki, müasir demokratiyaları perspektivdə cəmiyyətin və dövlətin bütün sahələrinin büroklatlaşması gözləyir. Başqa sözlə, kapitalizmin inkişafı heç də sosializmə deyil, əslində total büroklatlaşmaya gətirib çıxaracaq.

Avropada elitologiyanın və siyasi partiyalar sosiologiyasının əsasını qoyan alimlərdən biri də alman politoloqu və sosioloqu Robert Mihelsdir (1876-1936). O, "Demokratiya şəraitində siyasi partiyalar sosiologiyası" əsərində "oliqarxiya təmayüllərinin dəmir qanunu" nu əsaslandırır. Onun fikrincə , demokratiyanın oliqarxiyaya çevrilməsi qaçılmazdır. Demokratiyanın mövcudluğu təşkilat, idarə aparatı, elita olmadan mümkün deyil. Nəticədə kütlələrdən ayrılma , məsul vəzifələrin və imtiyazların möhkəmlənməsi, liderlərin dəyişməzliyi baş verir. Maraqlıdır ki, bir çox müasir politoloqlar Mihelsin konsepsiyalarında birbaşa demokratiyaya və elitasız cəmiyyətə qarşı əsaslı arqumentlər tapırlar. Beləliklə, bu ölkənin siyasi elm məktəbində Qərbi Avropa sosial demokratiyasının əsasları qoyulur və inkişaf etdirilir (F. Lassal, E. Bernşteyn, K.Kautski, A.Bebel, V.Libknext)

XX əsrin 60-cı illərinə kimi AFR-da siyasi elmdə fəlsəfi-nəzəri istiqamət aparıcı mövqe tutur. Sonralar alman politologiyası get-gedə empirik tədqiqatlara üz döndərir və kəmiyyət metodlarından geniş istifadə etməyə başlayır. Alman politoloqu Q.Mayerin fikrincə, müasir politoloji tədqiqatlarda siyasi fəaliyyətin məqsədi deyil, səbəbləri aşkarlanır.

Tanınmış siyasi mütəfəkkir və publisist olan Karl Yaspers(1833-1969) "Tarixin mənşəyi və məqsədi" və "Almaniya Federativ Respublikası hara hərəkət edir?" əsərlərində bəşər tarixinin birliyi, hakimiyyət, siyasi azadlıq, demokratiya, müxtəlif mədəniyyətlər, xalqlar və dinlər arasındakı qarşılıqlı anlaşma problemlərinin dərin təhlilini verir.

Mühafizəkarlığın görkəmli nümayəndəsi olan alman alimi Günter Rormozer bu cərəyanın siyasi fəlsəfəsini fundamental şəkildə araşdırır. O, "Liberalizmin böhranı", "Yeni

mühafizəkarlıq Rusiya üçün hədədir" əsərlərində siyasi elmdəki liberalizm, mühafizəkarlıq, demokratiya , hüquqi və sosial dövlət kimi başlıca anlayışların tarixi-fəlsəfi mahiyyətini əsaslandırmışdır.

XX əsrin böyük filosofu , sosioloqu və siyasi mütəfəkkiri Yurgen Habermasın diqqət mərkəzində sosial idrakın metodologiyası , demokratiya, vətəndaş cəmiyyəti və hüquq nəzəriyyəsi məsələləri durur. "Demokratiya ideyası ətrafında fəlsəfi mübahisə"əsərində görkəmli alim demokratik prosesin mahiyyətini izah edir.

Digər alman politoloqu, sosioloqu və müasir liberalizmin aparıcı nəzəriyyəçilərindən biri sayılan Ralf Darendorf da siyasi elmə bir çox yeniliklər gətirmişdir. O, "Cəmiyyət və azadlıq", "Azadlığa yol: demokratikləşmə və onun Şərqi Avropadakı problemləri", "Yeni liberalizmin fraqmentləri" əsərlərində demokratik proseslər, müasir siyasi və sosial şəraitdə liberalizmin xüsusiyyətləri kimi çətin problemləri dərindən təhlil etmişdir.

Tanınmış alman politoloqları sırasına elektoral proseslər və postkommunist cəmiyyətlərində transformasiya problemləri sahəsində böyük əməyi olan Hans-Diter Klingemanı da daxil etmək lazımdır.

Yuxarıda yazılanlardan göründüyü kimi, Almaniya siyasi elm məktəbinin nümayəndələri həm normativ, həm də empirik politologiyanı orijinal ideya, fikir və konsepsiyalarla xeyli zənginləşdirmişlər.

Tədqiqatçıların fikrinə görə, XIX əsrin sonundan başlayaraq, İkinci Dünya müharibəsinə qədər davam edən dövr **Fransada siyasi elmin ilk təsisatlaşması** dövrü hesab edilir. 1871-ci ildə Paris şəhərində özəl bir qurum – Siyasi Elmlərin Azad Məktəbi yaradılır. 1886-cı ildə isə onun mətbuat orqanı kimi xüsusu jurnalı təsis edilir. Məktəbdə bir çox tanınmış alimlər, o cümlədən seçici davranışının öyrənilməsinin əsasını qoyan A. Ziqfrid dərs deyir. O vaxtlar Fransa hüquqşünaslarının əksəriyyəti hesab edirdi ki, siyasi elm elə



konstitusiya hüququdur. Bu səbəbdən ölkədə siyasi təzahürlərin təhlilinə dair hüquqi yanaşma geniş yayılır. L. Dyüqi və M. Oriu belə yanaşmanın baniləri sayılırlar.

İlk olaraq İnstitusionalizm nəzəriyyəsinin əsasını qoyan Moris Oriu (1856-1929) cəmiyyəti nəhəng sayda institutların məcmusu hesab edirdi. Oriu institutların iki tipini fərqləndirir: korporativ institutlar (ticarət cəmiyyətləri, assosiasiyalar, dövlət, həmkarlar ittifaqları, kilsə) və mülkə, əşyaya sahib olmaq qaydasını müəyyən edən mülkiyyət institutları (hüquqi normalar). Alimin fikrincə, dövlətin vəzifəsi neytral vasitəçi qüvvə, yəni ümummilli institut olmaqla yanaşı, cəmiyyətin iqtisadi həyatını istiqamətləndirmək və ona nəzarət etməkdir.

Bəzi siyasətçilərin qənaətinə görə, əgər Fransada siyasi elmin yaranması A. Esmen, L. Dyügi və M. Oriunun adları ilə bağlıdırsa, onun inkişafı və möhkəmlənməsində isə əsasən R. Aron və M. Düverjenin rolu böyükdür.

Olduqca məşhur fransız politoloqu, sosioloqu və publisist Raymon Aron (1905-1983) deideologizasiya konsepsiyasının müəlliflərindən biridir. Geniş şöhrət qazanmış "Ziyalılar üçün tiryək" əsərində alim məhz bu baxımdan marksizm nəzəriyyəsini və təcrübəsini çox kəskin tənqid atəşinə tutur. O, həm də sənaye cəmiyyəti nəzəriyyəsinin yaradıcılarından biridir. Alim güman edir ki, svilizasiyanın inkişafının müasir mərhələsində cəmiyyətin vahid bir tipi (sənaye cəmiyyəti) yaradılır. Sovet (totalitar) və Qərb (demokratik) modelləri isə həmin tipin müxtəlif modifikasiyalarıdır. Bir-birilə mübarizə aparan bu təmayüllərin qarşıdurması sənaye cəmiyyətini qeyri-sabitliyə məhkum edir.

Fransanın digər tanınmış politoloqu, sosioloq və hüquqşünas Moris Düverje 1951-ci ildə çapdan çıxan "Siyasi partiyalar" kitabından sonra böyük çöhrət qazanmışdır. Alimin fikrincə, elə siyasi sistem yaradılmalıdır ki, orada demokratiyanın məziyyətləri səmərəli idarəetmə ilə birləşsin, vətən-

daşların hakimiyyətdən uzaqlaşması aradan qaldırılsın.

Fransanın siyasi elm məktəbinin inkişafına ayrı-ayrı alimlərdən başqa, ixtisasdırılmış təşkilatlar da böyük təsir göstərir. İlk növbədə 1949-cu ildə yaradılan və hal-hazırda 1000-dən artıq üzvü birləşdirən Siyasi elmin Fransa Assosiasiyasını qeyd etmək lazımdır. Assosiasiya Siyasi Elmin Milli Fondu ilə birlikdə 1951-ci ildən dərc edilən "Siyasi Elmin Fransa Jurnalı" nın nəşrinə rəhbərlik edir.

Siyasi hakimiyyət problemi siyasi-antropoloji baxımdan J. Balandye, J. V. Lapyer, P. Klastr, M. Qodelye kimi alimlər tərəfindən araşdırılır. Məşhur əsərlər sırasına Moris Qodelyenin "Dövlət: formalaşma prosesi, forma və özül müxtəlifliyi" və "İnsest, qohumluq, hakimiyyət əsərləri aid edilir".

Bu mənada Jan-Vilyam Lapyerin "Siyasi hakimiyyətin əsası haqqında esse", "Dövlətsiz yaşamaq", "Siyasi hakimiyyət və dillər" əsərləri diqqəti cəlb edir. Müəllif həm arxaik, həm də tarixi cəmiyyətlər üçün siyasi hakimiyyətin universallığını qəbul edərək, bu cəmiyyətlərin təsnifatını işləyib hazırlamışdır.

Xüsusilə 70-80-ci illərdə Fransada dövlət problemlərini sosioloji nöqteyi-nəzərdən təhlil edən əsərlər yazılır. Sosioloji yanaşmanın aparıcı nümayəndələri B. Badi və P. Birnbaumdur. Bertran Badi "Siyasiliyin mədəniyyəti", "İki dövlət: Qərbdə və islam torpağında hakimiyyət və cəmiyyət" əsərlərinin müəllifidir. Onun Pyer Birnbaumla birgə yazdığı "Dövlətin sosiologiyası" əsəri böyük maraq doğurur. Hər iki alim B. Badi və P. Birnbaum inkişafın dövlət modelini modernizasiyanın tarixən əmələ gələn formalarından biri hesab edirlər. Onlar bir aksioma kimi qəbul edirlər ki, dövlət ilk əvvəl Qərbi Avropada Renessans dövrünün tarixinin məhsuludur.

Fransa politoloqları da siyasət elmində hakimiyyət məfhumuna xüsusi diqqət yütirmişlər. B-de Jüvenel qeyd edir ki, onlar daha çox dövlətin „necə" idarə edilməsi ilə yox, „kim" tərəfindən idarə olunması ilə maraqlanırdılar (1,s.7). Bu ölkədə dövlətin öyrənilməsinə hüquqi yanaşma dərin kök-



lərə malikdir. Tanınmış hüquqşünaslar L. Dyuqi, J. Verdel, M. Düverje, J. Bürdo və başqaları siyasi elmin inkişafında böyük rol oynamışlar. Misal üçün, hüquq professoru J. Bürdo siyasi elm üzrə ilk dərsliklərdən biri olan "Siyasi elmin metodu" kitabının müəllifidir. Alimin elmi yaradıcılığında ölkədə dəfələrlə nəşr olunmuş "Siyasi elmin traktatı" oncildliyi xüsusi yer tutur.

Keçən əsrin 70-ci illərində ölkədə kapitalist dövləti problemi ilə bağlı A. Lefevr, L. Altüsser, N. Pulanzas və digər marksist alimlər tərəfindən çox sayda əsərlər yazılır.

Son zamanlar Fransa milli siyasi elm məktəbində qloballaşma ilə bağlı müxtəlif problemlərin araşdırılmasına ciddi diqqət yetirilir. Buna Fransa politologiyasının "geoiqtisadi məktəbinin" yaradıcılarından biri olan J. Attalinin 1997-ci ildə "Foreign Policy" jurnalında dərc etdiyi "Qərb sivilizasiyasının iflası" məqaləsi parlaq nümunə ola bilər.

Digər Avropa ölkəsi olan **İtaliyada siyasi elm** XIX əsrin sonunda yayılmağa başlamışdır. 1874-cü ildə Florensiya şəhərində fəaliyyətə başlayan "Cezare Alfieri" sosial elmlər məktəbi siyasi elmin inkişafında müəyyən rol oynayır. 1883-cü ildə bu məktəb "Sosial və siyasi elmlərin icmalı"nı dərc edir. O zaman "siyasi sinif" konsepsiyasını işləmiş Q.Moska və "hakim elita" nəzəriyyəsinin müəllifi V. Pareto İtaliya siyasi elm məktəbinin yaradılması istiqamətində çox ciddi addımlar atır.

V.Paretonun (1848-1923) elita nəzəriyyəsi ilk dəfə 1916-cı ildə Florensiya şəhərində işıq üzü görən üçcildli "Ümumi sosiologiya üzrə traktat"da təfərrüatı ilə izah edilir. Onun fikrinə görə hər cəmiyyət iki strataya (laya) bölünür: ali strata – idarəedənlər və ən aşağı strata – idarəolunanlar. Ali stratada isə o, iki qrupu fərqləndirir: hakim və qeyri-hakim elita. Dünya politologiyasında qəbul edilmiş tərif elitologiyanın yaradıcılarından biri sayılan Paretoya mənsubdur. O, elitaların dövriyyəsini ictimai inkişafın əsas hərəkətverici qüvvəsi sayır.

İtaliyanın tanınmış politoloqu Qaetano Moska (1858-1941) da elitanı xüsusi tədqiqat obyektinə çevirir, onun strukturu, fəaliyyət qanunları, hakimiyyətə gəlməsi və tənəzzül səbəblərini ətraflı təhlil edir. Alimin "Siyasi elmin elementləri" əsəri 1939-cu ildə ingilis dilinə tərcümə edilir və "Hakim sinif" adı altında çap olunaraq müəllifə dünya şöhrəti gətirir.

İtaliya siyasi elmində kommunist ideyalara maraq kifayət qədər güclü idi. Bu baxımdan A. Qramşi və P. Tolyattinin yaradıcılığı xüsusilə seçilir. İtaliya kommunist partiyasının banisi və rəhbəri Antonio Qramşi (1891-1937) "Həbsxana dəftərləri" adlanan əsərində marksizmin müasir dövr üçün siyasi nəzəriyyəsini işləyib hazırlayır.

Beynəlxalq kommunist və fəhlə hərəkatının görkəmli xadimlərindən biri olan Palmiro Tolyatti (1893-1964) öz zəngin praktiki-siyasi fəaliyyəti dövründə toplanmış bilik və məlumatları, faşist rejimi barədə fikirlərini "Faşizm haqqında mühazirələr" adlı kitabında izah edir.

Keçən əsrin 20-30-cu illərində İtaliyada faşizmin qələbə çalması ilə siyasi elm məktəbinin inkişafı dondurulur. Həmin dövrdə hakim ideologiyanın nəzəriyyəçisi Covanni Centile "Faşizmin kökləri və doktrinası", "Faşizmin siyasi forması" əsərlərini yazır. Burada C. Centile (1875-1944) totalitar dövləti əxlaqi ruhun təcəssümü kimi qələmə verir və şəxsiyyəti dövlətə tamamilə tabe olmağa çağırır. Onun həmfikiri olan, faşist dövlətinin yaradıcısı və başçısı Benito Mussolini "Stato totalitaro" (totalitar dövlət) ideyasını özünün "Faşizmin doktrinası" əsərində belə izah edir: "Hər şey Dövlət üçün, Dövlətdən başqa heç nə, heç nə Dövlətə qarşı". Mussolini siyasi filosof olmasa da, əsərdə o, faşist təliminin əsas aspektlərini aydın şəkildə izah edə bilmişdi. Bu, dövlətin mütləqləşdirilməsi konsepsiyasıdır.

İtaliya siyasi elmi İkinci Dünya müharibəsindən sonra həm nəzəri, həm də metodoloji baxımdan Amerika elminin modelini qəbul etməyə məcbur oldu. Görkəmli İtaliya politoloqu, Florensiya siyasi elm məktəbinin banisi Covanni Sartori 60-cı illərdən başlayaraq, siyasi elmin nəzəri problemləri, o cümlədən demokratiya nəzəriyyəsi sahəsində müasir dövrün ən nüfuzlu mütəxəssislərindən biri kimi tanınır. O, demokratiya mövzusunda dərin tədqiqatların müəllifidir. Alimi ciddi düşündürən problemlər sırasına demokratik ölkələrdəki siyasi təsisat və siyasi davranış, siyasi plüralizm, elitalar nəzəriyyəsi məsələlərini də aid etmək olar.



Qeyd edək ki, İtaliyanın məşhur filosof, hüquqşünas və politoloqlarından biri də Norberto Bobbio (1909-1998) olmuşdur. Bütün yaradıcılığı boyu mütəfəkkir hakimiyyət, siyasət və mədəniyyət problemləri ilə maraqlanmışdır. 1955-ci ildə onun çap etdirdiyi "Siyasət və mədəniyyət" oçerkləri dünya intellektuallar birliyinin diqqətini özünə cəlb etmişdir. O, totalitar hakimiyyət, sosializmin nəzəriyyəsi və praktikası, azadlıq, demokratiya və insan haqları məsələlərini dərindən araşdırmışdır (2,s.152). Alimin ən orijinal əsərləri siyasətdə intellektualların rolunun müəyyənləşməsinə həsr olunmuşdur.

**İspaniyada siyasi elm məktəbinin formalaşması** prosesi demək olar ki, XIX əsrin sonuna təsadüf edir. Burada milli politologiyanın başlanğıcında "Hüquqi və siyasi elmlər" əsərinin müəllifi F. Los Rios və onun tələbələri dururdu. A. Posada isə özünün ikicildlik "Siyasi hüquq üzrə traktat"ına görə beynəlxalq şöhrət qazanmışdır. Franko diktaturasının bərqərar edilməsinə qədər siyasi elmin iki sahəsi daha çox inkişaf edir: siyasi fəlsəfə və hüquq yönümlü dövlət nəzəriyyəsi.

İspaniya məktəbi üçün ənənəvi sayılan cəmiyyətin həyatında siyasətin rolunun tədqiqi mövzusudur. Məşhur İspaniya filosofu, sosioloqu, kulturoloqu, publisisti və ictimai xadimi Xose Orteqa-i- Qassetin (1883-1955) fəlsəfi yaradıcılığının mərkəzində insan problemi durur. O, fəlsəfi antropologiyanın köməkliyi ilə varlıq probleminin həllinə çalışır. Alimi mədəniyyət nəzəriyyəsi və estetika xüsusilə maraqlandırır. Orteqa-i-Qasset "Kütlələrin üsyanı" əsərində yazır

ki, hakimiyyətin kütlə əlinə keşməsi qətiyyən düzgün deyil. Kütlələrin öz müqəddəratlarına qarşı üsyanı mütləq siyasi kataklizmlərə, xalqın, millətin və mədəniyyətin ən ağır böhranına səbəb olur, totalitarizm üçün əlverişli zəmin yaradır. O, belə qənaətə gəlir ki, XX əsrin əsas siyasi fenomeni elitanın və kütlələrin ideya-mənəvi aralanmasıdır. Bu prosesin nəticəsi isə ümumi sosial çaşdırılma və kütləvi cəmiyyətin yaradılması kimi qiymətləndirilir (2,s.154). Əlavə edək ki, bu dünya şöhrətli alimin rəhbərliyi ilə İspaniyada Humanitar Elmlər İnstitutu yaradılmışdır.

**Rusiyaya gəldikdə isə, burada siyasi elm məktəbinin formalaşması** siyasi tədqiqatların müasir xarakter alması XIX əsrin ikinci yarısından başlanmışdır. Həmin dövrdə rus ictimaiyyətinin xarici ölkələrlə əlaqələri güclənir. Rus mütəfəkkirləri Qərbdən müxtəlif siyasi ideyaları mənimsəməklə yanaşı, özləri də siyasi fikrin liberalizm, mühafizəkarlıq, sosializm və digər cərəyanları xeyli zənginləşdirir, onlara prinsipial yeniliklər gətirirlər. Misal üçün, anarxizmin əsasını qoyan alimlərdən ikisi – M. A. Bakunin və P. A. Kropotkin rus mütəfəkkirləridir. G. V. Plexanov, L. D. Trotski, V. İ. Lenin və başqaları marksizmi spesifik tərzdə inkişaf etdirmişlər.

Məlumdur ki, bəzi ictimaiyyatçılar Rusiya gerçəkliyinin dəyişdirilməsi planlarını təklif edirdilər. Bu baxımdan, Moskva Universitetinin hüquq fakültəsinin professoru B. N. Çiçerinin yaradıcılığı böyük maraq doğurur. Alim Rusiyada hüququn və nümayəndəli hakimiyyət prinsipinin üstün gəlməsinə yönəlmiş sosial-siyasi dəyişikliklər layihəsini təklif etmişdir. O, həm də dünya siyasi fikrinin inkişaf tarixinin rus dilində tam şərhinin ilk təşəbbüslərindən biri olan "Siyasi təlimlər tarixi" fundamental beşcildliyinin müəllifi kimi tanınmışdır.

Bu dövrdə rus sosioloji fikri yaranır və inkişaf edir. Qərbi Avropada olduğu kimi, Rusiyada da siyasi təzahürlərin pərakəndə öyrənilməsindən onları ayrı və müstəqil siyasi elm daxilində təhlil edilməsinə zəmin formalaşır. Lakin politologiyanın təşəkkülünün yalnız demokratik tipli sistemin mövcudluğu şəraitində mümkünlüyü səbəbindən bu baş vermir. Bununla belə bütün obyektiv və subyektiv çətinliklərə baxmayaraq, rus alimləri siyasi elmin təşəkkülü prosesində iştirak edirlər. Belə ki, 1898-ci ildə M. Y. Ostroqosrki Parisdə fransız dilində ikicildli "Demokratiya və siyasi partiyalar" əsərini çap etdirir. O, ilk dəfə partiya bürokratiyasının rolunu təhlil etməyə cəhd göstərir. M. Ostroqorski qərbdə həmişə siyasi sosiologiya və politologiyanın klassikləri sırasına daxil edilmişdir (10).



Rusiyada baş verən bolşevik inqilabından sonra ölkə ziyalılarının bir hissəsi xaricə gedir. Mühacirətdə olarkən onların bir çoxu siyasi elmi inkişaf etdirir və Qərb politologiyasına təsir göstərir. XX əsr sosiologiyasında ən görkəmli simalarından biri sayılan P. Sorokinin yaradıcılığı buna parlaq misaldır. P. B. Struve, N. A. Berdyayev, İ. A. İlyinin ideya və konsepsiyaları totalitarizmin təbiəti, Rusiya və SSRİ-nin siyasi tarixinin öyrənilməsində Avropa və Amerika politoloqları tərəfindən fəal istifadə edilir.

Rusiya 1917-ci il Oktyabr inqilabından sonra xüsusi inkişaf yolu ilə gedir. Özünün antidemokrat xarakterinə baxmayaraq, mütləqiyyət xarici dünya ilə geniş əlaqələrə imkan yaradır. Rusiya Avropanın ümumi mənəvi və mədəni məkanında idi. Kommunist rejiminin yaranması və möhkəmlənməsi şəraitində əvvəlcə Sovet Rusiyası, sonra Sovet İttifaqı qalan dünyadan "dəmir pərdə" ilə ayrılırdı. Köhnə humanitar ziyalılar ya mühacirətə yollanır, ya xaricə sürgün edilir, ya da siyasi "təmizləmə"nin qurbanı olurdu. Hakim bolşevik partiyasının fikri ilə üst-üstə düşməyən bütün baxışlara qadağa qoyulur, onların daşıyıcıları isə təqib edilirdi.

Bütün cəhdlərə baxmayaraq, "Marksist-leninçi" siyasi elmin yaradılması və belə yönümlü tədqiqatların aparılması cəhdləri uğursuzluqla nəticələnirdi. Yalnız İ. Stalinin ölümündən sonra vəziyyət dəyişməyə başladı. Siyasi elmin

məzmun və tərkibinin müəyyən edilməsi, onun təsisatlaşması haqqında danışmaq və hətta yazmaq imkanı yaradıldı. F. M. Burlatski, L. A. Qalkin, V. V. Mşveniyeradze, A. F. Farukşin, A. A. Fedoseyevin səyləri nəticəsində SSRİ-də „burjua elmi" kimi qiymətləndirilən politologiyaya münasibət yavaş-yavaş dəyişildi (7,s.55).

1960-cı ildə Siyasi və Dövlətşünaslıq Elmlərinin Sovet Assosiasiyası yaradıldı və qurum Siyasi Elmin Beynəlxalq Assosiasiyasına qəbul edildi. Onun tərkibində hüquqşünaslar əksəriyyət təşkil edirdi. Lakin həmin strukturda müstəqil politologiyaya hələ də yer ayrılmırdı. 1965-ci ilin yanvar ayında "Pravda" qəzetində F. M. Burlatskinin elmi dairələrdə əks-sədaya səbəb olan "Siyasət və elm" adlı böyük məqaləsi dərc edilir. Həmin ilin fevralında assosiasiyanın ümumi iclasında alimin "Siyasi elm haqqında" məruzəsi müzakirəyə çıxarılır. Məruzədə müstəqil "marksist-leninçi siyasi elm"in yaradılması, onun rəsmi tanınması, sovet ali məktəblərinin proqramına daxil edilməsi və predmetinin müəyyən edilməsi məsələləri qoyulur.

Görülən işlərin nəticəsi olaraq, 1979-cu ildə Moskvada Siyasi Elmin Beynəlxalq Assosiasiyasının Ümumdünya Konqresi keçirilir. Bütün bunlar siyasi problemlərin tədqiqinə diqqəti artırsa da, o dövrün siyasi rejimi şəraitində politologiyanın müstəqil elm və tədris fənni kimi formalaşması yenə də mümkün deyildi.

Politoloqların fikrinə görə, Rusiya siyasi elminin təşəkkülü yenidənqurma illərində baş verir. Keçən əsrin 80-cı illərinin sonunda rəsmi ideologiya, bütün sovet ictimai sistemi dərin böhran vəziyyətinə düşür. Vətəndaş cəmiyyətinin formalaşması, siyasətin nəzəri və praktiki problemlərinə artan maraq siyasi elmə güclü ictimai tələbatın yaranmasına səbəb olur. Məhz həmin dövrdə siyasi elm rəsmi tanınır.

O zaman SSRİ-də ilk politologiya kafedrası 1989-cu ildə Leninqrad Dövlət Universitetinin fəlsəfə fakültəsində açılır.1990-cı ildə humanitar təhsilin yenidən qurulması prosesində ali məktəb proqramına politologiya fənni daxil edilir. Bundan sonra politologiya kafedralarının sayı kəskin surətdə artır.



Məlum olduğu kimi, keçmiş rejimin süqutu və Rusiya Federasiyasının yaranması ilə vəziyyət xeyli dəyişir. Politoloji araşdırmalar aparmaq məqsədilə bir sıra və elmi mərkəzlər yaradılır. Siyasi Elmin Rusiya Assosiasiyası, Siyasi Elmlər Akademiyası fəaliyyətə başlayır, "Polis", "Meqapolis", "Sosial-siyasi jurnal", "Politiya", "Hakimiyyət", "Beynəlxalq həyat" və bşqa xüsusi jurnallar dərc edilir.

Son illərdə Russiya mütəxəssisləri siyasi sosiologiya, geosiyasət və elitologiya sahələrində əhəmiyyətli uğurlar əldə etmişlər.

Beləliklə tədqiqat işində yeddi ölkənin tanınmış siyasi elm məktəblərinin fəaliyyəti qısa şəkildə təhlil edilmişdir. Şübhəsiz, adları çəkilən hər bir ölkə üzrə bu istiqamətdə daha geniş tədqiqat aparmaq olar.

## SUMMARY

In the article its is noted that the political science has passed the long historical path. İt plays a great role in the people's life, in the formation and broadening their world outlook. İn the madern the level of the development of the political science in the world has been lifted to a such degree that in a number of the countries there have been created and successfully function the shools of political science.

In the present the brief survey of the activities of like school functioning in the USA, Great Britain, Germany, France, İtaly, Spain and Russia has been made.

**РЕЗЮМЕ**

В статье отмечается, что политическая наука прошла большой исторический путь. Она играет важную роль в жизни людей, в формировании и расширении их мировоззрения.

В современный период уровень развития политической науки в мире поднялся до такой степени, что в ряде стран созданы и успешно функционируют школы политической науки.

В настоящей статье представлен краткий обзор деятельности подобных школ, действующих в США, Великобритании, Германии, Франции, Италии, Испании и России.

## ƏDƏBİYYAT

1. Hüseynov A, Məcidov V. Politologiya. Bakı."Qartal".1999.
2. Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. Dərslik. Bakı. "Azərbaycan" nəşriyyatı. 2005.
3. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. 1 cild. Bakı.2006.
4. Piriyev A, Əfəndiyeva X. Sosiologiya və politologiya. Bakı.2009.
5. Rüstəmov Y.Sosial-siyasi və hüquqi təlimlər tarixi (rus. dilində). Bakı."Səda".2007.
6. Şirəliyev H, Əhmədov Ə. Politoligiya. Bakı. 1997.
7. Tağıyev Ə, Seyidov M. Siyasət nəzəriyyəsi.bakı."Elm və təhsil", 2012.
8. Babaoğlu H. Siyasi təhlil və proqnozlaşdərma. Bakı, 2012.
9. Politologiya. Lügət-məlumat kitabı (rus dilində). Moskva, 1991.
10. Politologiya. Ali məktəblər üçün dərslik. Tərtiçi və məsul redactor A.A.Raduqin (rus.dilində). Moskva, 1997.
11. Rövşən Mustafayev. Fikir azaddır. Bakı, 2000.



# II FƏSİL. MÜASİR PROBLEMLƏRƏ EMPİRİK YANAŞMA

*R.MİRZƏZADƏ,*
*Z.ƏLİYEV*

## XARİCİ ÖLKƏLƏRDƏ AZƏRBAYCAN DİASPORUNUN İKT İSTİQAMƏTİNDƏ FƏALIYYƏTİ

Məlumdur ki, Azərbaycan barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində informasiya-telekommunikasiya texnologiyalarının xüsusi rolu var. İnformasiya-telekommunikasiya texnologiyaları nədir və onun Azərbaycan diasporu istiqamətində rolu və vəzifələri nədən ibarətdir sualına cavab tapmağa çalışaq.

Müasir şəraitdə cəmiyyətin ən əsas inkişaf istiqamətlərindən biri cəmiyyət həyatının bütün sahələrinin kompüterləşdirilməsi və informasiyalaşdırılmasıdır. Bu istiqamətdə bütün inkişaf etmiş və etməkdə olan dövlət və ölkələrdə sürətli işlər aparmaqdadır. Dünya ölkələri və dövlətləri ilə hər sahədə inteqrasiyaya meylli olan Azərbaycan Respublikasında da oxşar sahədə ox ciddi tədbirlər işlənməkdə və həyata keçirilməkdədir. Təkə onu qeyd etmək kifayətdir ki, 2002-ci ci ilin fevral ayında Azərbaycan Respublikası ilə BMT İP arasında imzalanmış uzunmddətli proqram-layihəyə müvafiq olaraq hazırlanmış «Azərbaycan Respublikasının inkişafı naminə İKT üzrə Milli strategiyasının (2003-2012-ci illər) Azərbaycan Respublikası Prezidenti tərəfindən 17 fevral 2003-cü ildə imzalanmış və qarşıdakı minillik dövr üçün hökumət proqramı statusu almışdır. [70,44]

Məhz yuxarıda deyilənləri nəzərə alaraq qlobal əhəmiyyətli və dünyanın istənilən yerindən məlumat alınması və ötürülməsi prosesində informasiya-telekommunikasiya texnologiyalarının rolu və yeri danılmazdır. Son zamanlar

isə Azərbaycan diasporuna məxsus sayt və elektron poçt adreslərinin sayının durmadan artması sevindirici hal olmaqla yanaşı, Azərbaycan barədə real həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına böyük təkan verir. İnanırıq ki, belə saytların sayı artdıqca və xaricdə yaşayan azərbaycanlıların informasiya-telekommunikasiya texnologiylarından istifadəyə geniş yer verdikcə bizə düşmən olan qüvvələrin neytrallaşdırılmasına və məğlub edilməsinə nail olmaq olar. Bu baxımdan Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının qarşısında duran əsas vəzifələrdən biri də qlobal informasiya cəmiyyətinin təzahürü kimi meydana çıxan virtual dünyanın tərkib hissəsi olan Virtual Azərbaycanın formalaşdırılması və inkişaf etdirilməsidir.

Bunların içərisində informasiya-telekommunikasiya texnologiyaları da özünəməxsus yerə malikdir. Onlar özlərində geniş potensial gizlədir. Bu texnologiyaların içərisində internet xüsusi fərqlənir. O, geniş yayılmaqla bərabər, özü ilə telefon, radio və televiziyadan fərqli üstünlüklər gətirir. Səsli və birbaşa danışmaq imkanı yaratmaqla o, telefonu, videofayllar nümayişi ilə televiziyanı, daim yeniləşən publisistik mətnlərlə isə dövri mətbuatı özündə birləşdirir. Bir-biri ilə eyni zamanda yazışmaqla dialoq qurmaq imkanı, saytlar internetin digər vasitələrində olmayan üstün cəhətləridir. Saytlar həm də diaspor üzvlərinin az xərc çəkməklə, öz həmvətənləri ilə gündəlik birbaşa ünsiyyət yaratma vasitəsidir.

Mövcud problemin həlli baxımından dünya azərbaycanlıları və diaspor təşkilatları haqqında zəruri məlumatları özündə əks etdirən Veb-portalın yaradılması vacib məsələlərdən biri kimi qarşımızda durur. Bu İnternet portalında Azərbaycan və onun dövlət rəmzləri, inzibati-ərazi vahidləri, dövlət quruluşu, hakimiyyət strukturları, ictimai-siyasi təşkilatları, bir sözlə, siyasi, iqtisadi, mədəni və intellektual sferalar üzrə bütün zəruri informasiyalar toplanmalıdır.

Məlumdur ki, virtual dünya coğrafi məkanın siyasi xə-



ritəsinə nəzərən ölkələrin, eyni zamanda, ümumi istifadəli (.com,.org,.net və s.) domen zonalarına bölünür. Hər hansı ölkəyə məxsus internet saytları məhz yüksək səviyyəli domen adlarına görə bir-birindən fərqlənir. Məsələn, Rusiya virtual məkanda «.ru», İran «.ir», Fransa «.fr», Almaniya «.de», Azərbaycan isə «.az» domen kodundan istifadə edir. Xarici ölkələrdə yaşayan azərbaycanlıların həmin ölkələrin domen zonalarında Azərbaycan adı altında İnternet saytları yaratması («www.azerbaican.fr», «www.azerbaican.ru», «www.azerbaican.de» və s.) virtual məkanda Azərbaycan haqqında məlumatların tez bir zamanda əldə edilməsi və yayılması baxımından son dərəcə əhəmiyyətli ola bilər.

Veb-portalda digər ölkələrdə fəaliyyət göstərən diasporların İnternet saytları arasında birbaşa əlaqələrin olması, vahid şəbəkə əmələ gətirməsi bu informasiya resursunu dünya azərbaycanlılarının məlumat-sorğu mənbəyinə çevriləcəkdir. Bu halda, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların bir-birləri haqqında lazımi informasiyaları çox asanlıqla əldə etməsi, habelə qarşılıqlı informasiya mübadiləsi kifayət qədər çevik mexanizmlər üzərində qurulacaqdır.

Bu gün əsas problem müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların müvafiq xarici dillərin güclü təsiri altında fərqli terminoloci mühitlərin formalaşmasıdır. Dilimizin assimilyasiyadan qorunması üçün Azərbaycan terminlərini özündə toplayan xüsusi veb-portalın yaradılması da mövcud problemlərin həlli baxımından son dərəcə vacibdir. Belə olduğu halda müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar ana dilinin təmizliyini və saflığını qoruyub saxlaya biləcəklər. Məlumat üçün bildirək ki, AMEA Rəyasət Heyətinin qərarı ilə Terminologiya Komissiyası İnformasiya Texnologiyaları İnstitutu ilə birgə «Azərbaycan terminləri» veb-portalının yaradılması üzərində müvafiq iş aparır. Bu portalda leksikonumuza daxil olan ümumi istifadəli terminlərlə yanaşı, müxtəlif bilik sahələrinə aid terminlər də öz əksini tapacaqdır.

Dünya azərbaycanlılarının həmrəyliyi istiqamətində mövcud olan əsas problemlərdən biri də transliterasiya ilə bağlıdır. Çünki müxtəlif ölkələrdə yaşayan soydaşlarımız Azərbaycan dilində danışsalar da, obyektiv və subyektiv səbəblərdən müxtəlif əlifbalardan istifadə edirlər. Məsələn, İranda yaşayan azərbaycanlılar bizim ölkədə nəşr olunan informasiyaları, bizlər də orada dərc olunan materialları oxuya bilmirik. Bunun da nəticəsində həm yazılı mənbələrdə - kitab, qəzet və curnallarda, həm də elektron resurslarda - veb-saytlarda, kompakt disklərdə olan məlumatlar müxtəlif qrafikalarda olduğuna görə dünya azərbaycanlılarının bu materiallardan geniş istifadəsi çox çətinləşir. Faktiki olaraq milli informasiya məkanı bu qrafikalar (kodlar) vasitəsilə hissələrə bölünür.

Elə son əsrdə ölkəmizdə 3 qrafikadan - ərəb, kiril və latın qrafikalarından istifadə olunması indiyə qədər dərc olunmuş informasiya resurslarının - kitab, curnal və digər yazı materiallarının təşkil etdiyi milli informasiya məkanımızı da 3 hissəyə bölür. Bunun da hansı problemlər yaratdığı hamıya məlumdur. Ona görə də bütün dünya azərbaycanlıları arasında qrafika problemini aradan qaldırmaqla ümumi informasiya mühitini yaratmaq üçün müxtəlif dillərin əlifbasında olan hərflərin qarşılıqlı çevrilməsini - konvertasiyasını həyata keçirən xüsusi proqram təminatı vasitələrinin hazırlanması aktual məsələlərdən biri kimi qarşımızda durur.

Məlumdur ki, kağız üzərində olan məlumatların bir qrafikadan digərinə keçidi praktiki olaraq həddən çox çətindir. İnformasiya texnologiyalarının və dilçilərin bu işi həyata keçirməsi üçün ilk növbədə lazım olan bütün əlifbalar arası, iki istiqamətli çevirmə cədvəlləri milli və beynəlxalq standartlaşdırma qurumları tərəfindən təsdiq olunmalıdır. Qeyd etmək lazımdır ki, bu sahədə başqa millətlərin və ölkələrin böyük təcrübəsi vardır.

Beləliklə, bu proqram təminatı vasitələri hazırlandıqdan



sonra bütün Azərbaycan dilli elektron resurslar - veb-saytlar, elektron dərsliklər, elektron qəzet və curnallar və s. həmin konvertasiya cədvəlləri ilə təmin olunmalıdır. Bunun da nəticəsində dünyanın istənilən ölkəsində yaşayan hər bir azərbaycanlının kompüterin ekranında yerləşdirilmiş cədvəldə bir düyməni basmaqla istədiyi qrafikanı seçib lazımi məlumatı oxuyacaq, eyni zamanda, digər qrafikadan istifadə edən azərbaycanlılarla heç bir maneə olmadan elektron yazışmalar aparacaqdır.

Transliterasiya probleminin həll olunacağı halda, İnternetdə Azərbaycana məxsus tarixi, coğrafi, musiqi, folklor və s. incilərin adları da müəyyən bir standart əsasında başqa dillərin qrafikalarında yazılar, virtual məkanda axtarış vaxtı bu adlarla bağlı çoxçeşidli adlar meydana gəlməz. Məsələn, Gəncə, Şuşa, Naxçıvan və s. coğrafi adlara İnternetdə ingilis dilində bir neçə variantda rast gəlinir. Təbii olaraq, bu yanlışlıqlar da virtual məkanda milli sərvətlərin identikliyinə böyük zərbə vurur, gələcəkdə problemlərin yaranacağına zəmin hazırlayır.

Hazırda milyonlarla informasiya resursunu özündə birləşdirən 2001-ci ildən fəaliyyətə başlayan Wikipedia adlı nəhəng «İnternet ensiklopediya»sında yaxşı təmsil olunmaq həmin dövlətlərin siyasətində mühüm yer tutur. Wikipedia-nın populyarlığına görə virtual məkanda mövcud olan 170 milyon veb-sayt arasında ilk beşlikdə qərarlaşması da onun imkanlarının həddən artıq genişliyinə dəlalət edir. İnternet mühitində son dərəcə nəhəng şəbəkəyə malik olan bu portalda 268 dildə məqalə və audio-video materiallar toplanmışdır. Portalda ayrı-ayrı dillərdə 12 milyona yaxın məqalə, multmedia resursları, o cümlədən ingilis dilində 2 milyon 600 min, alman dilində 837 min, fransız dilində 737 min, polyak dilində 560 min, italyan dilində 522 min, rus dilində 338 min, türk dilində 120 min kontent yerləşdirilmişdir. Bu rəqəmlər ayrı-ayrı dövlətlərin virtual dünyada nüfuz imkan-

larının göstəricisi kimi maraq doğurur. Müqayisə üçün qeyd edək ki, Böyük Sovet Ensiklopediyasında 95 min, Britanika Ensiklopediyasında 120 min məqalə yer alır. Orta hesabla bir ayda bütün dünya üzrə 275 milyon adam həmin portala müraciət edir, məlumat götürür, müxtəlif informasiyalarla maraqlanır. Ümumiyyətlə, il ərzində bu müraciətlərin sayı 48 milyarda çatır. Bunun da nəticəsində ayrı-ayrı millətlər, ölkələrlə bağlı təəssürat yaranır, müəyyən tarixi həqiqətlər haqqında fikir formalaşır.

Wikipediada Azərbaycan dilində 20 minə yaxın kontentin olması təqdirəlayiqdir. Belə ki, bu göstərici 2007-ci illə müqayisədə təxminən 6 dəfə çoxdur. Amma bununla yanaşı, Azərbaycan haqqında dolğun informasiyaların, məqalələrin, audio-video materialların Wikipediaya daxil edilməsi yeni dövrün tələbi kimi qarşımızda durur. Unutmamalıyıq ki, Wikipediada hansı millət yaxşı təmsil olunursa, o, öz tarixini, mədəniyyətini, ədəbiyyatını, incəsənətini və s. daha yaxşı təbliğ edir, virtual dünyada özünü göstərən sərt rəqabətə tab gətirir.

Şübhəsiz, bu prosesdə təkcə dövlət qurumları, ayrı-ayrı təşkilatlar və vətəndaşlar deyil, həm də dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimiz də yaxından iştirak etməlidirlər. Wikipediada ölkəmiz, tarixi həqiqətlərimiz, milli-mənəvi dəyərlərimiz haqqında təkcə Azərbaycan dilində yox, həmçinin dünya xalqlarının dillərində, xüsusən də, geniş yayılmış dillərdə çoxlu kontentlər yerləşdirilməlidir.

Əlbəttə ki, digər saytların yaradılması, dünya azərbaycanlılarının müxtəlif qrupları arasında on-layn forumların (gənclər, alimlər, yazıçılar və s.) keçirilməsi də məqsədəuyğun olardı. Fikrimizcə, dünya azərbaycanlılarının milli-mənəvi sərvətlərə çıxışının daha da yaxşılaşdırılması baxımından İnternet-televiziyanın yaradılması aktual layihələr sırasındadır. Belə ki, bu layihə çərçivəsində milli musiqi, kino, teatr və s. incilərini özündə toplayan yeni televiziya texnologiyası heç bir məkan və zaman məhdudiyyəti olmadan Yer kürəsinin istənilən ölkələrində yaşayan hər bir azərbaycanlının xidmətində olacaqdır.Ölkəmizdə uğurla formalaşan informasiya cəmiyyəti istiqamətində əldə olunan nailiyyətlər, həmçinin digər ölkələrdə İnternetin sürətli inkişafı bu layihələrin həyata keçirilməsi üçün real zəmin yaradır. Heç şübhəsiz, respublika Prezidenti, cənab İlham Əliyevin qayğısı nəticəsində ölkəmizdə formalaşan Elektron Azərbaycan da Virtual Azərbaycanla tamamilə inteqrasiya olunaraq vahid bir orqanizmə çevriləcəkdir.



İnternet dünyanın istənilən yerindən insanlara zəngin informasiya mənbələrinə çıxış yaradan yeganə vasitədir. Ondan müxtəlif qruplar, dövlətlər, o cümlədən diasporlar da öz məqsədləri üçün istifadə edirlər. Bütün bunlara görə qeyd etmək olar ki, informasiya-telekommunikasiya texnologiyaları diasporla əlaqələr üçün mühüm əhəmiyyətə malikdir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan diasporu ilə əlaqələrdə onun rolu bu günə qədər də tam aydınlığı ilə dərk olunmur. Azərbaycan diasporu da texniki nailiyyətdən istifadə edir. Diaspor icmalarının müxtəlif saytlar var. Bəri başdan qeyd edək ki, ümumiyyətlə, saytların məzmun və dizaynı tez-tez dəyişdirilə bilər. Bunun ən bariz nümunəsi, məzmunu gündəlik yenilənən xəbər saytlarıdır. Odur ki, burada saytlar haqqında verilən məlumatların hansı tarixdə olduğunun qeyd edilməsi də vacibdir. Dissertasiyada əks olunan məlumatlar saytların 2004-2005-ci illərə aid olan vəziyyətini əks etdirir. Diasporun internet saytlarına göz gəzdirərkən sadə müşahidədən müxtəlif nəticələrə gəlmək mümkündür.

Diaspor saytlarına ötəri baxış və məlumatların axtarılma üsulları, formaları və nəticələri.: İlk öncə onu qeyd edək ki, saytlar müxtəlif məqsədlidir. Bunlardan ilk öncə olaraq dövlət tərəfindən yaradılan saytları göstərmək olar. Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin www.diaspora.az, www.diaspora.gov.az saytları Azərbaycanda baş verən xəbərləri 3 dildə xaricdə yaşayan həmvətənlərimizə verməklə yanaşı

diaspora xəbərlərin də ölkə əhalisi üçün çatdırır. Onların arasında neytral informasiya verməyə çalışan saytlardan tutmuş, siyasi məqsədlərə xidmət edərək, birtərəfli, informasiya verən saytlar da vardır; www.diaspora-az.com saytı Belçikada həmvətənlərimizin saytıdır. O, Azərbaycan haqqında o qədər geniş məlumat verməsə də, vətənimizin aktual problemləri haqqında, milli mentalitet kimi məsələlərə həsr olunmuş publisistik məqalələrə malikdir, Azərbaycanda baş verən siyasi problemlərə münasibətdə isə neytraldır. www.virtualmonitor.org saytı RF-də yaşayan bir qrup həmvətənimizə məxsus olub məhz təbliğat xarakterli saytdır. Burada başlıca məqsəd ölkədaxili siyasi hadisələrin analizidir və informasiyada siyasi məqsədlərə xidmət edir. Saytda Azərbaycan, Dağlıq Qarabağ konflikti haqqında məlumat da verilir. Daha bir sayt - www.camah.org saytı isə ancaq cənubi Azərbaycan Milli Azadlıq Hərəkatının saytıdır və yalnız onun haqqında informasiya verir. Bu sayt Azərbaycan haqqında müxtəlif sahələr üzrə ensiklopedik məlumatlar verir. Etnoqrafiya, tarix, mədəniyyət, mətbəx, Dağlıq Qarabağ konflikti haqqında məlumatlar versə də, yuxarıda adı çəkilən saytdan fərqli olaraq, ölkəmizdə baş verən hadisələrin siyasi analizi və onlara hər hansı aspektdən qiymət verilməsi yoxdur. Bu kimi məsələlərə münasibətdə sayt neytraldır.

Saytların, demək olar ki, hamısında Azərbaycanda nəşr olunan elektron versiyalı qəzetlərin müvafiq versiyalarına istinadlar var. Saytların informasiya zənginliyi və məzmun istiqaməti də eyni deyil. Bu aspektdə onlar bir-birindən kəskin fərqlənir. Ümumrusiya azərbaycanlıları Konqresinin saytı belədir: www.rosazcongress.ru. Bu sayt Vətən haqqında müəyyən məlumatlar verdiyi halda, www. australia-azerbaiyan.hyremart.net saytı Azərbaycan haqqında adından başqa heç bir məlumat vermir: www.gunay.org saytı əsasən cənubi Azərbaycan problemlərinə diqqət yetirir və informasiya daha çox bu barədədir və ya başqa misal: www.azeri.ru saytının mədəniyyət səhifəsində yalnız vətənimizin görkəmli şəxsiyyətlərindən məlumat verildiyi hal-



da, www.az.ee saytının eyni adlı səhifəsində əsasən Bakıdakı abidələrin fotoqalereyası və cəmi ikicə şəxs - M. Şəhriyar, V. Arzumanlı barədə məlumat var.

Əksər saytlar bir neçə dildədir. Yönəldiyi auditoriyadan və diaspor icmasının yerləşdiyi ölkədən asılı olaraq onların hansı dillərdə olması da dəyişilir. Estoniyada yaşayan azərbaycanlıların saytı www. azeri.ee ingilis, rus, azərbaycan dilindən əlavə, həm də eston dilindədir. Azərbaycan dilində saytlara da rast gəlmək mümkündür; məs.: www.azeri.ru, www.rosazcongress.ru saytı yalnız rus və ingilis dillərindədir. Bu, xüsusilə də RF-də yaşayan icmalar üçün doğrudur. www.azerbaican.ru saytı isə yalnız ana dilimizdədir. cənubi azərbaycanlı diaspor icmalarının yaratdıqları saytların bəzən farsdilli variantına da rast gəlmək olar. www.tribun.com saytı belələrindəndir. Haşiyə çıxaraq qeyd edək ki, bu saytda həmçinin audioformatlı fayllar da var. Başqa sözlə desək, saytda əks olunan bir çox informasiyanı səs kimi də qavramaq olar. Bu formaya, ümumiyyətlə, diaspor saytlarında o qədər də rast gəlinmir.

Diasporun internet resursları arasında birbaşa xaricdəki soydaşlarımızın müxtəlif qruplarına yönələn saytlara da rast gəlmək olar. Bu cür saytlardan http//www.azerbaican.ru birbaşa xaricdə, xüsusilə də Rusiyada təhsil alan tələbələrə yönəlib. Burada tələbələr haqqında məlumatlar da sistemləşdirilir. www.azerbaicanis-congress.com saytının bir səhifəsi xüsusi olaraq uşaqlara həsr olunub və maarifləndirici, əyləndirici xarakter daşıyır. Saytların içərisində bəzən vətənpərvərlik hisslərindən qaynaqlanan öyrədici informasiyalara da rast gəlinir. Adı çəkilən saytda uşaqlara məhz latın və ərəb əlifbası, www.azeridilli-kurumu.com saytında isə ana dilimizin qrammatikasını öyrənmək imkanı var. www.azerivoice.org saytı da olduqca maraqlıdır. Burada diaspora xəbərləri ilə yanaşı forum və lobbiçilik məqsədi ilə məktub kompaniyalarına geniş yer verilir. Saytı Amerika Birləşmiş Ştatlarında əvvəllər dərc olunan «Aze-

rivoice» curnalının internet versiyasıdır.

Rusiyada tələbələr arasında daha poplulyar olan www.azeri.ru ve www.azerbaycan.ru sayıtlarıdır.

Amerika Birləşmiş Ştatlarında isə Amerika azərbaycanlılar cəmiyyətinin httr://usa.azeris.org saytı da diasporumuzun bu ölkədə informasiya işinin pis təşkil olunmadığını göstərir. Saytda eyni zamanda burada nəşr olunan «Azerbaican International» curnalı ilə də tanış olmaq olar. www.azer.com saytında yerləşən curnalı əsas link kimi ön səhifədə yerləşdirilib. Hollandiyada Azərbaycan diasporuna məxsus www.xazar.net saytı, www.indvandrerradio.dk Danimarkadakı Azərbaycan Mədəniyyət Ocağı və Danimarkadakı Azərbaycan saytı, Çexiyada www.diasrora.cz, Almaniyadakı www.asav.org və digər saytları misal olaraq göstərə bilərik.

Şrift problemi və problemin həlli yolları: Ana dilimizdə olan və ya Azərbaycan dili variantlı saytların böyük əksəriyyətində şrift problemi var.

Saytların azərbaycandilli variantlarında cənublu və şimali tərəfindən yaradılmasından asılı olaraq bəzən söz fərqləri hiss edilir; məs.: cənubi Azərbaycan mənşəli diaspor icmalarının yaratdıqları saytların fars mənşəli «şomare» (nömrə) sözünə, türk mənşəli «bilyard» (universitet) sözünə və s. rast gəlmək olar. İntermet resursları Azərbaycan diasporunun aktiv informasiya mübadiləsi üçün effektiv vasitədir. Onların nöqsanlarının aradan qaldırılması, məsələn, heç olmasa şriftlərinin standartlaşdırılması saytlarının oxunaqlığını artırar və diaspor üzvləri arasında informasiya mübadiləsini yaxşılaşdırar. Saytlar Azərbaycan diasporunun ən azından internetlə məşğul hissəsinin maraqlarının bir qismini müəyyən etməyə, məqsədyönlü təbliğat aparmağa imkan verir. Saytlar vasitəsilə virtual məkanda təbliğat sferası yaratmaqla diasporun vətən haqqında tnformasiya tələbatını ödəmək olar. Bundan başqa, ondan maarifləndirici məqsədlərlə istifadə etməklə diaspor üzvlərinin ana dilini, vətənin tarixini öyrənməsinə imkan yaratmaq mümkündür.



Bunlardan başqa İnformasiya sahəsində diasporumuzun əldə etdiyi digər uğurlar qəzet, curnal, TV və radio kanalların yaradılması istiqamətində baş verir. Bu gün dünyanın müxtəlif ölklərinə səpələnən soydaşlarımızın təsis etdikləri mətbu orqanları internet saytları kimi Azərbaycan həqiqətlərin dünya ictimaiyyətinə çatdırmaqda əvəzsiz rol oynayır. Diasporla iş Üzrə Dövlət Komitəsinin rəsmi məlumatına əsaslanaraq Rusiyada ümumi tiracı bir milyon nüsxədən çox olan qəzetin nəşr edilməsini qeyd edə bilərik. Bundan əlavə olaraq Ukrayna, Moldova, Belorusiya, Böyük Britaniya, Qazaxıstan, Özbəkistan, Gürcüstan, ABŞ, Norveç, İtaliya, İspaniya, Polşa, Belçika, Bolqarıstan, Fransa, İsveç, Estoniya, Finlandiya, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Türkiyə və Niderlandda yaşayan soydaşlarımızın 27 qəzeti, 10 curnalı, 3 radio və 2 TV kanalı yaratıqlarını qeyd edə bilərik.Rusiyada fəaliyyət göstərən «İnter-Azərbaycan» və ABŞ-də yaradılan «Gün Az TV» kanalları informasiya-təbliğatçılıq işində daha aktivlik nümayiş etdirirlər. Bunlardan əlavə olaraq soydaşlarımızın əməkdaşlığı nəticəsində dünyanın nüfuzlu TV kanallarından olan «TQRT», «TRT», «BBS», «SKY» və digərləri vasitəsilə Azərbaycan barədə həqiqətlər beynəlxalq ictimaiyyətə təqdim edilib.Bütün bunların və daha neçə-neçə effektiv işin reallaşdırılması üçün dəqiq və məqsədyönlü layihələr tələb olunur. Düşünürük ki, diasporla əlaqələrin təşkilində məsul dövlət orqanları internetin geniş imkanlarından öz fəaliyyətlərində yararlanacaqlar və virtual diasporu real diaspora qədər vacib amilə çevrilə biləcəklər.

## ƏDƏBİYYAT


1. Алгулиев Р.М., Алиев А.Г. Экономические особенности информационных технологий. Баку, "ЭЛМ", 2002, 56с.
2. Алиев А.Г. Проблемы информатизации общества и экономики. Баку, "ЭЛМ", 2003, 460 стр.
3. Алиев А.Г. Теоретико-прикладные аспекты информатизации гуманитарных отраслей. Баку, "ЭЛМ", 2006, 474 стр.
4. Каймин В.А. Информатика. Учебник. М.: ИНФРА-М, 2000.
5. Могилев А.В. Информатика. Учебник. М.,2001, 810 стр.
6. Информатика. Учебник. Под ред. Симоновича С.В. - М.: Питер, 2003, 639 с.
7. Алгулиев Р.М., Алиев А.Г. Общее состояние и направления развития ИКТ в Азербайджане. Материалы 1-го МРФ. Харьков, 2002.
8. Алиев А.Г. Формирование цифровой экономики. Труды Респ. Науч. Конф. "Современ. Пробл. информатизации, Кибернетики и ИТ". III том. Баку, 2003.
9. R.M.Əliquliyev, Ə.Q.Əliyev. İqtisadi proseslərdə informasiya texnologiyaları. Bakı, Elm, 2002, 48 səh
10. Azərbaycan respublikasında inkişaf naminə İKT-ın tətbiqi və inkişaf etdirilməsinin milli strategiyası (İKTMS). 2003-2012-ci illər. Bakı 2003. www.tqdk.az, http://www.nicts.az
11. Azərbaycan respublikasında rabitə və İT inkişafı üzrə Dövlət Proqramı. 2005-2008-ci illər (Elektron Azərbaycan). Bakı 2005. http://www.mi




*Лала МОВСУМОВА*

# ГРАЖДАНСКОЕ ОБЩЕСТВО В КОНТЕКСТЕ ВЗАИМОДЕЙСТВИЯ ГОСУДАРСТВА И ОБЩЕСТВА

***Ключевые слова:*** общество, государство, класс, Азербайджан, религия

Одной из актуальных задач современной политики Азербайджанского государства является формирование и развитие гражданского общества, его ценностей.

Корни самого понятия «гражданское общество» прослеживаются уже в трудах Цицерона и древнегреческих философов. Раскрывая значение гражданского общества в своих трудах, они преимущественно имели в виду само государство.

Сама же идея гражданского общества впервые появилась в середине XYII века. Немецкий философ, ученый и общественный деятель Г. Лейбниц (1646-1716 г.г.) в своих трудах впервые употребил термин «гражданское общество». Концепция гражданского общества в его трудах базировалась на идеях естественного права и общественного договора.

Становлению гражданского общества, его функционированию достаточно большое внимание уделялось и широко разрабатывалось лучшими представителями европейской науки. Такими как Т. Гоббс, Дж. Локк, И. Кант(1, с.95), Г. Гегель(2, с.24, 211), К. Маркс и др., которые рассматривали гражданское общество как близкого к государству, но отделенного от него сферу, в котором граждане объединяются в соответствии с собственными желаниями и интересами.

В современной научной мысли общество рассма-

тривается как совокупность гражданского общества и государства, как основного института политической власти. Гражданское общество выступает здесь в роли связующего звена между гражданином и государством. В развернутом виде гражданское общество сегодня существует в странах Европы и США. В нашей же стране гражданское общество только начинает складываться.

Хотя исторически гражданское общество, несомненно, зародилось в Западной Европе, его нормы и повседневная практика имеют отношение к консолидации демократии в любом культурно-географическом регионе мира, при условии, что акторы стремятся к демократии современного и либерального типа. Иначе говоря – к конституционной представительной демократии, контролируемой посредством многопартийных, состязательных выборов, терпимой к социальным, этническим различиям и уважающей права собственности (3). Гражданское общество отнюдь не является непроизвольным или бездумным порождением капитализма, следствием урбанизации, грамотности, социальной мобильности и эмпатии, словом – прогресса, хотя все названное и способствует его разрешению. Напротив, для его появления требуется артикулированная политика со стороны государственной власти и определенные привычные нормы жизнедеятельности (4;с.16-27).

Особый интерес в этой связи приставляет предложенная канадским исследователем, зав.кафедрой политологии Объединенного Университета Северной Британии и Колумбии, профессором Д.Ф. Янгом концепция гражданского общества (5). Автор анализирует концепцию, в которой подчеркивается слово «гражданство», особенно его ответственность и его права, а так же концепцию, в которой особый упор делается на сеть общественных ассоциаций и групп (формальных и не-



формальных), которые существуют между личностью и государством. На этом фоне исследователь предлагает свою концепцию. Она включает:

– либеральный подход. Группы и ассоциации играют роль бастиона, то есть защищают права человека от власти и государства;

– общинный подход. Группы и ассоциации играют роль посредника, который помогает слиянию личных интересов с общественными;

– самоуправляемый подход, подразумевающий практику, практику совместной работы, развития доверия человека и социального капитала.

Исследователь, анализируя все три разных подхода к рассмотрению гражданского общества, подчеркивает их как достоинства, так и недостатки. По его мнению, только лишь объединив все три подхода, создавая между ними, так называемый баланс «существует настоящий шанс для развития гражданского общества».

Гражданское общество составляет сложную структуру. В него входят хозяйственные, экономические, семейно-родственные, этнические, религиозные и правовые отношения, мораль. Сюда так же входят не опосредованные государством политические отношения между индивидами как первичными субъектами власти, партиями, группами интересов и т.д.

Каким путем пойдет развитие государства - во многом зависит от уровня развитости гражданского общества. Постараемся же разобраться с сущностью гражданского общества, историей его возникновения и ролью, которое гражданское общество играет в политической жизни страны.

Гражданское общество - это негосударственная часть общественно-политической жизни; это совокупность общественных отношений, формальных и не-

формальных структур, обеспечивающих условия политической деятельности человека, удовлетворение и реализацию разнообразных потребностей и интересов личности и социальных групп и объединений.

Идея гражданского общества возникла в середине 17-го века. Впервые термин «гражданское общество» был употреблен Г. Лейбницем (1646 - 1716), немецким философом, ученым и общественным деятелем. Значительный вклад в разработку проблем гражданского общества внесли Т. Гоббс, Дж. Локк, Ш. Монтескье.

Концепция гражданского общества в работах этих мыслителей базировались на идеях естественного права и общественного договора.

Человек, как личность, стремится к свободе и реализации своих естественных прав. Но как существо общественное, человек не может жить вне общества и особенно вне государства, а, значит, реализация его естественных прав затрудняется государством, властью. Гражданское общество подразумевает добровольную передачу личностью государству своих прав, с одной стороны, а с другой - ограничение государственной власти в интересах реализации гражданами своих свобод. Главное условие действенности гражданского общества - добровольность и взаимность подобного договора между гражданами и государством.

Особое место в разработке концепций гражданского общества занимают идеи Г. Гегеля. По его мнению, гражданское общество это своеобразная стадия в диалектическом движении от семьи к государству. «Гражданское общество, - писал он, - есть дифференциация, которая выступает между семьей и государством, хотя развитие гражданского общества наступает позднее, чем развитие государства».

По Гегелю, гражданское общество включает рыночную экономику, социальные классы и политические институты и составляет комплекс частных лиц; деятельность гражданского общества регулируется правом и само оно прямо не зависит от государства.



Особый подход к проблеме гражданского общества у К. Маркса. Он рассматривает гражданское общество как сферу материальной, экономической жизни, как общественную организацию, развивающуюся непосредственно из производства и обращения. По Марксу, гражданское общество, это совокупность экономических, производственных отношений, которые соответствуют производительным силам общества и образуют базис государства. В гражданском обществе происходят революционные изменения: ликвидация частной собственности и эксплуататорских классов. Эти революционные преобразования приводят к тому, что владельцами средств производства становятся ранее угнетенные классы, исчезает эксплуатация человека человеком и происходит отмирание государства - основного орудия угнетения.

В современной политологии общество рассматривается как совокупность гражданского общества и государства, как основного института политической власти. Гражданское общество выступает связующим звеном между гражданином и государством. В нем осуществляется повседневная политическая жизнь людей.

Среди ученых нет единого взгляда на происхождение гражданского общества.

Одни видят зачатки общества уже на первобытно-общинной стадии развития, когда начинают формироваться семейные и родовые общины.

Другие считают, что с появлением частной собственности и эксплуататорских классов, гражданское общество создает государство как орган господствующего класса.

Третьи считают, что гражданское общество появилось

как протест граждан против всевластия государства, как желание людей реализовать свои права и свободы.

Зачатки гражданского общества формируются путем возникновения простейших, немногочисленных неустойчивых объединений людей для совместного добывания пищи, строительства жилья, изготовления предметов быта и одежды, защиты от врагов и диких зверей.

Со временем, в связи с развитием производственной сферы жизнедеятельности, объединения людей становятся более многочисленными, функционально разнообразными, устойчивыми. Формируются общины, и люди понимают, что в рамках общины они могут обеспечить удовлетворение своих потребностей, а труд на пользу общины дает право участвовать в решении общинных дел. Гражданское общество, по существу, совпадает с общиной.

На определенной стадии своего развития гражданское общество создает государство для защиты своих интересов, содержит государственный аппарат, в определенной мере контролирует его, чему государство активно сопротивляется.

С прошествием времени гражданское общество добивается законодательного упорядочения и урегулирования отношений между ним и государством, вынуждает государство создавать определенные гарантии для наиболее обездоленных, устанавливать и поддерживать некоторый консенсус в обществе на основе базисных социальных ценностей: свобод, прав, экономической независимости человека.

Из ранее изложенного можно сделать вывод, что в современном Азербайджане только началось формирование гражданского общества, и некоторые его институты действуют реально. Однако становление гражданского общества в Азербайджане находится на начальной стадии своего развития.



Сущность гражданского общества сводиться к тому, что в нем каждый человек имеет право найти себе дело по душе, в котором он мог бы иметь успех. Гражданин появляется в обществе тогда, когда он раскрывается, как субъект властных прав, своих законных полномочий. Поэтому гражданское общество – это совокупность свободных, внутренне самостоятельных участников общего творческого процесса, который охватывает все сферы человеческой жизни и деятельности: экономику – производство; политику – законотворчество; духовность – культуру.

Таким образом, гражданское общество выступает как сфера реализации экономических, политических, социальных, культурных, религиозных и других интересов. Оно есть основой государства, которое в свою очередь, защищает принципы самоуправления всех негосударственных организаций. Становление гражданского общества представляет собой непрерывный процесс усовершенствования гражданина, общества, власти, политики, права, обеспечивает условия для утверждения человеческой личности, ее национального достоинства.

В заключении считаем важным отметить неоспоримую роль взаимосвязанных общественных сил «гражданское общество-государство-религиозные институты», у каждой из них своя особая направленность, различная природа человеческого духа, практики и общежития. Так, в практику гражданского общества входят тяготение к непринужденным формам повседневной самодеятельности и самовыражения людей, в круг интересов государства – стремление к четкой и формализованной институализации межчеловеческих связей, а в круг деятельности религиозных институтов в приоритете выступает устремленность людей к духовным ценностям. Все эти важнейшие измерения жизни современных людей естественно предполагает принцип взаимного уважения и взаимной соотнесенности.

## ЛИТЕРАТУРА

1. Кант И. Сочинения на нем. и рус. яз. Идея всеобщей истории во всемирно-гражданском плане. М., 1994, т.-1
2. Гегель Г. Сочинения. М.-Л., 1934, т.-7
3. Политология: словарь-справочник. Составитель проф. М.А. Василик, доц. М.С. Вершинин. – М., Гардарики, 2000
4. Шмиттер Ф. Размышления о гражданском обществе и консолидации демократии. Полис, 1996, № 5.
5. Янг Д.Ф. Доклад на международной научно-практической конференции «Свобода слова, свобода совести и право на объединение: международный и российский опыт реализации», посвященная 60-летию принятия Всеобщей декларации прав человека. Екатеринбург, 3-6 апреля 2008. www.rusoir.ru



*Şahin BAĞIROV*

# ELİTANIN FUNKSİYALARI VƏ POSTULATLARI

***Açar sözlər:*** Elita, siyasi elm, proses, postulat, plüralizm.

Müasir siyasi elmdə cəmiyyətdə elitanın mövcudluğu məsələsi birmənalı qəbul olunur. Elitologiyaya öyrənilmə obyekti kimi politologiya, sosiologiya, tarix və psixologiya sahəsində rast gəlinir. Əgər əvvəllər politoloji tədqiqatlarda liderlikdən", "xalq kütlələrinin rolundan" danışılırdısa, indi aparıcı rolu elita oynayır.

Bu bir faktdır ki, real siyasi proseslər cəmiyyətin inkişafı üçün vacib siyasi qərarlar qəbul edən, hakimiyyəti öz əlində cəmləşdirən azlığın – elitanın əlindədir. Amma politoloqların bəziləri "elita" terminini elmi saymırlar. Və fikirlərini belə əsaslandırırlar ki, əgər bu termin hakim sinfi bildirirsə, heç bir yeni məzmun kəsb etmir. Yəni əgər onun köməyi ilə cəmiyyətin sinif təbəqələşməsi səthi elita-kütlə haçalanması ilə əvəzlənirsə, doğru deyil, çünkü hakim yuxarı təbəqənin cəmiyyətin sinif sturukturu ilə, sosial-siyasi sistemin hakimiyyəti ilə əlaqəsini inkar etmir. Siyasi plüralizm nəzəriyyəsinin bəzi tərəfdarları bu terminin əleyhinə çıxırlar. Onlar elita anlayışının az mütəşəkkil cəmiyyətlər barəsində işlədilməsini mümkün sayır, "sənaye", xüsusən də "postsənaye" cəmiyyətinin siyasi sisteminin təhlili üçün məqbul hesab etmirlər. Hazırkı dövrdə idarə edən azlıq və idarə olunan çoxluğun cəmiyyətdə düzgün bölgüsü haqqında çoxlu müxtəlif konsepsiyalar mövcuddur. Bununla bərabər daim ironik yanaşmalar da mövcud olub. Həmçinin, bu yanaşmalarda aşağıdakı bədbin proqnozlar da yer alır:

– real həyatda elita hakimyyətin yüksək səviyyəsində yerləşir və kütləni siyasətə buraxmır.

– hakim elita vəzifəni özünə hakimiyyət, var-dövlət və

şöhrət qazanmaq üçün istifadə edir.

– elita ilə kütlə arasında böyük fərqlər var. Bu fərqləri aşmaq praktik olaraq mümkün deyil.

Qeyd edək ki, hakimiyyətin idarə olunan və idarə edənlərə bölünməsinin qarşısının alınması problemi çox qədimlərdə deyilmişdir. Bu ideya ilə çıxış edənlərlə bağlı**Konfutsi, Platon, Makiavellinin** adını çəkmək yetərlidir. Amma o dövrdə bu ideya özünə sosial dayaq tapmamışdır. İlk klassik elmi konsepsiyanı XIX əsrin sonu XX əsrin əvvəllərində **Qaetano Moska, Vilfredo Pareto, Robert Mihels** işləyib hazırlamışdı. Onların əsərlərində elitanın keyfiyyətləri, seçilmə kriteryaları və formaları, elitadaxili qarşılıqlı münasibətlər və kütlə ilə olan ünsiyyətləri, onun bilavasitə cəmiyyətdəki rolu xarakterizə olunur. Onlar istənilən cəmiyyətdə elitarliğın, onun idarə edən azlığa və idarə olunan çoxluğa bölünməsinin qaçılmaz olduğunu bildiriblər. Qeyd ediblər ki, hakimiyyət elitaya məxsusdur çunki o, xususi keyfiyyətləri ilə seçilir.

Belə nəticəyə gəlmək mümkündür ki, elita cəmiyyətin yüksək idarəçilik istedadına malik qrupudur. Elita yüksək idarəçilik keyfiyyətinə malik, əsasən təbii seçilmiş şəxslərin nəticəsində yaranır.Elita nəzəriyyəsinin vətənini İtaliya hesab etmək olar. Burada bir-birindən asılı olmayaraq Q.Moska və V.Pareto cəmiyyətin elitarlığı konsepsiyasının əsasını qoymuşdular. Siyasi elita anlayışının ilk elmi izahını isə Q. Moska vermiş, elitanı„daha məhsuldar və xüsusi insan qrupu" kimi təyin etmişdir. O, yazırdı: "İnsanlıq tarixi - bu tez-tez dəyişən elita tarixidir, biri yüksələrkən digəri enişə keçir". Həmçinin, bunun səbəbini elitanın psixologiyasının dəyişməsində görürdü. Ona görə də bu, psixoloji yanaşma adlanırdı. R.Mihells isə elita problemində hakimyəti və onun təşkilatlanma prinsipini qabardırdı. Adı çəkilən alimlər makiavellist məktəbin nümayəndələri hesab edilirdi və bu məktəb elitaya yanaşmada reallıq baxımından aşağıdakıları təsdiq edirdi:

– istənilən cəmiyyətə elitarliq xasdır.



– elita xüsusi siyasi və təşkilati keyfiyyətləri ilə xarakterizə olunur.

Sonrakı müxtəlif fərqli nəzəri yanaşmalarda isə X.Orteqa-i-Qasset, A.Toynbi, Y.A.Şumpeter, K.Mannqeym, Ç.R.Mills, Q.Lassuel və başqaları iştirak etmişlər. Onların da fikirlərindən belə qənaətə gəlmək mümkündür ki, kütlə elitanın hakimiyyət hüququnu və onun legitimliyini tanıyır. Odur ki, elita bir-birini hakimyyət uğrunda mübarizə zamanı əvəzləyir, çünki heç bir qüvvə hakimiyyəti könüllü təhvill verməyə müncər olunmayıb. Bu baxımdan demokratiyanı da seçkilər zamanı hakimiyyət uğrunda mübarizə aparan namizədlərin rəqabət meydanı hesab etmək mümkündür. Əslində elitanın formalaşması demokratiyanın prinsiplərinə zidd deyil. Məhz bu baxımdan elita hökmranlıqla yox, bilavasitə kütləni seçkilərdə qazandığı könüllü razılıq əsasında idarə etməlidir. Müasir dövrdə elita nəzəriyyəsinin müxtəlif istiqamətləri mövcüddur. Elitanın "Dəyər", "Demokratik elitizm", "Plüralist elita", "Solliberal elita nəzəriyyəsi" və s. elitanın müasir nəzəriyyələri hesab olunurlar. Bu nəzəriyyələrin hər biri xüsusi siyasi əhəmiyyət kəsb etdiyindən siyasi elitanın öyrənilməsi də xüsusi aktuallıq kəsb edir. Ümumiyyətlə, **siyasi elita** hakimiyyəti öz əlində cəmləşdirən, cəmiyyət həyatı üçün vacib qərarlar qəbul edən imtiyazlı qrupdur. Müasir cəmiyyətlər daxili ictimai -siyasi bətni müxtəlif diferensial quruluşlu, amma inteqratif siyasi elita ilə xarakterizə olunur. Siyasi elita bütün cəmiyyətlərə və dövlətlərə xasdır. Onun varlığı aşağıdakılarla şərtlənir:

1) İnsanların psixoloji və sosial qeyri-bərabərliyi, onların siyası həyatda qeyri-bərabər imkanları, istəkləri və fəaliyyətləri;

2) Qanuni əmək bölgüsü, hansı ki, peşəkar əmək tələb edən, əməyin efektifliyini təmin edən şərait kimi;

3) İdarəçiliyin yüksək ictimai əhəmiyyəti və onun stimullaşdırılması;

4) Müxtəlif növlü sosial idarəçiliyin əldə olunması üçün

geniş idarəçilik fəaliyyətindən istifadə etmək, məlumdur ki, siyasi idarəçilik əməyi birbaşa dəyər və resursların təyinindən asılıdır;

5) Siyası rəhbərlər üzərində ümumi praktik idarəçiliyin mümkünsüzlüyü;

6) Geniş xalq kütlələrinin siyasi passivliyi, adətən siyasi sferaya aid olmayan həyati maraqlar.

Əgər müxtəlif nöqteyi-nəzərləri ümumiləşdirsək, onda belə şərh vermək olar ki, siyasi elita elə bir insan qrupudur ki, cəmiyyətdə yüksək vəzifəyə, hakimiyyətə bu və ya digər sferada aktiv siyasi fəaliyyətə və nüfuza malikdir.

Verilən fikirdə iki əsas məsələni qeyd etmək lazımdır. Birincisi, "siyasi elita" və "hakim elita" özündə bilavasitə dövlət işlərində iştirak edən müxtəlif qrupları birləşdirir. Bura siyasi, iqtisadi, hərbi, ideoloji və b.növ elita daxildir. İkincisi, hakim elitanı təşkil edən digər qruplardan fərqli olaraq, siyasi elita bilavasitə siyasi hakimyyətdə iştirak edir. Deməli, siyasi elita dövlət hakimyyətini və hakim vəzifələri öz əlində cəmləşdirərək, cəmiyyəti idarə edən qrup, ictimai təbəqədir. Bu, əsasən yüksək çəkiyə, hakim funksiyalara və vəzifəyə malik peşəkar siyasətçilərdir. Müasir dövlətlərdə siyasi elita monarxlar, prezidentlər, baş katiblər, baş nazirlər, nazirlər, qanunverici və icraedici orqanların rəhbərləri, deputatlar, ali məhkəmənin üzvləri, ştat qubernatorları, hakim strukturların başçıları, əyalətlərdə, regionlarda, yüksək diplomatik korpuslarda və b. təmsil olunur. Vaxtilə bəzi qərb ölkələrində (o cümlədən ABŞ, Böyük Britaniya, AFR) fəal yaş həddi 50-55-dən 60-a qədər olan şəxslərin 80%-i bir-iki yüksək təhsil müəssəsi bitirmiş, əksər hissəsi iri sahibkarlar idi.

Siyasi elita hakimiyyətin əsasına malik insanlar qrupudur. O, mürəkkəb quruluşa və daxili müxtəlifliyə malikdir. Siyasi elitanın daxili bölgüsü şərti olaraq hakim funksiyaların həcmindən asılıdır.Verilmiş şərt əsasında aşağıdakı növ və ya səviyyələr fərqlənir: yüksək, orta, inzibati. Yüksək



siyasi elita özündə qanunverici, icraedici və məhkəmə hakimyyətinin yüksək vəzifələrini tutmuş rəhbərlər (birbaşa prezidentin əhatəsi, baş nazir, parlament spikerləri, hakim partiya rəhbərləri, parlamentdəki siyasi fraksiyalar) daxildir. Orta siyasi elita çoxlu sayda seçilmiş vəzifəli şəxslərdən: parlamentarilərdən, senatorlardan, deputatlardan, qubernatorlardan, icra hakimlərindən, müxtəlif siyasi partiyaların liderlərindən, ictimai-siyasi hərəkat rəhbərlərindən, seçkiyə dair birliklərin rəhbərlərindən ibarət olur. İnzibati elita (buna bürokratik elita da deyilir) - bu dövlət məmurlarının yüksək təbəqəsidir. Hansı ki, nazirliklərdə, departamentlərdə yüksək vəzifələr tuturlar. Siyasi elitanın sosial taleyi ilk öncə yerinə yetirdiyi funksiyalardan aslıdır.Onlar müxtəlif, mürəkkəb və təbii ki, böyük məsuliyyət deməkdir. Məhz məsuliyyət belə bir sual ətrafında düşünməyi vadar edir ki, siyasi elitanın funksiyası nəyə əsaslanır? Cavab cox asan görünə bilər. Siyasi elitanın funksiyalarının mahiyyəti və sərhədləri ölkə konstitusiyası ilə təyin olunur. Belə ki, ölkələrdə siyası hakimyyətin siyasi stabilliklə xarakterizə olunan legitimliyi yaranır. Ancaq real həyatda konstitusiya və real hakimiyyət arasında ayrılıq hec də az deyil. Belə vəziyyət minimum iki halda yaranır:birincisi, ölkədə siyasi vəziyyət dəyişəndə (keçid dövrü) və bu dəyişikliklər konstitusiyada öz əksini tapmayanda. İkincisi, konstitusiyadan imtina edəndə. Məsələn, SSR-i konstitusiyasında hakimiyyət sovetlərə məxsus olsa da real siyası mənzərə bunu təsdiq etmirdi. Qeyd olunan hallar siyasi elitanın yerinə yetirdiyi konkret funksiyaların öyrənilməsində vacib hesab olunur. Bu funksiyalar yetərincə çoxdur.Onlardan ən vacibləri: strateji, kommunikativ, təşkilati, inteqrativ. Deyilən funksiyallardan birinci yerdə strateji funksiya durur.Onu mahiyyəti ictimai inkişafı təmin edən siyasi fəaliyyət proqramları, strategiya və taktikaların hazırlanmasıdır. Burada cəmiyyətin radikal dəyişim tələbatına uyğun yeni ideyalar, strategiyalar, islahatların keçirilməsi üçün konsepsiyalar yaranır. Strateji funksiya tam mənada siyasi elitanın yüksək

səviyəsində, yəni parlamentarilər, nazirlər kabinetinin üzvləri, ekspertlər, məsləhətçilər, prezident köməkçisi tərəfindən reallaşdırıla bilər. Strateji elitanın uğurlu şəkildə reallaşdırılması yalnız siyasi kursun hazırlanması zamanı cəlb olunmuş kadrların keyfiyyəti ilə təyin olunmur. Bu, həm də ölkənin ictimai fikrindən və bu fikirlərin siyasi qərarların qəbulundakı əksolunma vəziyyətindən asılıdır. Şübhəsiz, söhbət siyasi elitanın kommunikativ növündən gedir. Bu növün başlıca məqsədi siyasi proqramlarda əhalinin müxtəlif təbəqəsinin sosial qruplarının maraq və tələbatlarının nə dərəcədə öz əksini tapdığını və praktik fəaliyyətdə reallaşdırıldığını izləməkdir. Bu funksiyanın ən mühüm üstünlüyü müxtəlif sosial cəmiyyətlərin əhvalını görmək və ictimai fikrin müxtəlif həyati məsələlərə görə dəyişməsinə tez və dəqiq reaksiya göstərməkdir.

Müxtəlif sosial qruplarla sıx əlaqələr yaratmaq məqsədi ilə hər bir ölkədə siyasi elita təmsilçiləri müntəzəm olaraq ölkə daxilində səfərlər təşkil edirlər.

Siyasi elitanın əsas funksiyalarından biri də təşkilati funksiyadır. Siyasi elita bütün dövrlərdə kütləni təşkilatlandırmaq ehtiyacı hiss etmiş və edəcəkdir. Potensial siyasi elita arasında daha effektivi odur ki, öz proqramının kütlələr tərəfindən dəstəklənməsinə nail olsun.

Qeyd edildiyi kimi "hakim elita" anlayışı, siyasi elita anlayışından daha genişdir. Onu şərtləndirən əsas xüsusiyyətlər cəmiyyətdə yüksək dövlət vəzifələrində, siyasi strukturlarda, iqtisadiyatda, hərbi komplekslərdə və mədəniyyət sahəsində təmsil olunmasıdır. Çünki birbaşa siyasi idarəçilikdə iştirak etməsə də cəmiyyətin bu hissəsi öz peşəkar sahələrində yüksək göstəricilərə və nəaliyyətlərə malikdirlər.

Siyasi elitadan fərqli olaraq, hakim elita özündə iqtisadi, mədəni, ideoloji, elmi, informasiya və hərbi elitanı birləşdirir.

İqtisadi elita iri kapital sahibkarlarını özündə birləşdirən sosial təbəqədir. İqtisadi elitanın qəbul etdiyi qərarlar, insanların həyatına hakimiyyətin verdiyi qərarlarından heç də az təsir göstərmir. Mədəni elita daha nüfuzlu və tanınmış incəsənət



xadimlərini, ədəbiyyat nümayəndələrini, yaradıcı şəxsləri özündə birləşdirir. Elmi elita intelektual elitanın daha istedadlı hissəsini özündə birləşdirir. Onun rolu elm və texnikanın inkişafı ilə təyin olunur.

Hərbi elita-hakim elitanın əsas hissəsidir. O, cəmiyyətin həyatında və siyasi proseslərdə mühim rol oynayır.Baxmayaraq ki, hərbi elitaya müstəqil qrup kimi baxılmır, hər halda onun bir hissəsi siyasi elitaya aid olur. Qeyd olunmalıdır ki, siyasi elitanın təsir dərəcəsi siyasi rejimin xarakterindən, ölkənin hərbiləşdirilmə səviyyəsindən asılıdır

## ƏDƏBİYYAT


1. Məmmədzadə İ.R. Bir daha fəlsəfə haqqında, Bakı, 2012, «Təknur», 213 səh.
2. Ашин Г.К, Охотский Е.В. Курс элитологии. М.: Спортакадемпресс, 1999. -368 с.21.
3. Ашин Г.К., Понеделков А.В. Основы политической элитологии. М., 1999. -304 с.
4. Ашин Г.К., Понеделков А.В., Игнатов В.Г., Старостин А.М. Основы политической элитологии: Учебное пособие. М.: ПРИОР, 1999. - 304 с.11
5. Ашин Г. Правящая элита и общество // Свободная мыслй. 1993. - № 7. - С. 58-69.
6. Ашин Г.К. Рекрутация элит // Власть. 1997. - № 4. - С. 25-31.
7. Ашин Г.К. Смена элит // Общественные науки и современностй. 1995. № 1.-С. 40-50
8. Вебер М. Политика как призвание и профессия. Текст./М.Вебер: сб.: Избранные произведения. М.: Прогресс. 1990. - 740 с.
9. Вебер М. Избранное. Текст./М.Вебер. Образ общества. М.: Юрист, 1994.-218 с.
10. Вебер М. Избранное. Образ общества. -М.: Юрист, 1994. 704 с.
11. Гаман-Голутвина О.В. Политические элиты России. Вехи исторической эволюции. М.: Интеллект, 1998. - 416 с.

*Davud HƏŞİMOV*

# SİYASİ İNSTİTUTLAR SİYASİ SOSİOLOGİYANIN TƏDQİQAT OBYEKTİ KİMİ

***Açar sözlər:*** dövlət, siyasət, siyasi təsissat, hüquq.

Siyasi sosiologiyanın kateqoriyası olan dövlət xüsusi siyasi təsisat olmaqla cəmiyyətin siyasi sisteminin özəyini təşkil edir. O, siyasi sistemin bütün əlamətlərini və funksiyalarını özündə birləşdirir. Dövlət digər sosial və funksiyalarını özündə birləşdirir. Dövlət digər sosial təsisatlardan keyfiyyətcə fərqlənir. Onun xüsusiyyətləri başqa təsisatlarla ilk növbədə vətəndaş cəmiyyəti ilə müqayisədə üzə çıxır.

Dövlət mürəkkəb sosial fenomen olduğuna görə onun mənşəyi və mahiyyəti barədə təsəvvürlər də birmənalı deyil, ziddiyyətlidir. Qərb tədqiqatçıları dövlət probleminin öyrənilməsinə xeyli elmi iş həsr etmişlər. Nəticədə dövlətin mahiyyət politoloji səpgidə belə bir ümumi təriflə səciyyələndirilmişdir.

Dövlət siyasi birlik olmaq etibarilə müəyyən struktura malik olan, siyasi hakimiyyətin müəyyən təşkili ilə səciyyələnən və müəyyən ərazidə sosial proseslərin tənzimlənməsini təmin edən xüsusi təsisatdır.

Dövlətin mahiyyəti barədə müasir mülahizələr iki istiqamət kəsb edir. Birinci istiqamət siyasi fikir tarixinndə mövcud olan klassik ənənələrə, təsəvvürlərə (Aristotelin, Hobbsun və Russonun ideylarına) əsaslanır. Belə halda dövlət cəmiyyətin, onun siyasi varlığının təşkilinin zəruri forması kimi nəzərdən keçirilir. Əlbəttə, bu cür təsəvvürlərdə dövlət cəmiyyətin özü ilə eyniləşdirilir. Ikinci istiqamət isə dövlətin təsisatlaşmış tərəfindən xüsusi diqqət yetirilməsilə səciyyələnir. Belə mülahizələrə görə dövlət başlıca olaraq normalar sistemidir və onun məzmunu isə cəmiyyətdə adamların davranışını müəyyən etməkdən ibarətdir.

Hakimiyyət münasibətləri bu və ya digər formada cəmiyyət həyatının bütün sferalarına-mənəvi, istehsal, ailə və digər ictimai sferalara xasdır. Siyasi hakimiyyət isə cəmiyyətin siyasi sistemini əmələ gətirən xüsusi vasitəsilə həyata keçirilir. Həmin təsisatlar içərisində dövlət mərkəzi yer tutur.

Xeyli yüzilliklər ərzində dövlət təsisatlarının inkişafı ilə yanaşı, dövlət, onun rolu, funksiyaları və ya ən yaxşı siyasi quruluş formaları barədə təsəvvürlər də dəyişilmişdir. Antik dövrün mütəfəkkirləri dövlətin meydana gəlməsinə adamların birgə yaşayış qaydalarının inkişafının vıə mürəkkəbləşməsinin təbii prosesi kimi diqqət yetirmişlər. Aristotel belə güman edir ki, ilk başlanğıcda adamlar ailədə birləşir, sonra bir neçə ailə kənd şəkilində təşkil olunur və bu prosesin başa çatdığı mərhələdə vətəndaşların birgəyaşayış forması kimi dövlət yaranır, vətəndaşlar mövcud siyasi quruluşdan istifadə etməklə qanunun hakimiyyətinə tabe olurlar. Aristotel yazırdı: bir neçə kənddən ibarət olan cəmiyyət başa çatmış, tamamilə müstəqil olan və həyatın rifahının təntənəsi üçün mövcuddur. Buradan belə qənaətə gəlmək olar ki, ilk ünsiyyət kimi hər cür dövlət də təbii yaranmanın məhsuludur. Aristotelin təsəvvürünə görə insan öz təbiəti etibarilə siyasi varlıqdır. O, «Siyasət» adlı əsərində yazırdı: «təbiət bütün adamlara dövlət ünsiyyətinə can atmağı bəxş edib. Bu ünsiyyəti kim birinci təşkil etsə bəşəriyyətə səadət gətirmiş olar. hər şeyi başa düşən insan mövcud canlılardan ən kamilidir, əksinə qanun və hüquqdan kənarda yaşayan insan isə hər şeydən daha pisdir. Ədalət anlayışı dövlət haqqında təsəvvürlərlə bağlıdır. Buna görə ədalətliliyin meyarı olan hüquq siyasi ünsiyyəti tənzimləyən normadır».

Müasir formada olan dövlət uzun tarixi inkişafın nəticəsidir. Tarix elminə məlum olan ən qədim dövlət eramızdan əvvəl VI-minillikdə Mesopotomiyada (köhnə dünyada) Nil və Hind vadilərində qərarlaşmışdır, Yeni dünyada isə bizim eradan əvvəl I minillikdə Meksikanın cənubunda bərqərar olmuşur.Ümumiyyətlə, cəmiyyətin inkişafının müəyyən mərhələ-

sində dövlət təşkilatına keçid tədqiqatçılar tərəfindən qədim dövrdəki sivilizasiyanı təzahürü kimi qiymətləndirilir.

Antik dövrdə dövlətin təşəkkülünün bir sıra sosial amillərlə, xüsusilə ictimai əmək bölgüsü ilə əlaqələndirilən mütəfəkkirlərə də təsadüf olunur. Dövlətin yaranmasında xüsusi mülkiyyətin roluna mühüm əhəmiyyət verən Platon onun meydana gəlməsini ictimai əmək bölgüsünün inkişafı və cəmiyyətdə müxtəlif zülmlərlin (əhali qruplarının) təzaührü ilə əlaqələndirirdi. Dövlətin yaranmasına və mahiyyətinə dair teoloji, patriarxal, ictimai müqavilə, təbii hüquq nəzəriyyələri və marksist konsepsiya maraq doğurur. Elmi ədəbiyyatda dövlətin yaranmasına təsir göstərən bir sıra amillərin roluna ciddi əhəmiyyət verilir. Bunların sırasında bir millətin digər milləti əsarət altına almasına (F. Oppenheymer, L.Qumploviç və digərləri), demoqrafik səbəblərə, psixoloji, antropoloji və digər amillərə daha çox üstünlük verilir.

Dövlətin inkişafı iki qlobal mərhələyə-ənənvi və konstitusiyası mərhələyə ayrılır. Ənənəvi dövlət adət və normalar əsasında kortəbii yola yaranır. Bu, vətəndaşlar (təbəqələr) üzərində təsisatlı qeyri-məhdud hakimiyyət olub bütün adamların bərabərhüquqlu olmasını inkar edir, şəxsiyyəti dövlət hakimiyyətinin mənbəyi kimi etiraf etmir. Ənənəvi dövlətin tipik nümunəsi monarxiyadır.

Konstitusiyalı dövlət insanları şüurlu idarəetmənin, tənzimlənmənin obyektidir. O, insanın həyat fəaliyyətinin bütün sferalarına tənzimləyici təsir göstərir. Bütövlükdə dövlətin inkişafında konstitusiyalı mərhələ onun cəmiyyətə və vətəndaşlara tabe olması ilə bağlıdır. Bir sözlə, konstitusiyasının təzahürü ilə əlaqədardır.

Orta əsrlərdə dövlətin mənşəyinə və mahiyyətinə dair təsəvvürlər daha da təkmilləşir və zənginləşir. Avropada burjua inqilabları dövründə dövlət və hüquq məsələlərinə dünyəvi mevqedən münasibət xeyli gücləndi. Mütləqiyyətə və kilsəyə qarşı mübarizədə burjua ideoloqları dövlət və hüquqla bağlı



bütün məsələlərin dindən ayrılmasına ciddi səy göstərirdilər. Burjua siyasi-hüquqi şüurunun mərkəzi ideyası kimi insanın təbii hüququ məsələsi xüsusi aktuallıq kəsb etdi (7,67).

Bu nəzəriyyəyə görə dövlət və hüquq Allah tərəfindən deyil, insan zəkasının qanunlarına uyğun olaraq insanların əsrlər boyu əldə etdiyi təcrübə prosesində ictimai müqavilə əsasında meydana gəlmişdir. Adamların təbiəti ilə şərtlənən insan zəkasının tələbləri təbii, hüququn yaranmasına gətirib çıxarır. Bu hüqüq isə dövlət tərəfindən müəyyən edilən qanunlara uyğunlaşdırılmalıdır. Əlbəttə, XVII əsrdə həmin ideya özlüyündə yenilik kimi qiymətləndirilməsə də onun konkret məzmunu keyfiyyətcə yeni çalarlara malik idi. Belə ki, təbii hüquq ideyasını irəli sürənlər zəka ilə şərtlənən və insanlara təbiətən xas olan müəyyən keyfiyyətləri nəzərdə tuturdular. Təbii hüquq ideyası inkişaf etdirilərək ictimai müqavilə konsepsiyası ilə tamamlanır.

İctimai müqavilə konsepsiyası sayəsində dövlətin suverenliyinin əsl subyekti barədə əvvəlki görüşlər qəti şəkildə dəyişdi. Həmin konsepsiya dövlət tərəfindən fərdlərin və cəmiyyətin həyatına məqsədyönlü müdaxilə edilməsində, hakimiyyəti idarə edənlərlə hakimiyyətə tabe olanlar arasında münasibətlərin düzgün təşkilinə imkan yaratdı.

Təbii hüquq nəzəriyyəsinin ilk görkəmli nümayəndəsi Niderland burjua inqilabının ideoloqu Hüqo Qrotsi (1583-1645-ci illər) olmuşdur. O, Fransada mühacirətdə olarkən yazdığı «Müharibə və sülh hüquq haqqında üç kitab» adlı sanballı əsərində dövlət və hüquq haqqında, xüsusilə beynəlxalq hüquq barədə burjua elminin əsaısnı qoyur. Qrotsi hüquq çoxcəhətli ictimai hadisə kimi nəzərdən keçirir. Onun nəzəriyyəsinə görə dövlətin və xüsusi mülkiyyətin olmadığı vaxt «təbii vəziyyət» mövcud deyildi. Bəşəriyyətin inkişafı gedişində əmlak bölgüsününün əmələ gəlməsi ilə adamlar öz aralarında razılığa gəlib dövləti yaratmışlar. Dövlətin mənşəyinə dair bu ictimai müqavilə nəzəriyyəsi mahiyyət etibarilə

dövlət haqqında feodal teoloji təliminə qarşı çevrilmişdir.

Təbii hüquq nəzəriyyəsini, dövlət haqqında təlimi Hollandiya filosofu Benedikt Spinoza (1632-1677-ci illər) daha da inkişaf etdirdi. Spinozanın siyasi təlimi onun fəlsəfi görüşlərinə əsaslanır. Həmin filosofun təlimində diqqəti cəlb edən cəhət budur ki, adamların başlıca məqsədi özünü qoruyub saxlamağa səy göstərməkdir. İnsanın hüququ onun təbiəti ilə şərtlənir. Təbii olaraq insan bütün hüquqlara malikdir.

Spinoza adamların siyasət, hüquq və dövlət sferasında fəaliyyətinin öyrənilməsinə mühüm diqqət yetirir. Onun siyasi-hüquqi hadisələrin dərk olunması metodikasını işləyib hazırlanması dövlət və hüquq haqqında elmdə irəli atılmış uğurlu addım idi.(4,78)

Həmin əlamətlərdən bəziləri dövlətlə yanaşı digər təsisatlara da xasdır. Buna görə alman sosioloqu M.Veber qeyd edir ki, dövləti müəyyənləşdirmək üçün məhz, onun yerinə yetirdiyi funksiyaları reallaşdıran spesifik vasitələrdən çıxış etmək lazımdır. Onun fikrincə, dövlət legitimliyə..., bir vasitə kimi zorakılığa əsaslanan hökmranlıq münasibətləridir. Dövlət siyasi idarəetmə vasitəsi olmaq etibarilə nə ideal rifah halı yaradır, nə də mütləq mənada şər qüvvə deyildi. Cəmiyyətdə iqtisadiyyatın normal fəaliyyətinin təmin olunması, təhsil sisteminin təkmilləşdirilməsi, adamların sosial müdafiəsinin təşkili, səhiyyənin, elmin və mədəniyyətin inkişafı məhz, xeyli dərəcədə dövlətin fəaliyyəti ilə bağlıdır.

Dövlət hakimiyyət nəzəriyyəsinin xüsusi problemlərindən biridir. Heç də təsadüfi deyil ki, hakimiyyət nəzəriyyəsinə dair biliklərin meydana çıxdığı qədim dövrdən indiyə qədər dövlət və hakimiyyətin nisbəti məsələsi siyasi elmlərin tədqiqat sferasında mərkəzi yer tutmuşdur. Dövlət cəmiyyətin siyasi sistemində başlıca rol oynamaqla adamların, ictimai qrupların, siniflərin, assosiasiyaların birgə fəaliyyətini və münasibətlərini təşkil edir, istiqamətləndirir və buna nəzarət edir.



Dövlət nəzəriyyəsi dövlətin yaranması, formalaşması və mövcudluğu ilə əlaqədar olan genetik və funksional problemlərin üç qrupunu əhatə edir(5,90)

1. ictimai;
2. sinfi;
3. dövlətin fəaliyyətinin siyasi-hüquqi və təşkilati –struktur əsası.

Bu üç meyardan asılı olaraq dövlət probleminin tədqiqinə tarixən üç mövqedən yanaşılmışdır:

1. Öz mənbəyini antik ənənlərədən əxz edən siyasi-fəlsəfi və siyasi-elmi yanaşma. Belə yanaşmada dövlət ümumi işlərin həlli vasitəsi kimi, idarə edənlərlə (hakimiyyətlə) xalqın (cəmiyyətin) münasibətlərinin tənzim olunması mənasında başa düşülür. Məsələn, Aristotel dövləti xalqın və insanın siyasi həyatını təmin edən vasitə kimi izah edirdi.

2. Sinfi yanaşma. Bu mövqeyə görə dövlət cəmiyyətin siniflərə bölünməsi məhsuludur, sinfi mübarizə silahlıdır (marksist konsepsiyası);

3. Hüquqi və təşkilati-struktur baxımından yanaşma. Belə nöqteyi-nəzərə görə dövlət hüquqi dövlət, hüquq və qanunun məniyyət həyatını və dövlətin özünün fəaliyyətini təşkil edən, siyasi sistemdə onun öz strukturunu müəyyənləşdirən təsisat kimi başa düşülür. Beləliklə, siyasi münasibətlərin dövləti əhatə edən üç cəhəti və buna müvafiq olaraq dövlətin üç funksiyası müəyyənləşdirilir: 1.Təşkilati. 2.İdarəedici. 3. Ümumi məqsədləri müəyyən edən. Üçüncü funksiyaya həyat fəaliyyətini qoruyub saxlamaq, ümumi rifahın əldə olunması, qayda-qanun yaradılması, dövlətlə xalq, millət,etnos arasında qarşılıqlı münasibətin tənzimlənməsi və sair daxildir.

Hər ictimai inkişaf mərhələsinin tarixi regional xüsusiyyətlər, məhdud sivilizasiyanın spesifikliyi (qədim şərq, yunan-roma sivilizasiyası, habelə orta əsrlərdə şərqdə və qərbdə mövcud olan sivilizasiya), ictimai-iqtisadi formasiyalar və digər amillərlə şərtlənən mürəkkəb, çoxcəhətli

prosesdir. Ümumiyyətlə, dövlətin mənşəyi və tarixi təkamülü bir neçə mərhələdən ibarətdir.

**I Mərhələ.** Dövlətin təşəkkülünün ilk mərhələsində ibtidai icma (hərbi) demokratiyasının qalıqları saxlanılır, antik avropada respublika və monarxiya, despot rejimləri və idarə formaları bir-birini əvəz edir. Tam şəkildə formalaşmayan (ümkəmməl olmayan) həmin cəmiyyətdə azad və azad olmayan adamlar mövcud idi. Başqa sözlə, cəmiyyət azad vətəndaşlardan ibarət idi ki, bunlar da öz növbəsində siniflərə (təbəqələrə) bölünürdü (azad sənətkarlar, kəndlilər, tacirlər, şərbiçilər, incəsənət nümayəndələri heykəltəraşlar, rəssamlar, şairlər və başqaları). Bu mərhələdə cəmiyyətdə idarə edən yuxarılar və tabelikdə olan aşağılar meydana çıxır (məsələn, qədim Romada patrisilər və pleybeylər və), həmçinin, əhalinin qullardan və tam azad olmayan adamlardan ibarət kateqoriyası yaranır ki, bunlar da vətəndaşlığa və siyasi hüquqa malik deyildilər. Belə mükəmməl olmayan, obrazlı desək, natamam cəmiyyətdə dövlətin iki başlıca funksiyası dəqiq müəyyənləşdirilir.: Birinci, azad adamların ümumi işinin qaydaya alınması. Ikinci, hökmranlıq-kölə halına salınmış adamalra təzyiq göstərilməsi. Hakimiyyətin ibtidai icma formasından miras qalan hökmranlıq (vojdizm) monarxiya və imperiya hakimiyyət formalarında, eləcə də dövlətin inkişafının sonrakı mərhələsində daha möhkəmləndirilir.

**II Mərhələ.** Dövlətin təşəkkülünün ikinci mərhələsi Orta əsrləri və Yeni dövrün başlanğıcını (XVI əsr) əhatə edir. Bu mərhələdə hökmranlıq və mülkiyyət münasibətlərinin üstünlük təşkil etdiyi gücü despo, monarxiya hakimiyyəti saxlanır, ölkə və vətəndaş (xalq) münasibətləri üstünlük təşkil edir.

İkinci mərhələdə vassalın monarxiya şəxsi sədaqətindən ibarət olan münasibətləri idarəetmənin mütəşəkkil dövlət aparatı əvəz edir, cəmiyyətdə şəxsi asılılq münasi bətləri deyil, xidmət münasibətləri və funksiyaları aparıcı rol oynayır. Beləliklə, cəmiyyətin dövlət-ərazi məkanında formalaşması, hakimiyyətin siyasi təşkili prosesi başlanır. Məhz, ilk dəfə



olaraq haqqında danışdığımız mərhələdə-XVI əsrdə «dövlət» termini işlədilir. Bu termin əvvəlki dövrlərdə «malikanə, krallıq, knyazlıq, torpaq, imperiya» məfhumları kimi, elmi ədəbiyyatda isə «respublika» termininin sinonimi şəkilində işlədilmişdir.

**III Mərhələ.** Həmin mərhələdə Şərqdə olduğu kimi Avropada da dövlətin monarxiya və imperiya formaları möhkəmləndi, hakimiyyətin arxaik ictimai strukturu və hərbi feodal strukturu formalaşdı. Bu mərhələdə xalqların çoxunda heç bir inkişaf etmiş dövlət forması mövcud deyildi. Lakin avropada millətin təşəkkülü, ümummilli bankın formalaşması, ölkələrin əksəriyyətində dil və mədəniyyət birliyinin möhkəmlənməsi prosesi başa çatır. XVII əsr sosial-sinfi strukturun və əmtəə –pul münasibətlərinin yaranması dövrü kimi səciyyələnir. Bu mərhələdə insan hüquqları və azadlıqları uğrunda mübarizə, cəmiyyətdə bərabərlik və vətəndaş cəmiyyətinin inkişafı barədə ideyalar fəallaşır (Hobbs, Lokk, XVIII əsrdə Russo, Kant və b.) Mütləqiyyət dövlətin hüquqi formalarından biri kimi əsaslandırılır (Lokk, Kant, Qumbolt və b.), dövlət zəka və mənəviyyat forması hesab edilir (XVIII əsr maarifçiləri, Kant və b), dövlətin hüquqla məhdudlaşdırılması ideyası irəli sürülür (Kant, Hegel), konstitusiyalı inkişaf konsepsiyası işlənib hazırlanır (XIX-XX əsrlər- Yaspers və başqaları).

XVII əsr dövlətçiliyin yayılmasında, başqa sözlə, monarxın suverenliyindən millətin suverenliyinə keçilməsində yeni mərhələdir. Belə ki, dövlətçiliyin milli dövlət forması formalaşır və XIX əsrdən başlayaraq bütün Avropa regionunda yayılır.

**IV Mərhələ** (müasir). Bu mərhələ dövlətin təkamül mərhələsi olmaqla federativ və konfederativ proseslərin genişlənməsi ilə səciyyələnir (Almaniya, Isveçrə və ABŞ, keçmiş Yuqoslaviya və SSRİ). BMT-yə üzv olmaq üçün hər bir dövlət beynəlxalq hüququn subyekti kimi etiraf edilməli, müstəqil

hökümətə, əraziyə və əhaliyə malik olmalıdır. Dövlətçiliyin müasir forması məhz, suverenlik anlayış ilə bağlıdır. Müasir dövlətçiliyin formasının genezisi və mövcuduluğu sosial birliyin millət adlanan növü ilə sıx əlaqədardır. Qeyd edək ki, dövlət arasında «təbii sərhəd» yoxdur. Sərhədlərin mövcudluğu tarixi inkişafın məhsuludur, qüvvələr nisbətinin nəticəsidir, elə buna görə də süni, siyasi xarakter daşıyır. Bütün millətlər çox etnik birliklərdən ibarətdir və onların hamısı siyasi sosiallaşma prosesində formalaşır və mükəmməlləşir. Bir sözlə, dövlət insanların birliyinin siyasi təşkilnin universal formasıdır. Elə buna görə də o, beynəlxalq huququn başlıca subyektidir.(3,45)

Dövlətin başlıca səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

• Suverenlik, başqa sözlə, xarici asılılığa malik olmamaq və ölkənin daxili işlərinə münasibətdə onun aliliyi. Suverenlik məhz siyasi hakimiyyətin aliliyini ifadə edir. Bütün hakimiyyət qərarları ölkədə yalnız ali siyasi hakimiyyət adından qəbul olunur. Və cəmiyyət üzvləri tərəfindən hökmən yerinə yetirilməlidir;

• Dövlət ayrıca siyasi qüvvələrin deyil, bütün cəmiyyətin mənafeyini ifadə edir;

• Dövlət hakimiyyətinin funksiyalarını reallaşdıran xüsusi orqanlar və idarəetmə sisteminin mövcudluğu;

• Hakimiyyətdə olanların zorakılıqdan istifadə olunmasını öz inhisarına alması. Bu o deməkdir ki, öz vətəndaşlarına qarşı yalnız dövlətin güc tətbiq etmək hüquq vardır. Cəmiyyət üzvlərinə qarşı məcburetmə inhisarı hökmranlıq edən azlığın və ya ölkə əhalisinin əksəriyyətinin mənafeyinə xidmət edə bilər. Bu məqsəd təşkilati imkanlara (məcburetmə aparatına) malikdir;

• Dövlət müəyyən hüquqi qaydalara səciyyələnir. O, öz ərazisində hüquqi qaydaların yaradıcısı və qoruyub saxlayanı kimi çıxış edir. Hüquq dövlətin müəyyən norma və münasibətlər sistemini möhkəmləndirir;



• Hakimiyyətin aliliyi həyata keçirilən müəyyən adamlar qrupunun mövcudluğu. Bu qrup bəzi sinifləri və ya cəmiyyətin əksəriyyətini təmsil etməklə ümumi işlərin idarə olunması funksiyaları yerinə yetirir;

• Cəmiyyət adından daxili və xarici siyasətin həyata keçirilməsi;

• Qanun və qayda yaratmaq üçün dövlətin müstəsna hüquqa malik olması. Həmin qanun və qaydalar mövcud ərazi daxilində bütün əhali üçün məcburidir. Xüsusi məqsədlər və digər ictimai ehtiyaclar üçün vergilər yığılması da dövlətin səciyyəvi xüsusiyyətlərindəndir;

• Nisbi dinamiklik. Yəni dövlətin məkan-zaman xarakteri, hüquqi qaydaların konkret ərazidə və konkret vaxtda fəaliyyəti.(7,89)

Dövlətin ənənvi iki başlıca funksiyası vardır: daxili və xarici funksiyalar. Dövlətin daxili funksiyasına bunlar aiddir.

1) mövcud siyasi quruluşu, cəmiyyətin sosial-siyasi strukturunu qoruyub saxlamaq;

2) təsərrüfat-təşkilatçılıq və ictimai-iqtisadi vəzifələr (iqtisadiyyatın tənzimlənməsi, iqtisadi sabitliyə nail olmaq);

3) sosial vəzifələr, yəni sosial proqramın yerinə yetirilməsi;

4) mədəni – tərbiyə vəzifələri.

Buraya təhsilin, mədəniyyətin, elmin inkişaf etdirilməsi, tərbiyə müəssisələrinin tənzimlənməsi, bir sözlə, cəmiyyətin mənəvi həyatının daim təkmilləşdirilməsi daxildir. Xarici funksiya ölkənin müdafiəsi beynəlxalaq aləmdə mənafeyininin qorunması və suverenliyinin təmin olunması aiddir.

Siyasi təsisat olmaq etibarilə dövlət bir sıra mühüm vəzifələri həll edir. Bunlara ilk növbədə cəmiyyətdə siyasi sabitliyin təmin edilməsi, müxtəlif mənafelərə malik olan ayrı-ayrı sosial qruplar arasındakı münaqişələrin, ziddiyyətlərin üzə çıxarılması və aradan qaldırılması, vətəndaşların hüquq və azadlıqlarının qorunması, onların təhlükəsizliyinin təmin edilməsi, hüquq qaydalarının gözlənilməisnə nail

olmaq daxildir.

Müasir dövlətin sosial funksiyalarının əhatə dairəsi get-dikcə genişlənir. Məsələn, indiki elmi-texniki tərəqqi dövründə informasiya sahəsində dövlətin rolu olduqca böyükdür. Informasiya funksiyası hazırda dövlətin funksiyaları içərisində ən aparıcılarından sayılır. Bu funksiyanın məzmunu çoxplanlıdır. Buraya informasiya-təbliğat,informasiya-idarəetmə, informasiya istehsal və informasiya-mədəniyyət sahəsindəki fəaliyyət aiddir. İnformasiya sənayesi və onun təşkili dünyanın əksər ölkələrində dövlətin ən mühüm fəaliyyət sferasına çevrilib, bəzi ölkələrdə isə dövlətin inhisarına keçib. Ideoloji aparat dövlət təsisatlarını ayrılmaz ünsürünü təşkil edir. Ictimai –siyasi informasiyanın idarə olunması məhz, dövlət təsisatlarının fəaliyyəti ilə bağlıdır (3,32).

Dövlətin sosial funksiyalarının genişlənməsi əhalinin gözündə onun legitimliyini daha da təsdiqləyir. Dünya siyasi praktikası sübut edir ki, dövlətin idarəetmə funksiyaları bu və ya başqa şəkildə hər yerdə genişlənir. Bütün ölkələrdə iqtisadi və sosial yüksəliş, mədəniyyətin inkişafı dövlətin fəaliyyətindən kənarda mümkün deyildir. Təsadüfi deyil ki, dövlətin aradan qaldırılmasını, ləğvini bü gün heç kim nəinki tələb etmir, hətta arzulamır da.Yadda saxlamaq lazımdır ki, dövlət zəruri tarixi – ictimai fenomendir.

Müstəqillik əldə etdikdən sonra bu sahədə Azərbaycan dövləti ciddi addımlar atmışdır. 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında hüquqi dövlətin norma və prinsiplərini əks etdirən maddələr geniş şəkildə öz əksini tapmışdır.



## ƏDƏBİYYAT

1. Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı, 2006.
2. Həsənov Ə. Geosiyasət. Bakı, 2010.
3. Hüseynli Q.I., Tağıyev Ə.M., Məmmədov E.H., Həsənov S.T. Politologiya. Bakı, 1995.
4. Qubatoğlu B. Politologiya. Bakı, 1999.
5. Şirəliyev H. I.,.Abbasov F.F. Politologiya. Bakı, 1993.
6. Bağırov Ş. Vətəndaş cəmiyyəti: yaxında və uzaqda. Bakı, 2004.
7. Muxaev R. Teorii politiki. M., 2009.
8. Çirkin V. Qosudarstvennoe upravlenie. M., 2008.
9. www. google.az

## AZƏRBAYCAN CÜMHURİYƏTİLƏ DAĞLILAR RESPUBLİKASININ İLİŞKİLƏRİ HAQQINDA

***Açar sözlər:*** Azərbaycan Cümhuriyyəti, Parlament, Dağlılar Respublikası, Demokratiya.

Azərbaycanda demokratiya sözünü rəsmi siyasətçi kimi, ilk olaraq 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyəti parlamentini açan, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə siyasi sistem anlamında iki yol işlətmişdir.

Öncə parlamentlə parlamentarizmin nə olmasından bir sıra elmi bilgiləri verək. Parlament fransız sözüdür, parlare danışmaq, gənəşmək deməkdir. Demokratik siyasi sistemlərdə parlament siyasi ağalıq qollarından biridir, türkcə yasama ağalığı, ərəbcə qanunverici hakimiyət adlanır. Demokratik dövlətlərdə parlament özgür seçki yolu ilə oluşdurulur. Ingiltərə, eləcə də bir sıra başqa dövlətlərdə üyələrinin çox az bölümü senator adı ilə ömürlük təyin olunur. Çağdaş tipli ilk parlament XIII yüzildə Ingiltərədə yaradılmışdır. Ingiltərə kralının qərarlarının Məclisdə çəkişilməsinə danışma deyilməyə başlandı. Sonralar sözün politik, hüquq anlamı genişləndi. Kral, yetkililərlə din adamlarından oluşan böyük yığıncaq parlament adlandırıldı. Ən yüksək qanunvericilik, istintaq hüququnu özündə saxlayan kral istədiyi vaxt parlameni toplayır, onun yerini, çalışma sürəsini bəlirləyir, istəyəndə dağıdırdı.

1215-ci ildə «Böyük Özgürlüklər Xartiyası» ilə kralın hüquqlarının sınırı bəlirləndikdən sonra parlamentin önəmi daha da artdı. Çağdaş dünyada parlamentlər bir, eləcə də ikipalatalı olur. Bir sıra dövlətlərdə konqres adlanır.



Parlament respublikalarında hökuməti qurub işləməsini gözətir, ölkə prezidentini seçir.

1917-ci il oktyabrın 26-31-də Bakıda keçirilmiş Türk Ədəmi-Mərkəziyət Demokratik Partiyası- Müsavatın I qurultayının Azərbaycanın siyasi gələcəyi barədə baxışı oluşduruldu. Müsavatın proqramında Azərbaycana demokratik, federativ Rusiyanın içində geniş topraq-ulusal özərklik istəndi. Bu yöndəki umudlar keçiriləcək Rusiya Müəssislər Məclisinə dikildi. Sosialistlərlə ittihadçılar isə bolşevikləri tutub, unitar rus dövləti içində kültürəl özərklik istəyirdilər.

1917-ci il oktaybrın 25-də (7 noyabr) bolşeviklərin Rus ağalığının dövlət çevrilişi yolu ilə ələ keçirmələri siyasi durumu dəyişdi, Rusiyanın bütün bölgələrini anarxiya bürüdü. Ordu görəvini buraxıb dağıldı. Gücsüz bolşevik ağalığı bir-birinin dalınca əskərlərə sülh, kəndlilərə topraq, işçilərə fabrik-zavod boyun olur, 15 noyabr tarixli Bildirgə ilə «ayrılıb, ayrıca dövlət qurmağadək gələcəyini bəlirləmək» hüququ verir, Rusiyanın, Doğunun müsəlman uluslarına isə Leninlə Stalinin 3 dekabr bildirgəsilə yaşamlarını istədikləri kimi qurmaq çağırışı edirdi. Bolşqeviklərin bu addımları Qafqazın ulusalçılarının umudlandırsa da, onlar psixoloji olaraq Rusiyadan ayrılmadıqlarından ağalığın çevrilişlə ələ keçirilməsi onları quşqulandırdı. Noyabrın 24-də OZAKOM-la birlikdə Zaqafqaziyadan olan bütün siyasi güclərin qatılması ilə Ümumrusiya Müəssislər Məzlisi toplanana kimi Zaqafqaziya özünü yönətməli, seçkilər keçirib elçilərini Rusiyanın bu yüksək yasal qurmuna göndərməli idi. Bir neçə gündən sonra yerli keçid ağalığı – Zaqafqaziya Komisarlığı (Zaqafkom) yaradıldı. Qafqazın bütün uluslarının qatılmasına baxmayaraq Zaqafkom da anarxiyanın qarşısını alammadı.

1917-ci il arelin 15-20-də Bakıda keçirilmiş Qafqaz Müsəlmanlarının Qurultayında Türk Ədəmi-Mərkəziyət Partiyası Müsavat Müstəqil demokratlarla Rusiyanın demokratik federativ respublikaya çevrilməsi, Azərbaycana geniş

«topraq-ulusal özərklik»in verilməsini önərdi. Kəskin çəkişmələrdən sonra qarşılıqlı anlaşma yolu ilə aşağıdakılar kəsinləşdirildi: «A). Qafqaz Müsəlmanları Qurultayı milli-siyasi məqsədə aid məsələni müzakirə edərək müsəlman qövmlərinin [xalqlarının] mənafeyini ən ziyadə təmin edən Rusiya şəkli-idarəsinin məhəlli federasiya əsası üzərinə qurulu demokratik, federativ respublika olduğu qəbula qərar verir. B). İslam dinində olan bütün qövmlərin ruhani və mədəni irtibatını [bağlılığını, ilişkisini] nəzərə alaraq, Qafqaz Müsəlman qurultayı bütün Rusiya müsəlmanları üçün vəzi-qəvanın [ağalıq, yönətim] səlahiyətinə malik ümumi bir qurum təşkilini lazım görür». Bu tezis mayn 1-11-də Moskvada keçirilmiş Rusiya Müsəlmanlarının Qurultayında alqılanıb kəsinləşdirildi. Bu istəklər rus olmayan ulusların iyun ayında Kiyev kəndində toplanan qurultayında da doğrulandı. Əlimərdan bəy Topçubaşov burada yaradılmış «Özərkçilər birliyi» başçısının yardımçısı seçildi.

1917-ci il dekabrın 18-də Osmanlı ordusu ilə Qafqaz ordusu savaşı durdurmaq üçün anlaşma bağladı. 1918-ci il yanvarın ilk günlərində Osmanlının bölgədəki ordusunun başçısı Vehib paşa ZAQAFKOMa geri çəkilən erməni ordu birliklərinin bölgədə yaşayan türklərə soyqırım törətdiklərini yazaraq bu yöndə də anlaşma bağlanmasını istədi. Ancaq ZAQAFKOM yanvarın 18-də başlanacaq Ümumrusiya Müəssislər Məclisinin onayı olmadan danışıqlara başlamaq yetkisinin olmadığını bildirdi.

1918-ci il fevralın 25-də Tiflisdə Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlar toplanıb Zaqafqaziya Seymini yaratdılar. Fevralın 28-də Brest-Litovsk Barışı bağlandı, Qars, Ərdəhan, Batum Türkiyəyə verildi. Seym bu kəndlərlə bağlı Anlaşmadakı düzükləri tanımadığını bildirdi, martın 14-də Osmanlı yetkililərilə danışıqlara başladı. Gürcülərlə ermənilərin daha yetkili olduğu Seym Osmanlıdakı ermənilər üçün gələcəyini bəlirləmək, özərklik qurmaq istəklərilə



çıxış etdi. Seymdəki erməni-gürcü yetkililərin siyasi bəlirsizliyindən öz müstəqilliyi haqqında xarici dövlətlərə bəyan və ratifikasiya edilməməsinə baxmayaraq Zaqafqaziyanı de-fakto dövlət kimi tanımış, Brest-Litovsk anlaşmasını isə tanımadığını bildirmiş Osmanlı ağalığı martın 16-da Brest-Litovsk barış anlaşması qollananda Zafqafqaziyanın özünü Rusiya Federativ Respublikasının parçası saydığından, dövlət sınırlarını bəlirləmədiyindən Brest-Litovs sülhünün Qafqaza aid bölməni tanımadığını bildirdi.

Durumu gözə alan dağıstanlılar Tiflisdə toplanıb Zaqafqaziya Seyminə qatılıb Qafqazda bütöv bir Qafqaz birliyi yaradılmasını önərdilər. Azərbaycan Türkləri onları savunsalar da gürcü-erməni çoxluğu buna qarşı çıxdı. Ancaq Azərbaycan elçilərinin istəyilə Trabzon Sülh Konfransına göndərilənlərin içinə dağlılar da salındı.

Mayın 24-də A. Çermoyevin başçılıq etdiyi Dağlılar Respublikasının ağalığı Gəncəyə köçdü.

Dağlılar Trabzonda Quzey Qafqazla Güney Qafqazın bir dövlətdə birləşməsi ideyasını önə sürdülər. Ancaq erməni-gürcü elçiləri, eləcə də alman komandanlığı bölgədə Türk-müsəlman birliyinin yaranmasından çəkinib buna yol vermədilər, Qafqaz Konfederasiyası ideyası işə keçmədi.

Dağlılar Respublikası ağalığı 1918-ci il iyunun 8-də Batumda Osmanlı hökuməilə Dostluq və əməkdaşlıq anlaşması bağladılar. Bu anlaşmaya görə Osmanlı dövləti Dağlılara Respublikasına Ordu yardım göstərməyi, onu dışdan qorumağı boynuna götürürdü.

Daha sonra Dağlılar Respublikası Ağalığının üyələri P.Kotsevlə V.G. Cavadayev Osmanlı dövlətinin Ordu yardımının detallarını aydınlaşdırmaq üçün Tiflisdə Yusif İzzət paşa ilə danışıqlara başladılar. Dağlılar Respublikasının dış işləri bakanı Heydər Bammat isə diplomatik missiya ilə Avropaya yola düşdü. 1918-ci ilin üyununda Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa Dağlılar Respublikası Ağalığının

başçısı A. Çermoyevin istəyilə Ismayıl Haqqı bəyin başçılığı ilə Dağıstana ordu birliyi göndərdi. 74 subay, 577 əskərdən oluşan bu ordu birliyi Dağıstanın dağlıq bölgələrində bolşeviklərlə vuruşan Nuh bəy Tarkovskilə polkovnik Cəfərovun könüllü dəstələrinə yardım etdi.

Qunib aulunda qərargah yaratmış Ismayıl Haqqı bəy iyunun 21-də Qafqazın bütün müsəlmanlarına üz tutub birləşməyə, bolşeviklərlə savaşa çağırdı. Sentyabrın sonunda Osmanlı-Azərbaycan ordu gücləri yardıma yetib Yusif Izzət Paşanın başçılığında oktyabrın 6-da Dərbəndi, noyabrın 7-də Mahaçqalanı Biçeraxovun Rus-kazak-erməni güclərindən aldı.

A.Çermoyevin başçılıq etdiyi Dağlılar Respublikasının Ağalığı oktyabrın 13-də Dərbəndə, oktyabrın 24-də isə Temirxanşuraya köçdü. Azərbaycan Ağalığı onun işləməsi üçün 1 milyon rubl yüzdəsiz borc ayırdı, bundan başqa maliyə yardımı, yanacaq, yaraq yardımı etdi.

Antanta gözləmçilərinin istəyilə Osmanlının bölgədən çəkilməsindən sonra Dağlılar Respublikası ağalığını Biçeraxovla barışıq bağladı.

1918-ci il Noyabrın 12-də Temirxan-Şurada Dağıstan, Çeçen, Inquş elçilərinin toplantısı keçirildi.

1918-ci il noyabrın 28-də Bakıda Azərbaycan Cümhuriyətilə Dağlılar Respublikası anlaşma bağladı. Azərbaycan Respublikası Dağlılar Respublikasına 10 milyon manat yardım etdi.

İngilis yetkilisi, general U. Tomsonun istəyilə Dağlılar Respublikası dağlı-rus-kazak ilişkilərini yaxşılaşdırmaq üçün dekabrın 10-da Bakıda anlaşma bağlandı. Bu sənədlə rusların dövlət yönətiminə qatılmasına, kazakların Dağlılar ordusunda qatılması saxlandı. Anlaşmaya görə A. Çermoyevin kabineti buraxıldı, P. Kotsevin başçılığında koalisyon ağalıq yaradıldı, iki bakan görəvi kazaklara verildi. Ancaq ingilislərin əlaltısı L. Biçeraxovun pozuculuğu üzündən kazaklar Dağıstan Ağalığından çıxdılar. Dekabrın 31-də Tomson Dağlılar Respublikası Ağalığının hüququnun Rostov-Petrovsk dəmir yoluna kimi olduğunu, güneydəki topraqların L. Biçeraxovun, Petrovsk-Bakı dəmir yolu, Petrovskla Bakı limanlarının Birlik ölkələrinin gözətimində olacağını bildirdi. Bu dağlı ellərinin birləşməsi ideyasını dağıtdı, general Denikinin Könüllü Ordusunun Dağıstanı tutmasını qolaylaşdırdı.



1919-ci il yanvarın 20-də Temirxan-Şurada Dağlılar Respublikası Parlementi yaradıldı, qumuq Zübeyir Temirxanov Parlamentin başçısı seçildi.

1919-cu ilin başlarında Denikin ordusu Terek bölgəsinə soxulub inquşların direnişini qıraraq Vladiqafqazı tutdu, general Lyaxovu Terek-Dağıstan bölgəsinin ağası qoydu. Könüllü Ordu martın 5-də Çeçenistana soxuldu. Azərbaycan Cümhuriyəti Ağalığı Dağlırar Respublikası Ağalığını qorumaq üçün çoxlu diplomatik, maddi işlər gördü. Aprelin 11-də P.Kotsev kabinəsi buraxıldı, ancaq Parlament ağalıq yaratmağı yenidən P. Kotsevə tapşırdı.

Mayın 12-də P. Kotsevin 2-ci kabinəsi də buraxıldı. Parlament yeni Ağalıq yaratmağı general M. Xəlilova tapşırdı. Denikinlə danışığı girən M. Xəlilov Dağlı Xalqları Respublikası Ağalığının buraxılıb, ayrıca Dağıstan Ağalığının yaradıldığını bildirdi. Mayın sonunda Dağıstan Ağalığı Denikin ordusunu çatışmasız ölkəyə buraxdı, bununla da bütün Quzey Qafqaz Könüllü Ordunun əlinə keçdi. Quzey Qafqaz ellərinin birləşdirilməsi çabaları bu kəs də uğursuz oldu.[1]

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Cümhuriyəti Parlamentinin 1919-cu il 12 may tarixli 36-cı toplantısında cümhuriyətin Qafqazda sülhü-barışı saxlamaq üçün geopolitik borcunu yerinə yetirdiyini aşağıdakı sözlərlə birldirmişdir: Bizə deyirlər, Dağıstana yerəincə yardım etmədik. Bu doğru deyildir. Azərbaycan Parlamentilə Ağalığı bacardıqca yardım etdi. Əgər bu gün Dağıstanda arzu olunmayan olaylar olursa, o da Azərbaycandan da çox özünün siyasi durumu, toplumunudandır. Onlar elə olmasaydı, bizim də bu etdiyi-

[1] Azərbaycan Xalq Cümhuriyəti Ensiklopediyası. II c. B. 2005, s.381.

miz bu boyda yardımla bu sonucu görməzdik. Ancaq bunu Dağıstanın adamlarında görmək olmaz. Ağalıq özünü buraxıb bütün yetkilərini Hacı Murad adlı birisinə vermişsə də, bu Hacı Murad Şamil zamanındakı Hacı Murad olmaz.

Bu məsələyə belə baxaraq, ağalığın buvaxtadək gördüyünu dəyərləndiməklə yanaşı, ağalıqdan bağımsızlığımızı savunub, gözbəbəyi kimi saxlamasını istəməliyik. Dağıstandakı güc [Denikin Ordusu] qüvvət Azərbaycanınənginə çevrilmiş bir tapançadır. Bu tapança Azərbaycan əleyhinə olduğu üçün hökumət ona diqqət etməlidir. O varkən biz heç vaxt əmin ola bilmərik. Buna görə hökumət gözləməlidir ki, o tapança açılmağa fürsət tapmasın. Tapançanın çıxmasına əl atılar-atılmaz bütün tüfəng, top, şəmşirlərimiz [qılınclarımız] bu tapançaya qarşı açılıb, bütün güclərimiz onu məhv etməyə yürüməlidir.[1]

[1] Azərbaycan Xalq Cümhuriyəti (1918-1920). Parlament. I. (Stenoqrafik hesabatlar). B., 1998, s.624.



## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I c. B., 1998.
2. Azərbaycan Xalq Cümhuriyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild. B., 1998.
3. Azərbaycan Xalq Cümhuriyəti Ensiklopediyası. I c. B., 2004.
4. Azərbaycan Xalq Cümhuriyəti Ensiklopediyası. II c. B., 2005.
5. Azərbaycan Xalq Cümhuriyəti və Qafqaz Islam Ordusu. B., 2008.
6. Abel Məhərrəmov. Bakı Dövlət Universiteti. B., 2000
7. Aydın Balayev. Məmməd Əmin Rəsulzadə (1884-1955). B., 2012.
8. Cəmil Həsənli Tarixi şəxsiyətin tarixi. Əlimərdan bəy Topçubaşov. B., 2013.
9. Əlimərdan bəy Topçubaşı. Azərbaycan Cümhuriyətinin yaradılması. B., 2013.
10. Əlimərdan bəy Topçubaşı. Azərbaycan Cümhuriyətinin yaradılması. B., 2013.
11. Faiq Ələkbərov. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. B., 2007.
12. Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan Cümhuriyəti. B., 1990.
13. Məhəmməd Əmin Rəsulzadə. Əsrimizin Səyavuşu. B., 1991.
14. Məhəmməd Əmin Rəsulzadə. Istiqlal məfkurəsi və gənclik. B., 1991.
15. Məhəmməd Əmin Rəsulzadə. Milli birlik. B., 2009.

## SİYASİ ELMİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Siyasətin mahiyyətinin dərk olunmasında dini-mifoloji forma tarixən ilkin forma kimi çıxış etmişdir. Dövrümüzə gəlib çatan qədim mənbələrə görə m.ə. II və I minilliklərdə yaşayan bütün xalqlarda hakimiyyətin və ictimai-siyasi quruluşun ilahi mənşəyi haqqında təsəvvürlər hökm sürürdü. Həmin təsəvvürlər, adətən, mif şəklində nəsildən-nəslə ötürülürdü(1, 163).

Təxminən m.ə. I minilliyin ortalarından başlayaraq, siyasi baxışların rasionallaşma meyilləri ehtimal olunur. Fəlsəfi-etik forma daşıyan ilk kateqoriya və definisiyalar, sonra isə nəzəriyyə və konsepsiyalar yaradılaraq siyasi tədqiqatların əsl nəzəri özülü qoyulur.

Heredot dövründə (m.ə. 484- m.ə. 425-ci illər) Yunanıstanda siyasi ideyaların və ideallann təhlili, dövlət hakimiyyəti və vətəndaşlığın təbiəti, siyasətin müxtəlif tipləri haqqında mühakimələr artıq adi, məişət müdrikliyinin bir hissəsinə çevrilmişdi. Təhsilli yunanlar m.ə. V əsrdə hakimiyyət sistemləri, siyasi təşkilatlar, iqtisadiyyat, müdafiə qabiliyyəti və xarici siyasətlə bağlı məlumatlara və fikirlərə böyük maraq göstərirdilər.

Məlumdur ki, əsl siyasi elmin tarixi Platondan (m.ə. 427 – m.ə. 347) başlayır. Təsadüfi deyil ki, onu siyasi elmin atası adlandırırlar. Amerika alimi R.Dala mənsub olan "məntiqi nöqteyi-nəzərdən siyasi elmin inkişafı üç mərhələ keçir: fəlsəfi, empirik və empirik biliyin təftiş mərhələləri" fikrilə razılaşmaq olar. Onun fikrincə, birinci fəlsəfi dövr məhz Platondan hesablanır.

Kübar ailəsində doğulmuş Platonun gənclik illərində Afinanı bürümüş qanlı hadisələr, aclıq və epidemiyalar onda hər hansı sosial dəyişikliklərə qarşı güclü nifrət yaratmışdı. Onun müəllimi – böyük filosof Sokrat demokratiya bərpa ediləndən sonra Afina şurası tərəfindən ataların dinini



təhqir etməkdə və gənclərin şüurunu zəhərləməkdə günahlandırılaraq ölümə məhkum edildi (220 səsə qarşı 280 səslə). Platon və onunla yanaşı, Sokratın digər şagirdləri m.ə. 399-cu ildə Afinanı tərk etdilər. On iki il sonra, m.ə. 387-ci ildə Platon Afinaya qayıdaraq Akademiya (müasir universitetin prototipi) yaratdı və 40 il orada fəlsəfəni tədris etdi.

"Dövlət", "Siyasətçi" və "Qanunlar" əsərləri siyasi elmin birinci mərhələsinin ilk klassik tədqiqatlarıdır. Bu üç əsərdə o, ədalət, siyasi məziyyət, siyasi sistemlərin tipləri və onların transformasiyası haqqında elə tezislər irəli sürür ki, onlar siyasi nəzəriyyələr kimi XIX əsrə qədər yaşamış və müəyyən mənada hətta indiyədək öz əhəmiyyətini itirməmişlər. Məsələn, Platonun "insan varlığının şərhi və strukturu siyasətin ölçüsü vəzifəsini ifa edir" fikri çox maraqlıdır. Mütəfəkkirə görə siyasi həyatda iştirak praktiki ağıl, şəraiti düzgün qiymətləndirmək bacarığı, natiqlik, ədalət, təmənnasızlıq, təcrübə və bu kimi digər müsbət keyfiyyətlərin olmasını nəzərdə tutur. "Siyasət haqqında" elm deyiləndə öncədən belə keyfiyyətlərin mənimsənilməsi başa düşülür. Siyasi tərbiyənin ən vacib hissəsi kimi gələcək qanunvericilərin hazırlanması hesab edilir. Dövləti kim idarə edəcək məsələsi isə Platondan başlayaraq siyasi elmin mühüm məsələlərindən birinə çevrilir. Platona görə dövləti ən ləyaqətli və bilikli insanlar, ruhən aristokrat olanlar, daha doğrusu, yaxşıların yaxşıları idarə etməlidirlər və heç şübhəsiz, onlar çoxları, camaat, demos olmamalıdır. Platon israr edirdi ki, cəmiyyət kəmsavad xalqın iradəsi deyil. Mütəfəkkir mütəmadi olaraq demokratiyaya qarşı çıxış edirdi. Heç də təsadüfi deyil ki, onun siyasi baxışları mürtəce mühafizəkarlıq fəlsəfəsi üçün təmələ çevrilmişdir. Əslində Platon bu günə qədər qalmaqda olan ümumi antidemokratik ənənələrin banisi olmuşdur. Lakin unudulmamalıdır ki, Platonun dövlətin idarə olunmasında iştirak etmək istəyən insanların öz bilik səviyyələrini daim artırmalı olmalarına dair tələbləri tamamilə haqlıdır.

Sonralar "kim idarə edəcək" məsələsi bütün siyasi filosoflar nəsillərinin müzakirə predmeti olaraq qalır(1, 211).

Məhz Platon özünün siyasi sistem modelini təklif edərək, tarixdə ilk dəfə bütün dövlət sisteminin yuxarıdan dəyişdirilməsinə təşəbbüs göstərir. Onun təsvir etdiyi ideal dövlət nə utopiyadır, nə də real gerçəklik, əslində o paradiqmadır, yəni elə bil nəyinsə əksidir ki, həmin o nəsə dövlətin məğzini, əsasını təşkil edir. Eyni zamanda Platonun dövləti tərbiyəvi diktaturanın ilk nümunəsidir: burada elita təkbaşına bütün əsas ictimai məsələləri həll edir. Onun sistemində etika və siyasət qırılmaz surətdə bağlıdır. "Siyasətçi" və "Qanunlar" dialoqlarında Platon ideal respublika və politiyaların təşkilinin praktiki baxımdan mümkün olan müxtəlifliyi arasında fərqləri irəli sürür. O, real siyasi rejimlərin təsnifatını verir. Həmin məşhur təsnifatda kəmiyyət və keyfiyyət uzlaşır, əlaqələndirilir, yəni birinin, bir neçəsinin, yaxud çoxlarının hakimiyyəti ya təmiz, ya da qarışıq şəkildə göstərilir. Belə yanaşma ona altı real siyasi rejimdən – monarxiya, tiraniya, aristokratiya, oliqarxiya, demokratiya və oxlokratiyadan təsnifat yaratmağa imkan verir. Sonra Aristotrlin "Siyasət" əsərində təkmilləşdirilən həmin sxem bir çox yüzilliklər boyu (ta XIX əsrədək) siyasi tiplərin sistemləşdirilməsinin əsasını təşkil edir(5, 74).

Platonun "Qanunlar" əsərində ən yaxşı və dayanıqlı rejimin özülü olan "qarışıq konstitusiyanın" ilk variantı göstərilir.

Qarışıq konstitusiya, mütəfəkkirin fikrincə, başqa hallarda bir-biri ilə ziddiyyət təşkil edən prinsiplərin – mütləqiyyət prinsipi olan müdrikliklə səxavət və demokratiya prinsipi olan azadlığın uzlaşması nəticəsində sabitliyə müvafiq olmağa imkan yaradır. Aristotel tərəfindən dərinləşdirilmiş bu sxem siyasi elm tarixində ilk dəfə olaraq elə bir izahedici nəzəriyyəyə çevrilmişdir ki, onun daxilində təsisatlar və ideallar hakimiyyət prosesi və səmərəliliyi ilə əlaqələndirilirdi. O, hakimiyyətin bölüşdürülməsi konsepsiyasının sələfi sayılır.



Aristotel (m.ə. 384 – m.ə. 322) Platon Akademiyasında 20 il keçirir, müəyyən müddət Makedoniyalı İskəndərin müəllimi olduqdan sonra yenə Afinaya qayıdır və burada Likey adlanan təhsil müəssisəsini təsis edir. Platon Akademiyasında geniş istifadə edilən idealist, deduktiv yanaşmalardan fərqli olaraq, Likeydə əsasən induktiv, empirik və tarixi təlim metodlarına üstünlük verilirdi. Aristoteli siyasi elmdə intuisiya deyil, müşahidəyə söykənən analitik cərəyanın banisi hesab etmək mümkündür. Əgər Platon insanları tabe olanlara və ağalıq edənlərə, hökm sürənlərə bölürdüsə, Aristotel, əksinə olaraq hesab edirdi ki, hər bir ağıllı, düşünən, cəsarətli insanda filosof keyfiyyətləri vardır. Məhz buna görə də hüquqların və vəzifələrin qeyri-bərabərliyi məsələsi sual altına alınmalıdır.

Aristotel tarixdə ilk dəfə olaraq dövlətin təhlilini verir. O, heç bir şeyə əsaslanmayaraq sərbəst müəyyən edilmiş dəyərlərdən deyil, insan psixologiyası nöqteyi-nəzərindən çıxış edərək, dövləti insanlar tərəfindən yaradılan bir təsisat kimi qəbul edilir. Dövlət təbii şəkildə ailədən törəyərək hamiyyət və tabeçilik münasibətlərini (ağa və kölə, ər və arvad, ata və övlad) yeni səviyyədə qurub həyata keçirir. Aristotelin fikrincə siyasət elmi insanlara ədalət və hüquq qanunları əsasında yaşamağı öyrədir. Həmin elmin məqsədi ümumi rifahdır. Buna görə o, ən ali elmdir. "Politika" əsərində Aristotel yazır: "Əlbəttə, hər bir insanın da rifahı istəniləndir, lakin ən gözəl və ən ülvi olan xalqın və dövlətin rifahıdır". "Politika" böyük filosofun siyasi rejimlərin müxtəlif növlərini, vətəndaşlığın mənasını və siyasi həyatda təhsilin rolunu sistemli təhlilə çəkən ilk böyük elmi işçi idi.

Aristotelə görə dövlətin formaları üç "düzgün" – monarxiya (birinin hakimiyyəti), aristokratiya (azlığın hakimiyyəti) və politiya (çoxluğun hakimiyyəti) və üç "düzgün olmayan" – tiraniya (dövlət başçısı vəzifəsinə zorla sahiblənən şəxsin hakimiyyəti), oliqarxiya (zənginlərin hakimiyyəti) və

demokratiya (yoxsulların hakimiyyəti) formalarına bölünür. Birinci üç fenomeni o, ona görə düzgün hesab edirdi ki, burada hakimiyyətin əsas məqsədi hamının rifahıdır. Digər formalar mövcud olanda isə hakimiyyətin əsas məqsədi yalnız özünün mənfəətidir(5, 115).

Polibi Aristotel və Platonun ideyalarından Roma və onun təsisatları tarixinin interpretasiyasında istifadə edir, Romanın sürətlə böyüməsini və qüdrətinin möhkəmlənməsini məhz Roma siyasi təsisatlarının inkişafı ilə əlaqələndirirdi. O, monarxiya, aristokratiya və demokratiya kimi əsl formaların tənəzzülünün və onların tiraniya, oliqarxiya və oxlokratiya kimi qarışıq formalara keçməsinin səbəblərini izah etməyə müvəffəq olur.

Təxminən 75 il sonra, Roma Respublikasının təsisatları artıq tənəzzül dövrünə çatdıqda Siseron (m.ə. 106 – m.ə. 43) Roma tarixinin interpretasiyasına "qarışıq konstitusiya" nəzəriyyəsini tətbiq edir. O, ilk Roma Respublikası dövrünün ictimai strukturuna və mədəniyyətinə qayıtmağa çağırırdı. Lakin qeyd etmək lazımdır ki, onun tərəfindən stoiklərin təbii hüquq doktrinasının zənginləşdirilməsi daha böyük əhəmiyyət kəsb edir. Siseron kosmosun ilahi qayda-qanunun və bəşəriyyətin rasional və sosial təbiəti ilə müəyyən edilən ümumi təbii hüququn mövcudluğuna inanırdı. Roma qanunvericiliyinə daxil olan, oradan katolik kilsə doktrinasına, sonra maarifçilik dövrü mütəfəkkirlərinin əsərlərinə keçən və nəhayət, müasir zamana qədər gəlib çatan təbii hüquq konsepsiyasını məhz o, qısaca və dürüst ifadə etmişdir.

Beləliklə, artıq antik dövrdə tam əhatəli fəlsəfi bilik çərçivəsində siyasi nəzəriyyələr formalaşır və inkişaf edir. Bu nəzəriyyələrin mərkəzində dövlətin mahiyyəti, yaranması, məqsədləri, formaları və inkişaf yolları kimi məsələlər durur. Ən yaxşı idarəetmə üsullarının axtarılması, idarəçiliyə işi həqiqətən bacaranların cəlb edilməsinin labüdlüyü ideyaları onların əsasını təşkil edir. Siyasi bilik üçün son dərəcə



vacib olan "siyasət", "hakimiyyət", "dövlət", "hüquq", "respublika", "demokratiya", "aristokratiya", "oliqarxiya", "tiraniya", "istibdad hakimiyyəti", "azadlıq" və bir çox başqa anlayışlar yaranır və dərindən işlənilir. "Qarışıq konstitusiya" və təbii hüquq problemləri tədqiq edilir. Antik dövrün siyasi ideyaları orta əsr siyasi fikrinə çox böyük təsir göstərir.

Orta əsr xristian siyasi konsepsiyasının əsaslandırılmasında Avreli Avqustin və Foma Akvinalı əsas rol oynamışlar. Həmin əsrlərdə siyasi fikir ilahiyyatın bir hissəsi kimi inkişaf edir. Onun əsas xüsusiyyəti kilsənin dövlətdən daha üstün olmasının qəbul edilməsidir. Bu ona görə baş verir ki, həmin nəzəriyyələrə əsasən məhz kilsə əsl ilahi başlanğıcı təcəssüm edir. Buradan da onların əsas ideyası olan – dövlət hakimiyyətinin kilsə hakimiyyətinə tabeçiliyi ideyası irəli gəlir. "Allah vermədiyi hakimiyyət yoxdur, mövcud olan hakimiyyətlər isə Allah tərəfindən müəyyənləşdirilir." Bibliyadan götürülən həmin tezis orta əsr siyasi fikrinin və feodalizmin siyasi quruluşunun əsasını təşkil edir(5, 78).

Heç də təsadüfi deyil ki, məhz həmin dövrdə dövlətin kilsə tabeçiliyindən azad olması və kral hakimiyyətinin feodallar tərəfindən məhdudlaşdırılması konsepsiyaları yaranır və tədricən güclənir. Kral hakimiyyətinə artıq Roma Papasından deyil, bilavasitə Allahdan alınan hakimiyyət kimi baxılır. 1215-ci ildə "Maqna Carta" və ya ingilis Azadlıqlarının Böyük Toplusu kimi tanınan sənəd imzalanır. İnsan haqları baxımından kral hakimiyyətinə qoyulmuş məhdudiyyətlərdən, hüquqi norma və prosedurların siyahısından ibarət olan bu sənəd insan hüquqları uğrunda hərəkatın ilk uğurlu addımı kimi inkişafına çox böyük təsir göstərir. Baron və cəngavərlərə müəyyən hüquq və azadlıqlar verən "Maqna Carta" 1295-ci ildə kral I Eduardın hakimiyyəti dövründə fəaliyyətə başlamış ilk İngiltərə parlamenti ilə birgə cəmiyyətin sosial-siyasi həyatının yeniləşməsinə, orijinal siyasi ideyaların irəli sürülməsinə təkan verir.

İntibah və Yeni Dövrdə (XVI-XIX əsrlər) bağlı olan siyasi elmin inkişafının ikinci mərhələsində siyasi nəzəriyyənin forma və məzmunun dəyişməsi, yetkinləşməsi əhəmiyyətli dərəcədə nəzərə çarpır. Siyasi sahənin zənginləşməsi onun özünə xas spesifik əsaslara və mexanizmlərə malik olan müəyyən sosial sahə kimi qəbul edilməsinə imkan yaradır. Həmin dövrdə ilk dəfə olaraq İtaliya mütəfəkkiri Nikkolo Makiavelli (1469-1527) dövlət və cəmiyyət haqqında təsəvvürləri bir-birinden ayırır. Buna görə də Makiavelli Platon və Aristoteldən sonra siyasi təfəkkürün üçüncü ənənəvi istiqamətinin banisi hesab edilir. Onun siyasi nəzəriyyəsi əsasən dövlət haqqında təlimdir. Məhz Makiavelli elmi leksikona stato (dövlət) istilahını gətirir. Onun təlimində dövlət əvvəllər olduğu kimi, cəmiyyət (kommuna, kollektiv) və ölkə mənasında təhlil edilmir. Burada dövlət spesifik siyasi təşkilat kimi çıxış edir. Başqa sözlə dövlət - fərqləndirici xüsusiyyəti suverenlik, yəni instansiyanın müəyyən sahəsi daxilində qayda-qanunu və sülhü saxlamaq üçün qeyri- məhdud hüquqi səlahiyyətə malik olan müəyyən hökmranlıq təşkilatıdır.

Mütəfəkkirin yaradıcılığı nəzəriyyə ilə təcrübənin yaxınlaşmasına, hakimiyyət uğrunda gedən mübarizə və onun saxlanması kimi real məsələlərin həllinə yönəlmişdir(1, 171).

O, bütün siyasi rejimlərin və siyasi liderlərin legitimliyi haqqında ideyaları irəli sürərək belə qənaətə gəlir ki, dövlətin və hökmdarın yaşaması üçün aparılan hər bir siyasət tamamilə normaldır. Makiavelliyə görə "məqsəd vasitələrə bəraət qazandırır" tezisi siyasətin əsas qayəsidir. Məhz bu səbəbdən də onun adı əxlaqi abırsızlığın və siyasi ədəbsizliyin sinoniminə çevrilmişdir.

Makiavelli "Hökmdar", "Tit Livinin ilk on kitabı haqqında mühakimələr", "Hərb sənəti", "Florensiyanın tarixi" əsərlərində siyasi nəzəriyyənin empirik təməlini dərindən əsaslandırır. Materialist mütəfəkkirlərin ardınca o, siyasi elmi teologiyadan, bundan başqa siyasəti və hüquqi əxlaqdan ayırır.



Onun fikrincə, siyasət xristian ehkamlarına və əxlaqi prinsiplərə deyil, praktikaya və təcrübəyə əsaslanmalıdır.

XVI-XVII əsrlərdə siyasi elmin inkişafında utopik sosializmin banisi, ingilis humanisti Tomas Mor (1478-1535) və onun təliminin davamçısı italiyalı Tommazo Kampanella (1568-1639) görkəmli yer tuturlar. Onların siyasi görüşləri digər nəzəriyyələrdən köklü surətdə fərqlənir. XVII əsrin siyasi elmindən söz açaraq, ilk növbədə o dövrün üç ən məşhur mütəfəkkirləri olan Hüqo Qrotsi (1583-1645), Tomas Hobs (1588-1679) və Con Lokkun (1632-1704) nəzəriyyələrini yada salmaq lazımdır. Həmin nəzəriyyələr Hollandiya və İngiltərədə ilk burjua inqilabları ərəfəsindəki siyasi mübarizə problemlərini əks etdirərək təbii hüquq və ictimai müqavilə problemlərinin inkişafına böyük təkan verdilər. H. Qrotsi siyasi elm tarixində əsasən təbii hüquq nəzəriyyəsi və beynəlxalq hüququn banilərindən biri kimi tanınır. Təbii hüquq və dövlətin müqavilə yolu ilə yaranması ideyalarının əvvəllər də irəli sürülməsinə baxmayaraq, məhz Qrotsi ilk dəfə olaraq onları özünün dövlət nəzəriyyəsinin əsası kimi qiymətləndirir.

"Vətəndaş haqqında təlimin fəlsəfi başlanğıcı" və "Leviafan" əsərlərində Tomas Hobs öz siyasi doktrinasını açıqlayır. Mütəfəkkirin fikrincə, rəqabət və inamsızlıq insan təbiətindən irəli gəlir ("insan insana canavardır"). Məhz buna görə də dövlətin yaranmasından əvvəl mövcud olan cəmiyyətdə "hamının hamıya qarşı müharibəsi" kimi xarakterizə olunan vəziyyət müşahidə olunurdu.

Təxminən XIX əsrin sonunda siyasi elmin inkişafının üçüncü – empirik biliyin təftiş edilmə dövrü başlayır. Məhz o zaman siyasi elm biliyin müstəqil sahəsi və əlahiddə tədris fənni kimi təşəkkül tapır. Almaniyada müstəqil politologiyasının yaranması XIX əsrin birinci yarısında formalaşan hüquq məktəbi ilə birbaşa bağlıdır. Buna parlaq sübut L.Fon Şteynin "Dövlət haqqında ümumi təlim" əsəridir. Məktəbin nümayəndələri hüquq, dövlət, dövlət hakimiyyəti problemlərini də-

rindən öyrənir. Fransada politologiyanın meydana gəlməsi "Siyasi elmlərin azad məktəbi"nin (1871) yaranması vaxtına təsadüf edir. İngiltərə müstəqil siyasi elm özünün əmələ gəlməsi ilə əsasən London İqtisadiyyat və Siyasət Məktəbinə borcludur (1895). ABŞ-da politologiyanın başlanğıcı məlum olduğu kimi, 1880-ci il gedib çıxır. Məhz həmin ildə Kolumbiya Universitetində tanınmış alim Corc Bercesin təşəbbüsü ilə "Siyasi elmin ali məktəbi"nin yaradılması haqqında qərar qəbul edilir. İdeyanın yaranması isə hələ 1857-ci ildə bu universitetdə Frensis Leyberin siyasi nəzəriyyə haqqında oxuduğu mühazirə kursu təkan vermişdi. Sonrakı illərdə Amerikada bir çox politologiya yönümlü tədris ocaqları və elmi institutlar açılır və uğurla fəaliyyət göstərir. 1903-cü ildə ilk politoloji peşəkar milli qurum – Siyasi elmlərin Amerika Assosiasiyası yaranır. ABŞ-da və Avropa ölkələrində politologiya dövlətşünaslıq və hüquqşünaslıqdan ayrılır(5, 236).

O zaman politologiya bir çox fənləri, o cümlədən sosiologiya, tarix, iqtisadiyyat, sosial psixologiya və s. özündə ehtifa edən bilik sahəsi kimi başa düşülür və "siyasi elm" adlandırılır. Bu istilah bütün dünyada geniş yayılmağa başlayır. 1896-cı ildə tanınmış italiyalı politoloq və sosioloq Q.Moska sonralar klassik sərə çevrilən "Siyasi elmin elementləri" əsərini çap etdirir. Məhz siyasi elm çərçivəsində demokratiya, elitalar, partiyalar, qeyri-formal proseslər, siyasi hakimiyyət və başqa problemlərə həsr olunmuş məxsusi nəzəriyyələr tədqiqat obyektinə çevrilir. Bu epoxa dünyaya A.Bentli, Q. Moska, V.Pareto, R.Mihels, M.Veber, E.Dürkheym, E.A.Friman, F.Pollok, C.Sili, V.Vilson, Ç.Merriarm və digər görkəmli nəzəriyyəçilərin adlarını bəxş edir. Məhz o vaxtdan bu günə kimi davam edən siyasi elmin inkişafının müasir dövrü başlanır.

XX əsrin ilk onilliklərində siyasətin empirik baxımdan öyrənilməsi Amerika universitetlərində geniş vüsət taparaq hüquq, fəlsəfə və tarix fənlərinin bazasında tədris olunur. 20-40-cı illərdə Çikaqo Universitetində yaranan və uğurla



fəaliyyət göstərən siyasi elmin Çikaqo məktəbinin əsas əhəmiyyəti ondan ibarətdir ki, burada konkret empirik tədqiqatlarla sübut edilir: siyasi elmin əsl inkişafı yalnız kəmiyyət metodlarının köməyi ilə aparılan fənlərarası araşdırmalar strategiyasının dəstəklənməsi əsasında mümkündür.

XX əsrin əvvəllərində tərkibində tanınmış nümayəndələri T.Veblen, C.Kommons və U.K.Mitçel olan institusionalizm formalaşır.

XX əsrin ilk onilliklərində siyasi təzahürləri xüsusi reallıq kimi izah edən Maks Veber əlahiddə yer tutur. Bürokratiya və plebissitar-rəhbərçi konsepsiyasının müəllifi Maks Veber ilk dəfə olaraq siyasətin peşəkarlıq baxımından əhəmiyyətini açıqlayır. "Siyasət bir istedad və peşə kimi" əsərində o, siyasətin fəlsəfə və sosiologiya baxımından nə olduğunu açıqlayır, siyasətçinin uğurlu fəaliyyəti üçün lazımi professional keyfiyyətlərini təhlil edir. "Protestant etikası və kapitalizmin ruhu", "Təsərrüfat və cəmiyyət" əsərlərində mütəfəkkir kapitalist cə miyyətində bürokratiyanın aparıcı qüvvə, hakimiyyətin əsas alətinə çevrilməsi ideyasını irəli sürür. Onun fikrincə, bütün müasir demokratiyaları gələcəkdə ictimai və dövlət fəaliyyətinin total bürokratlaşması gözləyir. Məhz bu perspektiv nəticəsində kapitalizmi heç də sosializm deyil, rasional idarəetmə məqsədilə tam bürokratlaşmış cəmiyyət əvəz edəcək.

Bütövlükdə XIX əsrin sonu – XX əsrin ilk onilliklərində siyasi elmin inkişafında belə bir mənzərə yaranır: müxtəlif görüşlərin və ideyaların intensiv formalaşma prosesi tam və rəngarəng konsepsiya, nəzəriyyə və cərəyanların yaranması ilə nəticələnir. İkinci Dünya müharibəsinə qədər həmin proses Amerikada vəAvropada bir qədər fərqlənir(2, 201).

Həmin illər Amerika siyasi elminin inkişafında bir sıra xüsusiyyətlər nəzərə çarpır:

- siyasəti öyrənən mərkəzlərin sayı sürətlə artır;
- milli səviyyədə aparılan siyasətin, məsələn, konqresin və federal hökumətin fəaliyyəti tədqiqat obyektinə

çevrilir;

- empirik dəlillərin toplanması və işlənməsi yolu ilə əldə edilən materiallardan geniş istifadə olunur.

Beləliklə, Avropa ənənəsindən fərqli olaraq, Amerikada sırf siyasi tədqiqatlara meyl daha çox nəzərə çarpmaqdadır. Yəni XIX əsrin sonunda F.Pollak və R.Silidən başlayaraq, Amerika alimləri siyasi sistemin formal institutlarını – icraedici və qanunverici hakimiyyəti, məhkəmələri, seçki mexanizmlərini və s. öyrənir. Formal-leqalist yanaşmanın siyasi təzahürlərin mahiyyətini dərk etmək üçün kifayət qədər yetərli olmaması artıq təsdiqlənəndə, ABŞ-da davranış tədqiqatlarına maraq artır.

Siyasi elm məsələlərinə həsr olunmuş Beynəlxalq kollokviumda (Paris, 1948) YUNESKO-nun bir qrup eksperti bu elmin məzmunu haqqında xüsusi qətnamə qəbul edir. Həmin sənədə uyğun olaraq qərara alınır ki, "siyasi elm" istilahı cəm deyil, tək sayda işlədilsin, siyasi elmin əsas tədqiqat obyektləri isə aşağıdakılar sayılsın : 1. siyasi nəzəriyyə və siyasi ideyaların tarixi; 2. siyasi təsisatlar; 3. siyasi partiyalar, qruplar, ictimai rəy, seçkilər, informasiya və təbliğat; 4. beynəlxalq münasibətlər və xarici siyasət. Beləliklə, siyasətin rasional təşkili və elmi dərk edilməsi tələbatı siyasi elmin predmetinin daha dəqiq anlaşılmasına gətirib çıxarır. 1949-cu ildə YUNESKO-nun himayəsilə siyasi elmin sürətli inkişafına çox böyük təkan verən Siyasi Elmin Beynəlxalq Assosiasiyası (SEBA) yaranır. Bu təşkilat 50-ci illərin əvvəllərində siyasi ixtisasların ikinci və üçüncü maddələrini "siyasi sosiologiya" ümumi adı altında birləşdirir, ikinci maddənin bir hissəsini isə mərkəzi və yerli hökumət, hökumət təşkilatları və s. öyrənən "inzibati elmlər" adlandırır. Beləliklə, müasir siyasi elmin dörd əsas qolu meydana gəlir: **siyasi nəzəriyyə, siyasi sosiologiya, inzibati elmlər, beynəlxalq münasibətlər(1, 277).**

Siyasi elmin inkişafında Beynəlxalq Sosiologiya Assosiasiyanın Siyasi sosiologiya üzrə üzrə komitəsinin və Miçiqa



Universiteti nəzdində fəaliyyət göstərən "Survey Research Center" - "Xülasə Tədqiqatlar Mərkəzi" nin də rolu böyükdür. Bu təşkilatlar Avropa mütəxəssislərinin peşəkarlıq səviyyəsinin yüksəlməsinə güclü təsir göstərir.

1970-ci ildə Ford fondunun vəsaiti hesabına "European Consortium for Political Research" - "Siyasi Tədqiqatların Avropa Konsorsiumu" adlı ümumavropa təşkilatı yaradılır. Konsorsium müxtəlif milli tədqiqat mərkəzlərinin nəzdində xüsusi laboratoriyaların təşkil edilməsi, birgə layihələrin həyata keçirilməsi və Esseks Universitetinin yay məktəblərində ictimai elmlər metodologiyası üzrə proqramların tədris edilməsi üçün vəsait ayırır. Bu təşkilatın köməkliyi ilə "The European Journal for Political Research" - " Siyasi Tədqiqatların Avropa Jurnalı" işıq üzü görür. Konsorsiumun kollektiv üzvləri universitet fakültələri və elmi - tədqiqat təşkilatları olur. Hətta Avropa ölkələrində siyasi elmin inkişaf səviyyəsi həmin konsorsiuma üzv olan milli elm mərkəzlərinin sayı ilə müəyyən edilir.

Siyasi elmin inkişaf xüsusiyyətlərinə gəldikdə isə, qeyd olunmalıdır ki, bir qayda olaraq, bütövlükdə həmin müddət dörd dövrə bölünür:

**I. Biheviorist proqramın izahı və təsdiqi dövrü** (1945-1962).Ən tanınan müəlliflər - Q. A. Almond, D.İston, X. Eylau, K. Deyq və D. B. Trumendir. Biheviorist politologiyanın ilkin proqramı elmi nəticələrin əldə edilməsi üçün lazım olan beş müddəa ilə bağlı idi: 1. qanunauyğunluq - ümumi qanunlar əsasında izahın və gələcəyin qabaqcadan bildirməsinin mümkünlüyü; 2. verifikasiya, yəni obyektivlik və tədqiqatın empirik yoxlanılması; 3. etibarlı metodlardan istifadə - dəqiq elmlərdən götürülmüş metodların köməkliyi ilə kəmiyyət dəyərləndirmə imkanı; 4. kvantifikasiya - empirik dəlillərin sistemləşdirilməsi və toplanması; 5. subyektivliyə yol vermək üçün etik və ideoloji dəyərləndirmədən imtina əsasında məlumatların qeyd olunmasının dəqiqliyi.

II. **"Siyasi elmin süqutu" məsələsi ətrafındakı diskussiyalar dövrü.** Bunların gedişatında behaviorist politologiyaya qarşı qoruyucu reaksiya özünü açıq-aydın büruzə verir. 60-cı illərin əvvəllərində aparılan həmin diskussiyalarda P. Matriç, İ. Berlin, C. Plamenats kimi görkəmli mütəxəssislər iştirak edir. Diskussiya İ. Berlinin "Siyasi nəzəriyyə hələ mövcuddurmu?" adlı məşhur əsəri ilə başlanır. Burada müəllif sübut etməyə çalışır ki, siyasət haqqında düşüncələr mütləq fəlsəfi xarakter daşıdığına görə heç vaxt məntiqi-deduktiv və yaxud empirik elmlə əvəz oluna bilməz. Bu da onunla izah olunur ki, siyasi problemlər daim fəlsəfi-ideoloji seçimlə birbaşa bağlıdır. Metodoloji təmizliyin, mükəmməlliyin mücərrəd idealı naminə siyasətin "dəyərlərindən" imtina edən və yanlız konkret faktlarla məşğul olan elm son nəticədə elə vəziyyətə çatır ki, siyasət meşələrini nə qoya, nə də həll edə bilir. Bu isə siyasi filosofların fikrincə, ona görə baş verir ki, məhz həmin məsələlər siyasətin məqsədləri, mənası və həddi ilə bağlı olan qərarların qəbul edilməsinə səbəb olur. Neytral politoloq, ələlxüsus siyasi sistemlərin böhranları,-yaxud sürətli dəyişməsi, müxtəlif qüvvələrin və ideologiyaların toqquşması zamanı intellektual gücsüzlüyə və susmağa məhkumdur. Təbiət elmlərinin modeli imitasiya etmək istəyi politologiyanın təbiətinə zidd olan elə yüksək prosedur standartlarını zorla qəbul etdirir ki, onlar bu sahədə səmərəliliyin yalnız çox aşağı səviyyəsini təmin edə bilər(7, 117).

III. **Biheviorist doktrinanın böhranı və ssiyentist nikbinliyin azalması dövrü.** Xüsusi intensivliklə 1965-1975-ci illərə təsadüf edən və "məyusluq onilliyi" zamanı özünü büruzə verən bu dövr ideya baxımından D. M. Riççinin "Siyasi elmin faciəsi" (1984) və D. İstonun "ABŞ-da siyasi elm: keçmiş və gələcək" (1985) adlı kitablarının nəşri ilə başa çatır. Siyasi filosofların dəlillərini biheviorist politologiyanın beş əsas müddəası ilə əlaqələndirmək olar:

1. Siyasətçilərin davranışında və siyasi sistemlərin fəaliyyətində müntəzəm, uzunmüddətli, və geniş miqyaslı qanunauyğunluqları qeydə almaq qeyri-mümkündür. İndiyə qədər politologiya səbəbiyyət və yaxud statistik xarakterli hər hansı bir ümumi qanunu işləyib hazırlamaq iqtidarında deyil ki, onun əsasında siyasi hadisələri izah etmək və xüsusən gələcəyi qabaqcadan bildirmək mümkün olsun. Əlbəttə, bunun səbəbini heç də politologiyanın texniki baxımdan zəif inkişaf etməsində axtarmaq düzgün olmazdı. Çünki bütün ictimai elmlər, o cümlədən politologiya şəxsi əməllərin yüksək dərəcəli gözlənilməzliyi, sosial münasibətlərin artan mürəkkəbliyi ilə bağlı olan spesifik çətinliklə üzləşir.

2. Politoloji ümumiləşdirilmələrin həqiqiliyini yoxlamaq qeyri - mümkündür, madam ki, belə yoxlamanın bünövrəsi olan faktlar özləri müəyyən bir nəzəriyyənin metodoloji imperativliyinə cavab verən seleksiyanın nəticəsi olur və həmin nəzəriyyə səhv çıxandan sonra öz qüvvəsini tamamilə itirir.

Digər tərəfdən, politoloqların siyasətin elmi tədqiqinin spesifik metodu kimi istifadə olunan müqayisəli metoda tez-tez müraciət etməsi heç də yoxlama metodu kimi qəbul edilə bilməz. Bu da onunla bağlıdır ki, həmin metod yalnız məlumatların qiymətləndirilməsi və seçilməsi üzrə sadə bir əməliyyatdır.

3. Seçkilərin nəticələrinin təhlilindən başqa, politologiyada kəmiyyət metodlarından çox az istifadə olunur.

4. Politologiya siyasi nəzəriyyələrin və biliklərin əsasını akkumulyasiya edə bilməmişdir ki, o, yekdilliklə bu elmi fənnin şəksiz məğzi hesab edilsin. Məhz konkret məsələlərə dair çox sayda empirik məlumatların toplanması giperfaktoloji təhriflərə gətirib çıxarır və nəticə etibarilə Amerika politologiyasının böhranına səbəb olur(7, 205).

Siyasi elmin terminologiyasının konseptual unifikasiyası cəhdi də sadəlövh görünür. Məsələn, C. Sartori tərəfindən bu məqsədlə Pitsburq Universiteti nəzdində "Konseptual və terminoloji təhlil komitəsi"nin yaradılmasına baxmayaraq, müasir politologiyada bu sahədə problemlər hələ də həll olunmayıb.

5. Dəyərləndirmədən imtina bütövlükdə ictimai elmlərdə, ələlxüsus siyasi təzahürlərin öyrənilməsində qeyri-mümkündür. Tədqiqatçı məlumatların təsnifatından orijinal nəzəriyyələrin işlənməsinə keçdikcə istər- istəməz müəyyən fəlsəfi, etik və yaxud ideoloji dəyərlərə arxalanır. Bundan başqa, elmi bilik sahəsində hədsiz dəqiqliyə can atma politoloqları yaşadıqları cəmiyyətin mühüm problemlərindən yayındırır.

## ƏDƏBIYYAT


1. Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. Bakı, 2005.
2. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000.
3. Sanisteban L. Siyasət elminin əsasları. Bakı, 1994.
4. Mehdiyev R. Azərbaycan tarixi, irsi və müstəqillik. Bakı, 2001.
5. Əfəndiyev M. Siyasi elmin problemləri. Bakı, 2001.
6. Hüseynzadə Y. Siyasəti fürsət. Bakı, 1994.
7. Şirəliyev H., Əhmədov Y. Politologiya. Bakı, 1997.
8. Tağıyev Y. Siyasi dərslik. Bakı, 2009.




*Kamilə QASIMOVA*

## AMERİKA VƏ AVROPADA MƏDƏNİYYƏTLƏRƏ VƏ SIVILIZASIYALARA BAXIŞ

***Açar sözlər:*** mədəniyyət, sivilizasiya, cəmiyyət, nəzəriyyə, türk, Avropa, maarifçilər, cəmiyyət.

Müasir sivil dünya insanları və onların mənsub olduğu tarixi insan birliklərinin yerinin və rolunun nədən ibarət olması faktını üzə çıxarır onların müasir qlobal sosial-siyasi proseslərdə onyadığı rolu əks etdirir.

Hegel yazırdı ki, hər bir xalqın özünəməxsus tarixi təyinatı mövcuddur ki, xalqlar bunu öz konkret ruhlarının vasitəsi ilə reallaşdırırdılar. Hegel üçün Amerika gələcəyin dövlətidir. K.Marks və F.Engels Amerikanı sivilizasiyalı dünyanın bir hissəsi hesab edirdilər. Onlara görə Amerika ən inkişaf etmiş Fransa, Almaniya, İngiltərə kimi ölkələrlə bir sırada durur və onlarda baş verə biləcək birgə inqilab dünya inqilabına gətirib çıxara bilər. Bu mənada onlar Meksikanın da ona birləşdirilməsinə haqq qazandırırdılar. Yəni ayrıca Meksikada inqilab gözləmək olmaz, amma o, ABŞ-nın tərkibində olsa bu inqilabi prosesə qoşulardı. Eynilə K.Marks və F.Engels almanların zülmü altında olan Slavyan xalqlarının milli azadlıq çıxışlarını da məqbul saymır və bunu dünya inqilabına qarşı edilmiş bir qəsd kimi qiymətləndirirdilər. Onlar Almaniyada yetişməkdə olan sosialist inqilabını «öz miskin milli azadlıqlarına» qurban verirdilər.

Fransanın məşhur xarici işlər naziri olmuş Taleyran Fransanın polis naziri Cozef Fuşeni XVIII Lüdovkin tapşırığı ilə dilə tutub ABŞ-a səfir göndərmək məqsədilə ona bu ölkə haqqında belə məlumat verirdi: «Ah, ora nə qədər füsunkardır-ibtidai qəbilələrin məskun olduğu keçilməz meşələr, tədqiq olunmamış nəhəng çaylar, güclü Potapmik çayı və bö-

yük Eri gölü. Bu qəhrəmanlıq və romantika diyarında yeni, bərkdən-boşdan çıxmış, bərkimiş insanlar, vuruşmalarda təcrübə qazanmış azadlıqsevər, qeyri-məhdud imkanlara malik və nümunəvi qanunlar yaradan adamlar yaşayır. Bəli, orada öyrənməli şey çoxdur. Orada təzə və daha yaxşı gələcək, öz dövrünü başa vurmuş bizim Avropada olduğundan min dəfə çox duyulur. Yaşamalı və fəaliyyət göstərməli əsas yer də elə oradır. [2, s.184]

Vaxtilə Fuşe özü də Napoleona belə bir məsləhət vermişdi. Lakin nə Napoleon, nə də Fuşe Amerikaya getmədilər. Amma getsəydilər hər ikisi qazanardı. Həyatlarının sonu belə əzablı və yorğun olmazdı. Amerika – Avropanın varisi, onun yetirməsidir. Bu günkü Avropaya və Amerikaya baxın. Onlar həqiqi sosializmin bir nümunəsidir ki, var. Tədrici inkişafla, proletariat diktaturasının olmaması, xüsusi mülkiyyətin aradan qaldırılmaması şəraitində yaranan bu cəmiyyətlər kommunistlərin sosial reformist adlandırdığı və daim yamanladığı K.Kautski ilə E.Bernşteynin göstərdiyi yolla gəlib çatmışlar. Bunun üçün Avropada və ABŞ-da sosial baza mövcud olmuşdur. Şərq ölkələri isə sosializmə hazır deyildi və burada sosializm bolşeviklərin təcrübədən keçirdikləri sınaq meydanı rolunu oynamışdır. Öz ideyalarında marksizmə arxalanan bolşeviklər əslində onu tam saxtalaşdırılmış şəkildə geridə qalmış Rusiya şəaritində tətbiq etmişlər. Əslində marksizmin sosialist inqilab nəzəriyyəsi Avropa və ABŞ üçün nəzərdə tutulduğundan burada onun tətbiqi təbii ki, uğursuzluqla nəticələnməli idi. Bolşeviklərin hakimiyyətə sahib olaraq, ondan istifadə edib digərləri üzərində öz diktaturalarını qurmaq ambisiyaları milyonlarla insanın məhv edilməsi bahasına başa gəlirdi və ona görə də nəhayətdə süquta uğradı. İkinci bir tərəfdən bolşeviklərin sonrakı nəzəriyyəçiləri bu cəmiyyətin sonrakı inkişaf yollarını göstərməkdə acizlik göstərirdilər.

1776-cı il ABŞ İstiqlaliyyət Bəyannaməsi Amerika qitəsində ilk müstəqil dövlətin yaranması aktı idi. Bir sıra xalqlar onun təsirindən sonra müstəmləkəçilik əleyhinə hərəkatı genişləndirdilər və müstəqilliyə qovuşdular. Lakin müasir dövrdə bir sıra xalqlar ABŞ-ı azadlıq və istiqlaliyyət simvolu kimi tanımaq istəmirlər. Çünki müasir dövrün əsas meyarı kiminsə hegemonluğunu qəbul etmək deyil, bərabər hüquq əsasında inkişafdan ibarətdir. Dünya miqyasında yaranan iri güc mərkəzləri: Çinin başçığılı altında fəaliyyət göstərən Cənub-Şərqi Asiya ölkələri, ərəb ölkələri, Slavyan dünyası, roman-qerman dilli ölkələr (yəni Qərbi və Mərkəzi Avropa), Afrika, Cənubi Amerikanın ispandilli ölkələri, Türk dünyası, İrandilli ölkələr və s. gələcəkdə birinciliyin ABŞ-dan alınması uğrunda elə indinin özündə mübarizəyə başlamışlar. Müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin dialoqu və qarşıdurması prosesinə Yaponiya və portagiz dilli ölkələr də qoşuldular. Dünyanın belə rəngarəng palitrası fonunda ABŞ gələcəkdə öz hegemonluqunu, yaxud sadəcə müstəqilliyini qoruyub saxlaya biləcəkmi? Müasir dövr - ideyalar mübarizəsinin maraqlar mübarizəsilə əvəz olunduğu bir dövrdür. Bu dövr ABŞ maraqlarının bütün dünyanı əhatə etdiyi bir dövrdür. Amma ABŞ-la yanaşı hər bir ölkənin də öz maraqları var. Ona görə də onlar həm culğaşır, həm də toqquşurlar. Bunu nəzərdə tutan Z.Bjezinski qeyd edir ki, bu kimi prosesləri görən ABŞ dünyada baş verən dəyişikliklərə maksimum şəkildə ehtiyatla yanaşır. Leopoldo Seaya görə bu gün ABŞ həqiqi azadlıq ideyalarının təcəssümü rolunu oynamır, əksinə, dünya xalqlarının azadlığı yolunda bir maneəni təşkil edir. [3, s.45]

İndira Qandinin atası Cavahirləl Nehrunun belə bir kitabı var: «Dünya tarixinə bir baxış». C.Nehru bu kitabı qızına məktublar şəklində yazmışdır. Burada o göstərir ki, İngiltərə onun ölkəsinə böyük meydan vuruşlarında deyil, bazarda, biznes sahəsində, birjalarda qalib gəlmişdir. Yəni o qızına, eləcə də bu kitabı oxuyacaq həmvətənlərinə başa salmaq istəyirdi ki, müasir iqtisadiyyat bütöv ölkələrin taleyini məhz

bu sahələrdə müəyyən edir. İngilislər Hindistana azadlıq verdilər. Amma onun iqtisadiyyatını əldən buraxmadılar, müxtəlif şirkətlərlə, firma və cəmiyyətlərlə onu öz əlində saxladılar və zorla olsa da onu 1931-ci ildən təvəllüd tapmış «Britaniya ölkələri birliyi» çevrəsində saxlamağa nail oldular.

ABŞ-ın «zəvvar ataları» da məhz bu torpaqdan çıxmışlar. 1620-ci ilin 11 noyabrında Kor burnuna yan alan «Meyflauer» gəmisi də dini təqiblərdən yaxasını qurtarmış bir dəstə adamın bu torpağa pənah gətirməsi ilə nəticələnmişdir. O vaxt Amerikada nə dövlət, nə ordu, nə də polis var idi. Bu gəminin sahibləri gəlib burada əsl vətəndaş cəmiyyətini qurdular. Onlar ingilis adət-ənənlərini, idarəçilik qayda-qanunlarını, liberal ingilis quruluşunu bura gətirdilər. İngilislər ABŞ-ın mənəvi atası rolunu oynadılar, dillərinin də ABŞ-ın dövlət dili kimi tanınmasına nail oldular. İngilislər sonralar məğlub olsalar da öz milli mentalitetlərini ABŞ-ın siyasi həyatına qəbul etdirə bildilər. Ona görə də biz burada Böyük Britaniyadan danışmağı qərara aldıq. Çünki yuxarıda dediyimiz kimi, tarixi tale bu iki anqlosaks ölkəsini bir xətdə birləşdirmişdir. Onlar hər iki dünya müharibəsində eyni cəbhədə vuruşmuşlar, bütün beynəlxalq münaqişələrdə bir-birilərinə dayaq olmuşlar. «Atlantika» ideyasına bağlılıq, NATO quruculuğunda birgə əməkdaşlıq, Folklend (Malvina) adaları böhranında ABŞ-ın İngiltərəyə, İraq və Əfqanıstan hadisələrində İngiltərənin ABŞ-a dəstəyi və başqa faktlar onların indinin özündə də bir nöqtəyə vurduqlarını nümayiş etdirir. İngilislər ikinci dünya müharibəsindən sonra «Xalqlar liqasının» BMT şəklində Amerikaya keçməsinə nəinki etiraz etdilər, əksinə, onu dəstəkləyən ölkələrdən birincisi oldular. Burada şübhəsiz ki, Amerikanın iqtisadi gücü də önəmli rol oynadı. Bu güc BMT-nin yaradılmasında əsaslı rol oynadı. ABŞ-dan əvvəl dünyanın fatehi Böyük Britaniya idi. Bu kiçik adalar sanki dünyanın yeni torpaqlarının məskunlaşması üçün bir baza idi. Lakin İngiltərə bu rolunu öz əlində



çox saxlaya bilmədi. Əvəzində Amerika onu bütün dünyadan sıxışdırıb çıxardı, lap axırda isə SSRİ-ni də dağıdıb birqütblü dünya nizamını həyata keçirməyə başaladı. Amma yenə də İngiltərənin köməkliyi olmadan keçinə bilmədi, bütün tədbirlərin həyata keçirilməsində ondan istifadə etdi. Amerika və İngiltərə bugünkü dünyanın geopolitik nizamlanmasında özlərinin birgə fəaliyyəti ilə bütün dünyaya nümunə göstərdilər.

Daha doğrusu, məhz onlar dünyanın «maraq dairələri»nə bölünməsində əlbir fəaliyyət göstərdilər və hər şeyə nail oldular. Zbiqnev Bjezinski özünün «Böyük şahmat taxtası. Amerika ağalığı və geopolitik imperativləri» (M., 1998) əsərində dünyanın siyasi arenasında ABŞ-ın oynadığı dominant rolu əsaslandırmışdır. Burada dünya ölkələrinin siyasətdə oynadığı rollar, hərəsinin özünə görə yerləri fiqurların böyüklüyündən və kiçikliyindən asılı olaraq yerləşdirilməsi və hərəkatı fonunda izah olunur. Zbiqnev Bjezinskinin kitabının əsas qayəsi ondan ibarətdir ki, müasir ABŞ dünyanın bir saylı superdövləti olmaqla özünü dörd əsas sahədə göstərməkdədir: 1) iqtisadi; 2) hərbi; 3)texniki; 4) mədəni. Bunların sayəsində ABŞ qlobal siyasi qüvvəyə çevrilmişdir. Bundan başqa o, xəbərdarlıq edərək bildirir ki, müasir dünyada ABŞ-ı üstələyə bilən Avrasiya super kontinenti də mövcuddur ki, ondan qorunmaq lazımdır. Dünya əhalisinin 75%-i, yer kürəsi ərazisinin 60%-i, ümumi daxili məhsulun 75%-i məhz bu regionda yerləşir. Bu regionun ən çox inkişaf etmiş ölkələri gələcəkdə siyasi baxımdan üç böyük güc mərkəzindən ikisinə-Qərbi Avropaya və Şərqi Asiyaya böyük təsir göstərmək imkanlarına malik olacaqdır. Almaniya və Fransa ABŞ-ın müttəfiqləri və NATO üzrə tərəfdaşları olduqları üçün elə də qorxulu deyillər. Amma onların arta biləcək Avropa millətçiliyindən və ABŞ-ın maraqlarına qısqanclıqlardan ehtiyatlanmaq lazımdır. Avrasiyanın Şərq flanqını təşkil edən Çin, Yaponiya (Z. Bjezinski onu ABŞ-ın protektatoru adlandırıb) və Hindistan (onu əvvəllər SSRİ dəstəkləyirdi,

indi isə siyasi dəstəyi yoxdur) müəllifi narahat edir. Amma Çin iqtisadi cəhətdən zəif olduğu üçün ABŞ-ın bu zonada lövbər salmasına yardım göstərəcəkdir. [4]

Bu cəbhədə ABŞ-ın başlıca rəqibi Rusiyadır. O, dünya ölkələri içərisində ən böyük əraziyə malikdir. Ona görə də onu üç respublikaya - Avropa Rusiyası, Sibir Respublikası və Uzaq Şərq respublikasına bölməyi məsləhət görür. Bu konfederativ respublikanın birincisi NATO-ya daxil olur və digərlərinin üzərində ABŞ nəzarəti həyata keçirir.

Necə ki, Antik Romanın qüdrətli senatoru Katon hər çıxışının sonunda belə deyərmiş: «Bundan başqa, mənə belə gəlir ki, Karfagen mövcud olmamalıdır». (Çeterun censen Carifiaginem essee delendam). Z. Bjezinskiyə görə SSRİ-dən qopub ayrılmış respublikalara - Azərbaycana, Özbəkistana, Ukraynaya və başqalarına köməklik göstərmək lazımdır ki, onlar güclənsinlər və Rusiyada yarana biləcək imperiya ambisiyalarına qarşı dayana bilsinlər. Belə ki, müəllif şahmat taxtasında yeganə bir fiqur da şahın salamat qalacağını əsaslandırır ki, bu fiqur da ABŞ-dır.

Zbiqnev Bjezinski başqa bir əsərində İslam xalqlarını ABŞ-ın milli maraqları üçün elə də qorxulu saymır və göstərir ki, dünya sivilizasiyasının inkişafında guya onlar xristian və buddist dünyasının yüksək inkişafına bu tezlikdə yüksələ bilməzlər. [5, s.84-85]

Sitatdan belə anlaşılır ki, İslam xalqları ABŞ-ın qlobal siyasətdəki aparıcı roluna mane ola bilməzlər. ABŞ-da fəaliyyət göstərən və siyasi prosesləri, xüsusilə dünya ölkələrindəki demokratik prosesləri öyrənən «Freedom hays» mərkəzi də onları ABŞ-ın Milli təhlükəsizlik mövqeyindən şərh edir. Bununla da ABŞ bütün dünyada özünün qlobal demokratiyanın atası olduğunu digərlərinə bir daha xatırladır.

Napoleon Bonapart Avropanın xəritəsini dəyişdiyi kimi, Latın Amerikasının də xəritəsini dəyişdi. İspaniyanı və Portuqaliyanı işğal etməklə onların imperiyalarına güclü



zərbə vurdu. Latın Amerikası xalqları «Hakimiyyətsizlik vaakumundan» istifadə edib, öz dövlətlərini yaratdılar. Müstəmləkəçiləri ölkədən qovub yeni, azadlıq və bərabərlik cəmiyyəti yaratmağa çalışdılar. Ona görə də onların fəlsəfi düşüncələri «asılılıq şüurundan» azad olub müstəqillik şüurunu keçənədək uzun bir yol keçməli oldu. Lakin bu gün Amerikada doğulan nə ispan, nə də portəgiz əvvəlki millətlərin nümayəndəsi sayılmırlar. Onlar hindu da deyillər. Onların fəlsəfəsi də artıq Avropa fəlsəfəsi deyildir. Latın Amerikası xalqlarının tarixinin fəlsəfəsi azadlıq uğrunda mübarizə fəlsəfəsidir. Onun əsası Simon Bolivar və Xose Marti tərəfindən qoyulmuşdur.

Leopaldo Seaya görə «Latın Amerikası xalqlarının azadlıq fəlsəfəsi hazırda sosial problemlərin həlli və sosial azadlıq uğrunda mübarizənin bir vasitəsinə çevrilmişdir». [6, s.78-70]

Latın Amerikası xalqlarının fəlsəfəsi: 1) Qərbi Avropa xalqlarının; 2) İspandilli fəlsəfənin; 3) onların hər ikisinin sintezinin formalaşmasından yaranmışdır. Latın Amerikası xalqları da artıq ispan deyillər, onlar hindu da deyillər. İspanların, avropalıların, mayyalıların, inklərin və digər yerli Amerika xalqlarının, tayfa və qəbilələrinin birləşməsindən əmələ gəlib formalaşmış yeni tipli millətlərdir. Onların dilləri ispan (portagiz) dili olsa da, bu dil artıq İspaniyada, yaxud Portuqaliyada danışılan dil də deyil, xeyli deformasiyalara məruz qalmış yerli dillərdir və hər bir ölkənin öz şəraitinə uyğun formalaşıb ədəbi dil halına düşmüş yeni dillərdir. Psixoloji amil, xarakter, əsaslı mədəniyyət fərqləri də mövcuddur. Onu da deyək ki, yerli xalqların qədim adət-ənənələrinin xüsusi çəkisi heç də Avropadan gəlmə adət-ənənələrinkindən aşağı deyil. Mədəniyyətlərin dialoqu burada onların qovuşmasına, simbiozuna, çarpazlaşmasına və bir-birinə nüfuz etmələrinə səbəb olmuşdur.

Ağ, qırmızı, bəzən də sarı və qara irqlərin birləşməsi nəticəsində konqlomerat yeni bir metis irqin yaranması prosesi gedir. Görünür, gələcək dünya vətəndaşının əsası məhz elə

burada qoyulur.

1976-cı ildə Mexiko şəhərində humanitar elmlərin nümayəndələrinin XXX beynəlxalq konqresi keçirildi. Konqresdə Avropasentrizmin tənqidilə çıxış edən misirli alim Ənvər Abdel-Malik özünün «Fəlsəfə və müstəqillik» adlı məruzəsində Latın Amerikasının alimlərinin ünvanına da tənqidi sözlər dedi. Çünki onlar fəlsəfə tarixi problemlərində öz gerçəkliklərinə deyil, Avropa gerçəkliyinə əsaslanırlar. Halbuki onlar yerli xalqların zəngin mənəvi keçmişinə də müraciət edə bilərlər. Məsələn, məruzə müəllifi və eləcə də Misir alimləri fironların keçmiş mədəniyyətinə qayıtmağa səy göstərirlər. Halbuki Mexikonun küçələrindən keçmək kifayətdir ki, bu qədim mədəniyyətin nümunələrini görəsən. Simon Bolivar yazırdı ki, biz nə avropalı, nə də hinduyuq, onların arasında (aborigenlərlə ispanların) nəsə aralıq bir varlığıq.

Mənşəyimiz və qanunlarımız etibarilə avrropalıyıq. Amma doğulduğumuz ölkədə yerli adamların torpağını tutan işğalçıyıq. Ona görə də bizim problemimiz çox dolaşıq və qeyri-adidir». [7; 71, s.78-79]

Leopaldo Sea yazır ki, bizim irqi və mədəni vəziyyətimiz elədir ki, biz bir mədəniyyəti qəbul edib digərini inkar etməklə özümüz özümüzü inkar etmiş oluruq. Təbii ki, belə mürəkkəb problem nə asiyalının, nə də afrikalının qarşısına çıxmır, çünki onlar öz keçmiş mədəniyyətlərinin kökləri üstündə inkişaf edirlər.

L.Y.Slyozkin «Uistokov Amerikanskoy istorii» adlı iki cildlik qiymətli əsərində göstərir ki, ABŞ-ı tədqiq etmək istəyənlər adətən müasir dövrə daha çox müraciət edirlər. Görünür, bu da onun beynəlxalq nüfuzu ilə bağlıdır. Halbuki onun tarixinə müraciət edib oradakı zəngin hadisələri öyrənmək istər dünya xalqlarının tarixini, istərsə də orada yaşayan aborigen tayfalarının mənşəyini öyrənmək baxımından çox qiymətlidir. [8; 100]

Bu adamların «Asiyadan köçüb gəlməsi indi hər bir sadə



adama da bəllidir» (Kinzburq). O da bəllidir ki, Amerikanın coğrafi adalarında, buradakı insanların dillərində mövcud olan sözlərlə müştərəkdir. Mayya və ink imperiyalarının mövcudlüğu, hələ Avropada daş sarayların olmadığı bir dövrdə burada daşdan və mərmərdən tikilmiş zəngin mədəniyyət nümunələri mövcud olmuşdur. Hindu qəbilələrinin xarakterində mövcud mərdlik və qoçaqlıq, sadiqlik və s kimi xüsusiyyətlər gəlmə avropalıların onları hər addımda aldatmaları üçün bir şərait yaratmışdır. Sadəlövh hindu tayfaları tez-tez bu yeni gəlmələrin fırıldaqlarının qurbanı olurdular.

Nə qədər ki, avropalılar öz evlərinin divarından kənara qədəm basmamışdılar, onların antropoligiya elminə elə də böyük ehtiyacları yox idi. Amma dünyanın ucsuz-bucaqsız əraziləri fəth olunduqca, onlar yeni-yeni insanlarla qarşılaşdıqca bu elmin nə dərəcədə vacib olduğunu dərk etdilər, onu yaratdılar və inkişaf etdirdilər. Avropalılar yeni kəşf olunmuş yerləri və adamları həm fiziki, həm də mənəvi cəhətdən ekspansiyaya və assimliyasiyaya uğratdılar. Onlar bu yerlərdə yeni tarix yaratdılar: həm özlərinə, həm də onlara. Avropalılar böyük coğrafi kəşfləri həyata keçirərkən, yeni-yeni ərazilər və insanlarla birlikdə elə özlərini də yenidən kəşf edirdilər, özlərinin başqalarına münasibətini, başqa varlıqda özlərinin fərqli cəhətlərini aşkara çıxarırdılar. Bu da antropoligiyanın, etnologiyanın, insanlarla bağlı digər elm sahələrinin inkişafına səbəb olurdu. Coğrafi kəşflərə hər cür tipli insanların qoşulması, onların sərt təbiətə və «səviç» (vəhşi-onlar yeni qarşılaşdıqları adamları belə adlandırırdılar) qarşı apardıqları ölüm-dirim mübarizəsi ən alicənab avropalını belə «xeyirxah vəhşi»yə (Russo) döndərmişdir. Onlara lap əvvəllərdən sitayiş etməyə başlayan yerli əhali az sonra gördülər ki, yox, bunlarda sitayiş ediləsi heç nə yoxdur.

Onlar öldürməyə, zorlamağa və qarət etməyə gəlmişlər. Avropalıların özlərini belə aparmaları yerli hindu tayfalarının xoşuna gəlmirdi. Onlar da hər yerdə qisas almağa və

əvəzini çıxmağa çalışırdılar. Uşaqlıq və cavanlıq illərindən üzü bəri kəşflər bu qətllər və mübarizələr haqqında oxuduğumuz bədi və tarixi kitablar bizi tez-tez bu hadisələrin ağuşuna elə alırdı ki, biz özümüzü də bəzən bu hadisələrin iştirakçısı sayır, hansı tərəfisə təqdir edir, digərini lənətləyirik. Burada sosial ədalət prinsiplərinin meyarı pozulmuşdu. İnsanlar baş verən hadisələrin burulğanında elə fırlanırdılar ki, onların əlindən nə vaxt xəta çıxdığının fərqinə belə varmırdılar. Çünki baş verən hadisələrin özü insanları buna doğru sürükləyirdi. Avropalılar bu yerlər uğrunda mübarizəyə, biri-birilə didişməyə başlayanda günahsız yerli tayfaları da öz geopolitik planlarına qoşur, onların bir ucdan qırılmasına səbəb olurdular. Avropalıların planlarına əks olaraq ilk illər Amerikanın yerli əhalisi nəinki xristianlığı qəbul etdi, əksinə ona şeytan, cin və iblis kimi baxmağa başladılar, avropalıların hinduları bu tezlikdə assimiliyasiya edə biləcəkləri planları iflasa uğradı. Ona görə də onları zorla xristianlaşdırmağa başladılar. Bu proses tam uğur qazanmasa da, gizli şəkildə keçdi. İki dünyanın qovuşmasından yaranan yeni metis insanlar xristianlığı qəbul edirdilər, amma etnos kimi də yeni və müstəqil bir tarixi birlik kimi formalaşırdılar. Bu da Avropaya imkan verirdi ki, öz mədəniyətini onlarınkının fövqünə qaldırsın. İberiyalılardan fərqli olaraq ingilislər yerliləri Avropa mədəniyətinə şərik etmədilər. Onları xristianlaşdırmaq də istəmədilər, çünki ingilislərə ucuz işçi qüvvəsi və xammal mənbələri daha sərfəli görünürdü. Bundan başqa yeni bazarlar və məhsulun satışını reallaşdırmaq da lazım idi. Ona görə də bugünkü Şimali Amerika ilə Cənubi Amerikanın etnokultural həyatı fərqlidir. İngilislər belə hesab etdilər ki, onların mədəniyyəti daha yüksəkdir və ona görə də yerlilərin mədəniyyətinə laqeyd qaldılar.

Müəyyən mənada elə özləri də digər mədəniyyətlərdən istifadə etmədiklərindən geri qaldılar. Amma ispanlar və portəgizlər əsrlərlə ərəblərin və afrikanların mədəniyyətlərilə qarşılıqlı münasibətdə olduqlarından onlar yad mədəniyyətə tez uyğunlaşdılar, yerlilərlə qaynayıb qarışmağa və onlardan müəyyən şeylər əxz etməyə daha meylli oldular. İngilislər isə Britaniya adalarında əlahiddə yaşadıqlarından, həm də ancaq anqlo-sakslara məxsus mədəniyyətlə qidalandıqlarından bunu edə bilmədilər və biz deyərdik ki, uduzdular. Amma avropalılar tezliklə öz mədəniyyətlərini bütün dünyaya yaydılar və ona görə də istər iberiyalıların, istərsə də anqlosaksların mədəniyyəti də eyni dərəcədə onun təsirinə məruz qaldı. Bu, artıq mədəniyyətlərin dialoqunda qloballaşma prosesinin özünü göstərməsi demək idi.

İspanların Amerikanı məskunlaşdırması ilə ingilislərinkində digər fərqlər də var idi. İspanları dövlət maliyyələşdirirdi. İngilislərdə isə bu güc yox idi və ona görə də onları ayrı-ayrı şirkətlər, pirat gəmiləri həyata keçirirdilər. Bu da qarətə və soyğunçuluğa əsaslanırdı. İngilislər ayrı-ayrı ispan gəmilərinə hücum edir, yerliləri soyur, talayır və öldürürdülər. İspanların qarşısında duran vəzifə burada yeni qaydalar yaratmaq, xristianlığı yaymaq, ideriya mədəniyyətini yerlilərə aşılamaq idi. İngilislərsə yerlilərdən bir vasitə kimi istifadəyə üstünlük verirdilər.

İspanların özündə də yerlilərə münasibətdə müxtəlif mövqelər var idi. Bəziləri «əvvəl qılınc, sonra xaç» şüarı ilə çıxış edərək bütün hinduları zorla «özününküləşdirmək» istəyirdilər (məs.. Sepulveda). Digərləri isə hindulara da insan kimi yanaşıb onlardakı yaxşı şeyləri götürməyi mümkün sayırdılar (məs.. Las Kasas).

İngilislərə görə isə general Şridanın aforizmi əsasdır. «Yaxşı hindu - ölü hindudur». Onların yaxşısı və yaxud pisi ola bilməz, lazımlısı və lazımsızı ola bilər. Ona görə də onlar istər öz aralarında, istərsə də hindu qəbilələrilə saziş bağlamağa üstünlük verirdilər. Lakin hindularla bağlanan müqavilə heç də zəvvar ataların öz aralarında bağladıqları müqaviləyə oxşamırdı. Burada onlar ancaq öz təhlükəsiz-

liklərini gözləmək məqsədini güdürdülər və «dəymə mənə, dəyməyim sənə» prinsipilə hərəkət edirdilər. Bir dəfə hətta ingilislərdən qaydanı pozmuş üç adam özləri tərəfindən edam olunmuşdu. Bu, onların hörmətini bütün hindu qəbilələri arasında yüksəklərə qaldırmış və onlar bir növ kolonistlərin ədalət meyarlarına hörmətlə yanaşmağa başlamışdılar. Deməli, Amerikanın məskunlaşması üç xətt üzrə gedirdi: Kanadada fransızlar, Şimali Amerikada ingilislər, Cənubi Amerikada isə ispanlar və portagizlər, yəni iberiyalılar, onların hər üçünün məskunlaşdırma planlarında nə qədər fərqli cəhətlər olsa da mahiyyəti bir idi: «iqtisadi, stareji-siyasi və mənəvi» xeyir əldə etmək (Xuan A.Orteqi Medina). Onların həyatakeçirilmə mexanizmi müxtəlif idi: İspanlar çalışırdılar ki, yerliləri öz dinlərinə və cəmiyyətlərinə daxil etsinlər. Fransızlar da bu plana əsasən hərəkət edirdilər. İngilislər isə bir əlində Bibliya, digərində qılınc tutmuşdular. Onların peyğəmbəri İsa deyildi, Yeqova idi. [9, s.149]

Yəni İsa humanizmin, Yeqova isə zorakılığın simvoludurlar. Pioner puritanların hindulara qarşı belə münasibəti hər halda ispan kolonistlərinə heç də haqq qazandırmır. Eləcə də fransızlara. Onlar da istisna deyillər. Xuan Orteqi Medina yazır ki, əgər İspan Amerikasında hinduları quldarlıq naminə qoruyub saxlayırdılarsa, puritan-pionerlər onları azadlıq ideyaları naminə qırırdılar. Əgər İspaniya və Fransa öz imperiya sistemlərində hindulara müəyyən yer nəzərdə tuturdularsa, İngiltərənin imperiya sistemində, əksinə, onlara heç bir yer yox idi. Şübhə yoxdur ku, bu İspan mövqeyi idi və Daniel Defo özünün «Robinzon Kruzo» əsərində Cümənin dililə onları (yəni ispanları) hinduların qənimi adlandırır və ingilisləri təriflәyir. Doğrudan da, əgər bütün bunlar var idisə, bəs onda avropalıların özlərinin irəli sürdükləri lideral ideyalar, insan hüquqları, humanizm, azadlıq və bərabərlik ideyaları harada qalırdı. Görünür, avropalılar bütün bu şüarları ancaq mədəni insanlar üçün nəzərdə tuturdular, daha vəhşi hesab etdikləri hindular üçün yox. Onu da deyək



ki, xoşbəxtlikdən bütün avropalılar bu fikirdə olmamışlar. Məsələn, Avropanın qabaqcıl ziyalıları bütün insanların yaşamaq hüquqlarını müdafiə edirdilər. Elə ABŞ-ın özündə C. Vaşinqton, Tomas Ceferson, T.Peyn, A.Linkoln kimi adamlar «ikinci növ vətəndaşların» qul vəziyyətlərinə qarşı çıxmış, quldarlığın aradan götürülməsinə çalışmışlar. Mişel Monten yazırdı ki, adət-ənənələrinin müxtəlifliyinə baxmayaraq bütün insanlar bərabər yaşamaq hüququna malik olmalıdırlar, bu göstəricilər onların birinin digərindən üstünlüyünü şərtləndirə bilməz. Deni Didro yazırdı ki, bütün sivilizasiyalı xalqlar ilk əvvəl vəhşi olmuşlar. Ona görə gec-tez vəhşi dediyimiz xalqlar inkişaf edib sivilizasiyalılıq mərhələsinə qədəm qoyacaqlar. Fransız maarifçiləri sivilizasiyanın insan mənəviyyatını pozduğunu qeyd edir, onun xoşbəxtlik deyil, «bədbəxtlik gətirdiyini qeyd edirdilər. «Vəhşi» insanları isə «təbii» adamlar, hələ sivilizasiyanın poza bilmədiyi adamlar adlandırırdılar. Russo Yeni dünyanın adamlarını «xeyirxah vəhşi» adlandırsa da, onları avropalılardan yüksək qiymətləndirir və yazır ki, onlar despotiyaya gedən yolu hələ keçmədiklərindən onlar avropalılardan daha təmiz, saf insanlardırlar. Russo o zaman sivilizasiyanın tərəfində dura bilər ki, o yaxşı idarə oluna bilsin. İnsan xüsusi mülkiyyətə və sivilizasiyalı dünyaya o zamandan qoşulmağa başladı ki, «bu bostan mənimdir», – dedi.

Maarifçilər azadlıq, bərabərlik və insan hüquqlarını əldə bayraq edərək «qara» İspaniyanı və Portuqaliyanı hinduları qırdıqlarına görə ciddi tənqid edirdilər. Las Kasas, Volter, Monteskye, Marmontel, Reynal, Didro və b. məskunlaşdırma əleyhinə çıxıb bu prosesin dayandırılmasını tələb edirdilər. Onların bu tələblərindən ruhlanan ABŞ əhalisi 1775-ci ildə İngiltərə ağalığına qarşı çıxdı, daha sonra Böyük Fransa inqilabı başlandı. Lakin maarifçilərin əsas tənqid hədəfi İspaniya və Portuqaliya idi. Onların əllərində olan ucsuz-bucaqsız torpaqlarda onlara qarşı üsyana qalxanda İngiltərə və Fran-

sa da üsyançılara havadar durur, bu yerlərdə onları əvəz etməyə çalışırdılar. Eləcə də ABŞ müstəqillik hərəkatına fransızlar yardım göstərirdilər. B.Franklin, general Lafayet bu mübarizəyə başçılıq edirdilər. Deməli, Avropa ölkələrinin əlbir olmaması, öz xüsusi maraqları olması və onu ödəməyə çalışmaları, yerli xalqlardan da bu məqsədlə bir alət kimi istifadə etməyə çalışmaları onların daim didişməsinə və sonra yerlilər və kolonistlər tərəfindən məğlub edilib Amerikadan qovulmalarına səbəb oldu.

Maarifçilərdən Monteskye ispanları onda təqsirləndirirdi ki, onlar bu yeni xalqların timsalında işğala məruz qalan xalqlar tapmışlar, başqa daha ağıllı xalqlar isə (çox ehtimal ki, ingilislər və fransızlar - K.Q.) onlara işgüzar tərəfdaş kimi, kommersiya meydanı kimi baxırlar. Maarifçilərin kolonizatsiyanı (məskunlaşmanı) tənqid etmələrinin bir səbəbini də Avropa şəhər və kəndlərinin boşalması, onların baş götürüb yeni koloniyalara axması idi, bunun da nəticəsində Amerikanın yerli əhalisinin yerini avropalılar tuturdular. Yerli əhali isə kütləvi qırğınlara və yaxud rezervasiyalara sıxışdırılmağa məhkum idilər. Yeni gələnlərin sayı artıqca onların müstəqillik hərəkatı da genişlənirdi. Mirabonun göstərdiyi kimi Yeni dünya gec-tez köhnə dünyanın hökmdarlığına son qoumalı idi və qoydu da. Onu da deyək ki, bu miqrasiya prosesi indi dönməz xarakter almışdır, amma bu dəfə aksinə. İndi dünyanın hər yerindən Avropaya axışırlar. Avropalılıq daha nümunəvi bir həyat tərzi və şəraiti yaratdıqlarına görə indi Asiya və Afrikadan olan mühacirlər oraya gəlir və təbii ki, burada əhalinin milli tərkibinə müəyyən təsirlər göstərirlər. Avropalılar isə bütün vasitələrlə bunun qarşısını almağa çalışırlar. Amma ona nail ola bilmirlər. Çünki özlərini ucuz işçi qüvvəsindən də məhrum etmək istəmirlər. Ona görə də Avropada irqlər və millətlər qarışırlar. Bunun da nəticəsində azsaylı avropalıların gələcəkdə çoxsaylı asiyalılar tərəfindən «udulması» təhlükəsi yaranmışdır.



# ƏDƏBİYYAT


1. Гегел Г.В. Соч. т. 8, М.Л.: 1935, 562 с.
2. Стефан Свейг. Жозеф Фуше. Бакы: Маариф, 1990, 208 с.
3. Леаполдо С. Философия Американской истории, М.: Прогресс, 1984, 382 с.
4. Бжезински З. Великая шахматная доска. Американское господство и геополитические императивы. М.: Международные отнащения. 1998, 248 с.
5. Бжезинский З. Выбор мировое господство и глобалйное лидерство. М.: Международные отношения, 2004, 196 с.
6. «Латынская Америка» жур., 1982, № 2, с.78-79.
7. Боливар С. Речй в Нгостуре. М.: Мысль, 1936, с. 215.
8. Виргиния. Новый Плимут. 1606-1642, М.: Наука, 1978.
9. Леаполдо С. Философия Американской истории, М.: Прогресс, 1984, 382 с

*Sənan HƏSƏNOV*

# XƏZƏRİN STATUSUNUN HƏLLİ PROBLEMİ GEOSİYASİ MARAQLAR SİSTEMİNDƏ (SİYASİ TƏHLİL)

XX əsrin 80-ci illərinin sonunda dünyada baş vermiş proseslər SSRİ-ni və sosializm sistemini süquta uğratdı. Bu zaman Xəzər və onun ətrafında cərəyan edən iqtisadi-siyasi maraqlar sisteminin öyrənilməsi xüsusi elmi və praktik əhəmiyyət kəsb etməyə başladı.

Müstəqilliyimizin ilk vaxtından dövlətlərarası münasibətlərdə müzakirə mövzusuna cevrilmiş Xəzərin statusunun Azərbaycanın xarici siyasətində aktuallıq kəsb edir.

- Yeni siyasi sistemdə Xəzərin geosiyasi bölgə kimi əhəmiyyətinin, onun tarixində baş verən siyasi proseslərin araşdırılması eləcə də dünya ölkələrinin Xəzər bölgəsində transmilli layihələrə küllü miqdarda sərmayələr qoymasının mahiyyəti, geosiyasi kökləri və Azərbaycanın bu prosesdə milli maraqlarının təmin olunmasının araşdırılması vacib məsələlərdəndir.
- Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Xəzərin statusuna dair Azərbaycan diplomatiyasının mütəşəkkil, əsaslandırılmış fəaliyyətinin dövlətlərarası münasibətlərin, bölgədəki sülhün və əminamanlığın qorunmasının aktoru kimi çıxış etdi.

Məlumdur ki, Xəzərin hüquqi rejimini uzun illər boyu Rusiya və İran arasında bağlanan müqavilələr müəyyən edirdi. Həmin razılaşmalara uyğun olaraq, Xəzər iki ölkənin nüfuz dairəsinə bölündüyündən digər dövlətlər bu gölün akvatoriyasına daxil ola bilmirdilər.

Araşdırmalar göstərir ki, Xəzər hələ SSRİ dövründə dövlətlərarası münasibətlərdə müzakirə obyekti olmasa da, keçən əsrlərdə onun ehtiyatlarına nüfuz etmək, istismar etmək, iqtisadi-siyasi dayaqları möhkəmləndirmək kimi cəhdlər Avropa ölkələrinin dövlət siyasəti idi. Bu baxımdan ABŞ və Qərb ölkələrinin Xəzər bölgəsində əməkdaşlıq iddiası meydana cıxmışdır. Bu siyasətin mahiyyətini dərindən qiymətləndirən Ulu Öndər Heydər Əliyev hələ prosesin dövlətlər arasında müzakirə olunma ərəfəsində demişdir: " Biz indi də gələcəkdə də Azərbaycanın təbii sərvətlərindən, xüsusən ən böyük təbii sərvətimiz olan neft yataqlarından cox ehtiyyatlı, səriştəli istifadə olunmasına calışmalıyiq". Bununla da müdrik siyasi xadim Azərbaycanın milli maraqlarını bu prosesdə əsas tutmuşdur. Beləliklə də, Xəzər bölgəsində tarixən cərəyan etmiş nüfuz mübarizəsinin geosiyasi köklərini və yeni müstəqil dövlətlərin suveren hüquqları məsələsini, Xəzərin statusu və karbohidrogen ehtiyyatlarının mənimsənilməsi ilə bağlı reğionda və dünyada cərəyan edən proseslər Azərbaycan xarici siyasətini prioritel istiqaməti kimi müəyyənləşdirilmişdir.

Qeyd edilməlidir ki, Xəzəryanı dövlətlərin qarşılıqlı münasibətləri haqqında dövlətlərin Xəzərin statusuna dair yanaşmaları və bu hövzə üzərində cərəyan edən maraqları, eləcə də Xəzərin statusu haqqında dövlətlərin tutduğu mövqenin elmi-nəzəri əsasları və bunun regionun reallıqlarına və tarixi təcrübəyə əsaslanma dərəcəsinin müəyyən edilməsi də xüsusi maraq doğurmuşdur. Cünki bu prosesdə milli maraqların ifadəsi daha cox özünü göstərmiş ədalətli mövqe Azərbaycan dövlətinin xarici siyasətinin əsas prioritet istiqaməti olmuşdur. Bu hadisələrin illər və dövlətlərin mövqeyi baxımından inkişaf səviyyəsinin öyrənilməsinə zərurət vardır. Odur ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Xəzəryanı ölkələr arasında münasibətlər inikşaf etdi, ikitərəfli və coxtərəfli əlaqələrdə dinamizm artdı, əməkdaşlığın müxtəlif forma və metodları tətbiq edildi, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri çoxaldı. Belə bir vəziyyət Xəzərin statusu məsələsinin müzakirə edilməsi və tərəflərin mövqeyindəki ortaq məqamların üzə çıxarılması-

na təkan vermişdır. Xəzəryanı dövlətlərin diplomatiyasının, problemə münasibətinin mahiyyətini və inkişaf istiqamətini araşdırmaq üçün vacibdir və bizim tədqiqat obyektimiz olaraq maraq doğurmuşdur.

Elmi tədqiqat işləri ilə tanışlıq göstərir ki, XVIII əsrdən etibarən mühüm iqtisadi-siyasi əhəmiyyətə və təbii sərvətə malik olan Xəzər dənizi Rusiyanın diqqət mərkəzinə cevrilmişdir. XIX əsrin əvvəllərində- Azərbaycan işğalından sonra bu hövzədən Rusiya və İran sərbəst şəkildə istifadə etmişlər. XIX əsrin sonlarından başlayaraq Xəzərin geoloji tarixi, neft qaz yataqları, bioloji şəraitinə dair elmi tədqiqatlar bilavasitə azərbaycanlı mütəxəsisslərinin mühüm xidmətləri sahəsində aşkar olunmuşdur. Bu dövrdən etibarən Xəzərdə Rusiya və İranın nüfuz bölgüsünə əsaslanan mübarizəsi daha da güclənir.

Nəhayət, 1993-cü il oktyabrın 3-də prezident seçkilərindən sonra hakimiyyətə gəlmiş Heydər Əliyev 1994-cü il fevralın 4-də «Azərbaycan Respublikasında dəniz neft yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında» sərəncamdan az sonra müqavilənin imzalanma mərasimində onun iqtisadi-siyasi əhəmiyyətini qiymətləndirərək Ulu Öndər Heydər Əliyev demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətlərinin özünün sahib olduğunu dünyada bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Azərbaycan Respublikasının müstəqil demokratik, hüquqi dövlət olduğunu nümayiş etdiririk".

Neft strategiyasının ilk uğurlarından sonra Xəzərin statusu problemi sahilyanı dövlətlərin xarici siyasət strategiyasında müzakirəyə cıxarılan aktual problem kimi cərəyan etməyə başladı.



Məsələ barədə ziddiyyətlərin kəskinləşməsini və gedən siyasi mübarizənin milli maraqlar baxımından digər hadisələrə mənfi təsir edəcəyini nəzərə alan müdrik siyasi xadim daha bir məntiqli cavab ABŞ-a səfəri zamanı bütün qonşu ölkələrə və regionda maraqları olan ölkələrə belə vermişdir: "1994-cü ildə Azərbaycanın böyük neft müqaviləsi imzalaması region ölkələrini, o cümlədən bir cox ölkələri narahat etdi. Onlar bu məsələnin qarşısını almaq üçün "status" məsələsini ortaya atdılar. Biz statusun müəyənləşməsinin əleyhinə olmamışıq. Ancaq eyni zamanda Xəzər dənizi dünyada nadir bir su hövzəsi olmasına görə onun statusunun müəyyənləşdirilməsi də cox mürəkkəbdir. Xəzər dənizinin mineral ehtiyyatlarının –dənizin dibinin neft qaz yataqlarının istifadə olunması üçün müəyyən qayda nümunə vaxtilə yaranıbdır. Bildiyimiz kimi Sovetlər İttifaqı mövcud olduğu zaman Xəzər dənizi yalnız Sovet İttifaqına mənsub olmuş, İran isə yalnız cənubda kicik bir hissədən istifadə etmişdir. Xəzərdə neft istehsalına isə 50 il bundan əvvəl 1947-49 cu illərdə Azərbaycan tərəfində başlanmışdır. Bu vaxtdan Sovetlər İttifaqı dağılanadək orada görülən işlər Azərbaycanda yerləşən neft-qaz idarəsi tərəfindən aparılmışdır. Ancaq Xəzər dənizində neft-qaz yataqları Azərbaycan sahillərindən üzaqlaşdıqca bu dənizin başqa sahələrini əhatə etmiş, buna görə də 1970-ci ildə Sovet İttifaqı hökuməti tərəfindən dənizdə neft qaz istehsalının digər Xəzəryanı ölkələrə də catması üçün Xəzər sektorlara bölünmüşdür. Mən belə hesab edirəm ki, Xəzərin statusu müəyyən olunana qədər bu prinsir davam etməlidir. Azərbaycan da bu prinsipi əsas götürərək öz sektorunda neft –qaz hasilatı ilə məşğuldur. Burada fikirlər müxtəlifdir. Azərbaycan və Qazaxıstan sektorial bölgü tərəfdarı, Rusiya, İran və Türkmənistan isə kondominium tərəfdarlərıdır. Ancaq bu prinsip Xəzərdə hec vaxt olmayıb. Sektorial bölgü isə 1970-ciildən mövcuddur. Müzakirələr uzun cəksə də Azərbaycanın öz sektorundan istifadəyə haqqı var.

Onu da deyim ki, Xəzər dənizinin bütün yataqları azərbaycan alimləri, geoloqları, mütəxəssisləri tərəfindən acılmışdır". Bu cıxış bir sıra məsələlərə aydınlıq gətirmişdir.

Beləliklə də, Azərbaycanın xarici siyasətində Xəzərə dair aparılan müzakirələrin şərti olaraq üç mərhələdən keçməsi qənaətinə gəlirik. Birinci mərhələ 1991-1994-cü illəri, ikinci mərhələ 1994-1996-cu illəri, üçüncü mərhələ 1996-1999, dördüncü mərhələ 2000-ci ildən sonrakı dövrü əhatə edir. Problemin mahiyyətini təhlil edərkən Azərbaycan Respublikasının xarici siyasətində və qonşu dövlətlərlə qarşılıqlı münasibətlərində Xəzərin statusu məsələsi və bunun tərkib hissəsi olaraq Xəzərin hüquqi və beynəlxalq hüquqi statusuna dair yanaşmalar bizim diqqətinimizi cəlb edən məsələdir. Dövlətlər arasında iyirmi ildən cox aparılan danışıqlar prosesində Xəzər dənizinin hüquqi statusu haqqında məsələlər üzrə əldə olunan layihə və təkliflər təfsilatı göstərir ki, müzakirələrdə mübahisə döğuran məsələ, həm də Xəzərin göl, ya da dəniz olması üstündə idi. Xəzər dənizinin hüquqi statusu haqqında əldə olunan sənədlərin layihəsi, rəsmi bəyanatlar və çıxışlar, habelə problem üzrəbirgə sənədlərin təhlili göstərir ki, hüquqi rejim baxımından iki müxtəlif münasibət mövcuddur. Bir qrup dövlətlər belə hesab edir ki, Sovet İttifaqının dağılmasına və Xəzər sahillərində yeni müstəqil dövlətlərin yaranmasınadək Xəzər dənizi «ümumi istifadə dənizi» idi, yəni Xəzərdə Sovet-İran kondominiumu (birgə istifadə obyekti nəzərdə tutulur – S.H.) mövcud idi. Xəzər indi də belə bölgü əsasında istifadə olunmalıdır.

Digər dövlətlər, xüsusilə Azərbaycan o cümlədən onu müdafiə edən Qazaxıstan belə hesab edirlər ki, Xəzərdən ənənəvi şəkildə ayrı-ayırılqda istifadə edilməsi və sahilyanı dövlətlərin müvafiq sektorlarda fəaliyyəti ilə yaranan təcrübə, həm Xəzərin uzun müddətdən bəri mövcud statusuna xarakterikdir, həm də hüquqi reallıqlarla özünü doğruldur. Məhz Xəzərin hüquqi və beynəlxalq hüquqi statusu anlayışının dövlətlər arasında daha aktual məsələyə çevrilməsi də bu iki əks konsepsiyanın müzakirəsi ilə yaranmışdır.



**Birincisi,** araşdırmalardan məlum olur ki, coğrafiya elmində göl barədə nəinki müasir anlayışlara əsaslanan, həmçinin əvvəlki əsrlərdən irsən qalmış birmənalı olmayan mövqe vardır. Q.Q.Gül bu vəziyyəti çox dəqiq xarakterizə edərək yazırdı: «Xəzər dənizi dünyada ən böyük göldür. Özünün ölçülərinə və suyunun duzlu olduğuna görə o, hələ çox qədimdən dəniz adlanmağa başlamışdır». Hüquqşünas alim R. Məmmədov yazır ki, daha sonra Nquyen Nqok Minin qeyd edirdi ki, «böyük gölləri dəniz hesab etməyin zəruri olması fikri əvvəllər ümumiyyətlə çox geniş yayılmışdır».

**İkincisi:** XX əsrin 30-40-cı illərində, yəni qapalı dəniz konsepsiyasının Xəzərə ən fəal surətdə tətbiq edildiyi dövrdə, hakim hərbi strategiya bu konsepsiya tərəfdarlarının fikrincə, müəyyən su hövzələrində və dənizlərdə həmin konsepsiyanın tətbiq edilməsi milli təhlükəsizlik mənafelərindən irəli gəlir. Tədqiqatcıların fikrincə "sovet beynəlxalq doktrinasında qapalı dəniz konsepsiyasının geniş qəbul edilməsi və qapalı dəniz əlamətlərinin aşkar təzahür etdiyi Qara dəniz və Baltik dənizinə bu konsepsiyanın şamil olunması məhz bununla bağlıdır". Hüquqşünas alim R. Məmmədov Q V. Melkova əsasən yazır: "sovet ittifaqının faşizm üzərində qələbəsinə və dünya sosializm sistemi yaradılana qədər qapalı dəniz konsepsiyası SSRİ-nin beynəlxalq hüquq təhlükəsizliyinə, o cümlədən dəniz istiqamətlərində də təhlükəsizliyin təmin olunmasında müsbət rol oynamışdır». Lakin, sərhəd gölü konsepsiyasının təsdiq edilməsi də dövlətlərin təhlükəsizlik və sülh mənafelərinə zidd olmazdı"

**Üçüncüsu,** vaxtilə Sovet hüquq elmində sərhəd gölləri barədə təlimin yerli-dibli olmaması və digər sahilyanı dövlətlərin müqavilə hüquq praktikası ilə zəif tanışlıq, 60-cı illərə qədər hətta qərbin beynəlxalq hüquq doktrinasında lazımi səviyyədə öyrənilməmişdir.

Bütün bunların əsasında müəyyənləşdirmək olur ki, Azərbaycanın xarici siyasətində və qonşu dövlətlərlə münasibətlər sistemində Xəzərin statusu məsələsinin qoyuluşu poblemin müzakirəsidəki geosiyasi maraqların meydana gəlmə səbəbləri, dövlətlərin mövqelərindəki milli mmaraqların reallıqlara üyğunluq dərəcəsi və mahiyyəti ilə bilavasitə bağlılıq təşkil edir.

1994-cü il sentyabrın 24-də Rusiya Xarici İnformasiya Mərkəzi Rusiya Federasiyasının bu müqaviləni («əsrin müqaviləsi»- S.H.) tanımadığı haqqında rəsmi bəyanat verərkən milli maraqlara əsaslanaraq Rusiya Xarici İşlər Naziri A.Kozırev, Baş Nazir Çernomırdinə yazdığı məktubda Azərbaycana qarşı ticarət-iqtisadi və maliyyə xarakterli ölçülərin götürülməsini tələb edirdi. Rusiyanın mövqeyini müdafiə edən ilk sahilyanı ölkə Türkmənistan idi. Hətta 1994-cü il oktyabrın 19-da İstanbulda türk dövlətləri başçılarının zirvə toplantısı zamanı Türkmənistan prezidenti Saparmurad Niyazov öz çıxışında Xəzərin statusunun müzakirə edilməsini xüsusi vurğulayaraq, Rusiyanın məsələ ilə bağlı mövqeyini bu və ya digər formada dəstəkləməyə çalışırdı. Xəzərin statusu problemini sahilyanı ölkələr qarşısında çəkişmə, mübahisə və qeyri-sabitlik obeyktinə çevirməyə çalışanlardan fərqli olaraq Azərbaycan Prezident Heydər Əliyev bütün görüşlərdə öz ölkəsinin mövqeyinin düzgünlüyunü konkret faktlarla əsaslandırırdı.

Oktyabrın 27-də Türkmənistan Respublikasının üçüncü ildönümü zamanı Aşqabadda keçirilən görüşdə Heydər Əliyev məsələnin hüquq normaları əsasında həll olunmasının vacibliyini vurğuladı.

Xəzərin statusunda Azərbaycan Respublikasının mövqeyinə qarşı İran rəsmi dövlət nümayəndələri ilk dəfə olaraq 1995-ci il aprel ayında bəyanat verdi. Bəyanatda Xəzərdən istifadə məsələsinə yenidən baxılması və Rusiya tərəfinin mövqeyinin müdafiə olunması açıq şəkildə bildirilirdi.

Azərbaycan hökumətinin Xəzərin statusu ilə bağlı irəli



sürdüyü konsepsiya aşağıdakı kimi müəyyənləşdirilmişdir.

1. Xəzər sərhəd gölüdür.
2. Xəzər orta xətt prinsipi üzrə milli sektorlara bölünməlidir.
3. Xəzərin milli sektorlara bölünməsi keçmiş SSRİ-nin iş praktikasına və o zamankı (1970-ci ildə qəbul olunmuş bölgüyə əsasən) bölgüyə əsalanmaldır.

Belə bölgü artıq mövcud olduğundan Xəzəryanı dövlətlər status müəyyənləşdirilməzdən əvvəl öz milli sektorlarında işə başlaya bilərlər. Bu mövqeyə qarşı Rusiya-İran-Türkmənistan üçlüyü isə aşağıdakı sistemi irəli sürürdülər.

Xəzər unikal qapalı su hövzəsidir və Xəzəryanı dövlətlərin ümumi sərvətidir.

Milli sektorlar əvvəlki təkliflərlə 12, hazırkı təkliflərə görə isə 45 mildən çox olmamalıdır.

Xəzərin milli sektorlara düşməyən orta hissəsində bütün geoloji kəşfiyyat və neft-qaz hasilatı beş Xəzəryanı dövlətin ümumi iştarkı ilə həyata keçirilməlidir.

Xəzərin statusu müəyyənləşməmiş dövlətlərin burada qazma işləri aparması düzgün deyil.

Bununla da Xəzərin statusu ətrafında yaranmış fikir ayrılığı və tərəflərin mövqeyi iki əsas konsepsiya ətrafında cəmləşmişdir. Bu zaman aparılan müzakirələr göstərir ki, qarşı tərəflər beynəlxalq hüquqa əsaslanmayan, heç bir hüquqi əsası olmayan, yalnız öz maraqlarına uyğun təkliflərlə çıxış edirdi;

**Əvvəla,** Fikrimizcə, bu milli maraqlar imkan verməmişdir ki, dövlətlər arasında uzun sürən və gərgin keçən danışıqlara baxmayaraq, sahilyanı dövlətlər 2000-ci ilədək Xəzərin statusu və ondan istifadəyə dair hər hansı siyasi həll yolunu tapa bilməmişdilər.

**İkincisi,** əgər əvvəlki illərdə Xəzərətrafı dövlətlər Xəzərin öyrənilməsi və onun ehtiyatlarından istifadə məsələlərinin müzakirəsinə xüsusi yer verirdilərsə, 2000-ci ildə dövlətlər Xəzərin statusunun həll olunmasına səbəb olacaq qəti həll variantı axtarırdılar.

**Üçüncüsü,** milli sektorlara bölünmə prinsipini irəli sürən Azərbaycan tərəfinin mövqeyi, qarşı tərəflərin də qəbul etdiyi variant kimi qiymətləndirilməklə yanaşı, tərəflərin məhz bu ideya ətrafında həll yolunu axtarması mümkün varianta çevrilmişdir.

**Dördüncüsü,** Xəzərin statusu problemi elə bir həddə çatmışdı ki, uzun illər ərzində mübahisələrin getdiyi göl və dəniz statusunun Xəzərə tətbiq edilməsi məsələsində gərginlik yaranmış, sahilyanı ölkələrin hər birini qane etməyən variantlar meydana çıxmışdır. Bunun da əsasında, bilavasitə, milli maraqlar dayanırdı. Lakin dövlətlər indi daha çox bu hövzənin istifadəsində öz aralarında qəbul olunmuş variantları tapmağa can atırdılar. Müzakirələrin bu istiqamətdə getməsi isə Xəzərə dəniz, yaxud göl statusunun şamil edilməsini getdikcə arxa plana keçirirdi. Lakin bütün danışıqlar milli sektorlara bölünmə prinsipi üzərində getməyə başlamışdı.

**Beşincisi,** Rusiya Türkmənistan və İran üçlüyünün Xəzərin statusu ilə bağlı əvvəllər tutduqları qeyri-konstruktiv mövqe tamamilə zəifləmiş, bu mövqedə daxili parçalanma əmələ gəlmişdi. Bunun mahiyyəti ondan ibarət idi ki, İran nəhayət ki, milli sektorlara bölünmə prinsipi ilə razılaşmış, lakin hər bir ölkənin 20 % payının olması fikrində israr edirdi. Bu təklif dərhal sektorial bölgü prinsipində 20 %-dən çox paya malik olan Türkmənistan və Qazaxıstan dövlətinin qəti etirazına səbəb olurdu. Bunun əsasında da qarşıdurmanın yeni mərhələsi yaranırdı. Cünki, Xəzərin bölgüsündə hər bir dövlətə eyni dərəcədə pay vermək mümkün deyildi. Buna heç Xəzərin coğrafi vəziyyəti də yol vermirdi.

**Altıncısı,** Bütün bunların nəticəsi olaraq dövlətlər arasında artıq Xəzərin statusu məsələsi Azərbaycanın təklif etdiyi milli sektorlar prinsipi əsasında hamı tərəfindən razılaşdıralacaq həll variantının tapılmasını zəruri edirdi. Yəni Xəzərin statusunu beynəlxalq hüquq normalarının tətbiqindən daha çox dövlətlər arasında ümumi razılaşdırılmış variantın qəbul edilməsini tələb edirdi. Bu variant hələ ki, Xəzərin dibinin milli sektorlara bölünərək, su səthinin ümumi istifadədə qalması hesab olunurdu. Əlbəttə bu, regionda sülhün, əməkdaşlığın yeganə inkişaf yolu idi ki, Xəzərin statusu ətrafında müzakirələrin kəskin qarşıdurmadan konstruktiv müzakirəyə kecməsi başlamışdır. Bu baxımdan 2001-ci ilin yanvar ayının 9-da Azərbaycana rəsmi səfər etmiş Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana olan marağının artması acıq acıq özünü göstərdi. Tarixi səfərin nəticəsi olaraq hər iki dövlətin müxtəlif sahələrdə qarşılıqlı dostluq və təhlükəsizlik məsələləri üzrə mövqeləri daha yaxınlaşmış və bunlar öz əksini imzalanmış «Bakı bəyannaməsi»ndə tapmışdır. Qeyd etmək lazımdır ki, səfər zamanı Rusiya Prezidenti V. Putin bir neçə illər Xəzərin bölünməsinin ciddi problemə çevrilməsini və bu sahədə irəliləyişin çox ağır getdiyinin haqlı olaraq dövlətlərin milli maraqları ilə bilavasitə bağlı olduğunu etiraf edirdi. Lakin yeni minilliyin əvvəlində bu ölkənin problemə münasibəti qənaətbəxş hesab olunmalı idi. V.Putin qeyd etmişdi ki, «biz milli maraqlarımızı nəzərə almaqla, bir-birimizi dəstəkləməliyik». Səfər zamanı imzalanmış 3 bölmədən ibarət «Bakı bəyannaməsi»nin I bölməsində hər iki dövlətin Xəzərin dibinin milli sektorlara bölünməsi, su səthinin ticarət və qarşılıqlı əməkdaşlıq baxımından ümumi istifadədə qalması ilə əlaqədar Azərbaycan və Rusiyanın Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında qəbul olunmuş «Birgə Bəyannamənin» dövlətlər üçün müstəsna əhəmiyyəti vurğulanır və gələcək konstruktiv dialoqların həmin variant əsasında həyata keçirilməsini dövlətlərarasında sülhün və təhlükəsizliyin mühüm amili hesab edirlər. Beləliklə də dövlətlərarasında gərgin müzakirə ilə davam edən Xəzərin statusu probleminin həlli beynəlxalq əhəmiyyətli məsələ kimi XXI əsrin astanasında geosiyasi əhəmiyyət kəsb etməyə başlamışdır. Bu da öz növbəsində göstərir ki, Xəzərin Azərbaycan sektorunun

tanıdılması ilə yanaşı enerji təhlükəsizliyi siyasətinin Xəzər hövzəsinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerləşən mövcud neft və qaz yataqlarının, habelə perspektivli strukturların işlənməsi, istismarı, müasir neft-qaz özüllərinin tikintisi və quraşdırılması, əsas neft və qaz ixrac boru kəmərlərinə, terminallarına olan təhdidlərin aşkar edilməsi, qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri və Cənubi Qafqaz qaz boru kəməri Xəzər dənizi ilə Qara dəniz və Aralıq dənizi arasında enerji nəqlinin, Xəzəryanı ölkələrin geostrateji və iqtisadi maraqlarını təmin edən mühüm obyektlərin təhlükəsizliyinin qorunması və bununla əlaqədar artan risklərin idarə olunması və azaldılması Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ən vacib vəzifələrindəndir. Azərbaycan neftini Türkiyənin Ceyhan limanına, qazını isə Türkiyənin Ərzurum qaz terminalına çıxaran kəmərlərin coğrafiyası müəyyən təhlükəsizlik riskləri yaratması da fikrimizcə bununla bağlıdır.

Məlumdur ki, Azərbaycanın yerləşmiş olduğu region həm də geosiyasi, strateji və iqtisadi baxımdan dünyanın siyasi xəritəsində əhəmiyyət kəsb edir. Xarici siyasətdə balanslaşdırma siyasətinin əsas olaraq götürülməsi də Azərbaycanın yerləşmiş olduğu regionun həssas olmasından irəli gəlir. Ona görə də dövlətimiz həm qonşuluq siyasətində, həm də digər region ölkələri ilə olan münasibətlərində balanslaşdırılmış siyasət yürütməkdədir. Bu sahədə coxsaylı əsərlərin müəllifi, tədqiqatcı A. Cohen yazır: "Xəzər regionunda enerji təhlükəsizliyi anlayışında enerjinin istehsalı, nəqli məsələsi bu prosesə mənfi təsir göstərə biləcək təsirlərin öyrənilməsini zəruri edir. Buna görə də Xəzəryanı ölkələr dünyanın siyasi mənzərəsinə bölgənin enerji ehtiyyatlarının qlobal gücünü nəzərə alaraq son dərəcə ehtiyyatlı yanaşma nümayiş etdirməkdədirlər. Bu Xəzərin hüquqi vəziyyətinin müəyyənləşdirilməsində də mövcuddur".





# SİYASİ SOSİOLOGİYADA MƏDƏNİYYƏT VƏ SİYASİ DƏYƏR ANLAYIŞI

***Açar sözlər:*** mədəniyyət, maraqlar, etonol, siyasi sosiologiya, qrup mədəniyyəti.

Mədəniyyət insan fəaliyyətinin bütün maddi və qeyri-maddi məhsullarıdır, obyektivləşdirilmiş və kifayət qədər geniş toplularda qəbul edilmiş və sonrakı nəsillərə ötürülmüş ideyalar, deyərlər, sərvətlər və qəbul olunmuş davranış tərzləridir.

Mədəniyyət həmişə məkanda və cəmiyyətdə lokallaşdırılmış olur. O, sosial qruplardan kənarda mövcud olmur. Fərdin şəxsi mədəniyyətini qrup mədəniyyətindən fərqləndirmək lazımdır. Fərdin şəxsi mədəniyyəti onun şəxsi davranış modellərinin, fəaliyyət üsullarının, bu fəaliyyətin məhsullarının, onun çox vaxt başqalarına məlum olmayan ideya və fikirlərinin məcmusudur. Şəxsi mədəniyyət qrup mədəniyyəti çərçivəsində mövcud olur, lakin hər bir cəmiyyət fərdə müəyyən dərəcədə orijinal olmaq və hamı tərəfindən qəbul olunmuş və tanınmış modellərdən bir qədər kənara çıxmaq imkanını verir. Bu orijinallıq yalnız insanın rolu və vəziyyəti ilə müəyyənləşdirilən çərçivədə mümkündür. Bu çərçivədən kənara çıxmaq isə cəmiyyət tərəfindən cəzalandırılır.

Qrup mədəniyyəti onun üzvlərinin fərdi mədəniyyətlərinin cəmi deyil. Bu, qrup tərəfindən qəbul olunmuş, tanınmış və "məcburi" sayılan davranışı (məsələn, ədəb qaydalarını, birgə yaşayış prinsiplərini və s.) müəyyənləşdirərək qrup üzvləri üçün əhəmiyyət kəsb edən davranış tərzləri, dəyərlərin və əsərlərin məcmusudur. (1 səh. ) Fərdi mədəniyyətə daxil olanların heç də hamısı qrup mədəniyyətinə keçmir, qrupun malı olmur.

Bundan başqa, qrup mədəniyyətini nəsildən-nəslə keçən irsdən də fərqləndirmək lazımdır. Qrup mədəniyyəti

hal-hazırda faktiki olaraq mövcud olan, öz funksiyalarını yerinə yetirən və qrupun bütün üzvlərinin həyatında tanınmış rol oynayan predmet və nümunələrin məcmusudur. Mədəni irs sistemin yalnız sonrakı nəsillərə ötürülmüş və zaman prosesində dayanıqlıq sınağından çıxmış hissəsində ibarətdir. Məsələn, bugünkü moda mədəni irsə daxil olmur (muzey eksponatları şəklindən başqa), amma bəzi ideyalar, təsəvvürlər, incəsənət, memarlıq və bədii ədəbiyyat əsərləri, elmi nəzəriyyələr, maşınlar, adətən, mədəni irsin əsasını təşkil edir. Hər hansı bir sosial qrupun mədəniyyətini öyrənərkən, yuxarıda göstərilmiş fərqləri nəzərə almaq və onun daxili strukturu və fəaliyyətinin təhlili, digər sosial proseslərin təzahür formalarının tədqiqi üçün müəyyən anlayışlar sistemini hazırlamaq lazımdır, hər şeydən əvvəl, bəzi fərdi və toplu tələbatları ödəməklə, onların kompleksinə aid olan geniş mədəniyyət sahələrini ayırmaq olar. Buraya iqtisadiyyat və onunla bağlı olan bütün fəaliyyət formaları, hüquq, dövlət, adət-ənənə kimi birgə həyatı tənzimləyən təsisatlar, elm və bilik, ideologiya, incəsənət və din daxildir.

Predmetlərin, təsisatların, təsəvvürlərin, ideyaların, davranış etalonlarının daha geniş sistemi mədəni kompleks adlanan hər hansı bir element ətrafında funksional surətdə birləşir. Məsələn, əgər biz avtomobili mədəniyyətin xüsusi elementi hesab ediriksə, onda bütün predmetlər, təsisatlar, müəssisələr, əməllər, davranış etalonları geniş mədəni kompleks əmələ gətirərək avtomobillərin istehsalı, satışı, istifadəsi və təmiri ilə bağlı olacaqdır. Mədəni komplekslər cəmiyyətin səciyyəvi simasını yaradır, onların meydana çıxması və ya olmamağı cəmiyyətin inkişaf mərhələsini müəyyən edir.

Mədəniyyətin yuxarıda verilmiş tərifi və onun daxili strukturunun sxemi bizə onun fərdlərin və qrupların ictimai həyatına təsirini təhlil etməyə imkan verir. Bu təsir müxtəlif yollarla həyata keçirilir:

- ayrıca fərdin ictimailəşməsi və formalaşması vasitəsi ilə;



- dəyərlərin yaradılması və daxil edilməsi yolu ilə;
- hərəkətlər, davranış və əməllər etalonları vasitəsi ilə;
- təsisatların və sosial sistemlərin modellərinin yaradılması yolu ilə.

Artıq qeyd etdiyimiz kimi, mədəniyyət insan fəaliyyətinin məhsuludur. O, nə isə insan cəmiyyətindən asılı olmayaraq mövcud olan bir şey, "özü-özündə varlıq", hansısa "obyektiv ruh" deyil, obyektivləşdirilmiş fəaliyyət məhsullarından yaranır. Beləliklə, bütün cəmiyyətin təcrübəsi və ya heç olmasa müəyyən qruplar üçün əlçatan olan, artıq özlərinin hər hansı bir qrupun etirafı və sanksiyasına əsaslanan yaradıcılarından asılı olmayaraq mövcud olan məhsullarından əmələ gəlir.

Mədəniyyətin ictimai həyata təsir mexanizmində xüsusi əhəmiyyət daşıyan odur ki, mədəniyyət dəyərlər sistemini və onları müəyyənləşdirən meyarları təyin edir. (2; 14) Söhbət nədən gedir? İnsanın əməlləri hər şeydən əvvəl onun bioloji və onların əsasında əmələ gəlmiş digər tələbatları ilə müəyyən edilir. Tələbatlar dedikdə, biz insanın anadangəlmə və ya nəyinsə olmamağı, çatışmamağı duyğusu ilə sonradan yaradılan və fəaliyyətə sövq edən hər bir tələbəni nəzərdə tuturuq. Fərd və qrupların tələbatları əsasında onların maraqları əmələ gəlir, yəni ayrı-ayrı tələbatlara böyük əhəmiyyət verilir. Bəzən deyirlər ki, kimsə müəyyən bir işlə "maraqlanır", yəni o, istərdi ki, işlər onun arzularına müvafiq surətdə getsin.

Maraqlar müxtəlif cür ola bilər: iqtisadi, siyasi, estetik, dini və s. Lakin həm əsas tələbatlar, həm də maraqlar müxtəlif üsullarla ödənilə bilər. Fərd və qruplar daim öz tələbatlarının ödənilməsi üsulları arasında seçki aparmalı olurlar. Bununla bərabər fərd və qruplar çox vaxt özlərinin bütün tələbat və maraqlarını ödəyə bilmirlər və onlardan birinə üstünlük verərək onlar arasında seçki aparmalı olurlar. Bu cür seçki aparılan hallarda dəyərlər şkalasını müəyyənləşdirən dəyər və meyarlar öz təsirini göstərir.

"Dəyər" anlayışı etikada, iqtisadiyyatda, sosiologiyada və digər elmlərdə müxtəlif mənalarda çıxış edir. Bu anlayış adi həyatda da işlədilir. Fərd və qrupların ona öz həyatlarında mühüm rol ayırdıqları və ona yiyələnmək arzusunu zərurət kimi duyduqları hər bir maddi və ya mənəvi predmeti, ideya və ya təsisatı, həqiqi və ya xəyali, uydurulmuş predmeti biz dəyər adlandıracağıq. Fərdə daxili tarazlığı təmin edən və onda vəzifə, borc duyğusunu doğuran, habelə qrup daxili həmrəyliyi saxlamaq üçün zəruri olan və s. predmetlər dəyər kimi çıxış edə bilərlər.

Bəzi qruplarda ən yüksək dəyər dini kult, sitayiş predmetləri, başqaları üçün isə dəyərlər siyasi məqsədlərdən ibarət ola bilər. Bəzi fərdlər üçün ən yüksək dəyər puldan, başqaları üçün mənəvi təmizlikdən, üçüncüləri üçün elmi biliklərdən, digərləri üçün incəsənət əsərlərindən, başqa birisi üçün sağlamlıqdan, namusdan və s. ibarət ola bilər.

Dəyərlər insanların davranışının çox mühüm amilidir. Onlara can atmaq başqa fərdlərlə münasibətlərə prinsipial surətdə təsir göstərir. Hər bir fərdin az və ya çox dərəcədə qiymətləndirdiyi müəyyən dəyərlər iyerarxiyası vardır. Elə qəbul olunmuş dəyərlər vardır ki, onlara can atmırlar, amma elə dəyərlər də vardır ki, onlara həqiqətən can atırlar, lakin bu etiraf edilmir. Bizi burada maraqlandıran yalnız dəyərlərin ictimai həyata təsiri mexanizmidir. Onlar insan meylləri və əməllərinin tənzimləyicisidir, onlar başqalarının əməllərini, hərəkətlərini qiymətləndirməyə imkan verir, qrup üzvlərinin ictimai yararlığını qiymətləndirmək üçün əsas olur və ən başlıcası sosial iyerarxiya prinsiplərini müəyyən edir və birgə həyat fəaliyyətinin əsasları dairəsini göstərir.

Dəyərlər necə yaranır? Onlar uzun müddət davam edən proseslərdə nə zaman isə formalaşmış kollektivin məhsuludur, hər bir fərd və kollektivin mədəniyyətinin əsas tərkib hissəsidir. Hər bir sosial toplunun mədəniyyətində müəyyən dəyər sistemləri və onların müəyyən iyerarxiyası qəbul olunmuşdur. İbtidai cəmiyyətlərdə bu iyerarxiya onların üzvlə-



rinə daha artıq ciddiliklə qəbul etdirilir, daha inkişaf etmiş cəmiyyətlər, dəyər fərqlərinə daha dözümlü olurlar. Lakin hələ lap yaxın zamanlarda kəskin dini və ya siyasi dözümsüzlük halları meydana çıxır və fərdlər tərəfindən müəyyən dəyərlərin qəbul edilməməyi bütün qrup üçün təhlükə yaradan hal sayılır və bəzən hətta ölümlə cəzalandırılırdı.

Elə dəyərlər vardır ki, onlara ehtiram göstərilməsini qrup özünün mövcudluğu üçün vacib sayır və onlar bütün üzvlərə məcburən qəbul etdirilir; elə dəyərlər də var ki, onlar daha az əhəmiyyətli sayılır. Fərdin tanıdığı, qəbul etdiyi xüsusi dəyərlər iyerarxiyası qrupun qəbul etdiyi iyerarxiya hüdudlarında yerləşməli, dəyərlər sistemini dəyişdirməyə cəhd etmək hüququ isə qrupda xüsusi mövqe tutan olduqca az sayda fərdlərə məxsus olmalıdır.

Beləliklə, dəyərlər sistemi mədəniyyət hüdudları daxilində inkişaf edərək ictimai həyatın gedişinə ciddi təsir göstərir.

Etalon — müəyyən halda, "normal" sayılan davranış üsuludur və ya daha dəqiq desək, müəyyən halda yol verilən və normal sayılan davranışlar diapazonudur. (3; 9-36) Müəyyən mədəniyyətdə formalaşmış davranış etalonları qarşılıqlı anlaşma imkanı yaradaraq başqalarının davranışını aydınlaşdırır və onlara səmərəli təsir göstərməyə imkan verir. Onlar fərdlərin əməllərini, hərəkətlərini və topluların davranışını unifikasiya edən amildir. Bəzi etalonlar, məsələn, saray mərasimi, iqtidara müraciət üsullarını tənzimləyən qaydalar (məsələn, ərizələrin verilməsi), əsgəri nizamnamələr, küçə hərəkəti qaydaları və s. göstərişlər, təlimatlar vasitəsilə müəyyənləşdirilir və formalaşdırılır.

Etalonları bilmək adamların davranışını qabaqcadan görməyə imkan verir və yaxın tanıdığımız adamlardan lazımi reaksiyaların gözlənilməsinin əsasını təşkil edir. Formalaşmış etalonlar ictimai həyatın müntəzəmliyinə, "qaydada" olmasına şəhadət edir və qarşılıqlı uyğunlaşmanı mümkün edir, çünki müəyyən şəxslərin müəyyən hallarda mümkün davranış diapazonu bəlli olur.

1. Гобозов, И.А. Общественный прогресс // Социальная философия: учебник / под ред. И. А. Гобозова. – с. 348.
2. Кармин, А.С., Новикова, Е.С. Культурология. – СПб., 2005.
3. Гельман В.Я. Политическая культура, массовое участие и электоральное поведение//Политическая социология и современная российская политика: Сб. учебных материалов/Под ред. Г.В.Голосова, Е.Ю. Мелешкиной. СПб.: Изд-во «Борей-принт», 2000. С. 9-36.





# SİYASİ SOSİOLOGİYADA MİLLƏT VƏ MİLLƏTÇİLİK MƏSƏLƏLƏRİNİN TƏDQİQİNİN NƏZƏRİ ƏSASLARI

***Açar sözlər:*** milli ideologiya, millət və millətçilik, dövlət və siyasət, Şərqdə və Qərbdə millətçilik.

Millət və millətçilik anlayışları dərin tarixi köklərə malik olsalar da, onlarla bağlı konkret formalaşmış bir fikir yoxdur. Ümumiyyətlə, politologiyada elə anlayışlar var ki, bu günə qədər onların dəqiq tərifini vermək mümkün olmamışdır. Bu anlayışlar mübahisə doğurmuş və mübahisə doğurmaqda davam edir. Məhz, bu cür problem doğuran anlayışlar siyasi bilik və siyasi praktika üçün təməl rolu oynayır. Bu anlayışlar haqqında bütün siyasi ideologiyaların nümayəndələri diskusiya aparırlar. Kamusella millətçiliyi digər ideologiyalarla münasibətdə öyrənərək qeyd edir ki, millətçilik öz təsirini ideologiyalarla birlikdə və onların vasitəsilə həyata keçirir. Onun fikrincə, millətçiliyi ideologiyalara aid etmək mümkün deyil, beləki, siyasi spektrin müxtəlif tərəfində olan nümayəndələr – sollardan tutmuş mərkəzçi və sağlara qədər – millətçilik doktrinalarını qəbul edir. Bizim dövrdə millətçiliyin öz yerini ideologiyalar münaqişəsinə verməsini düşünmək illyuziya olardı. Kamusella öz fikirlərini təsdiq etməkdən ötrü aşağıdakı arayışı tərtib etmişdir:

«İngilis millətini və milli dövlətini mühafizəkarlar, royalistlər və liberallar yaratdılar. İnqilabçı, respublikaçı və demokratlar Fransada eyni şeyə nail oldular. İqtisadi inteqrasiya tərəfdarları və təcridçilər alman milli dövlətinə gedən yolun əsasını qoyublar. Meksika millətinin yaradılmasına öz tövhələrini verən Meksika inqilabına antiklerikallar başçılıq edirdilər. Faşistlər böyük alman milli dövlətini yarada-

raq, alman millətini III Reyxin çərçivəsində birləşdirə bildilər (1933-45). İrqçilər Cənubi Amerikanı ağ milli dövlətə çevirdilər (1948). İkinci dünya müharibəsindən sonra Qərbi Avropa sosial demokratları və xristian demokratlar sosial dövlət modeli əsasında öz millətlərinin pozulmuş bütövlüyünü bərpa etdilər. Modernistlər türk milli dövlətini (1923), ənənəvi millətçilər şüurlu olaraq İran milli dövlətini yaratdılar (1979).

«Millət» anlayışı və onun formalaşması ilə bağlı olan məsələlər də bu qəbildəndir. «Millət» anlayışının 300-dən çox tərifinin olması bir daha sübut edir ki, «millətşünaslıq»da güclü terminoloci anarxiya hökm sürməkdədir. Bu təriflərin hər birində millət onu təşkil edən komponentlərdən birinə üstünlük verməklə müəyyən olunur. Bu isə millətin müəyyən olunmasında məhdud cəhətləri ortaya çıxarır. Millət dövlət, dil, ərazi, din, psixologiya, iqtisadi birlik, mədəniyyət ümiliyi və s. əlamətlər əsasında müəyyən olunur. Urs Altermatt qeyd edirdi ki, millət və millətçilik məsələlərinin müzakirəsi zamanı «anlayışlar tiraniyası»ndan qorunmaq lazımdır... Bu məsələlərin hər hansı bir aparıcı əlamət əsasında təhlili istər-istəməz həmin əlamətin dominyonluğuna səbəb olur.

Millətin müəyyənləşdirilməsi ilə əlaqədar problemlər mənə bir rəvayəti xatırlatdı. Bu rəvayətə görə, bir gün korlar şəhərinə fil gətirirlər. Hər bir insana bu heyvana toxunaraq onun nə olduğunu müəyyən etməklərini istəyirlər. Bir nəfər filin xortumuna toxunaraq deyir ki, bu dirəkdir, digəri toxunaraq deyir ki, bu borudur. Əslində hər bir kor özünə görə, düz fikirdədir, bəs həqiqət haradadır?

Məhz, millət məsələsini araşdıran hər bir tədqiqatçı onu ərazi, dil, din, iqtisadi birlik və əlamət əsasında təyin etməklə özünə görə haqlıdır. Lakin milləti təşkil edən bu əlamətlərin zaman keçdikcə müəyyən dəyişikliklərə uğraması bu təriflərin hər birində məhdud cəhətləri ortaya qoyur.

Bir sıra tədqiqatçılar millət və millətçilik problemlərinin keçən əsrdə qaldığını, liberal demokratik ideologiyanın digər



ideologiyalara, o cümlədən millətçiliyə qalib gəldiyini, XXI əsri milli dövlətlərin bir sıra funksiyalarını transmilli kompaniyalara verməklə sıradan çıxması və qloballaşma əsri adlandırırlar. Bu fikirlərdə müəyyən qədər həqiqət olsa da, lakin mövcud reallıq tam onların dedikləri kimi deyildir. U.Altermatt qeyd edir ki, Avropa ölkələri texniki və iqtisadi baxımdan nə qədər çox bərabərdirlərsə, bir çox insanlar öz mədəni eynilikləri üçün bir o qədər güclü təhlükə hiss edir və hər hansı bir şəkildə bir-birindən fərqlənməyə ehtiyac hiss edirlər. Avropalılar təsərrüfatın istehlakı və idarə edilməsində bir-birilərinə daha çox bənzədikləri bir zamanda, mədəniyyət səviyyəsində qloballaşmaya qarşı qiyam qaldırırlar.

Hətta BMT-nin keçmiş baş katibi Koffi Anan özünün «bu gün rastlaşdığımız bir çox problemlər ayrı-ayrı dövlətlər tərəfindən həll edilə bilməz» fikrinə aydınlıq gətirərək yazır: «Bu dünya hökümətinin yaradılması və milli dövlətlərin zəifləndilməsi demək deyil. Əksinə, dövləti möhkəmləndirmək lazımdır. Onlarsa ümumi qaydalara və dəyərlərə əsaslanan ümum institutlar çərçivəsində qarşılıqlı fəaliyyət göstərərək bir-birindən güc alacaqlar».

Millət və millətçilik ideyası, onlarla bağlı olan məsələlər yarandığı dövrdən bu günə qədər öz aktuallığını saxlamaqdadır. Q.Ayzeksin fikrincə, «millət, milliyyət, millətçilik problemləri dünya siyasi landşaftında dominyonluq edən faktordur. Bu problemlər hər bir insanın həyatına təsir göstərir... baş verən proseslərdə qrup şüurunun bütün sferalarını yenidən təşkil edir».

Əgər 1978-ci ildə A.Vinkler əsaslı olaraq millətçilik probleminə ictimai elmlər tərəfindən lazımi diqqət yetirilməməsindən gileylənirdisə, artıq 15 il sonra K.Verderi haqlı olaraq qeyd edirdi: «1980-1990-cı illər ərzində millət və millətçilik konsepsiyaları ətrafında qurulan elm sənayesi o qədər geniş və nizamlı olmuşdur ki, bu tədqiqat sahəsini digərləri ilə müqayisədə prioritet saymaq olar». Bu fikirlər millət və mil-

lətçilik probleminin həm elmi nəzəri, həm də elmi praktiki dominyonluğunun əyani sübutudur. Bu dominyonluğu sadə nümunələrlə də sübut etmək olar. Məsələn, bugünki dünyanı siyasi münasibətlər baxımından Milli dövlətlərdən kənar təsəvvür etmək mümkün deyil, cəmiyyət dedikdə, hər hansı bir dövlətin vətəndaşlarının məcmusu nəzərdə tutulur, siyasi legitimliyin mənbəyi ümummilli səsvermədir, BMT bir nömrəli ümumdünya təşkilatıdır və s.

Millətçilik 1920-ci illərdən başlayaraq nəzəriyyənin predmetinə çevrilmişdir. Amerika tarixçiləri H. Kon və K. Hayes bu sahənin ilk pionerləri sayılırlar. 1920-1960-cı illər arasındakı dövrü çox vaxt tarixi millətçilik dövrü adlandırırlar. Dövrün bu cür adlandırılması həmin dövrdə nəzəri millətçiliklə daha çox tarixçilərin məşğul olması ilə əlaqədardır. Tarixi millətçilik 1960- cı illərə qədər öz aktuallığını saxladı. Bura amerikan tarixçiləri ilə yanaşı T. Şider və O. Lemberq kimi Avropa tarixçilərini, əsərləri anqlo-amerikan millətçiliyinə təsir edən çex tarixçisi M. Qroxu aid etmək olar.

1950-ci illər millətçiliyin öyrənilməsində tarixçilərin inhisarı sosioloq və politoloq K. Doyç tərəfindən pozuldu. Əvvəllər kibernetika ilə maraqlanan Doyç millətçiliyin araşdırılmasına universal «kommunikasiya nəzəriyyəsi» ni daxil etməyə cəhd göstərirdi. Bu çox da uğurlu alınmadı. Doyçun millətçilik haqqında əsərləri onun siyasi idarəetmə nəzəriyyəsi haqqında əsərindən fərqli olaraq beynəlxalq elmi nəzəriyyədə özünə möhkəm yer tuta bilmədi. 1964- cü ildə E. Qellnerin nəşr olunan proqram məqaləsi həmin dövrdə beynəlxalq elm ictimaiyyəti tərəfindən xüsusi olararaq vurğulanmadı.

1983-cü il millətçiliyin öyrənilməsi sahəsində yeni era sayılır. Bu vaxt eyni zamanda E. Qellnerin «Millət və millətçilik», B. Andersonun «Təsəvvür edilən həmbirlik», E. Hobsbaum və T. Reyncerin rəhbərliyi altında «Ənənənin icadı» adlı kitabları işıq üzü gördü. Bu tədbirlər millətçilik sahəsində araşdırmaları radikal şəkildə dəyişdirdi. Bu araşdırmalarla



məşğul olan R. Brubeykeri, E. Balibarı, H. Bhabhı, İ.Vallerstaynı, K.Verderi, F.Ceymsi, M.Mannı göstərmək olar.

Onu da qeyd etmək lazımdır ki, bu məsələlərin fəallığı şəraitdən asılı olaraq tsiklik şəkildə dəyişir. Yəni şəraitdən asılı olaraq milli məsələnin fəallığının aşağı düşməsi onun tamamilə yox olması demək deyildir. O, sanki sönmüş vulkanı xatırladır və hər an aktivləşə bilər. Hətta dünyanın inkişaf etmiş demokratik dövlətləri belə bir problemlərdən sığortalanmayıb.

Məsələn, millətçilik problemləri insan hüquqlarının müdafiəsi sahəsində lider ölkələrdən birincisi olan Niderlanddan da yan keçməmişdir. Bu ölkənin parlamenti holland təbəəliyi olmayan 26 min xaricinin 3 il müddətində ölkədən çıxarılması barədə qərar qəbul etmişdir. Bu qərarın qəbulu qısa müddət ərzində 400 min mühacirin Niderlandda yerləşməsi ilə əlaqələndirilir. Bundan əlavə, niderlandlı gənclər arasında etnik dözümlülük və dözümsüzlük haqqında araşdırmalar aparan L.Haqendornun nəticələrindən aydın olur ki, niderlandlı gənclər keçmiş müstəmləkəsi olmuş surinamlılara, ölkəyə fəhləlikdən ötrü gəlmiş türk və mərakeşlilərə daha az dözümlülük göstərirlər. Bu da milli iyerarxiyanın və milli ayrı seçkiliyin bir nümunəsidir.

. Amerikada millətçilik» və «patriotizm» anlayışlarının fərqli və ümumi cəhətlərinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Vətənpərvərlik haqqında A. de-Tokvillin fikirləri diqqəti cəlb edir. Fransız politoloqu vətənpərvərliyi 2 hissəyə – instiktiv və şüurlu vətənpərvərliyə ayrır. O yazırdı: «Dünyada dərkedilməz, təmənnasız və sezilməz duyğulardan yoğrulmuş vətən sevgisi var. Bu elə bir sevgidir ki, insan qəlbini onun doğulduğu yerə əbədi bağlayır. Bu instiktiv məhəbbət üstəlik qədim adətlərə sədaqət, əcdadlara ehtiram, keçmiş haqda xatirələrlə qidalanıb güclənir və insanlar öz ölkələrini ata evi kimi sevməyə başlayır... Hər bir dərk edilməz duyğu kimi bu vətən sevgisi də insanı böyük, lakin qisamüddətli işlərə ruhlandırır. Bu duyğu dövləti təh-

lükə anında xilas edir, lakin dinc bir zamanda onu taleyin ümidinə, özbaşına buraxır. Bu instiktiv vətən sevgisi o vaxt hökm sürür ki, adətlər sadə, etiqad isə möhkəmdir, ictimai qaydalara şəksiz əməl olunur və onların ədalətliliyinə heç kəs şübhə etmir. Ayrı cür, daha rasional vətənsevgisi də var. Ola bilsin o, bu qədər pak və çılğın deyil, lakin daha səmərəli və sabitdir. Bu məhəbbət maarif sayəsində doğulur, qanunların köməyilə inkişaf edir, hüquqlardan bəhrələndikcə, böyüyür və nəhayət, insanın şəxsi mənafeləri ilə qovuşur». Ş.de Qollun fikrincə, öz xalqına məhəbbət ön planda olanda vətənpərvərlikdən danışmaq olar, millətçilik isə öz xalqından olmayanlara qarşı nifrət formalaşdırır.

Ümumiyyətlə, Amerikada bu anlayışlara müxtəlif münasibət mövcud olmuşdur. Məsələn, bir sıra müəlliflərin fikrincə, bu gün amerikanlar özlərini daha çox «patriot» adlandırırlar. Lakin bu o demək deyildir ki, amerikanlar «millətçilik» anlayışını qəbul etmirlər. Nümunə üçün göstərəmk olar ki, XX əsrin əvvəllərində «millətçilik» Teodor Ruzvelt (yeni millətçilik kopsepsiyası) və digər amerikanların mənəvi cəhdələrini, daxili aləmlərini xarakterizə edən müsbət anlayış kimi geniş şəkildə istifadə olunurdu. Bundan əlavə, 1950-ci illərdə H.Konun amerikan millətçiliyi haqqında yazılmış kitabından bəlli olur ki, keçmişdə Amerikanın mütərəqqi xadimləri çəkinmədən və utanmadan özlərini «millətçi» adlandırmışlar.

Amerikanların özlərini son vaxtlar daha çox «patriot» adlandırmalarının səbəbləri «Millətçilik» anlayışının neqativ əhəmiyyət (müəyyən zaman kəsiyində) kəsb etməsi ilə əlaqələndirirlər. Məsələn, birincisi, XX əsrin 30-40-cı illərində «millətçilik» anlayışının faşizmlə əlaqələndirilməsi. Mussolinin faşizm konsepsiyasının əsas prinsiplərini əməkdaşlıq, millətçilik və güclü hakimiyyət təşkil edirdi. Mussolini millətçiliyi «müqəddəs eqoizm» adlandırırdı. İkincisi, soyuq müharibə başa çatdıqdan sonra Balkanlarda və Qafqazda başlamış, hal-hazırda davam edən milli münaqişələrlə



əlaqələndirilməsi.

Digər tədqiqatçı Kennat Minouq patriotizmlə millətçiliyin arasındakı klassik məhdudiyyətləri formulə edərək yazır: «Patriotizm mahiyyət etibarilə konservativdir. O, vətəni olduğu kimi müdafiə etmək cəhdini ifadə etdiyi halda, millətçilik öz ölkəmiz barədə ideal, realizə olunmamış təsəvvürlərə sadiqlikdir (bağlılıqdır). Bu təsəvvürlərin bir hissəsi bəşəriyyətə münasibətdə millətin böyük miqyaslı missiyasına inamla əlaqədardır.

Amerikanın ən nüfuzlu prezidentlərindən biri olan F. Ruzvelt «amerikanizm» anlayışını işlədirdi. Onun fikrincə, amerikanizm – ağıl və ürək məsələsidir, onun irqi və yaxud etnik mənşəyə heç bir aidiyyatı olmamışdır. Yaxşı amerikalı – ölkəsinə sadiq olan amerikalıdır. Onun kredosu – azadlıq və demokratiyadır.

Zənnimizcə, göstərilən nümunələr bu mövzunun aktuallığını bir daha sübuta yetirdi. Onu da qeyd etmək lazımdır ki, bu problemlərin süni şəkildə ört-basdır edilməsi onun daha da siyasiləşməsinə səbəb olur ki, bu da millət və millətçiliyi qan tökməkdə ən asan silahlardan birinə çevirir. Belə olduqda isə onun doğurduğu faciələri hiss etməmək mümkün deyil.

**Müsəlman Şərqində, o cümlədən Azərbaycanda millətin formalaşması prosesi bir sıra sosial-iqtisadi, tarixi və siyasi səbəblərə görə Avropa ölkələrindən geridə qalırdı. XIX əsrin əvvəllərində Şərq ölkələri faktiki olaraq Qərbin milli dövlətlərinin təsir dairəsində idi. Ona görə də, Şərqdə milli hərəkat əsasən Avropa dövlətlərinin işğalçılıq siyasətinə qarşı müdafiə reaksiyası kimi formalaşmağa başlamışdı. Qeyd etmək lazımdır ki, millətin formalaşması obyektiv tarixi prosesdir. Bu prosesi ləngitmək olar, lakin onun qarşısını almaq olmaz. Bütün maneələrə baxmayaraq, bu prosesin qarşısını almaq mümkün olmadı. Türk milli azadlıq hərəkatının Rusiyadakı görkəmli nümayəndəsi Yusif Akçura «Türk fikri, türk hərəkatı, türk yürdü»**

**əsərində haqlı olaraq yazırdı: «Millət» anlayışı Avropada yaransa da, onu avropalılardan ilk dəfə və yüksək səviyyədə türk tayfaları əldə etmişlər. Ona görə ki, Avropa ilə, xüsusən onlar sıx əlaqə və qarşılıqlı münasibətlərdə olmuşlar. Bu bir çox türk tayfalarına – Osmanlı adlandırılan Qərb türklərinə, Krım türklərinə, Volqanın sahilində yerləşən Şimal türklərinə, həmçinin, Qafqazdakı azəri türklərinə də aiddir. Beləliklə, biz XIX əsrin axırlarında bu türk qruplarında milli təfəkkürün meydana gəlməsi və yayılmasının şahidi oluruq».**

Şərqin, o cümlədən Azərbaycanın bu proseslərdə Avropadan geri qalmasının bir sıra tarixi kökləri var. Bu səbəbləri araşdırmadan Şərqdə millətin formalaşması prosesini təhlil etmək müəyyən çətinliklər yaradır. Ona görə də, ilk öncə Şərqin Qərbi Avropadan geri qalmasının tarixi köklərinə diqqət yetirək.

Ənənəvi (Orta əsr) dövlətlər bir-birindən kəskin şəkildə fərqlənən etnik icmaları çox asanlıqla özündə birləşdirə bilirdi. Bu zaman dövlət qeyri-etnik birləşdiricilərə əsaslanaraq özü üçün yerli elitaları seçirdi. Ayrı-ayrı regionların qapalılığı və güclü fenomen olan milli şüurun mövcud olmadığı şəraitdə etnik qruplar bir dövlətin ağalığı altında əsrlərlə yaşaya bilərlər. Məsələn, keçmiş Sovetlər İttifaqı buna sübutdur.

Şərqdə isə biz bunun əksini görürük. Orta əsr Şərq dövlətlərinin sərhədləri etnos tərəfindən müəyyənləşdirildi. Bu zaman dövlət Avropada olduğundan fərqli olaraq etnosları çox asanlıqla özündə inteqrasiya edə bilmirdi. Məsələn, Azərbaycan Səfəvi dövlətinin yaranması və Şərqin qüdrətli dövlətinə çevrilməsində aparıcı rol Qızılbaş tayfa əyanlarına məxsus idi. Qızılbaş tayfalarına isə ustaclı, şamlı, rumlu, əfşar, qacar və b. daxil idi. Dövlətin etnoslardan asılılığı onun mərkəzləşməsinə də mane olurdu. Dövlətin mövcudluğu etnosun mövcudluğundan asılı olurdu. Səfəvilər dövlətinin süqutundan sonra feodal pərakəndəliyi, iqtisadi əlaqələrin zəifliyi, natural təsərrüfatın hökmranlığı Azərbaycanda mərkəzləşmiş dövlət yaratmağa imkan verməmişdir. Azərbaycan müstəqil və yarımmüstəqil xanlıqlara və sultanlara parçalandı. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində xanlıqlar arasında münasibətlərin kəskinləşməsi, bir çox hallarda isə müharibə vəziyyətinə çatdırılması ölkənin sosial-iqtisadi vəziyyətini daha da ağırlaşdırdı. Siyasi cəhətdən hökm sürən qeyri-sabitlik ölkəni işğal etmək istəyən xarici qüvvələr üçün şərait yaratdı. Bu da ölkənin Rusiya və İran tərəfindən işğalı ilə nəticələndi.

Ə.Tağıyev qeyd edir ki, Avropada bir sıra məqamlarda dövlətlər və onların sərhədləri millət yaradan amil rolunda çıxış etmişdir. Dövlət sərhədləri daxilində tarixən müxtəlif xalqlar və etnoslar müəyyən bir millət kimi formalaşmışlar. Məsələn, fransız milləti vahid Fransa dövləti ərazisində yaşayan müxtəlif etnoslardan formalaşmışdı. İngilis milləti anqlo-sakslarla normanların, yutların, britlərin, keltlərin, irland və şotlandların müəyyən hissələrinin bir ölkə daxilində birləşməsi nəticəsində meydana gəlmişdir».

Bu məsələlər Azərbaycan ictimai-siyasi fikrinin böyük mütəfəkkir nümayəndəsi olan Əhməd bəy Ağaoğlu tərəfindən incəliklə araşdırılmışdır. Onun fikrincə, Şərqdə dövlət hökumətlə qarışdırılmışdır. Hər iki məfhum – dövlət və hökumət – eyni mənanı ifadə edir kimi qəbul olunmuş, türklərdə isə bu zehniyyət daha irəli götürülmüşdür. Onlar dövləti yalnız hökumətlə qarışdırmaqla qalmamışlar. Belə ki, təsis etdikləri hökumətləri, dövlətləri müəyyən bir şəxsin, bir ailənin adına əlavə edilərək adlandırmışlar. Ə.Ağaoğlu yazır: «Min ildən bəri müxtəlif türk qəbilələrinin təşkil etdikləri bir çox dövlətlərin hamısı sülalə adlarını daşımışlar. Qəznəvilər, Səlcuqlar, Xarəzmşahlar, Osmanlılar bu xüsusda eyni zehniyyətdə hərəkət etmişlər. (müxtəlif tarixi dövlətlərdə Azərbaycanda mövcud olmuş Sacilər, Salacilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər, Hülakilər, Qaraqoyunlu və Ağqoyunlu, Səfəviləri qeyd etməklə Ə.Ağaoğlunun siyahısını daha da genişləndirmək olar – K.M.). Halbuki bu üç məfhum, yəni hö-

kumət, sülalə və dövlət arasında həm zahiri, həm də batini, həm maddi və həm də mənəvi çox bariz fərqlər mövcuddur. Şərq bunları qarışdırmış, hər sülaləni ayrı bir dövlət hesab etmiş və yeni gələn özündən əvvəl gələnləri adətən əcnəbi saymış və o sürətlə hərəkət etmişdir».

Ə.Ağaoğlu öz fikirlərinin doğruluğunu əsaslandırmaq üçün müqayisəli təhlildən (komparativistika) istifadə edərək yazır ki, İngiltərə sülaləni dörd kərə dəyişdirmişdi. Son sülalənin zamanında İngiltərə hüdudunu kürreyi-ərzin yeni qütbünə dayadı. Fəqət heç bir zaman, heç bir tarixçi və ya şair İngiltərəni bu sülalələrin adı ilə adlandırmağı xatrinə belə gətirməmişdir. Habelə, Fransa sülaləsini bir neçə kərə dəyişdi. Napoleon bütün Avropanı istila etdi. Fəqət bundan dolayı Fransa nə Napoleon adını aldı, nə də fransız dövlətinin təsisi ona aid edildi. Ə.Ağaoğlunun fikrincə, avropalılar bir dövlətin bir sülalənin adı ilə adlanmasını heç cür zehinlərinə sığışdıra bilmədiklərindən, «Osmanlı» kəlməsinə öyrəşə bilmirlər, daima Türkiyə deyirlər. «Dövlət sülaləsiz yaşaya bilir, necə ki bu gün cahanın çox qismi cümhuriyyət üsulu ilə yaşayır. Hökumətə gəlincə, o zatən mahiyyəti etibarilə dəyişkən bir şeydir və hər başqa bir şəkil ala bilir. Odur ki, bir dövləti bir sülalə və yaxud hökumət adı ilə adlandırmaq qədər qeyri-elmi və əsassız bir hərəkət təsəvvür edilə bilməz. Eyni zamanda bu cür təsəvvür çox xatalı bir zehniyyəti də ifadə edir». Mütəfəkkirin məntiqi sxeminə görə, dövləti sülalə adı ilə adlandırmaq dövləti sülalədən ibarət etməkdən irəli gəlir ki, bu təqdirdə sülalə yıxılanda və yaxud süqut edəndə dövlətin də yıxılması, məhv olması lazım gəlir. Həqiqətdə isə dövləti yaradan, dövlətin bərqərar amili və müəssisəsi məhz millətdir (millətin təşkilinin alman modeli – K.M.). Sülalə yıxılır, ancaq millət yaşayır və daha ləyaqətli və istedadlı rəhbərlərilə dövlətin təməlini təzələndirir, ona daha ziyadə şölə və dəbdəbə verir. Ə.Ağaoğlu bu problemin ziyanlı və qorxulu nəticələri haqqında yazır: «Həqiqət bundan ibarətkən və



dövlət özünü qurmuş millətin adını daşıyaraq millətin davamı, mövcudiyyəti ilə özünün də davam və mövcud olmasını dərk etməli olduğu halda, yanlış bir tərəqqi ilə başqa bir ad alaraq özünü başqa bir şey hesab edir. Bu qəribə hadisənin əməli nəticəsi olmaq üzrə milli tarixin sona yetib qırılmasını, milli vəhdətin pozulmasını, guya yeni təşəkkül etmiş olan dövlətin əski dövlətə nisbətən bir növ yabançı və hətta düşmən qaldığını zikr edə bilərik. Bu qəribə düşüncə tərzinin ən canlı misalını bir tərəfdən İran, digər tərəfdən Osmanlı tarixlərində görürük». Azərbaycanda millət haqqında daha çox yazan M.Ə.Rəsulzadə idi. O, millət anlayışı və onunla bağlı olan komponentləri inandırıcı şəkildə şərh edərək elmi nəzəri sistem yaratmışdı. Onun bu nəzəriyyəsi Şərqi Avropada millətin təşkili nəzəriyyəsinə daha yaxındır. Onun fikrincə, millət dil birliyi, ənənəyi-tarixiyyə və nəhayət, etiqadi-diniyyə birliklərinin məcmuyundan mütəşəkkil bir məhsuldur. («Dirçəliş» Jur, №14, 1914).

M.Ə.Rəsulzadənin millət anlayışına münasibəti Şərqi Avropada millətin təşkili nəzəriyyəsi ilə oxşardır. Lakin 1952-ci ildə Türkiyədə nəşr etdirdiyi «Azərbaycan» jurnalındakı məqaləsində onun millət anlayışına münasibəti Qərbi Avropa modelinə daha çox yaxındır. O yazırdı: «Millət anlamını ifadə edən iki söz vardır: milliyyət və millət. Bunlardan birincisi lisani, dini, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsirilə meydana gələn etnik bir toplumu ifadə edir. İkincisi isə bu topluluqda ümumi bir ifadəyi anladır... O, rüşeymdir, bu cocuqdur, o ağacdır, bu meyvədir, o anadır, bu yovrudur, o milliyyətdir, bu millətdir» (Azərbaycan, 1952, №5). Onun fikrincə, milliyyət etnik anlayış, millət isə siyasi anlamdır. Millətin meydana gəlməsi haqqında M.Ə.Rəsulzadənin fikirləri müəyyən qədər milləti kapitalizmin məhsulu hesab edən marksistlər və yaxud da milləti müasir dövrün məhsulu hesab edən modernistlərlə eynilik təşkil edir: Onun fikrincə, milliyyətin millət halına keçməsi feodal sisteminin

dağılması, burjuaziyanın zühuru ilə bağlı olub, ümumi şüur və kollektiv iradnin məhsuludur.

M.Ə.Rəsulzadənin məqaləsində milliyyət anlayışı etnos anlayışı ilə eynilik təşkil edir. Buradan belə bir nəticəyə gəlmək olar ki, Rəsulzadəyə görə, millət-milliyətin, yəni etnosun yüksək inkişaf etmiş ali mərhələsidir. M.Ə.Rəsulzadə millətçiliklə bağlı fikirlərini məhz milliyyət və millət anlayışları ilə bağlı şəkildə izah edir. O, milliyyətçiliklə millətçiliyi bir-birindən fərqləndirərək yazırdı: «Avropalıların patriot termini ilə ifadə etdikləri anlam birini millətçi sözü ilə anlatmaq istədiyimiz anlamın eynidir. Avropalıların nasionalizm sözü ilə kəsb etdikləri anlam tamamilə başqa şeydir». Buradan belə bir nəticə çıxarmaq olar ki, Rəsulzadənin milliyyətçilik adı ilə ifadə etdiyi anlayış Avropadakı etnik millətçiliklə eyni məna kəsb edir. O millətçilik anlayışını müsbət bir hadisə kimi qiymətləndirirdi: «Millətçilik fikri ən təbii, ən mədəni və ən irəli bir fikirdir. Həm də insanlıq kültürünün ən təbii və ən normal inkişaf yoludur» (Azərbaycan, 1952, №7).

Çox vaxt deyirlər ki, tarix ondan uzaqlaşdıqca daha aydın görünür. Bu isə hər bir tədqiqatçıya onu daha dəqiq, səhvsiz və obyektiv şəkildə qiymətləndirməkdən ötrü şərait yaradır ki, bu da millətin uğurlu gələcəyinin təməlidir.

Tarix yalnız xronologiya və yaxud zaman demək deyil, o həm də nəsillərin milli yaddaşıdır. Odur ki, zaman müəyyən qədər bizə qarşı çevriləndə tez nəsillərin yaddaşını üz tutmalı oluruq. Bu Şərqə, o cümlədən Azərbaycana xas xüsusiyyətdir. Şərqdə tarixi keçmişə bağlılıq və tarixi varislik millətin təşəkkülü prosesində mühüm rol oynayır. Düzdür, tarixi keçmişə bağlılıq nə qədər müsbət bir tendensiya olsa da, bir o qədər də təhlükəlidir. R. Dekartın təəbirincə desək, «o xalqlar ki, öz tarixi keçmişlərilə öyünməyə başladılar, deməli, artıq onların sonu çatmışdır». N.Şəmsizadə isə bunu obrazlı şəkildə bu cür ifadə edir: « Siz ey bizdən sonra gələnlər! Bilin və agah olun, yalnız keçmişlə yaşamaq aldanışdır, tarix misilsiz



sərvətdir, onu dəyişmək və danmaq olmaz. Lakin tarixə aludə olmayın, bu günlə yaşayıb, gələcəyi əldən verməyin. Tarixi gizlətmək üçün yaradılmış qaranlıq meşəyə çevirməyin».

**Lakin bütün bunlar o demək deyildir ki, keçmişdən tamamilə imtina etmək lazımdır. Yadda saxlamaq lazımdır ki, keçmişi olmayan millətin gələcəyi də müəmmalı görünür. Keçmişi nəzərə almadan qurulan gələcək təməlsiz binaya bənzəyir. Sərkərdələrdən biri demişdir ki, keçmiş – tuşlanmış tapança kimidir, istənilən vaxt atıla bilər. Kozma Prutkoz isə yazırdı ki, «hazırkı – keçmişin nəticəsidir, buna görə nəzərini keçmişdən ayırma, bununla özünü böyük səhvlərdən qoruya bilərsən». Ona görə də, tarixi keçmişlə varislik əlaqələri emosional deyil, rasional xarakter daşımalıdır. Tarixi keçmişimizə fanatikcəsinə deyil, peşəkar kimi yanaşmalıyıq. Bu isə keçmişə görə gələcəyi görmək deməkdir.**

Tədqiqatlar bir daha sübut edir ki, siyasi elmin bu bölməsi çox geniş predmet sahəsinə, çoxtərəfli praktiki və nəzəri bazaya malikdir. Millət və millətçilik məsələlərinin geniş tədqiqat sahəsinə malik olması həm də, onun doğurduğu problemlərin çoxluğundan xəbər verir. Düşünürəm ki, problemlərin çoxluğu və müxtəlifliyi məhz bu məsələlərin aktuallığından və elmi sistemdəki yerindən xəbər verən əsas göstəricilərdən biridir. Bu təbiidir, çünki, istənilən elm sahəsi nə qədər ki, onda yeni problemlər çoxdur – yaşamağa qadirdir. Yeni problemlərin çatışmazlığı elmin o sahəsinin aradan çıxması, yaxud müstəqil-inkişafdan qalması deməkdir.

Məqalədə millət və millətçilik məsələlərinin yığcam şəkildə tədqiqi bu sahədə bir sıra problemlərin olduğunu aşkar etdi ki, nəticə olaraq bunları aşağıdakı kimi ümumiləşdirmək olar:

– İlk növbədə qeyd etmək lazımdır ki, araşdırmalar bu sahədə güclü terminoloji və konseptual «anarxiya» mövcuddur. Bu cür vəziyyətin yaranmasını bir sıra amillərlə izah etmək olar. Bunun səbəblərindən biri kimi millət və millətçilik

məsələlərinin yalnız siyasi elm deyil, digər ictimai elm sahəsi tərəfindən də tədqiq olunmasını göstərmək olar. Bunun nəticəsində millət və millətçilik məsələləri ilə bağlı nəzəriyyə və modellərin fəlsəfə, sosiologiya, politologiya, psixologiya və digər ictimai elmlər arasında parçalanması baş verir ki, bu da mövcud anarxiyanın başlıca səbəblərindən biridir.

– Mövcud nəzəriyyələrin öz daxili strukturu və natamamlığından irəli gələn problemlər. Bu sahədə mövcud olan nəzəriyyələrin çoxu müasir dövrün reallıqlarına uyğun gəlmir və müasir dünyagörüşünün tələblərinə cavab vermir. Belə ki, bir sıra əsassız dəlillər, mübahisəli nəticələr, ikimənalı cavablar və həlli müşkül olan məsələlər üzərində qurulan nəzəriyyələr onların siyasi gerçəklikdə və siyasi praktikada tətbiqi zamanı mürəkkəb vəziyyətin yaranmasına gətirib çıxarır. XX əsrin son onilliyində baş qaldıran «milli renessans» zamanı milli münasibətlər sahəsində hökm sürən gərginlik mövcud nəzəriyyələrin natamamlığının və müasir dövrün tələblərinə cavab verməməsinin əyani sübutu idi.

– «Millət» və «millətçilik» anlayışlarının çoxcəhətliliyindən doğan problemlər. Mövcud anlayışların müxtəlif əhamətlər əsasında tədqiqi həmin əlamətin dominyonluğuna səbəb olur ki, bu da tədqiqatın birtərəfli şəkildə təhlil olunması ilə nəticələnir. Urs Altermattın təbirincə desək, bu zaman tədqiqat sahəsi anlayışlar tiraniyasının hakimiyyəti altına düşür. Ona görə də bu nəzəriyyələr milli münasibətlər sahəsində keçmişdə və müasir dövrdə mövcud olan təzahürləri məcmu halında əhatə edə bilmir. Çoxcəhətli bir məsələ haqqında onun hər hansı bir səciyyəsinə əsasən mühakimə yürütmək çox vaxt əsassız nəticələrin yaranmasına səbəb olur.

– Millət və millətçilik məsələsinə dair nəzəriyyə və modellərin xalis şəkildə tətbiq edilməməsindən irəli gələn problemlər. Bu modellərin çoxu tipik ideal xarakter daşıyır və praktikada konkret olaraq xalis şəkildə tətbiq edilmir. Məsələn, millətin fransız modelinə əsasən bu ölkədə millət



vətəndaş həmrəyliyi hesab edilsə də, onun mədəni-tarixi həmbirlik olması haqqında təsəvvürlər də geniş yayılmışdır. Fransız modelinə uyğun ölkələrdə millətin vətəndaş anlayışı ilə yanaşı etnik mənası da hallandırılır. Bu modellərin Şərq və Qərb bölgüsü də nisbi xarakter daşıyır.

– Millət və millətçilik məsələlərinin inkarı və ona qarşı aparılan mübarizədən irəli gələn problemlər. Bu məsələlər XX əsrin sonlarından başlayaran daha mütəşəkkil xarakter almağa başladı. Düzdür, mövcud şəraitdə qloballaşmanın əsas hərəkətverici qüvvəyə çevrildiyini inkar etmək mümkün olmadığı kimi, liberal demokratiyanın yeganə qalib ideologiya olduğunu bir mənalı şəkildə qəbul etmək mümkün deyil. Buna misal olaraq son 20 ildə Qərbdə yaranan liberal millətçilik nəzəriyyələrini göstərmək olar.

Araşdırmalar bunu deməyə əsas verir ki, millət və millətçilik məsələlərini tarixin arxivinə vermək hələ tezdir. Ümumiyyətlə, millət və millətçilik ideyaları bəşər tarixinin yaddaşında həm yaradıcı, həm də dağıdıcı gücə malik bir keyfiyyət kimi yer tutmuşdur. Bu məsələlərin inkar edilməsi, onunla bağlı olan problemlərin süni şəkildə ört-basdır edilməsi bu ideyaların dağıdıcı gücünə təkan verir. Onu nəzarətdə saxlamaq və dağıdıcı gücünün təsirini azaltmaq üçün ən münasib vasitələr onunla idarə etmək, onunla hesablaşmaq, ondan irəli gələn problemlərin dövlət səviyyəsində həllindən keçir.

Bu gün bütün dünyada azərbaycançılığın ən böyük qarantı olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları öz nitqlərindən birində belə söyləyirdi: «Azərbaycan bütün xalqların böyük, gözəl ailəsidir. Azərbaycanda heç vaxtı dini, milli, etnik zəmində ayrı-seçkilik olmamışdır və olmayacaqdır. Bu Azərbaycan dövlətinin siyasətidir».

## ƏDƏBİYYAT

1. Ağayev İ. «Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər» Bakı, 2006.
2. Cəfərov N. «Milli ictimai fikir tariximizdən» (1914 – 1917 fevral) Azərnəşr, Bakı, 1993.
3. Hüseynov Ş. «Əhmədbəy Ağaoğlunun dünyagörüşü». Bakı, 1998.
4. Mirzəzadə A. «İxtisasa giriş» Bakı, Elm 1990.
5. «Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası». AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. Bakı: «Səda», 2006.
6. Rəsulzadə M.Ə.. «Panturanizm haqqında». «Azərbaycan», №6, 1991.
7. Qurbanov Ş. «Cəmaləddin Əfqani və Tqrk dünyası». Bakı, 1997.
8. Şəmsizadə N. «Azərbaycançılıq». Bakı: Nurlan, 2006.
9. Кольев А. «Нация и государство». М, 2005.
10. Ливен А. «Анатомия американского национализма». «Про ет Контра», №3, т.8, 2004.
11. Малахов В.С. «Национализм как политическая идеология». Москва, 2005.
12. Миллер А.И. «Национализм как теоретическая проблема». (Ориентация в новой исследователъской парадигме) «Свободная мыслъ», 2007.
13. Альтерматт У. «Этнонационализм в Европе». М.,ПГГУ, 2000.




*Nailə ƏLİCANOVA*

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN HÜQUQLARININ TƏMİNATI MƏSƏLƏSİNƏ BAXIŞ

Açar sözlər: insan hüquqları, vətəndaş hüquqları, Avropa şurası, Avropa İttifaqı, QNT.

Müasir dövrdə bir sıra anlayışlar elmi araşdırmaların əsas predmetinə, Konstitusiyaların ana xəttinə, beynəlxalq müqavilələrin mövzusuna çevrilib. Məhz belə anlayışlardan biri insan hüquqları anlayışıdır. Bu anlayış bütün qeyri-maddi xarakterli dəyərlər içərisində ilk yerlərdən birini tutur.

Müasir dünyanın həqiqi universal dəyərlərindən olan insan hüquqları ölkəmizə də daxil olaraq öz yerini tutmuşdur.

İnsan hüquqları amili Ulu Öndər Heydər Əliyev fəaliyyətinin əsası olmuşdur. Məhz onun rəhbərliyi və təşəbbüsü ilə kifayət qədər normativ- hüquqi sənədlər qəbul edilmişdir. Dövlətimizdə insan hüquqlarının təminatlı sisteminin əsasını 1993-cü ildə hakimiyyətə qayıdışından sonra məhz H.Əliyev qoydu. Konstitusiyanın qəbul edilməsi bu işdə əməli dönüş oldu.

Konstitusiyalı respublikalarda insan hüquqları Konstitusiya qanunu kimi müəyyən edildiyindən insan hüquqlarını «konstitusiya hüquqları» da adlandırırlar.

1995-ci il noyabrın 12-də H.Əliyevin təşəbbüsü ilə «Ümumdünya İnsan Hüquqları Bəyannaməsi»nin müddəalarını özündə əks etdirən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Azərbaycan Respublikası Konstitusiyasının 158 maddəsindən 48-i, yəni təxminən 3/1-i insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmişdir.

Qədim tarixə malik insan hüquqları ideyası XVIII əsrdə Avropa söz və vicdan azadlığı, təhlükəsizlik və mülkiyyət hüquqlarının meydana çıxmasının şahidi olmuşdur. Ümumi seçki, respublika quruluşu gizli səsvermə və s. hüquqlar XIX əsrə tə-

sadüf edir. XX əsr bütün bu hüquqlar sırasına sosial hüquqları əlavə edilmiş insan hüquqları ideyasını dünyaya yaymışdır. XX əsrin sonu insan hüquqlarının dünyada tam qələbəsi ilə məşhurlaşdı. II Dünya müharibəsi zamanı və müharibədən sonrakı illərdə insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyasının bu günkü mənzərəsi formalaşmışdır. O vaxtdan «İnsan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması», ideyası bütün dünyaya yayılmışdır.

1945-ci il Nürnberq məhkəməsində, müttəfiqlər nasist liderlərinin cinayətlərini əks etdirən siyahıya «insaniyyətə qarşı cinayəti» daxil etdilər. Birləşmiş Millətlər Təşkilatında (1945) bəyan edildi ki, insan hüquqlarının qorunmasına kömək etmək BMT-nin əsas məqsədidir.

İnsan hüquqları institutu, məzmun etibarilə müxtəlif, eyni statusa sahib olmayan hüquqları tədqiq edir və qoruyur. Lakin, mülkiyyət hüququ təbii və əsaslı hüquq olduğu halda, konkret bir həyat tərzi ətrafında birləşməyi təmin edən həmrəylik (solidarity) hüquqlarının mahiyyəti belə tam aydınlığa qovuşmayıb. Habelə insan hüquqları institutu, mənbə etibarilə, beynəlxalq sənədlərə söykəndiyi kimi, milli qanunvericilik müddəalarına da əsaslanır. Belə ki, mülkiyyət hüququnun məzmununu dolduran Mülki hüquq olduğu halda, söz azadlığı kimi hüquqların məzmununu isə fəlsəfə və siyasət elmi doldurur. Dövlətin insan hüquqlarına hörmətlə yanaşması, dövlətin bu sahədə tənizmləmə aparma səlahiyyətini aradan qaldırmır, ancaq bu tənzimləmənin məqsədini tənzimləyir və məhdudlaşdırır. Anarxiya nizamı, bütün hüquqları təhlükə altına aldığına görə, nizam-intizam qorunmalıdır və dövlətin hakimiyyət səlahiyyətlərinə də hörmətlə yanaşmaq lazımdır. Lakin hakimiyyət səlahiyyətləri, insanların legitim və ağlabatan maraqlarının məcmu-sundan ibarət olan, ictimai maraqların doyurulmasına yönəlməlidir. Burada insan hüquqları nəzəriyyəsi, demokratik rejimlərə bir məhdudiyyət gətirir və konkret insanın çoxluq tərəfindən



belə pozulmaz hüquqlar "qalasını" göstərir. Avtoritar rejimlərdə isə, insan hüquqları institutu bir az daha fərqli məqsədə yönəlir və effektivliyi də daha zəif olur; o simvolik bir protestə və zülmə qarşı dirənən çoxluğun ideologiyasına dönüşür.

İnsan haqları demək olar ki, dünyanın bütün ölkələri tərəfindən qəbul edilir. Bu məsələnin universallığından, çox vaxt bu və ya digər dövlətlərdə insan haqlarından sui istifadə halları əsas götürülərək onlara qarşı hərbi və iqtsadi təzyiq göstərmək üçün istifadə edilir. Konstitusiayıarda əsas hüqüqların və beynəlxalq razılaşmaların köməyi ilə insan haqqları inkar olunmaz bir hüquq kimi qəbul edilmişdir. Beynəlxalq aləmdə insan haqları BMT-nin deklarasiyası ilə qanunləşdirilmişdir.

İnsan haqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur:

*"Hər bir insan onun malik olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşəyindən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüqüna malikdir!*.

İnsan haqları, demokratiya və qanunun aliliyi Avropa İttifaqının **təməl dəyərləridir.**

Ümumdünya İnsan Haqları Bəyannaməsində tələb olunduğu kimi və 1993-cü il Dünya Konfransında İnsan Haqlarında təsdiq olunduğu kimi Aİ, bütün insan haqlarına – istər mülki, istərsə də siyasi, iqtisadi, ictimai, yaxud mədəni – hər yerdə hörmət edilməsini təmin etməyi qarşısına məqsəd qoymuşdur. O, həmçinin qadın və uşaqların, azlıqlara mənsub şəxslərin, habelə məcburi köçkünlərin hüquqlarını təşviq edir.

Aİ üçün hüquqi və təşkilati bazanı müəyyən edən Lissabon Sazişində İttifaqın aşağıdakı **prinsiplər** əsasında idarə edilməsi aydın şəkildə ifadə edilmişdir: demokratiya, qanunun aliliyi, insan haqlarının və əsas azadlıqların ümumiliyi və ayrılmazlığı, insan ləyaqətinə, bərabərlik və həmrəylik prinsiplərinə hörmət, Birləşmiş Millətlər Təşkilatı Xartiyası-

nın və beynəlxalq hüququn prinsiplərinə hörmət. Bu prinsiplər, Aİ-nın bütün bu hüquqları bir mətndə ehtiva edən Əsas Hüquqlar Xartiyası ilə möhkəmləndirilmişdir.

Ümumilikdə, Aİ-da insan haqları ilə bağlı yaxşı göstəricilər qeydə alınsa da, bu, **arxayınlıq üçün əsas deyil**. İttifaq irqçilik, ksenofobiya, habelə din, cins, yaş, əlillik və cinsi təmayül kimi digər diskriminasiya növləri ilə mübarizə aparır. Aİ-nı xüsusilə narahat edən sığınacaq və miqrasiya ilə bağlı insan haqlarıdır.

İnsan haqları və demokratiyaya dəstək, hazırda siyasi kursu müəyyən edən prosesləri və bu kursun həyata keçirilməsi zamanını daima nəzərə alır. Məsələn, bütün ticarət və əməkdaşlıq sazişlərində tərəflər arasında münasibətlərdə insan haqlarının vacib element olmasını şərt qoyan bənd mövcuddur.

Bütün dünya üzrə insan haqlarını təşviq etməkdə yerli və beynəlxalq QHT-lərə köməklik məqsədilə 2007-2013-cü illər üçün Demokratiya və İnsan haqları üzrə Avropa Təşəbbüsü (**EIDHR**) çərçivəsində Aİ maliyyələşdirmə sistemi vasitəsilə ayrılmış 1,1 milyard avroya yaxın vəsaitdən də yararlanmaq mümkündür

1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya ölkəmizdə əsas insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslanan yeni dövlət quruculuğunun başlanğıcını qoymuşdur. Konstitusiya ölkədə insan hüquq və azadlıqlarının qorunmasının əsasını təşkil edir. Sənədin «Əsas insan və vətəndaş hüquqları və azadlıqları» adlı üçüncü fəsli insan hüquqlarının geniş dairəsini əhatə edən 48 maddəni özündə əks etdirir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 1998-ci il 22 fevral tarixində "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalanmış və onun 1998-ci il 18 iyun tarixli sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiqlənmişdir. Qeyd olunan dövlət proqramı əsasında 2002-ci ildə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) institutu təsis edilmişdir.



Azərbaycan Respublikasında ictimai həyatın bir çox sahələrində dərin islahatlar həyata keçirilmişdir. Ölkənin demokratikləşdirilməsi sahəsində aparılan islahatların sırasında Azərbaycanın hüquqi sisteminin Avropa İnsan hüquqları Konvensiyası və digər vacib beynəlxalq sənədlərdə təsbit edilmiş beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində atılan addımlar mühüm yer tutmuşdur.

Azərbaycan Respublikasının Mülki, Mülki-Prosessual, Ailə, Əmək, Cinayət, Cinayət-Prosessual, Cəzaların İcra edilməsi haqqında, Gömrük və Vergi Məcəllələri, Yığıncaq azadlığı, Kütləvi informasiya vasitələri, Qeyri-hökumət təşkilatları (ictimai birlik və fondlar) və Vəkillik haqqında mühüm əhəmiyyətə malik olan qanunları qəbul edilmişdir.

İşgəncələr və digər qəddar, qeyri-insani hərəkətlərin, yaxud ləyaqəti alçaldan rəftarın qarşısının alınması üçün beynəlxalq təşkilatlar tərəfindən təklif edilmiş tövsiyələrin Azərbaycan Respublikası tərəfindən yerinə yetirilməsi üçün konkret tədbirlər görülmüş, yeni Cinayət Məcəlləsinə işgəncəyə görə ciddi cinayət məsuliyyəti nəzərdə tutan müvafiq maddə daxil edilmiş, təhqiqat, ibtidai istintaq dövründə və ya cəza çəkilərkən, habelə hərbi xidmət dövründə vəzifəli şəxslər tərəfindən vətəndaşların və ya, həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin işgəncə və ləyaqəti alçaldan qeyri-insani rəftar və cəza növlərinə məruz qalmaları cinayət qaydasında cəzalandırılmalı əməllər kimi müəyyənləşdirilmişdir.

Penitensiar sistemdə islahatlar sahəsində də böyük işlər görülmüşdür. Avropa Şurası qarşısında götürülmüş öhdəliyə uyğun olaraq, Azərbaycan hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında bağlanılmış sazişə əsasən, BQXK nümayəndələri azadlıqdan məhrumetmə yerlərinə baş çəkə bilərlər.

Azərbaycan Respublikasında 1993-cü ildə ölüm hökmünün icrasına moratorium qoyulmuş, 1998-ci ilin fevral ayının 10-da isə tamamilə ləğv edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamına

əsasən keçmiş SSRİ məkanında ilk dəfə olaraq, Daxili İşlər Nazirliyinin tabeçiliyində olan ilkin həbs saxlama yerləri Ədliyyə Nazirliyinin tabeçiliyinə verilmişdir.

Məhkəmə və hakimlər haqqında qanun bütün şəxslərin məhkəmə qarşısında bərabərliyi, müstəqil məhkəmələr tərəfindən ədalət mühakiməsinin ədalətlə və maneəsiz həyata keçirilməsi, təqsirsizlik prezumpsiyası, məhkəmə baxışının açıq, çəkişmə qaydası əsasında həyata keçirilməsi kimi ədalət mühakiməsi prinsiplərini müəyyənləşdirmişdir.

İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində beynəlxalq təşkilatlar qarşısında Azərbaycan tərəfindən götürülmüş geniş miqyaslı və spesifik öhdəliklər ölkədə yeni bir mühit yaratmış və Hökumətin gündəliyinə yeni vəzifələr daxil etmişdir. Bu baxımdan, öhdəliklərin yerinə yetirilməsinə nəzarət və implementasiya tədbirlərinin birləşdirilməsi prosesi siyasi öhdəliklərin hüquqi qaydalara və dövlətçilik təcrübəsinə çevrilməsinə töhfə vermişdir. Müstəqillik qazandıqdan sonra qısa bir müddətdə demokratik institutların yaradılması və möhkəmləndirilməsi, insan hüquqları dəyərlərinin müdafiəsi və təşviqi daxili və xarici siyasətin əsas komponentlərinə çevrilərək cəmiyyətin şüuruna təsir göstərmiş, vətəndaşlar üçün yeni imkanlar və dövlət qurumları üçün isə ciddi öhdəliklər yaratmışdır.

İnsan hüquqlarının təmin edilməsi sahəsində mühüm addımlardan biri də Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının qəbul edilməsi olmuşdur. Xarici İşlər Nazirliyi də daxil olmaqla bir sıra dövlət qurumlarının təklifləri əsasında hazırlanmış Milli Fəaliyyət Planı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 28 dekabr tarixli 1889 saylı Sərəncamı ilə təsdiq edilmişdir.

2007-2008-ci illər ərzində Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının İcrası və İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiə-



si, qanunun aliliyinin təmin edilməsi, eyni zamanda vətəndaş cəmiyyətinin inkişafı sahəsində bir sıra tədbirlər görülmüşdür. Bu istiqamətlər üzrə həyata keçirilməsi planlaşdırılan tədbirlərə gəlincə, Ombudsman aparatının təklifi ilə İnsan Hüquqları üzrə Milli Fəaliyyət Planının (MFP) internet saytının yaradılmışdır. Saytda MFP-nin icrasının vəziyyətinə dair məlumatlar, dövrü hesabatlar, işçi qrupların görüşləri barədə məlumatların və digər informasiya əks etdirilir.

27 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir. Konseptual və miqyaslı xarakter daşıyan həmin Proqramda Azərbaycanın insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulması prosesinin davam etdirilməsi, yeni qanunvericilik aktlarının qəbul edilməsi, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin insan hüquqları sahəsində ixtisaslaşan qurumlar, Qaçqınlar üzrə Ali Komissarlıq, YUNESKO, YUNİSEF, Dünya Bankı, habelə Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər regional təşkilatlar ilə birgə əməkdaşlıq proqramlarının həyata keçirilməsi, habelə korrupsiya ilə mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, əhaliyə göstərilən elektron xidmətlərin inkişaf etdirilməsi sahəsində fəaliyyətin vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlıqda davam etdirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası insan hüquqları sahəsində əsas beynəlxalq sənədlərə qoşulmaqla yanaşı, onlardan irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Bu təşkilatların sırasında BMT-nin insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən müxtəlif qurumları, ATƏT, Avropa Şurası və Avropa İttifaqı mühüm yer tutur.

İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində Azərbaycan hökuməti ilə BMT-nin İnsan hüquqları üzrə Ali komis-

sarlığı arasında səmərəli əməkdaşlıq qurulmuşdur. Bu əməkdaşlıq ilkin olaraq 1998-ci ildə imzalanmış və müddəti 2000-ci ilədək müəyyən edilmiş "İnsan hüquqlarının təşviqi və müdafiəsi üçün imkanların və infrastrukturun gücləndirilməsi" (Strengthening Capacities and Infrastructure for the Protection and Promotion of Human Rights in Azerbaijan) adlı texniki əməkdaşlıq sənədinə əsasən həyata keçirilmişdir. Məsələnin aktuallığı nəzərə alınaraq, keçirilən proqramların davam etdirilməsi məqsədilə 2001-ci ilin dekabrında Ofislə Azərbaycan hökuməti arasında yeni layihə sənədi imzalanmışdır. Layihə çərçivəsində insan hüquqları sahəsində müxtəlif tədbirlər (seminar, treninq, təcrübə mübadiləsi, hüquqi ədəbiyyatın nəşri və s.) keçirilmişdir. Layihənin həyata keçirilməsində Azərbaycan tərəfindən əlaqələndirici qurum kimi Ədliyyə Nazirliyi çıxış etmişdir. 2005-ci il dekabrın 5-7-də Bakıda müqavilələrin implementasiyası üzrə nəzarət qurumlarına dövrü hesabatların təqdim edilməsi mövzusuna həsr edilmiş seminar, 2006-cı ildə isə layihə çərçivəsində hakimlər və prokurorlar üçün ikinci seminar təşkil olunmuşdur. 2006-cı ildə Azərbaycanın insan hüquqları sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən biri ölkəmizin BMT-nin yeni yaradılmış İnsan Hüquqları Şurasına üzv seçilməsi olmuşdur.

2012-ci ildə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının 1-ci məruzəsinə dair yekun rəyində verilmiş tövsiyələrin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Hökumətinin aralıq məruzəsi aidiyyəti üzrə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və İnsan Hüquqları Şurasına təqdim edilmişdir. Eyni zamanda, Universal Dövri İcmal üzrə ölkəmizə münasibətdə verilmiş tövsiyələrin həyata keçirilməsi prosesi ilə bağlı tədbirlər və buradan irəli gələn digər məsələlər haqqında BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və İnsan Hüquqları Şurası mütəmadi olaraq məlumatlandırılmışdır.



27 fevral – 23 mart 2012-ci il tarixində keçirilmiş BMT-nin İnsan Hüquqları Şurasının 19-cu sessiyası çərçivəsində "Milli, etnik, din və dil azlıqlarının hüquqları üzrə bəyannamənin qəbul olunmasının 20-ci ildönümünün qeyd edilməsi" adlı panel müzakirə edilmişdir. Sessiyada Azərbaycan tərəfinin fəal iştirakı təmin olunmuşdur. Panel müzakirələr Bəyannamənin həyata keçirilməsi, əldə olunmuş nailiyyətlər, ən yaxşı təcrübələr və mövcud problemlərə həsr olunmuşdur.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Azərbaycan Respublikası Prezidenti tərəfindən 2011-ci ilin dekabr ayında təsdiqlənmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliyini artırmaq məqsədilə Milli Fəaliyyət Proqramı"nın həyata keçirilməsinə dəstək verilməsinə hazır olduğunu bildirmişdir.

27 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırmaq sahəsinə Milli Fəaliyyət Proqramı" və BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmalı üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının birinci məruzəsinə dair yekun rəyində verilmiş tövsiyələrin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Hökumətinin aralıq məruzəsi BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına təqdim edilmişdir.

Fiziki və əqli sağlamlığın mümkün olan ən yüksək standartlarından istifadə hüququ üzrə xüsusi məruzəçisi Anand Qrover regionlarda səhiyyə sahəsində mövcud vəziyyətlə tanış olmaq məqsədilə 16-23 may 2012-ci il tarixlərində Azərbaycana səfər etmişdir.

2012-ci ilin 18 iyun - 6 iyul tarixlərində BMT-nin İnsan Hüquqları Şurasının 20-ci sessiyası çərçivəsində Azərbaycanda təhsil hüququ, qadınlara qarşı ayrıseçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində milli institutların fəaliyyəti, məcburi köçkünlərin insan hüquqları və internetdə insan hüquqlarının müdafiəsi üzrə qətnamələrin hazırlanması prosesində iştirak etmiş və

bu sənədlərə həmmüəllif qismində qoşulmuşdur.

Azərbaycan Respublikasının 2001-ci ildə Avropa Şurasına üzv olmasından sonra, ölkədə insan hüquqlarının təmin edilməsi, qanunun aliliyinin gücləndirilməsi və demokratikləşdirmə məsələlərinə istər hökumətin, istər vətəndaş cəmiyyətinin, istərsə də dünya ictimaiyyətinin diqqəti artmışdır. Bu, bir tərəfdən ölkəmizin öz iradəsi ilə Avropa Şurası qarşısında üzərinə müvafiq öhdəliklər götürməsindən irəli gəlirsə, digər tərəfdən həyatın müxtəlif sahələrinə aid daim təkmilləşən və özünü müxtəlif sənədlərdə əks etdirən Avropa standartlarına uyğunlaşma tələbi ilə bağlıdır.

Azərbaycan Avropa Şurası ilə demokratik dövlət quruculuğu, insan hüquqlarına hörmət və ölkədə qanunun aliliyinin tam təmin edilməsi sahəsində hərtərəfli əməkdaşlığa böyük önəm verir və bu əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır. Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində Azərbaycan məhkəmə sisteminin islahatı, vəkillik fəaliyyətinin təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə, ictimai televiziyanın fəaliyyətə başlaması istiqamətində mühüm tədbirlər görmüşdür.

İnsan hüquqları məsələlərinə Avropa İttifaqı ilə genişlənməkdə olan əməkdaşlıq kontekstində ayrıca diqqət yetirilir. Bu baxımdan, xüsusilə 2006-cı il noyabrın 14-də qəbul olunmuş, Avropa Qonşuluq Siyasəti çərçivəsində Avropa İttifaqı və Azərbaycan arasında Fəaliyyət Planına demokratiyanın inkişaf etdirilməsi, insan hüquqları və əsas azadlıqların təmin edilməsi və eləcə də qanunun aliliyinin gücləndirilməsinə dair tədbirlərin daxil edilməsini göstərmək olar. Digər tərəfdən, Avropa İttifaqının bu Fəaliyyət Planın icrasının dəstəklənməsinə yönələn 2007-2010-ci illər üçün Azərbaycan üzrə Milli İndikativ Proqramında insan hüquqları sahəsində konkret əməkdaşlıq fəaliyyətlərinin müəyyən edilməsini nəzərdə tutmuşdur.

Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə və standartlara uyğunluğunun təmin edilməsi istiqamətində Avropa Şurasının müvafiq



qurumları ilə, xüsusilə də Venesiya Komissiyası ilə əməkdaşlığın inkişaf etdirilmiş, Azərbaycan Respublikasının defamasiya haqqında qanun layihəsinin hazırlanmasında ölkəmizə köməklik göstərilməsinə razılıq əldə edilmişdir.

8 oktyabr 2012-ci il tarixində Azərbaycan Respublikası Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiyasına 15 may 2013-cü il tarixli Əlavə Protokolu"imzalamışdır.

14 may 2012-ci il tarixində Azərbaycan Respublikası Avropa Şurasının Ekstradisiya haqqında Konvensiyasının Üçüncü Əlavə Protokolunu imzalamışdır.

2012-ci ilin oktyabr ayının 29-31 tarixlərində, Avropa Şurası Baş katibinin müavini xanım Qabriela Draqoni-Battaininin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfər etmişdir. Səfər zamanı, Avropa Şurasının Azərbaycan üzrə 2013-2015 illər üçün Fəaliyyət Planının əsas mövzuları ətrafında Azərbaycanın müvafiq dövlət qurumları ilə fikir mübadiləsi aparılmışdır.

2012-ci ilin dekabr ayının sonunda Avropa Şurası tərəfindən Fəaliyyət Planının layihəsi hazırlanaraq Azərbaycan hökumətinə rəy və təkliflər üçün təqdim edilmişdir..

İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardan biri də ATƏT-dir. 1998-ci il noyabr ayının 26-da Azərbaycan

Respublikası Prezidenti və ATƏT-in Fəaliyyətdə olan Sədri tərəfindən Azərbaycan Hökuməti və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu arasında Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır. Memorandumun əlavəsində ölkədə insan hüquqları sahəsində demokratik islahatların həyata keçirilməsi istiqamətində sıx əməkdaşlıq nəzərdə tutulmuşdur.

2012-ci ilin 8-12 oktyabr tarixlərində ATƏT-in hazırkı sədrinin üç din (müsəlman, xristian və yəhudi) üzrə xüsusi nümayəndələri Azərbaycana səfər etmiş və aidiyyəti üzrə

dövlət qurumları, dini icmaların rəhbərləri və vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşlər keçirmişlər.

Bu gün Azərbaycanda 600-dən artıq informasiya agentlikləri və qəzetlər rəsmi olaraq dövlət reyestrində qeydiyyata alınmışdır. Siyasi partiyaların əksəriyyəti öz qəzetlərini nəşr etdirirlər. ATƏT-in KİV azadlığı üzrə Nümayəndəsinin Ofisi və Azərbaycan Hökuməti arasında aparılan danışıqlar nəticəsində Azərbaycan Respublikası Prezidenti yanında KİV-lərin inkişafına dövlət dəstəyi fondunun maliyyə dəstəyi, ATƏT-in KİV azadlığı üzrə nümayəndəsinin ofisinin və Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə 2012-ci ilin noyabr ayında Azərbaycanda iki layihə həyata keçirilmişdir. Sözügedən layihələr "İctimai nümayişlərdə KİV nümayəndələrinin təhlükəsizliyi üzrə təlim seminarı" və "Azərbaycandan olan jurnalistlər və dövlət qurumlarının mətbuat katibləri üçün hökumətin malik olduğu informasiyaya çıxışına dair seminar" adlı layihələr idi. Hər iki layihənin ümumi büdcəsi təxmini 36 515 avro təşkil etmişdir. ATƏT-in KİV azadlığı üzrə Nümayəndəsi D.Miyatoviç 2012-ci il noyabrın 6-9-da Bakıda keçirilmiş "İnternet idarəçiliyi Forumu"na qatılaraq sözügedən layihələrdə iştirak etmiş, habelə Azərbaycanın müvafiq dövlət qurumlarında görüşlər keçirmişdir.

"Ekstremal şəraitdə polis və jurnalist münasibətləri" mövzusunda Bakıda və ölkənin bir sıra digər regionlarında ATƏT və respublika Mətbuat Şurası tərəfindən birgə tədbirlər təşkil edilmişdir. Hazırda ictimaiyyətlə əlaqələrin genişləndirilməsi işinin səmərəli təşkili, polis-cəmiyyət, polis-vətəndaş münasibətlərinin etibarlı qurulması, habelə hüquq qaydasının təmin olunmasında vətəndaşların könüllü köməyindən istifadə etmək məqsədilə respublikanın bir sıra şəhər və rayon polis orqanlarında eksperiment qaydasında "İctimai polis" layihəsi həyata keçirilir. Bu layihə çərçivəsində ATƏT-in təşəbbüsü ilə polis orqanlarının bir sıra əməkdaşları mart ayında bəzi Avropa ölkələrində təcrübə keçmişlər.



Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin Qeyri-hökumət təşkilatlarına (QHT) Dövlət Dəstəyi haqda 2007-ci il, 27 iyul tarixli və QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılması haqda 2007-ci il, 13 dekabr tarixli Fərmanları bunu göstərir. 2008-ci ilin martında Azərbaycan Respublikasının Prezidenti yanında qeyri-hökumət təşkilatlarına (QHT) Dövlət Dəstəyi Şurasına QHT-lər tərəfindən namizədlərin seçilməsi il əlaqədar iclaslar keçirilmiş, bu iclaslarda Şuraya seçilmək üçün QHT-lər tərəfindən 24 nəfərin namizədliyi irəli sürülmüşdür. 2008-ci il, 18 aprel tarixində Azərbaycan Respublikasının Prezidenti QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvlərinin təyin edilməsi haqda sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq 3 üzvü dövlət orqanları, 8 üzvü isə QHT-lərin təklif etdiyi nümayəndələrindən olmaqla Şuranın 11 üzvü təyin edilmişdir. Aprelin 21-də Şuranın ilk iclası keçirilərək, onun sədri, sədr müavini və katibi seçilmiş və Şura artıq fəaliyyətə başlamışdır. 2012-ci ildə Xarici İşlər Nazirliyinin dəstəyi ilə Azərbaycanın və Hindistanın insan hüquqları sahəsində araşdırmalar aparan 7 elmi-tədqiqat və tədris müəssisələri ilə əməkdaşlıq qurulmuşdur.

## ƏDƏBİYYAT


1. Müstəqil Azərbaycan 20 il Dövlət ailə, qadın və uşaq siyasəti. «nurlar» 2012
2. Ulu Öndər Heydər Əliyevin irsi və politologiyanın aktual problemləri
3. İnsan hüquqları. Beynəlxalq və mili müdafiə mexanizmləri. Abdullayev Ə., Azarov A., Hüfner K., Röyter V. Bakı, 2008
4. Əmir Əliyev. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. Bakı, 2009
5. İnsan hüquqları: Bəşər rifahının təməli. Bakı, 2001

*Sevinc QULİYEVA*

## MENTALİTETİN SOSİAL-SİYASİ MƏZMUNU VƏ DÖVLƏTÇİLİK

***Açar sözlər:*** mentalitet, dəyərlər, siyasi mədəniyyət, siyasi simvolika, dövlətçilik.

Milli mentalitetin formalaşması bir nəslin həyatı çərçivəsinə sığmayan uzun bir proses olduğu kimi onun əsası cəmiyyətin həyatının iqtisadi və sosial – siyasi əsaslarına nisbətdə çox yavaş dəyişir. Lakin müəyyən vəziyyətlərdə milli mentalitet cəmiyyətdə dəyişikliklərə mane olan ətalət qüvvəsi kimi çıxış etməklə yanaşı başqa bir vəziyyətdə bu dəyişiklikləri sürətləndirən və möhkəmləndirən yaradıcı təməl kimi çıxış etməyə qadirdir.

Əsası siyasi mentalitet fenomeni ilə bağlı olan siyasi şüur və siyasi mədəniyyət milli dövlətçiliyin inkişaf istiqamətini müəyyən edir. Siyasi şüurun tərkib hissəsi olan milli şüur milli dövlətçiliyin formalaşmasına bilavasitə təsir göstərir. Milli mentalitet özü milli siyasi şüurun ilkin mərhələsi olmaqla milli xarakter, milli mənlik şüuru, milli psixologiya, milli qürur hissi, milli maraqlar və s. amillərlə bağlıdır. İnsan mentaliteti sferasında ictimai-mənəvi münasibətlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri insanın sosial-mənəvi fəallığını həvəsləndirir və uyğun olaraq mədəni səviyyəsini hazırlayır. Sosial-mədəni yaranış məhsulu kimi öz başlanğıcını təbiətdən götürən və özünü ictimai-sosial sferada ifadə edən rasional və emosionalın, düşüncənin və qeyri düşüncənin kəsişməsi, özünəməxsus təfəkkür səviyyəsi olaraq mentalitet

- insanın daxili aləminin sabit tərəfini göstərir;
- özündə sosial-tarixi ümumiləşdirməni toplayır;
- dünyanı müəyyən obrazlarla qavrayır;
- insanın yaşayış mühitindən asılı olaraq formalaşır;
- mənəvi-əxlaqi, sosial-mədəni səviyyənin dərinə gedən



mənbəyi kimi çıxış edir.

Ümumiyyətlə, xalqın dünyagörüşü uzun tarixi təkamül prosesində bir sıra sosial – iqtisadi və siyasi – mədəni amillərin təsiri altında formalaşır. Onun milli psixologiyası, düşüncə tərzi müəyyən konkret tarixi – mədəni mühitdə sosiomədəni keyfiyyətlərə yiyələnir, mənəvi ictimai inkişaf forması olan milli mənlik şüuru tarixi yaradıcılıq subyekti kimi insanın tarixi xüsusiyyətlərini özündə ehtiva edir. Bununla yanaşı, milli mənlik şüuru ictimai və fərdi, sosial-sinfi və milli komponentlərin vəhdəti olmaqla millətlərarası münasibətlərdə müxtəlif cür obyektivləşir və sosial-tarixi yaddaşda yaşayır, etnomədəni dəyərlərin nəsildən – nəslə ötürülməsini təmin edir.

Milli mənlik şüuru ilə milli özünüdərk vəhdət təşkil edir. Özünüdərk, ümumiyyətlə, elə bir milli – psixoloji prosesdir ki, onun sayəsində zəkalı insan dünyaya, dünya isə insana yaxınlaşır, onun dünyalaşması və dünyanın insanlaşması baş verir. Özünüdərk insanla dünya arasında hər cür konfliktin, onun həlli ilə bağlı anlaşılmazlığın aradan qaldırılması üçün sosial-psixoloji şərait yaradır. Ən başlıcası odur ki, insan özünüdərk prosesində özü haqqında biliklər əldə edir, özü haqda bilmədiyi biliyi qazanmaq isə insanın hisslərini, duyğularını ülvüləşdirir, təfəkkürün zənginləşməsinə, onun mentalitetinin məzmununa yeni keyfiyyət gətirən yollar açır. Bu proses insanın öz ətrafına və özünə münasibəti təcrübəsini müdrikləşdirir, mənəviyyatını və mentalitetini saflaşdırır. Bu isə bütövlükdə düşüncə sahibli fərdlərdən ibarət cəmiyyəti saflaşdırır.

Mentalitetin sosial-siyasi məzmunundan söhbət gedərkən heç də belə düşünülməməlidir ki, onun təkmilləşdirilməsi üçün zəruri xüsusiyyətlər yalnız gələcəkdə bərqərar olacaqdır, mənfi keyfiyyətlər isə guya keçmişdə formalaşmışdır(2, 35). Bu həm də o deməkdir ki, milli mənlik şüurunun strukturlarını müəyyənləşdirən sosial xarakteristikalar mil-

lətin və onun dövlətinin inkişafının müxtəlif mərhələlərində adekvat olmur. Dövlətin və millətin inkişaf qanunauyğunluqlarının üzə çıxardığı bir həqiqət də budur ki, həm müsbət, həm də mənfi keyfiyyət və cəhətlər istər köhnə, istərsə də yeni sosial – siyasi qurumlara ziddiyyətli amillər kimi daxil olurlar və sosiumda insan bunların hər ikisi ilə üzləşməli olur. Belə ki, keçmişdə təşəkkül tapmış milli adətlər arasında gərəkli, hətta ümumbəşəri motivlər də ola bilər, son zamanlar, xüsusilə dərin böhran mərhələsində yaranmış ənənələr və adətlər isə neqativ mahiyyət kəsb edə bilər. Böhran dövrünün bir xüsusiyyəti də bundadır ki, bəzi zərərli ənənələr yenidən canlanaraq daha mənfi keyfiyyətlərdə təzahür edir. Belə şəraitdə mənlik şüurunda bir növ daxili təbəddülat baş verir, fikir enerjisi reallığı və bu məcrada özünü dərk etməyə çalışır. Millətin şüurunda əksini tapan yeni sosial xarakteristikalar, hüquqi dövlət və vətəndaş cəmiyyəti kimi kateqoriyalar milli düşüncəyə yeni sosial enerji verir. Yeni müstəqil dövlətlərdə ağrılı keçən demokratik dəyişikliklər prosesi ilk anlarda elə bir müsbət dəyərlər yaratmasa da, dirçəlməkdə olan şüurun fenomeni kimi milli mənafelər probleminə marağı artırır, politoloji və fəlsəfi düşüncələrdə, elmi polemikada sosial hadisə kimi qəbul olunur. Bu o deməkdir ki, mentallığın tarixi məhdudluqlarından xilas olmağa çalışan millət özünü mənlik şüurunda tapmağa cəhd edir, yəni dövləti yaradan sosial fenomeni dərk etməyə başlayır. Başqa sözlə konkret millətə mənsub olan şəxsiyyət üçün milli mənafelər özünüidentifikasiya amili kimi çıxış edir, bu, dövlətin həyata keçirdiyi ən mühüm funksiyası kimi qəbul edilir. Milli inkişafın obyektiv məntiqi belə bir həqiqəti şüurda möhkəmlədir ki, qlobal siyasi inkişaf şəraitində milli mənafeləri həyata keçirmək naminə birlik, həmrəyliyi təmin edən milli suveren dövlətçiliyin vacib sosial mexanizmidir.

Müasir dünya təcrübəsi bir daha sübut edir ki, milli dövlətçiliyin rolunun artması tarixi zərurətə çevrilmişdir. Mili



dövlətçiliyin formalaşması və inkişafında heç şübhəsiz milli ideyanın rolu əvəzsizdir. Bu və ya digər ideya ictimai quruluşun xarakteri, insanların maddi həyat şəraitinin vəziyyəti ilə müəyyən olunur. İdeyanın mahiyyətini, onun yaranma mənbəyini ideyanın özündə yox, cəmiyyətin ictimai quruluşunda, ictimai varlıqda axtarmaq lazımdır. Cəmiyyətdə ideyalar ölkənin köklü mənafeyini ifadə edən ideologiyaya xidmət göstərir. İdeyaların cəmiyyətin inkişafı tarixində çox böyük rolu olmuşdur. Həmin rola görə ideyalar mütərəqqi və mürtəce mahiyyət kəsb edir. İdeyalar ictimai inkişafın maddi tələbatlarına cavab verməyə qadir olmadıqda, çürüməkdə olan sistemi müdafiə etdikdə, mürtəce mahiyyət kəsb edir, tərəqiyyə buxov olur. Əksinə, ideyalar ömrünü başa vurmuş quruluşa qarşı çıxırsa, cəmiyyətin vaxtı çatmış yeni tələblərini əks etdirirsə, belə ideyalar mütərəqqidir. Mentalitet anlayışı sivilizasiya və mədəniyyət anlayışları ilə sıx əlaqəlidir. Əgər sivilizasiya anlayışı konkret cəmiyyəti onun təkamülünün müxtəlif mərhələlərində qorunub saxlanan ümumi və xüsusi cizgiləri ilə birgə müəyyən etmək üçün və mədəniyyət anlayışı isə bu konkret cəmiyyətdə insanların fəaliyyətinin ümumi və xüsusi cizgilərini xarakterizə etmək üçün istifadə edilirsə, mentalitet anlayışı hər şeydən əvvəl cəmiyyət üzvlərinin mənəvi dünyasını xarakterizə edir.

Mentalitet davranışların, düşüncələrin, hisslərin dəyər başlanğıcını müəyyən edən səviyyə kimi sabit təzahürdür. Buna səbəb insanın həyati və mənəvi səviyyəsini ifadə edən fərdi və ictimai dəyərlərin onun mentalitetində cəmləşməsidir. Dəyər başlanğıcı öz kökündə mədəniyyətlə əlaqəlidir. Mədəni nümunələr sosial mövcudluğun konkret məsələlərini həll etmək üçün fərdlərə kömək edən mənimsəmə prosesinin elə real mexanizmləridir ki, bu prosesdə həmin ümumi nümunələr fərdi vərdişlərə çevrilir. Mentalitet bir tərəfdən insanın sosial mövcudluq səviyyəsi kimi, digər tərəfdən cəmiyyətin mədəni bütövlüyündə mənəvi dəyər ifadəsi kimi,

üçüncü tərəfdən insan varlığının sosial-antropoloji təzahürü kimi formalaşmağa başlamışdır(12, 123).

Cəmiyyətin sosial-siyasi və ideoloji həyatında baş verən dəyişikliklərə müqavimətinə baxmayaraq mentalitet tarixi dəyişikliklərin gedişində milli mədəniyyət sferasında dəyişikliklərə məruz qalır, lakin mahiyyətcə sabitdir.

Əsası milli mentalitet fenomeni ilə bağlı olan və milli dövlətçiliyin inkişaf istiqamətini müəyyən edən siyasi mədəniyyət anlayışının aydın məzmuna malik olmasına baxmayaraq ona bir neçə sayda yanaşmalar vardır. Çox vaxt onu insanın təhsilindən yaranan mədəni çəviyyəsi ilə, özünü kütlələr arasında aparmaq qabiliyyəti ilə, öz siyasi mövqeyini dəqiq və aydın izhar etmək bacarığı ilə eyniləşdirir, bəzən isə siyasi davranışla qarışdırırlar. Çünki siyasi mədəniyyət anlayışı mürəkkəb və dinamik struktura malik olduğu üçün dəqiq və birdəfəlik müəyyən edilə bilən təzahür deyildir.

Vətəndaşlar tərəfindən şəxsi, kollektiv, dövlət, regional, qlobal siyasi maraqların, ölkənin konstitusiyasının və digər qanunlarının, iri siyasi partiyaların və digər ictimai-siyasi qüvvələrin proqram müddəalarının, ölkədə təşəkkül tapan siyasi münasibətlərin, baş verən siyasi hadisələrin, dövlət, partiya və ictimai-siyasi orqan və təşkilatların quruluşunun, funksiyasının, mahiyyətinin, əsas siyasi norma və prosedurаların, vətəndaşların ictimai-siyasi həyatda, cəmiyyətin və dövlətin idarə edilməsində iştirakının forma və üsullarının, beynəlxalq həyatdakı siyasi proseslərin xüsusiyyətlərinin başa düşülməsi siyasi mədəniyyətin qavrayış elementi ilə bağlıdır.

Vətəndaşların referendum zamanı dövlət sənədləri layihələrinin müzakirəsində, seçkilərdə, müxtəlif dövlət və ictimai təşkilatların işində, siyasi kompaniya və tədbirlərdə, siyasi partiyaların və ictimai-siyasi təşkilatların fəaliyyətində şüurlu şəkildə iştirakı siyasi mədəniyyətin davranış elementi ilə bağlıdır.

Siyasi mədəniyyətin elementlərini dünyagörüşü, vətən-



daş və siyasi səviyyələrdə qruplaşdırmaq olar.

Dünyagörüşü səviyyəsində insanın siyasət dünyasında özünü müəyyən etməsi, bu və ya digər siyasi davranış normalarını qəbul etməsi baş verir. Bu seçim insanların fərdi və ya kollektiv dəyərlərə üstünlük verməsindən, onların qərb və ya şərq sivilizasiyasını qəbul etməsindən, dini və ya materialist dünya dərkindən, ideologiyaya münasibətindən asılıdır.

Siyasi mədəniyyətin vətəndaş səviyyəsi insanların hakimiyyətə münasibətini xarakterizə edir. İnsanların hakimiyyəti necə dərk etməsi əsasında onların öz hüquq və vəzifələrinə münasibətləri yaranır. Əksər insanlar üçün hakimiyyətə münasibətdə partiya və ya qrup öhdəliyindən çox daxili inam daha əhəmiyyətlidir.

Siyasi səviyyədə insanın siyasi təzahürləri qiymətləndirməsi baş verir və siyasətin insan həyatındakı rolu müəyyənləşir. Bu zaman insanlar ya fəal surətdə siyasətə qoşulur, ya şüurlu şəkildə siyasətdən kənarlaşır və ya müşahidəçi mövqeyində dayanaraq kiminsə onun problemlərini həll edəcəyinə ümüd edir.

Siyasi sistemin digər tərkib hissələrinin siyasi mədəniyyətlə əlaqəsini müəyyənləşdirərkən nəzərə almaq lazımdır ki, bu və ya digər xalqın siyasi mədəniyyətinin məhsulu olan siyasi institutlar – öz növbəsində bu mədəniyyətin formalaşmasına və məzmununa əhəmiyyətli dərəcədə təsir göstərirlər. Bu baxımdan siyasi mədəniyyətlə siyasi davranış arasında sıx əlaqə vardır. Belə ki, siyasi mədəniyyət siyasi davranışda reallaşır.

Siyasi mədəniyyətin formalaşmasının, öz təsdiqini tapmasının və həyat qabiliyyətliyinin vacib amillərindən biri siyasi rejimin legitimliyidir. Siyasi mədəniyyətin dəyərlər sistemində milli mentalitetə uyğun siyasi sistemin saxlanmasını təmin edən elementlər əsas yer tutur. Bu elementlər cəmiyyətin əsas hissəsini əhatə edir. Lakin bununla bərabər bu və ya digər sosial qruplara məxsus olub mövcud vəziyyə-

tin dəyişdirilməsinə yönələn yanaşmalar da siyasi mədəniyyətin sonrakı inkişafına kömək edir.

Beləliklə, mentalitet millətin mənəvi, mədəni, sosial və siyasi dəyərlərinin təcəssümü olub özünə və başqalarına olan münasibətini ifadə edir. Milli mentalitet milli siyasi mədəniyyətin ilkin əsasıdır. Milli mentalitet və onun təsiri altında formalaşan siyasi mədəniyyət dövlətçiliyin inkişaf istiqamətini müəyyən edir.

Hər bir xalqın, millətin dövlətçiliyində həmin xalqın mentalitetinə xas olan adət-ənənələr simvollaşdırılmış formalarda müvəffəqiyyətlə istifadə olunur. Siyasi simvolika siyasət dünyasını obrazlı formada ideallaşdıran simvollar məcmusudur. Simvol sözün geniş mənasında obrazlı təsvirdir. O, özündə obrazla ayrılmaz surətdə bağlı olan, lakin heç də həmişə onunla üst-üstə düşməyən müəyyən mənanı kəsb edir. Simvol çoxtəbəqəliklə və çoxmənalıqla səciyyələnir. O, siyasi sosiallaşmanın hər hansı bir səviyyəsində insana təsir üçün təyinatlanmışdır. Cəmiyyətin siyasi həyatında siyasi simvollar müxtəlif formalarda reallaşdırılır.

Hər bir xalq özünün milli dövlət simvollarını yaradır, və onlara üstünlük verir. Belə simvollarda xalqın siyasi mədəniyyətinin çoxəsrlik ənənələri təzahür edilir. Milli dövlət simvolikasına hər şeydən öncə bayraqlar, gerblər, himnlər, konstitusiyalar, pul vəsaitləri aiddir. Müvafiq simvolikada məqsəd vətəndaşların diqqətini cəlb etmək, onları hansısa bir miqyaslı ideya ətrafında birləşdirmək və uyğun olaraq, onları müəyyən fəaliyyətə yönəltməkdir. Simvolikanın vətəndaşlara emosional-psixoloji və vətənpərvərlik təsiri tamamilə hiss ediləcək dərəcədədir. Belə ki, 1848-ci ildə Fransanın Xarici İşlər Naziri Lamartin demişdir: «...Əgər siz məndən üçrəngli bayrağı alsanız, onda məndən həm ölkə daxilində, həm də xaricdə Fransanın gücünün yarısını alırsınız». Bu fikri müasir dünya dövlətlərinin əksəriyyəti üçün demək olar.



Bayraqla yanaşı, dövlət öz vətəndaşlarının və xaricilərin təsəvvürlərində onun gerbi ilə canlanır. Tez-tez dövlət gerblərinin mərkəzi elementi kimi bitki və ağac rəsmləri çıxış edir. Məsələn, Livanda sidr ağacı və Kanadada ağcaqayın ağacının yarpağı gerblərdə təsvirini tapmışdır(12, 56).

Müasir dövlətçilikdə siyasi simvolika çoxlu sayda abidələrdə, monumentlərdə, heykəllərdə və memarlıq qurğularında öz ifadəsini tapmışdır. Müxtəlif saraylar, hökümət binaları, meydanlar hakimiyyət və dövlət simvolları kimi çıxış edir. Amerika Birləşmiş Ştatlarında Ağ evi, Fransada Yelisey sarayını, Rusiyada Kremli, Çində Böyük Çin Səddini buna misal göstərmək olar. Nyu-York limanında yüksələn Azadlıq monument heykəli elə bil ki, bütün Amerikaya gələnləri salamlayır. Bu heykəl amerikanların şirin arzularının, qeyri-məhdud imkanlar ölkəsi olan ABŞ-ın nailiyyətlərinin simvoludur. ABŞ-da aparılan sosial-siyasi tədqiqatların nəticələrinə görə, ABŞ-ın bütün ümumtəhsil məktəb uşaqları Azadlıq heykəlini və milli ulduzlu bayrağı Amerika ruhunun ən yaxşı ifadəsi hesab edirlər.

Müasir Rusiyada milli heykəltaraşlıq-memarlıq siyasi simvolikasına münasibətdə ziddiyyətlərin mövcudluğu sovet sisteminin rus mentalitetinə təsirinin nəticəsidir. Rusiyada yaşlı nəslin sovet streotipi ilə yaşayan əsas hissəsi sosialist inqilabını və inqilabçılarını tərənnüm edən abidələrə pərəstiş etdikləri halda, gənc nəsil bütün qəbildən olan siyasi-simvolik abidələri qəbul edir. Lakin qeyd etmək lazımdır ki, heykəltaraşlıq-memarlıq siyasi simvolikasını ideoloji baxımdan qəbul etmək səhvdir və müvəqqəti xarakter daşıyır. Çünki tarix mentalitetdə öz izini buraxır və onu inkar etmək çətindir.

Milli-ruhun ifadəçisi, milli-siyasi özünüdərkin formalaşmasına kömək edən amil kimi, ölkənin siması kimi, bütöv şəhərlər də çıxış edir. Təsadüfi deyildir ki, söhbət bu və ya digər siyasi problemlərdən gedən zaman beynəlxalq birlik

Moskva adı altında Rusiyanı, Vaşinqton adı altında ABŞ-ı, Tokiyo adı altında Yaponiyanı, Helsinki adı altında Finlandiyanı, Bakı adı altında Azərbaycanı qəbul edir.

Siyasi-müsiqi simvolikası cəmiyyətin və ya onun ayrı-ayrı sosial qruplarının siyasi emosiyalarının, mövqelərinin və ənənələrinin musiqi ekvivalenti kimi çıxış edir. Məsələn, fransız «Marselyoza»sı inqilabı yeniləşmənin, Azərbaycanın «Əsgər marşı» vətənpərvərlik idealının siyasi-musiqi simvollarıdır. Siyasi-musiqi simvolikası planetimizin demək olar ki, istənilən ölkəsində mövcuddur. Onun insanlara göstərdiyi emosional və vətənpərvərlik təsiri dövlətçiliyin vacib elementidir. Bu mənada göstərilən simvolika cəmiyyətin və onun vətəndaşlarının müəyyən siyasi-mədəni dəyərlər ətrafında birləşməsinə kömək edir.

Dil də özlüyündə xüsusi bir simvolik nişan sistemidir. Siyasət dünyasında ondan istifadəyə ehtiyac yarandıqda bu xüsusi siyasi terminologiya və jestlər vasitəsilə həyata keçirilir. Bununla yanaşı, siyasi dil başlanğıcda siyasət dünyasına aid olmayan çox sözlərə və predmetlərə siyasi rəng verir. Belə sözlərə «mübarizə», «təzyiq», «bərabərlik», «birlik» və s. misal göstərmək olar. Predmetlər içərisindən isə oraq, çəkic, bir sıra memarlıq və incəsənət əsərləri və müxtəlif fauna və flora nümayəndələri seçilmişdir. Siyasi dil daha artıq dərəcədə politologiya elminin müəyyən etdiyi kateqoriyalarda öz ifadəsini tapmışdır.

Səsvermə, alqışlar, salamlama, müxtəlif üsullarla etiraz, nümayişkaranə surətdə müxtəlif simvolların yandırılması kimi fərdi və kollektiv jestlər dövlətin ictimai - siyasi həyatında əhəmiyyətli rol oynayır. Qeyd etmək lazımdır ki, siyasi dil konkret cəmiyyətin siyasi mədəniyyət səviyyəsinin özünəməxsus göstəricisidir. Öz ümumi strukturunda siyasi dil siyasi mədəniyyətin bir sıra komponentlərini əlaqələndirir.

Bir çox dövlət atributlarını özündə birləşdirən simvolika mentalitetin vacib emosional-psixoloji fonudur. Eyni



zamanda siyasi simvolika cəmiyyətin və dövlətin siyasi mədəni dəyərlərini, onun siyasi mədəniyyətinin inkişafını nümayiş etdirir. O, vətəndaşların və sosial qrupların müəyyən siyasi dəyərlər ətrafında birləşməsi prosesində əhəmiyyətli rol oynamaqla dövlətçiliyin möhkəmlənməsinə kömək edir. Siyasi simvolika cəmiyyətdə vətənpərvərliyin, vətəndaşlığın və dövləti-siyasi müəyyənliyin təsdiqinə nail ola bilir.

Vaxtilə müstəmləkəçilik mühitinin, patriarxal-feodal münasibətlərinin, məişətdə demokratik ənənələrin zəifliyinin real həyatdakı acınacaqlı təsirinə baxmayaraq, xalqımız özünün muntalitetində gözəl və sağlam mənəvi - psixoloji dəyərləri yaşada bilmişdir. Tarixin əsl ibrəti budur ki, siyasi millət olmaq istəyən xalq hər şeydən əvvəl millətlər tərəfindən ləyaqətlə tanınmasına nail olmalıdır. Zəngin mədəniyyəti, şərəfli tarixi, bügünki uğurları şəksiz ki, onun millətlər içərisində mənliyini yaşadır.

Türkdilli xalqlar dünya dövlətçiliyi və siyasəti tarixində dərin iz qoymuş, Vətənə ləyaqətli xidmətin misilsiz nümunələrini nümayiş etdirmişlər. Hun imperiyası, Göytürk xaqanlığı, Səlçuqlar və Qəznəvilər dövləti, Xarəzmşahlar səltənəti, Osmanlı imperiyası, Əmir Teymur və Şah Babur imperiyaları, Atabəylər dövləti, Səfəvillər və s. kimi dövlətlərə istedadlı sərkərdələr və müdrik başqanlar rəhbərlik edirdilər. Əslən özbək türkü olan Şah Babur Böyük Moğol imperiyasına başçılıq edərkən dövrünün ağıllı və bacarıqlı sərkərdəsi və müdrik dövlət başçısı, türk idealı və ləyaqəti uğrunda mətin mübariz şöhrətini qazanmışdır. Şah Baburun dərin və səriştəli siyasətçi olduğunu belə bir bariz nümunədə görmək olar ki, onun başçılıq etdiyi dövlətlərdə əhali çoxlu sayda müxtəlif dinlərə etiqad edirdi. Lakin şəxsən İslam dininə etiqad edən və uzun illər şerlərində türk ləyaqətini tərənnüm edən Babur nəinki islamı zorla tətbiq etmiş, əksinə, bunun əleyhinə çıxmış, məmləkətində bütün dinlərin və təriqətlərin dinc əmin-amanlıq şəraitində sərbəst yaşaması siyasətinə

üstünlük vermiş, bununla da türklərin müdrik siyasətçilər yetişdirməyə qabil olduqlarını sübut etmişdir. Bu həm də göstərir ki, dövlətçilik fəziləti heç vaxt türkləri milli məhdudluğa sövq etməmişdir. Şah Baburun hakimiyyəti türk dövlətçiliyinin tarixində elə bir dövr idi ki, türklərin həm də siyasi mentalitetindən danışmağa əsas verirdi.

Türk xalqları içərisində dövlətçilik ənənələri ən qədim olanı Azərbaycan xalqıdır. Çünki türk xalqları tarixində ən qədim dövlət Azərbaycanda yaranıb.

XIX əsrdə Azərbaycanda müstəqil, vahid, mərkəzləşmiş dövlət yox idi, o, rus imperiyasının gözdən uzaq ucqar müstəmləkəsi idi. Burada məhz bu zaman dövlət haqqında yeni fikir doğulurdu. Onun beşiyi başında «Orta əsrlərin son yeni dövrünün ilk filosofu» (Ə.Əhmədov) - A.Bakıxanov və «Rusiyada yetişən iki böyük türkçüdən birincisi» (Z.Göyalp) - M.F.Axundzadə dayanırdı. (9.55) Azərbaycanda milli dövlətçilik, haqqında yeni fikir maarifçiliklə əkiz doğuldu. Maarifçilik ədəbi-tarixi düşüncəni konkret olaraq bir xalqın taleyinə yönəltdi, onun xoşbəxtliyi və bədbəxtliyi üzərində cəmləşdirdi. Milli təfəkkürdə Şərq və Qərb dəyərlərinin sintezi M.F.Axundzadədən başlandı. Maarifçilik nəhrində davam edərək, N.B.Vəzirovu, H.B.Zərdabini və «Əkinci»ni, Azərbaycan teatrını (1873), Ü.Hacıbəyovu və ilk Azərbaycan operasını (1908), Mirzə Cəlili və «Molla Nəsrəddin» məktəbini, Ə.Hüseynzadəni, Ə.Ağayevi, Ə.Topsubaşovu və «Füyuzat»ı meydana gətirdi.

Onlar xalqın milli mənlik şüurunu, milli vicdanını oyadırdılar. Bu ideologiyanın iqtisadi özülündə H.Z.Tağıyev kimi milli burjuaziya nümayəndələrinin xalqa bağlı əməlləri və milli sərvət dayanırdı. «Millətə, milliyyətə, hürriyyətə» (Ə.Hüseynzadə) deyərək milli intibaha səsləyən qələm və fikir sahibləri daha çox Vətəndən yazır və milli oyanışa yol açırdılar.

Azərbaycanda istiqlal dövrü milli dövlətçiliyimizn əsasını qoydu. Şimali Azərbaycan torpaqlarının böyük bir ərazisini əhatə edən Azərbaycan Xalq Cümhuriyyəti Yaxın və Orta Şərqdə yaradılmış ilk demokratik dövlət idi. Uzun illər torpaqlarımıza öz dikənlər tərəfindən qərəzli şəkildə təhrif edilmiş AXC tarixi bizim üçün milli əxlaqi sərvətdir. Dövlətçiliyə gedən yol milli mənlik, ana dili, vətən və milli vicdan uğrunda mübarizədən başlayır.



Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ərəfəsində azərbaycanlıların milli özünüdərki kifayət qədər formalaşmışdı. Bu prosesdə yaradıcı ziyalıların böyük rolu var idi. Artıq dövlət qurularkən, millət özünü, əsl-nəsəbini, görkəmli adamlarını tanıyırdı, milli idarəçiliyi milli məfkurənin təzahürü kimi qəbul edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları yaxşı bilirdilər ki, millətin milli mənlik şüurunun yaranıb inkişaf etməsi üçün onun dövlət himni, bayrağı, gerbi, əmək mahnıları və milli nəğmələri olmalıdır. Bu, millətin vəhdət və mətanətini artırır. Onu yekcins edir, müəyyən bir tədbirin həyata keçirilməsində milləti müəyyən bir istiqamətə yönəldir və səfərbər edir.

O dövrdə Azərbaycan hökumətini ən çox narahat edən məsələlərdən biri dil məsələsi idi. Axı, ana dili milli mənlik şüurunun əsas daşıyıcısıdır. Ana dili şəxsiyyətin mənəviyyatının, daxili mədəniyyətinin, mənəvi-əxlaqi simasının, vətəndaşlıq keyfiyyətinin əsas ifadəsidir. Demokratikləşmə milli dil və mədəniyyətin öyrənilməsi, mənəvi və mədəni sərvətlərin, tarixi və mədəniyyət abidələrinin qorunması sahəsində qarşıya yeni vəzifələr qoymuşdur. Birinci növbədə milli inkişafda itirilmiş vaxtı tezliklə doldurmağa, milli sərvətləri artırmağa xüsusi bir cəhd və həvəs oyatmışdır. Axı milli ideallar milli mentalitet ilə əlaqəli olan mənəvi sərvətlərlə sıx bağlıdır.

Dil milli mədəniyyətin, milli şüurun və milli dirçəlişin güclü amilidir. Dil millətin birinci «mən»idir. Son dərəcə böyük imkanlara malik olan ana dilimiz ən incə mətləbləri

açmağa imkan verir. O dövrün ziyalıları milli dili dirçəltmək üçün lüğətlər təşkil edir, millətin ruhunun, arzu və istəklərinin yaşadığı xalq ədəbiyyatını - nağılları, əfsanələri, əsatirləri təhlil və təbliğ edirdilər.

Təsadüfü deyildi ki, Azərbaycan hökuməti Gəncəyə köçdükdən sonra dil haqqında xüsusi qərar verdi. Qərarda deyilirdi ki, türk dili dövlət dili elan edilir, bütün məhkəmə, inzibati və digər vəzifələrdə, hökumət vəzifələrində, hökümət müəssisələrində, bu dili bilən şəxslər yetişdirilənə qədər, əlverişli şərait yaranana qədər rus dilinin işlədilməsinə icazə verilir. Yüksək vəzifədə işləyib türk dilini bilməyənlər uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri milliləşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməlidirlər.

O dövrün görkəmli adamları universitet yaradılmasını xalqın tarixində, mədəniyyətində, mentalitetində çox böyük rol oynadığını yaxşı bilirdilər. Azərbaycan Demokratik Respublikasının ən böyük xidmətlərindən biri də Bakı Universitetini yaratmasıdır. Bu universitetin Bakıda açılmasının ilkin təşəbbüsçüsü Fətəli xan Xoyski olmuşdur. Bu hadisəni Afina Universitetinin yunan, Sorbon universitetinin fransız, Berlin və Hamburq universitetlərinin alman xalqının taleyində oynadığı rolla müqayisə etmişlər.

Bu dövrdə Azərbaycan Rekspublikasının ayrı-ayrı rayonlarının tarixi adları özlərinə qaytarıldı, dahi Azərbaycan şairi Nizami Gəncəvinin doğulduğu şəhərin adı bərpa edildi. Xalqın maddi və mənəvi sərvətlərinin qorunub saxlanılmasında muzeylərin çox böyük əhəmiyyət daşıdığını nəzərə alan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın maddi və mənəvi sərvətlərinin qorunması, abidələrin saxlanılması və mühafizəsi üçün Milli Muzey təşkil etdi. AXC millətin tarixinin öyrənilməsinə xüsusi diqqət yetirirdi. Axı tarixini bilməyən millət heç vaxt birləşə bilməz. Tarixi öyrənmək və



millət arasında yaymaq millətin birliyinə zəmin yaratmaq milli şüuru yüksəltmək deməkdir.

Tarix kimi milli adət-ənənələrimiz də milləti birləşdirən, milli keyfiyyətləri mühafizə edən güclü amildir. O dövrün ziyalıları milli adət-ənənələrimizin qorunub saxlanmasına böyük əhəmiyyət verirdilər.

Ömrünün çox az olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycan xalqının milli mənlik şüurunun, milli ləyaqət hissinin qorunub saxlanılmasında böyük rol oynadı. Çünki onun fəaliyyəti milliyətçilik, türkçülük, vətənçilik, azərbaycançılıq, milli dövlətçilik, istiqlalçılıq, xalqçılıq, cümhuriyyətçilik kimi milli prinsiplərin həyata keçirilməsinə doğru yönəldilmişdi.

70 illik fasilədən sonra –1980-cı illərin II yarısı, 90-cı illərdə dünya dövlətləri arasında münasibətlərin sağlamlaşdırılması və demokratikləşdirilməsi, beynəlxalq münasibətlərdə yeni siyasi təfəkkürün formalaşması bəşəriyyəti düşündürən qlobal problemlərin həllində mühüm rol oynamağa başladı.

80-cı illərin sonunda SSRİ-də ictimai-siyasi həyatın demokratikləşdirilməsi nəticəsində Azərbaycanda başlanmış siyasi oyanış təcavüzkar erməni siyasətinin təsiri altında ümumxalq hərəkatına çevrildi. Mövcud siyasi şəraitdə xalqın təşkilatlanmaya, siyasi şüurunun yüksəldilməsinə olan ehtiyac nəzərə alınaraq siyasi birlik və cəmiyyətlərin yaradılmasına başlandı. Bu birlik və cəmiyyətlər 70 ildə xalqımızın uzaq düşdüyü milli qürurunu, milli ləyaqətini, milli hissini özünə qaytardı. Lakin bu da həqiqətdir ki, xalqın layiqli rəhbəri, ümumilli lideri olmadan özünün milli varlığını və mənəviyyatını dəyərincə təmsil etdirə bilmir. Məhz bu tarixi dialektika millətə Heydər Əliyev şəxsiyyətini yenidən qaytardı, bu görkəmli və təcrübəli siyasətçinin, dövlət xadiminin böyük əzmkarlıqla başladığı fəaliyyətin nəticələri göstərdi ki, o, xalqın taleyini məşəqqətlərdən azad etmək

üçün öz millətinə rəhbərliyə vaxtında qayıtmışdır.

Onun qayıdış vaxtı ölkəmiz nə vəziyyətdə idi? Tarixi ətalət girdabında idik, mənlik şüurumuz, dünya baxışımız yönümünü itirmişdi, ruhu çaşqınlıq bizi uçuruma aparırdı. H.Əliyevin qayıdışı zamanı ölkə sosial fəlakət həddində idi. Cəmiyyət və xalq günü-gündən gerililəyirdi, cəmiyyət ətalətə yuvarlanırdı. İnsanın cəmiyyətin köhnəlmiş stereotiplər sisteminin daşıyıcısına sevrilməsi, təcrübədə yeniliklərin mənimsənilməsində daim gerilik prosesi gedirdi. Tarixi ətaləti inkişaf etmiş şüur sayəsində, sosial təcrübənin sağlam analitik tənqidi sayəsində, təfəkkürdə özünütənqid keyfiyyətini formalaşdırmaq sayəsində aradan qaldırmaq mümkündür. Tarixi ətalət potensialındakı ən böyük qorxu və təhlükə bundadır ki, o, dəyişməkdə olan şəraitdə cəmiyyətin həyatı strukturlarını pozur və sosial institutların fəaliyyətini ləngidir, yaxud da sosial sistemin inkişafı üçün vacib olan institutların meydana gəlməsi və təkminləşməsinə mane olur. Məhz milli varlığımızın belə vəziyyətində cəmiyyətin durumunu düzgün qiymətləndirən, mürəkkəb və ziddiyyətli hadisələrə obyektiv siyasi diaqnoz qoyan Heydər Əliyev kimi liderə ehtiyac duyulurdu. Heydər Əliyev şəxsiyyətinin önəmli tarixi xidmətlərindən biri bu oldu ki, o xalqında ləyaqət hissini oyatdı, millətin sosial yaddaşında həkk olunmuş siyasi-milli dəyərlərin vacibliyini ona bir daha xatırlatdı, ləyaqətli xidmətin misilsiz nümunələrini nümayiş etdirdi. Xalqını və tarixini sevən ölkə prezidenti Heydər Əliyev özünün dərin məzmunlu çıxışlarında vətən əxlaqına və milli ləyaqət hissinə yüksək qiymət verir, bu iki anlayışı dialektik vəhdətdə xalqın həyat fəlsəfəsinin önəmli çalarları kimi təsəvvür edir və bu fikri daim aşılayırdı. Xalqının psixologiyasının dərin qatlarını düzgün qiymətləndirməyi məharətlə bacaran ölkə başçısı ilk günlərdən bilirdi ki, xalqın milli şüurunu və mənlik şüurunu inkişaf etdirmək üçün onun həyatını keyfiyyətcə dəyişdirmək, xalqın mənəvi həyatını aşındıran



ətalətdən onu azad etmək lazımdır. O, həmişə bütün dünya azərbaycanlılarına müraciət edərkən vətənpərvərlik, milli həmrəylik, milli ləyaqət, vətən və xalq qarşısında məsuliyyət hissi daşımaq kimi mənəviyyatımızın «sağalmasına» kömək edəcək məsələlərə toxunurdu. Ölkə Prezidenti Vətən, dövlət, suveren, müstəqil deyərkən bu sosial sərvətləri yalnız milli ləyaqətin sosial dayaqları kimi deyil, özünün milli mənafelər fəlsəfəsinin ana təməli kimi xarakterizə etmişdir. O, bunları önəmli məsələ kimi gündəliyə gətirərkən xalqımızın müdrikliyindən ilham almış, onun qədim və qəhrəmanlıq tarixinə söykənmişdir. Bütün azərbaycanlıların həmrəylik hissini gücləndirmək üçün görkəmli dövlət başçısı həmişə ibrətamiz tarixi və zəngin mədəniyyəti olan Azərbaycanla fəxr etmək hissini aşılayır, planetin harasında yaşamasından asılı olmayaraq bir azərbaycanlı kimi Vətənimiz, xalqımız, milli mentalitetimiz üçün qürur hissi keçirməyi vacib sayırdı.

## ƏDƏBİYYAT


1. Ə.M.Tağıyev, Q.C.Əliyev. Kulturologiya. Bakı, 1997
2. Q.C.Əliyev. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, 2003
3. N.Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı, 2002
4. A.Şükürov. Fəlsəfə və zaman. Bakı, 1998
5. A.Şükürov. Etnos, millət və millətçilik. Bakı, 2008
6. Abdullayev V.İ. Millət ideyası; Siyasi aspekt. Bakı, 1998
7. Etibar Nəcəfov. Milli mədəniyyət və millətçilik. Fəlsəfə və sosial-siyasi elmlər. 2004 №1
8. Tağıyev Ə.M., Şükürov M.A. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. Bakı, 2004
9. N.Şəmsizadə. Azərbaycan ideologiyası. Bakı, "Sabah", 1996.

10. И.Мамедзаде. Гражданское общество в Азербайджане. Проблемы и перспективы. Баку, 1998
11. Бурдье П.Социология политики. М.1993
12. Фильд Д. История менталитета в зарубежной исторической литературе. М.1996
13. М.Н. Марченко. Политология. Курс лекций. М.2003
14. К.С.Гаджиев. Политическая культура: теория и национальные модели. М.1994
15. Браун А.П. Сравнительный метод в социальной антропологии. Интерпретации культуры. СПБ. 1997
16. Бердяев Н.А. Философия Неравенства М.ИМА Пресс, 1990
17. БройнЖ. Подходы к исследованию национализма. Нации и национализм М. Праксис. 2002
18. Гуревич А.О. История формации и реальность истории «Вопросы философии» 1990 №11
19. Devine D. The political culture of the United States. Boston. 1972
20. Kavanagh D. Political Science and Political Behaviour London. 1983



*Sevil ƏLİYEVA*

# UŞAQ PROBLEMİ MÜASİR POLİTOLOJİ YANAŞMADA

***Açar sözlər:*** uşaq problemi, tərbiyə, cəmiyyət, dövlət strategiyası.

Uşaq problemi umumbəşəri tarixi-siyasi problem olub bütün dünya xalqlarının həyat tərzi və siyasi mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Uşaq probleminə psixoloqlar, sosioloqlar, politoloqlar, tarixçilər, etnoqraflar daim maraq göstərmiş. Platonun ideal dövlət konsepsiyasında üç qadağa vardır: 1) Özünə peşə və təbəqə seçmək; 2) Xüsusi mülkiyyətə malik olmaq; 3) Ailə və uşağa malik olmaq. Azərbaycan tədqiqatçısı D.Müslümzadə bu qadağalara subyektiv azadlığa radikal tənqidi yanaşma hesab edir.

İ.Kon uşaqlığı tarixi-sosioloji və etnoqrafik cəhətdən tədqiq edərək onun üç müstəqil aspektini göstərir:

1. Uşaqların cəmiyyətdə vəziyyəti, onların sosial statusu, həyati qabiliyyətləri, böyüklərlə münasibətləri, tərbiyə təsisatları və metodları.

2. Uşağın mədəniyyətdə, kütləvi şüurda simvolik obrazları, yaş xüsusiyyətləri, yetkinlik meyarı haqqında sosionormativ təsəvvürləri və s.

3. Uşaqlığın öz mədəniyyəti, uşağın maraqlarına yönəlmiş daxili aləmi, yetkin cəmiyyətin, folklorun uşaq qavramı.

Müəllif haqlı olaraq bu aspektləri qarşılıqlı əlaqədə olan müxtəlif psixoloji, sosioloji, tarixi və etnoqrafik axtarışların predmeti olduğunu diqqətə çatdırır.

Uşaq probleminin ümumi xüsusiyyətləri və cəmiyyətin müvafiq yönümü ilə fərqlənir. İ.Kon uşaq probleminin "elmi və ya bədii formada dərk olunmasını cəmiyyətin tarixindən və onun sosial özünüdərkindən ayrılmaz hesab edir".

Qərbdə uşaq problemi anlayışı hələ orta əsrlərdə sosioloji

və tarixi-siyasi cəhətdən araşdırılmışdır. Fransız tədqiqatçısı F. Ariyes uşaqlıq anlayışından bəhs edərkən onu uşaq məhəbbətilə qarışdırmamağı tövsiyyə edir. Uşaq anlayışının spesifik xüsusiyyətləri olduğunu göstərən fransız tədqiqatçısı, uşağın böyüklərdən fərqini onun fiziki deyil, əqli inkişafı ilə əlaqələndirir, "uşaq anlayışının dildə geniş mənada işləndiyini, orta əsrlərdə uşaqların hər bir qrupda iştirak etdiyini vurğulayır".

Elə həmin əsərində - sərbəst essey üsulunda yazılmış "Köhnə rejimdə uşaqlar və ailə həyatı" əsərində F. Ariyes mötəbər mənbələrə əsaslanaraq "uşaq anlayışı" ilə bağlı aşağıdakı məsələlərə toxunmuşdur:1)Uşaqlıq obrazı və anlayışının təkamülü – onun həyat yollarının dövrləşdirilməsi, uşaqlığın sosio-mədəni hadisə kimi dərk olunmasının tarixı, mənəvi tərbiyənin metod və məqsədləri; 2)Uşaqların məktəb həyatının tarixi; 3)Uşaqların "köhnə" və "müdrik" ailələrdə yeri və funksiyaları.

İ. Kon düzgün olaraq F.Ariyesin əsərində prinsipial yeniliyin olduğunu qeyd edir: "O, ilk dəfə olaraq göstərir ki, uşaqlıq bəşər inkişafının sadəcə təbii universal mərhələsi deyil, müxtəlif mürəkkəb dövrlərdə sosial və mədəni məzmun daşıyan anlayışdır".

Bəşər tarixində uşaqların tərbiyəsi, müdafiəsi, hüquqlarının qorunması, cəmiyyət üçün yararlı bir vətəndaş kimi yetişməsi bütün xalqları, mütəfəkkirləri, valideynləri daimi düşündürən bir problem olmuşdur.

Uşaqlığın bədii obrazlarına elmdə müxtəlif aspektlərdən: estetik, sosioloji, etnoloji, tarixi, psixoloji, ideoloji, bioqrafik nöqteyi-nəzərdən yanaşılmışdır.

Siyasi sosioloji aspektdə "şəhər" və "kənd", "şəhərli" və "kəndli"uşaqlarının "mülkədar", "burjua" və "proletar" uşaqlarından fərqlı həyat tərzləri və tərbiyələri araşdırılmışdır.

Əgər tarixə nəzər yetirsək, görürük ki, XVIII-XIX əsrlərdə Qərbdə Q.Spenser özünün "Sosiologiyanın prinsipləri" (1876) əsərində uşaqların vəziyyətinə xüsusi bir fəsil həsr etmişdir.



XIX əsrdə Qərbdə məşhur alimlər E.Teylor, D.Frezer, E. Vestermark, Ç. Plossun əsərlərində uşaq problemi anlayışına tarixi-siyasi və sosioloji yanaşmalara təsadüf olunur, uşaqların XVIII-XIX əsrlərdə real vəziyyəti araşdırılmışdır.

XX əsrdə A. Fomm "Valideynlər üşün əlifba" əsərində uşaqlığın mahiyyəti, dini-mənəvi tərbiyəsi, valideyin-övlad münasibətlərindən bəhs etmişdir. A.Fomm yazır: "Uşaqlığın əsas xüsusiyyəti – kiçik insanın böyükdən asılılığıdır. Böyümək – müstəqilliyə malik olmaq deməkdir. Uşaqların fikirdə və əməldə müstəqilliyə nail olması üçün üçün aşağıdakılar tövsiyyə olunur: 1.Uşağı təngə gətirməyin. 2. Nümunə olmaq – böyük qüvvədir. 3. Uşaqları qazandığı uğurlara görə nəvazişli sözlərlə mükafatlandırmaq lazımdır".

Müəllif müstəqilliyi uşaqlığın əsas amili hesab etməklə ona birtərəfli yanaşmır. Uşaqlıq təkcə müstəqilliyə malik deyil, ətraf mühitin təsirindən də asılıdır.

Mütərəqqi ABŞ alimi, uşaq həkimi və pedoqoq Behjamin Spok "Uşaq və ona qulluq", "Ana ilə söhbət" əsərlərinin müəllifidir.

Şərqdə islam dinində, eləcə də bədii mədəniyyət abidələrində uşaq problemi anlayışı dini-fəlsəfi, tarixi-siyasi aspektdən şərh olunmuşdur.

Qurani-Kərimin Baqara surəsinin 232-ci ayəsində körpənin ata-ana nəvazişi ilə böyüməsi və bu zaman "kimin gücü nəyə çatırsa, onu öz boynuna götürməsi" "nə atanın, nə də ananın uşağa görə zərərə düşməməsi" göstərilir. Aıı – İmran surəsinin 38-ci ayəsində hər bir ailəyə "pak, mənəviyyatlı, sağlam və ləyaqətli övlad arzu olunur. "hər bir ağıllı və məlumatlı insanın arzusu sağlam, pak və ləyaqətli övlada malik olmaqdır. Övlad o qədər şirin varlıqdır ki, onlar ailə ocağına paklıq və rahatlıq gətirir, ailə birliyini daha da möhkəmləndirir. Hər bir ağıllı və məlumatlı insanın arzusu sağlam, pak və ləyaqətli övlada malik olmaqdır. Hər bir ata və ana övladının dünyaya gəlməsi ilə özünü xoşbəxt hesab edir

və övladlar nə qədər ağıllı və ləyaqətli olsalar bir o qədər valideynlərin sevincinə səbəb olur".

İslamda uşaqların yetkinlik, həddi-buluğa çatması müəyyən üsullarla təyin edilmişdir. Azərbaycan tədqiqatçısı Q.Kərimovun fikrincə, "yetkinlik (həddi-buluğ) yaşının təyin edilməsi məsələsi şəriət qaydalarında hər şeydən əvvəl ona görə təhlil olunur ki, gənc nəslin üzərinə dini tələbləri yerinə yetirmək vəzifəsi qoyulsun, bu nəsil müsəlman qanunu qarşısında məsuliyyət daşısın".

Deməli islamda şəriət qarşısında ancaq yetkinlik yaşından sonra məsuliyyət daşıya bilərlər.

XV əsrdə yaşayıb-yaratmış məşhur İran şairi Sədi Şirazi "Gülüstan" əsərində göstərirdi ki, "əslində yetkinliyin bir əlaməti vardır. Bu əlamət odur ki, sən qadir və böyük Allaha xidmət göstərməyin qayğısını bədəninin zövq almasının qayğısından çox çəkməlisən, kim bu xasiyyətə malik deyildirsə, aqillər onu yetkin saymırlar".

Əslində S. Şirazi şüurlu surətdə ilahi qanunları dərk edib islam ehkamlarına riayət edənləri yetkin hesab edir.

Şəriətdə qəməri təqvim ilə oğlanlar 15 yaşında və qızlar 9 yaşında yetkin sayılır.

Q.Kərimov qeyd edir ki, şəriətdə yetkinlik yaşının müəyyən edilməsi və yetkinlik yaşına çatanların üzərinə dini və dünyəvi vəzifələr qoyulması məsələsinə sırf "Şərqli " münasibətini və ənənələrini əks etdirir. Müəllif şəriətdə yetkinliyin, o cümlədən qızların yetkinliyinin düzgün müəyyən edilməsini "xurafat" adlandırır. Məhz bu xurafat sayəsində ailə qurularkən yaş bərabərliyi gözlənilir. "Doqquz yaşlı qızcığazı 60 yaşında kişiyə ərə verə bilirdilər, bəzən isə cavan oğlanlar özündən 20-25 yaş böyük qadınlara evlənirdilər. Bütün bunlar ona görə mümkün idi ki, şəriətdə yetkinlik yaşının müəyyən edilməsinin dəqiq meyarı yoxdur. 16 yaşdan 34 yaşınadək adamlar yetkinlik yaşına çatmış adamlar, 34 yaşından 51 yaşınadək "kühul" (yaşlı, orta yaşlı) adamlar sayılırlar".



Müəllif şəriətdə yetkinlik yaşının az müəyyən edilməsini ruhanilərin müsəlmanları uşaq yaşlarından dini çərçivəyə salmağa cəhd etmələrilə əlaqələndirir.

Rusiyada sosializm ideyalarını həyata keçirən V.İ.Lenin də çox qəribədir ki, "15 yaşında olan yeniyetməni kommunizm qurucusu" hesab edirdi.

Keçmiş SSRİ-nin rəhbərlərindən biri olan L.İ. Brejnev də sovet cəmiyyətində uşaqları "ən imtiyazlı" hissə sayırdı: "SSRİ-nin hər bir yeni vətəndaşı böyüməkdə olan nəslin sağlamlıq və tərbiyəsinə cəmiyyətin göstərdiyi qayğını dünyaya gəldiyi gündən hiss etməyə başlayır".

Azərbaycanda uşaq ailənin mövcudluğunun əsas amili hesab olunur, uşaqsız ailəyə cəmiyyətdə mənfi münasibət bəslənirdi.

"Yalnız övladı olduqda kişinin və qadının qarşılıqlı münasibətləri qaydasınca davam edir, müstəqil təsərrüfat özəyi yaratmağa həvəs və meyl yaranırdı. Deməli, övlad ata-ana üçün təkcə mənəvi-əxlaqi və psixoloji amil, təkcə özünütəsdiq deyildi, həm də sosial-iqtisadi həyat şəraiti simvolu idi".

"Uşaqsız evə məzar" kimi baxan xalq həmin yurdu "sonsuz yurd" adlandırır, uşaqsızlıq Allahın qarğışı sayılırdı.

"Kitabi - Dədə Qorqud" eposunda da bu fikir üst-üstə düşür. Belə ki, dastanda uşaqsızlıq ər-arvadın Allah qarşısında günahının nəticəsi hesab olunur. Övlad olması üçün qohum-qonşuların, elin Allaha yalvarması, ər-arvadın Allaha xoş gələn işlər görməsi, nəzir paylaması tösiyyə olunur. Uşaq ailəyə sevinc gətirir, körpəyə ad verildikdə "Adını mən verdim, yaşını Allah versin" deyirlər. "Oğul atanın iki gözünün biridir, evin dirəyidir". "Qız anadan görməyincə öyüd almaz". "Ata adını yaşatmaq üçün ağıllı oğul lazımdır". Oğul ata malına güvənməməlidir: "Ata malından nə fayda, başda ağıl olmasa". Ailədə qızlar da sevilir, onlar payız alması tək alyanaqlı adlandırılır.

Eposda uşağın 15 yaşında həddi-buluğa çatdığı, bundan

sonra igidlik göstərməsi göstərilir. Salur Qazan xan ağlayır ki, oğlu Uruz 16 yaşına çatsa da hələ də igidlik göstərməmişdir. Bu yanda hünər göstərənlərə ikinci ad verilərdi. 15 yaşında oğlanlar vətən müdafiəçiləri sırasına daxil olurdular.

XI əsrin klassik Azərbaycan şairi Qətran Təbrizi ailədə qız uşağının doğulmasından kədərlənənləri tənqid edir: "Allah sənə qız verdisə qəm yemə əsla".

Q.Qeybullayev göstərir ki, qədim türk xalqlarında çağanı himayə edən ilahə - Humayın ilk dəfə adı Q.Təbrizi tərəfindən çəkilmişdir.

Xaqaninin əsərlərində də uşaq probleminə toxunulmuşdur. Xaqani də uşaqsız ailəni bədbəxt ailə hesab edir. Övlad arzusunda olan ər-arvad müxtəlif ayinlər və xeyirxah işlər görməli, nəzir verməli, pirlərə qurban kəsməli, sadaqa paylamalı olur, uşaqsızlığa qarşı dua yazdırırlar.

Xaqani uşaqların pis ruhdan qorunmasını və uşaqların inkişafı üçün müxtəlif oyunlardan istifadə olunmasını tövsiyyə edir.

Nizami Gəncəvi "Leyli və Məcnun" əsərində uşağı insanın əbədiyaşarlıgı ilə əlaqələndirir: "İnsan bu dünyada daim yaşar, yurdunda bir övlad qalsa yadigar".

XIII əsrin sonu – XIV əsrin əvvəllərində yaşayıb-yaratmış Marağalı Əhvədinin "Camı-cam" əsərinin "Evlənmək və törəmək haqqında" fəslində göstərilir ki, oğul "yurd-yuva gözətçisidir".

Uşağın həddi-buluğa, ərsəyə çatmasına münasibət müxtəlifdir.

Üzeyir Hacıbəyov göstərirdi ki, uşağı bütə döndərmək olmaz, böyüdükdən sonra o, qurbanlar tələb edər.

Müasir qloballaşma dövründə uşaq probleminə toxunan f.e.d. professor R.Aslanova göstərir ki, "uşaqlar", "uşaq" sözü hər bir xalqın dilində bir cür səslənsə də, onlara məhəbbətin, uşaq fenomeninin mənası tərcüməsiz başa düşülür. Uşaq sözü ilə "dünyanın gözəlliyi", "bəşəriyyətin gələcəyi" kəlmələri qoşa işlədilir.



XX əsrdə qloballaşma uşaq probleminə də ciddi təsir göstərmiş, uşaqlar üçün təhlükəyə çevrilmişdir. Qlobal problemlər içərisində separatizm, terrorizm, etnik təmizləmə, soyqırım siyasəti "qaçqın uşaq" təbəqəsinin yaranmasına səbəb olmuşdur. "Qaçqın uşaq" statusunu səciyyələndirmək üçün "itkin" sözünün bütün mənasını anlamaq lazımdır. Qaçqın uşaqlar nəinki ata-analarını və ən yaxın adamlarını, hətta adət etdikləri sosial əhatəni, bir sözlə hər şeyi itirmiş olurlar. Bu zorakılıq xüsusən də məktəbəqədər və yeniyetmə yaşındakı uşaqlar üçün tam fəlakətə bərabər olur. İtirilənlərin sayı bununla məhdudlaşmır: uşaqlara taleyin və təbiətin bəxş etdiyi bütün əqli qabiliyyətlər, intellektual və emosional potensial, fəallıq zəifləyir, depresiya və nevrozlar onları bütün həyatı boyu müşaiyyət edir".

Bir sözlə, Azərbaycanın XXI əsrdə yaşayan "qaçqın uşaqları" bəşəriyyəti fəlakətə sürükləmiş I və II dünya müharibələrinin ağrı-acısını yaşamış uşaqları kimi demək olar ki, "uşaqlıqlarını itirmişlər".

Məlumdur ki, uşaqlıq məktəbəqədər və məktəb yaşlı uşaqlara – çağalıq, körpəlik, uşaqlıq, yeniyetməlik mərhələləri yaşayan quruplara bölünür. Uşaq ömrünün bütün mərhələləri insani münasibətlərlə əhatə olunduqda onun qəlbinə, hissinə, təfəkkürünə, şüuruna ali humanist, bəşəri dəyərlər nüfuz edir. "Bu, hər şeydən əvvəl uşağın başqa adamlar üçün sevinc yaratması və bununla əlaqədar olaraq şəxsi səadət və iftixar etməsidir...İkincisi, gözəlliyi, bütün çoxcəhətli təzahürləri ilə yaşamaq və mühafizə etməkdir... Üçüncüsü, kollektivdə uşağın fəaliyyətinin uşaqlar və digər qeyri-məktəb kollektivləri arasında qarşılıqlı münasibətlərin ideoloji vətəndaşlıq zənginliyidir... Vətəndaşlıq fikirləri, hisləri, həyəcanları, vətəndaşlıq borcu, vətəndaşlıq məsuliyyəti – bu insani ləyaqət hissinin əsasıdır... Dördüncüsü, bütün canlılara və gözəlliklərə rəğbətin, mərhəmətin təbliğ

və inkişaf etdirilməsidir... Beşincisi, yüksək intellektual mədəniyyətin keçmişini və indisini, vətənin maddi və mənəvi sərvətlərinin, öz xalqının ruhunu, incəsənətini, xüsusilə bədii əsərlərini dərk edəkən onun qəlbini həyəcanlandıran fikirlərin, hislərin, təəsüratın inkişafıdır..."

## ƏDƏBİYYAT


1. Кон И.С. Ребенок и общество. (историко. Этнографическая перспектива) Москва: «Наука», 1988, с.7
2. Anlez ph. L'Enfant et la vie familliale sous l'Ancien Regime. Paris. s.134
3. Fomm A. Азбука для родителей. Ленинград: Leninzad. 1991, c.251-252.)
4. Qurani-Kərim. Bakı: "Azərbaycan", s.17 (Əl Baqara, 2: 232).
5. H.Ə.Yusifnur. İslamda ailə üzvlərinin hüquqları
6. Kərimov Q. Şəriət və onun sosial mahiyyəti. Bakı: Azərnəşr. 1987, s.104
7. Гюлистан. Москва: Изв.во Во--- метры. 1959, с.179.
8. Müdrik fikirlər aləmində, Bakı, Azərnəşr, 1975, s. 107
9. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nigah (XIX əsr və XX əsrin əvvəlləri) II hissə. Bakı: Elm, 1994, s.264.
10. Kitabi – Dədə Qorqud, Bakı: "Gənclik", 1989.
11. Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 clddə. Bakı: Elm, 1987, II cild, s.71
12. Xəqani seçilmiş əsərləri, Bakı: Gənclik, 1987, s.252.
13. Azərbaycan klassik ədəbiyyatı kitabxanası IV cild, s.214
14. İpə-sapa düzülməmiş incilər. Baki, Azərnəşr, 1981, s.113
15. Aslanova R.N. XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya. Bakı: Nurlan, 2007, s.334
16. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975, s.14-15






# VƏTƏNDAŞ CƏMİYYƏTİ: HÜQUQİ DÖVLƏTLƏ QARŞILIQLI FƏALİYYƏT KONTEKSTİNDƏ

### 1.1. Dövlət anlayışının nəzəri-siyasi təhlili.

Mürəkkəb sistem olan siyasətin əsas obyekti dövlətdir. Dövlətin tipoloji xarakteri siyasətin istiqamətini müəyyənləşdirən səbəbdir. Dövlət cəmiyyətin demoqrafik, iqtisadi, sosial-ictimai, mədəni-mənəvi strukturunun qorunmasında, onun intellektual idarə edilməsindəki siyasi sistemin əsas təsisatı, cəmiyyətin mütəmadi inkişafına şərait yaradan obyektiv sferadır. Mənşəyi və mahiyyəti haqqında müxtəlif və ziddiyyətli fikirlər söylənilmiş dövlət, öz xüsusiyyətlərinə, tərkibində birləşdirdiyi bütün sosial təsisatların keyfiyyətinə görə onların hamısını əhatə edir.

Konseptual olaraq dövlətin mahiyyəti barədə ümumiyyətlə, əsas iki ideya istiqaməti formalaşmışdır:

I. Siyasi fikir tarixindəki klassik üsluba söykənən istiqamətdir. Bunlardan əsas etibarilə Platon və Aristotel dövlət və cəmiyyəti bir-birindən ayırmamışlar. Onların nəzərinə görə subyektlər dövləti təkcə öz tələbatlarını, maraqlarını ödəməklə "polis" çərçivəsində əlaqələrini təmin etmək üçün yaratmırlar, eyni zamanda dövlət ağılın, qayda qanunun və ədalətin vəhdətidir. Bu mənada dövlət anlayışı ölkə və ya xalq anlayışları ilə eynilik təşkil edir.

II. XVII əsrdən etibarən formalaşmış və birinciyə nisbətən fərqli fikirlər T.Hobbs, C.Lokkun dövlətlə bağlı nəzəri yaradıcılığında öz əksini tapmışdır. T.Hobbs, C.Lokk, J.J.Russo dövləti ictimai müqavilələrin nəticəsi kimi izah etmişlər. İkinci istiqamətdə normativ sistemləri özündə birləşdirən dövlət insanların davranışını müəyyən edən və münasibətlərini tənzimləyən təsisat kimi səciyyələnir.

Keyfiyyət və xassəsinə görə, yalnız dövlət insanların

hər cür neqativ vəziyyətdən (şərdən, kobudluqdan, onların bir-birinə qarşı neqativ hərəkətlərindən) qorunduqları bir quruluşdur. Dövlətin məqsədi xoşbəxt şərait yaratmaqdan, bu şəraitdə hər bir vətəndaşın birinin digərinə nisbət hüququnun toxunulmazlığını təmin etməkdən ibarətdir. Ona görə də Aristotel dövləti "kamil həyat forması", "xoşbəxt həyat mühiti" kimi səciyyələndirmişdir.

Dövlət təfəkkürün, ağılın məhsulu kimi ümumi rifaha, xoşbəxt həyata xidmət edir. Belə yanaşmada demək olar ki, insanlar bütün (qeyri düzgün tipə aid olan) dövlətlərdə deyil, yalnız düzgün, qanun aliliyi ilə təşkil olunmuş dövlətlərdə öz zəif keyfiyyətlərini islah edə, qabiliyyət bacarıqlarını göstərə, konstruktiv maraqlarını həyata keçirə və xoşbəxt ola bilərlər. Bu səbəbdən də antik filosofları kamil dövlət modelinin axtarışına daha çox diqqət yetirmişlər. Platonun nəzərinə görə müxtəlif dövlət quruluşları tarixi inkişafla bir-birini əvəz edir, bəzən də inqilablar nəticəsində quruluş demokratiya (çoxluğun idarəçiliyi) anlayışının meydana gəlməsinə səbəb olur, sonra isə yenə dəyişərək tiranlıq, qəddarlıq və özbaşınalıqla idarəetmə prinsipinə keçid qaçılmaz olur. Hərbçilərin, zənginlərin, tiranların və əksəriyyətin hakimiyyətinin insan təbiəti ilə ziddiyyətdə olduğunu sübut etməyə çalışan Platon aristokratik dövlət quruluşunun tərəfdarı olmuşdur.

Platona görə, müdrik filosofların idarəçiliyi ağılın yaratdığı ideal, kamil dövlət nümunəsidir. Hegel dövləti kamil zəkanın inikası, gerçəklikdəki əxlaqi ideyanın təcəssümü hesab edir. L.S. Sanistebanın fikrinə görə, "dövlət konkret zaman məkan şəraitində sosial davranışı hüquqi tənzimləmənin müəyyən tipidir" (158,22). Bu fikirlə müttəfiqlik nümayiş etdirən N.A. İlin göstərirdi ki, "dövlət adamların hüquqi əsaslarla təşkil etdiyi ittifaqdır. O, həmişə funksional, şəxsi hüquqi şüurun canlı surətdə yaradılan təzahürüdür" (136,129).



Nəsrəddin Tusinin dövlət haqqında, xüsusilə, dövlətin dayanıqlığı və davamlılığı zəminində olan fikirləri Avropa maarifçiliyinin və intibahının əsasını təşkil edən fikirlərdən daha parlaqdır. N.Tusi yazır: "Dövlət insanların şüurlu, könüllü müttəfiqliyi əsasında yaranmaqla onların birliyindən və siyasi cəmiyyətindən ibarətdir... Dövlət yalnız ədalət əsasında uzun müddət yaşaya bilər. Ədalətin birinci şərti odur ki, xalqın müxtəlif təbəqələri arasında uyğunluq yaradılsın" (49,112).

Məsələnin mahiyyətinə vardıqda aydın olur ki, ailədən başlayaraq hər bir özünü dərk edən şəxsin dövlətçilik və dövlətqurma hissi mövcuddur. Bu insanın özünütəşkil, özünütəstiq olaraq müxtəlif fəaliyyət növlərində nəzərə çarpır və bu o deməkdir ki, "dövlətçilik siyasi müstəvidə milli özünü təsdiq prosesinin mahiyyəti, dövlət isə onun hansısa, konkret formada reallaşmasıdır"(48,381).

Dövlətin ən vacib cəhətlərindən biri də insaın cəmiyyətlə qarşılıqlı münasibətini tənzimləyən istiqamətləndirən, hüquqi bir mühit olmasıdır. Çünki dövlət obyektiv sistem olaraq bütün altsistemlərin daxili əlaqələrini təşkil edir, cəmiyyətin sosial varlığının əlaqələndirici amil kimi çıxış edir. Siyasi fəaliyyət subyektinin yəni vətəndaşın maraqları, ümum-siyasi fəaliyyətin xüsusilə, səmərəli fəaliyyətin məzmununu mənalandırır. Bu maraqlar dövlət sferası daxilində həyata keçirlir. Ona görə də "siyasətin mənbəyi məhz insanın cəmiyyətdəki sosial mövqeyindən irəli gələn mənafelərdir. İstər iqtisadi, istərsə də mənəvi amillər və nemətlərə siyasi səciyyə verən, onların keyfiyyətlərinin sosial cəhətləridir. Siyasətə yol yalnız mənafelərdən keçib gedir" (5,39).

Siyasətin yaradıcı səbəbi kimi maraqlar vurğulanırsa, bununla yanaşı maraqların hansı məqsəddən doğulduğunu, hansı nəticələrə hesablandığını yalnız dövlət çərçivəsində müəyyən etmək mümkündür. Məhz bu kontekstdən yanaşan tərəflərin obyektiv əsaslarla balanslaşdırılmasını nəzərə

çarpdıran D. Sartorin yazır: "Siyasət idarə edənlərlə, idarə olunanlar arasındakı qarşılıqlı münasibətlərdir" (151,167). Buradakı "münasibətlər" sözünü praktiki dəqiqliyə uyğun şəkildə maraqlar olaraq nəzərə çarpır. Vətəndaşın dünyaya baxışı, intellekti və siyasi şüuru əhəmiyyətli rola malikdir. Çünki maraqların həyata keçirilməsində, göstərilən keyfiyyət nümunələri, davranış fəaliyyətində olan subyektin vəziyyətini ifadə edir. Davranışlar maraqların nailiyyət taleyini həll edəcək fəaliyyətlərdə bilavasitə qarşılıqlı təsirlə səciyyələnir. Maraqlar subyektinin fərdi, qrup halında və kütləvi olmasından asılı olmayaraq nəticəyə xidmət edən fəaliyyətlər davranışlarla şərtlənir. Çünki "davranış siyasi fəaliyyətin mexanizmini, strukturunu səciyyələndirir" (128,22).

Dövlətin tipologiyası siyasi subyektin, siyasi obyektlə qarşılıqlı münasibətlərini müəyyənləşdirən əsas amildir. Belə ki, heç bir qanunla bağlı olmayan və bilavasitə zorakılığa arxalanan diktatura rejimi altındakı monarxiya dövlət quruluşundakı subyektin maraqları, qanun aliliyinə əsaslanan hüquqi dövlətdəki subyektin maraqları ilə (nə məntiqi, nə də funksional baxımından) eyni vəziyyətdə ola bilməz. Obyekt və subyekt münasibətlərinin müxtəlif səviyyələrdə təzadlı izahı ilə yanaşı tarixən formalaşan dövlətlərin yaranma səbəbi və funksiyaları ilə bağlı bir çox mülahizələrə və dövlət nəzəriyyələrinə dair ciddi elmi tədqiqatlara nəzər saldıqda aşağıdakı bir çox nəzəriyyələr təhlil edilməlidir:

I. Materialist nəzəriyyələrə görə, əsasında maddi - iqtisadi səbəb dayanmaqla dövləti xalq kütləsindən ayrı olan kütləvi hakimiyyət, sinfi hökmranlıq maşını, gücə malik olan xüsusi bir təşkilat yaradır. Belə yanaşmalara ciddi nəzərlə baxdıqda, "xüsusi təşkilat" işarəsi vətəndaşı əzmə, müxtəlif yollarla tabe etmə zorakılığını təcəssüm etdirən ifadədir. Yeri gəlmişkən qeyd edək ki, L.Qumploviçin (1838-1909) adı ilə bağlanan zorakılıq nəzəriyyəsi də mövcuddur. Öz qaynaqlarını quldarlıq dövründən götürən bu nəzəriyəyə görə



"dövlət zorakılıq və işğal yolu ilə qazanılır" (127).

II. Təbii hüquqi nəzəriyyəyə görə dövləti, subyektin tarixdə və cəmiyyətdəki təbii vəziyyəti yaradır və belə şəraitdə dövlət vətəndaşlar arasında ictimai müqavilədir. Yeri gəlmişkən qeyd edək ki, "İctimai müqavilə haqqında" adlı əsərində J.J.Russo bu mövqedən çıxış etmişdir (133). Hər bir vətəndaş öz azadlığı və iradəsi əsasında başqaları ilə qarşılıqlı əlaqələr qurmağa ehtiyac duyur. H.Spenserin fikrinə görə "elə əlaqələr dövləti yaradan səbəb kimi izah edilir"(161). Bu aspektdən yanaşanda qohumluq və varislik əlaqələrinin dövləiə müdaxiləsi labüdləşir. Nümunə üçün demək olar ki, "Səlcuq imperiyasının vəziri Nizamülmülk ən ciddi vəzifələrə öz övladlarını, əhəmiyyətli, önəmli vəzifələrə isə qohum-qardaşlarını və sədaqətli adamlarını təyin edirdi" (69,9-10). Belə monarxiya tipli dövlətdə, yəni qohumluğa, tayfaçılığa dayanan obyekt və subyektin, yəni vətəndaşla dövlətin münasibətlərini tənzimlənməyə, daha doğrusu ədalətin müdaxiləsinə ehtiyaclıdır. Çünki bu təqdirdə "hökmdarlar dövlətə öz şəxsi mülkiyyətləri, ölkənin vətəndaşlarına isə öz kölələri kimi baxırlar"(165,24).

III. Bünövrəsi Platon tərəfindən qoyulmuş, lakin XIX əsrdə H.Spenser tərəfindən inkişaf etdirilən orqanik nəzəriyyəyə görə dövlət insan orqanizmi kimi təsəvvür olunur və təsvir edilir. Bu fikrə əsasən canlı orqanizm obyekt, hüceyrələr isə subyekt olaraq nəzərdən keçirilir. Yəni, obyekt olan dövlət ayrı-ayrı subyektlərin ittifaqından ibarətdir. Belə ki, dövlət bütövün hissələr üzərində hakimiyyəti kimi nəzərdən keçirilir və əgər bütöv orqanizm sağlamdırsa hüceyrələr də sağlam olacaq.

IV. Psixoloji nəzəriyyələrə görə dövlət subyektlərin və onların toplu mühitlərinin qarşılıqlı, psixi fəaliyyətlərinin məcmusudur.

Bir tədqiqatçı olaraq bizə belə gəlir ki, təhlil edilən bu nəzəriyyələr arasında təbii hüquqi nəzəriyyə siyasətin kons-

truktivliyi, vətəndaşın maraqları və rifahı baxımdan daha optimaldır. Çünki bu günün insanının şüuruna müvafiqdir. Fərqli mülahizələrdən belə ümumi qənaətə gəlmək olar ki, müasir müstəvidə dövlət vətəndaşın ümumi hüquqlarını xüsusən də sosial-siyasi və hüquqi dəyərlərini təmin edən və qoruyan təsisatdır. Əgər belə olsa onda bu ədalətli və həqiqi dövlətdir. Belə ki, "həqiqi dövlət insanların təbii təyinatını gerçəkləşdirə bilən və gerçəkləşdirən dövlətdir. Həqiqi dövlət Dünya Nizamının sosial olaraq gerçəkləşməsidir" (153, 166).

Mənbələrə əsasən dövlət haqqındakı fikirlər zahirən müxtəlif görünsə də, onların məzmununa obyektiv baxış nəticəsi ilə demək olar ki, dövlət üç mühüm əhali, ərazi və hakimiyyət faktoru ilə təşkil olunmaqla heç birinin digərlərinin səlahiyyətlərinə müdaxilə etmə statusu olmayan üç zəruri alt sistemlərlə, yəni, qanunverici, icraedici və mühafizəedici orqanlarla müəyyənləşir. Siyasi aspektdə beynəlxalq hüquq nöqteyinəzərdən dövlətin mövcudluğu üçün, onu təşkil edən üç başlıca ünsür ərazi, əhali və hakimiyyət böyük əhəmiyyətə malikdir.

Ərazi dövlətin coğrafi, maddi əsası olmaqla onun məkan mahiyyətidir. Dövlətin ərazisi beynəlxalq qaydalara əsasən digər bir dövlətin tərəfindən toxunulmaz olaraq tanınır. Lakin heç də həmişə müəyyən edilən qaydaların aliliyi gözlənilmir və bu qaydalar qeyri-obyektivliklə pozulur, daha doğrusu ərazilər hegemon iddialarda bulunan mənfur qüvvələrin təcavüzünə və zəbtinə məruz qalır. Belə ki, bir vaxtlar Yaxın Şərqin köçəri tayfalarından olan, fars şovinizmi və rus imperializmi tərəfindən Azərbaycanın Qərb və Cənub (İrəvan və Qarabağ) bölgələrinə məskunlaşdırılan, mütəmadi olaraq qüvvətləndirilən "erməni vandalizmi" öz arxaları və dəstəklərinin zorakılığı ilə ərazimizdə Ermənistan qondarılmış və tarixin müxtəlif fürsətli dönəmlərində ərazimizdə millətimizə qarşı terrorlar, qətliamlar və soyqırımlar törədilmiş-



dir. Bu gün də dünyanın gözü qarşısında ərazimiz işğal altındadır. Hələ b.e.ə. 220-ci ildə böyük Hun imperatoru Mete demişdir: "Torpaq dövlətin təməlidir, onu heç kəsə vermək olmaz. Torpağı əcdadlarımız bizə irs qoyub getmişdir, orada babalarımızın sümükləri uyuyur. Torpaq mənim deyil xalqındır. Xalqın torpağını (yadlara R.R) verməyə heç kimin ixtiyarı çatmaz. Mən öz atımı, yaraşıqlı kənizmi tunqhulara ona görə verdim ki, onlar mənim özümün idi. Amma torpağı verə bilmirəm, bu torpaq gələcək nəsillərə çatdırılmalıdır. Ya xalq məhv olmalı, ya da torpağını öz qanı hesabına qorumalıdır" (89,111-112). Bu deyilənlərdən belə nəticə alınır ki, dövlətin həqiqi mövcudluğu onun ərazi bütövlüyü ilə şərtlənir. Başqa sözlə, ərazi bütövlüyü dövlət suverenliyinin zəruri şərtidir.

Dövlətin ikinci mühüm zəruri ünsürü onun ərazisində yaşayan, vətəndaşı olan əhali, xalq, millətdir. Əhali vahid dövlət sisteminin ən həssas alt sistemidir. Həssasdır ona görə ki, əhali geniş mənada xalq müxtəlif şüurlara və müxtəlif təbəqələrə aid olan fərdi və ya ümumi - siyasi maraqlar mexanizmi olan subyektlərin intensiv qarşılıqlı əlaqədə olduğu sosial mühitdir. Tarixən hələ heç bir dövlət hamının maraqlarını eyni cür qoruya bilməyib. Çünki bütün insanların qabiliyyət və tələbatları eyni deyildir. Hər cür (demokratik və ya qeyri-demokratik ) dövlətdə (hazırkı bəşəri səviyyədən asılı olaraq) adətən diktatura əlamətləri olur və bu ifrata varanda dövlət daha çox iqtisadi imkanların mühafizəçisinə çevrilir ki, bu da dövlətin sadəcə iqtisadi maraqlar sferası kimi ayrı-ayrı subyekt və obyektlərin simasında, xüsusən, oliqarxların manipuliysiyasında kapital maraqlarının əlaqələndiricisi demək olur.

Müasir müstəvidə qlobal gerçəklik ondan ibarətdir ki, dövlət anlayışı ümumiyyətlə müəyyən elitaların iqtisadi maraqlarını birləşdirən, onu mühafizə edib artıraraq qayğısına qalan siyasi idarəetmə aparatıdır. Belə vəziyyətdə o heç zaman demokratik ola, subyektlə obyekt münasibətlərində di-

namik ədalətli, bütövlükdə ümumxalq maraqlarını təcəssüm etdirə və qoruya bilməz. Maykl Parentinin fikrinə görə "Amerika başda olmaqla, Böyük Britaniya, İsveçrə, Fransa, Norveç və s. parlamentar ölkələrə nəzər salsaq görərik ki, "əsl dövlət" öz işini xəlvətdə həyata keçirir və həyata keçirənlər də korparasiya rəhbərləri, senatorlar, parlamentarlar, departamentlər, dəftərxanalar və qərargahlardır". Dövlətin əsas ünsürlərindən olan əhali, xalq heç də həmişə fərdi vətəndaş hüquq aliliyi aspektindən dəyərləndirilmir, bir halda ki, ümumiyyətlə onun demoqrafik vəziyyəti, dövlət prinsiplərinin istiqamətləndirilməsi üçün mühüm amildir.

Hakimiyyət dövlət fenomenini təşkil edən idarəetmə aparatı olaraq dövlətin bütün orqanlarına təsir edən "mərkəzi sinir sistemi"dir. Hakimiyyət haqqında tarixən son dərəcə ziddiyyətli və rəngarəng doktirinlər formalaşmışdır. Hakimiyyət siyasi mühitin mərkəzi kateqoriyalarından biri kimi hələ qədimdən müasir dövrədək Platon, Aristotel, Siseron, İmam Əli, Əl-Fərabi, N.Tusi, T.Hobbs, C.Lokk, İ.Kant və digər görkəmli mütəffəkkirlərin fikir söylədiyi bir təsisatdır və mənəvi sərvət olaraq qiymətləndirilir. Lakin bu o demək deyil ki, bütün növ hakimiyyət ilahidəndir. Fikrimizcə o, hakimiyyət ilahi mənşəlidir ki, onun bütün prinsipləri ədalətə əsaslanır. Bu mətləbi N.Tusi aydın göstərmişdir. "Hərəsini öz yerində oturtmaq, hərəsinin öz payını verməklə, başqasının haqqına əl uzatmağa qoymamaq, ictimai əmək prosesində ona tapşırılan işi, (xalqın etimadını R.R) yerinə yetirməyə məcbur etmək üçün tədbirlər görmək zəruriyyəti doğur. Bu tədbir insan kamilliyinə səbəb olduğu təqdirdə ilahi siyasət (hakimiyyət) adlanır" (49,175).

Qeyd edək ki, hakimiyyət elitasının dünyagörüşü, fəlsəfi istiqaməti ən ciddi rola malikdir. "Hakimyyət yalnız qüdrətli fəlsəfəni tamamladıqda qüdrətlənir. Dövrün iradəsi yalnız dövrün zəkasını gerçəkləşdirdikdə xalq özünün əzəmətli gerçəkliyini yaşayır" (89,73). Öz təfəkkürünün qüdrətinə



inanmayan, öz dövlətini öz zəkasının prinsipləri əsasında qurmaq istəməyən və qura bilməyən xalqın azadlığı isə yalandır və ötəridir. Azadlıq yalnız gərgin siyasi yaradıcılıqla yanaşı mümkündür və mövcuddur. Dövlət daimi yaradıcılıq prosesidir. "Öz dövlətini özgə fəlsəfə, özgə ideya əsasında qurmaq istəyən hakimiyyət əslində öz ailəsini özgənin məsləhəti əsasında idarə edən ailə başçısına bənzəmirmi?" (89,75).

Olduqca təəssüf doğuran bir haldır ki, müasir politologiya elminin tanınmış nümayəndələrinin bəziləri hakimiyyəti insanların şüuruna hakim kəsilən aparat olaraq nəzərdə tuturlar. Məsələn, H.Morgentaunun fikrinə görə "hakimiyyət dedikdə insanın başqa insanların şüuru və hərəkətləri üzərində nəzarət etməsi başa düşülür"(165,85-86). Göstərilən bu fikrlə zahirən bir qədər fərqli olsa da mahiyyətcə eyni görüşlərə malik olan M.Dyuverji, C.Tompson, M.Veber, Y.Byatr və başqa nümayəndələr də hakimiyyət anlayışını, birinin digərlərinin üzərində olan təsiri, təzyiqi, istədiyini həyata keçirməyə məcbur etməsi mənasında başa düşürlər. Lakin bu yanaşmalara rəğmən biz hesab edirik ki, adları qeyd edilən nümayəndələr və bu tərzdə düşünən başqaları, hakimiyyət anlayışına hazırki bəşər cəmiyyətində baş verən (bir qədər yumuşaq desək) zorakı hadisələr sferasında praktiki yanaşmadan çıxış edirlər. Hakimiyyət haqqında belə təsəvvür yaratmaq, hardasa ən azı şüurlarda totalitarlıq rüşeymlərinin əkilməsi və ya eqoistlik diqtəkarlıq məkanının genişlənməsinə şərait yaratmaqdır. Bütün bunların nəticələri də iddealları yalnız kapital olan, demokratiya iddialı böyük dövlətlərin kiçik dövlətlər üzərində və kaloniyaçılığı olmasıdır. Əslində isə, həqiqi hakimiyyət nə başqalarının şüuru və hərəkəti üzərində nəzarət, nə də bir qrupun digərləri üzərində ağalıq aləti deyil. Bəlkə, hakimiyyət ölkə ərazisində olan əhalinin, xalqın azadlığı şəraitində onun bütün dəyərlərini inkişaf etdirməli, subyekt və obyekt münasibət-

lərinin bütün məqsəd-məramı şüurun, davranışların ən ali kamilliyə doğru yüksəldilməsi və xoşbəxtliyə çatdırılmasını həyata keçirən təsisat olmalıdır. Əslində, hakimiyyətin qarşısında duran əsas vəzifə "hakimiyyət üçün hakimiyyət yox" insanın, cəmiyyətin özünə etmək istədiyi, lakin edə bilmədiyi imkanları reallaşdırmaqdır.

### 1.2. Vətəndaş cəmiyyəti və hüquqi dövlətin qarşılıqlı əlaqəsi.

Bəşər cəmiyyətinin tarixi təkamülü nəticəsində formalaşdırdığı dövlət və dövlət tipləri mütəmadi olaraq dəyişikliklərlə inkişaf tendensiyasını davam etdirir. Tarixən ideal cəmiyyət, ideal dövlət böyük şəxsiyyətlərin əsas arzu və amalı olmuşdur. Bu missiyanın həyata keçirilməsində, insanlığın uca tutulması naminə ədalətli dövlətin yeganə vasitə olması ilə bağlı müxtəlif paradiqmalar və konsepsiyalar irəli sürmüşlər.

Vətəndaşla hakimiyyət münasibətlərində bir-birini tamamlayan dayanıqlı əlaqələrin formalaşması üçün hakimiyyət nə bir şəxsin simasında, nə bir qrup elitanın əlində, nə də kütlənin ixtiyarında deyil, məhz qanunun rəhbərliyi altında olmalı və qanuna arxalanmalıdır. Başqa sözlə, axtarılan bu dövlət quruluşu tipində şəxsiyyətin bütün məziyyətlərinin inkişafını təmin edən, bu əsasla da cəmiyyətin, dövlətin ümumrifahının yüksəlməsinə səbəb olan qanun elə bir mexanizmə çevrilməlidir ki, həm vətəndaş, həm də hakimiyyət onunla hesablaşsın və bütövlükdə "dövlət qanun aliliyini təmin etmək üçün hüquqi siyasi hakimiyyət təşkilatı kimi çıxış etsin" (106,47). "Əks təqdirdə qanun aliliyi inkar olunan, inzibati özbaşnalıqlara rəvac verilən cəmiyyət kirminagen olar"(91,134).

Qanun aliliyi ideyası və dövlət strukturlarının buna mütləq mənada tabe olaraq riayət etməsi hüquqi dövlət anlayışının əsas sütunudur. Hələ qədimlərdən sosial-siyasi və hüquqi fikirdə qanun ilahi haqq fenomenini əks etdirərək ədaləti rəhbər tutur və yer kürəsini, bütün bəşəriyyəti nizama salır. Ə.F.Abbasov "Общество и государство" (Cəmiyyət və Dövlət) əsərində göstərir ki, "Qədim Yunan filosofu Heraklit qanunun ilahi güc tərəfindən yaranmasını hesab edərək insanları öz hüquqlarını, öz evlərinin divarlarını qoruduqları kimi qorumağa çağırırdı". Ploton isə təsdiq edirdi ki, dövlət ancaq ədalətli qanunların olduğu yerdə mövcud ola bilər.

Ədalətli qanun dedikdə O, elə bir qanunu nəzərdə tuturdu ki, o qanun subyektiv şəxslərin və qrupların deyil, ümumilikdə həm xalqın həm də dövlətin siyasi maraqlarına cavab verir. Ploton israr edirdi ki, "mən o dövlətin tezliklə məhvini görürəm ki, orada qanun gücsüzdür və kiminsə təsiri altındadır. Əksinə, o dövlətin qurtuluşunu görürəm ki, orada qanun hakimiyyətə hakim olur, hakimiyyət qanunun icraçısı olsun. Belə dövlət Allah tərəfindən verilən bir nemətdir". Aristotelin nəzərinə görə kim qanunun rəhbərliyini tələb edirsə o mütləq Allah dövlətini və düşüncəsini tələb edir və hər kim bunun əksinədirsə o öz tələblərinə heyvani əlamətlər əlavə edir. Aristotelə görə haqq kritik ədalətin norması kimi siyasi həyatı səhmana salmaq formasıdır və dövlət ancaq yaxşı yaşamaq üçün deyil, həm də xoşbəxt olmaq üçün yaradılır. "O dövlətdə ki, əksər insanlar öz siyasi hüquqlarından məhrum olurlar, orada suallar artır və münaqişələr çoxalır." Dövlət ədalət naminə, ümumi xeyir üçün fəaliyyət göstərməli və xidmət etməlidir. "ən yaxşı dövlət o dövlətdir ki, orada natiqlərdən çox qanuna qulaq asılır" (75,146).

Mövcud tarixi təcrübə sübut edir ki, hüquqi dövlət mənəviyyata əsaslanan anlayışdır. "Mən elə bir insan tanımıram ki, o hüquqi dövlət tərəfdarı ola və Allahsız ola... Bir sözlə hüquqi dövlət dərin inanclı insanların Allaha sevgisinin yaradılışıdır. Bu, mənim baxışımla "sosial cəbr"in insan tarixində ən yüksək nailiyyəti, ictimai mənəviyyatın və qay-

da-qanunun hüquqi gerçəkliyi və qorunmasıdır. Hüquqi dövlət dünyəvi mədəniyyətin (siyasi əxlaqın R.R.) və qarşılıqlı anlaşmanın şəraitidir" (106,5). Hüquqi dövlət institutlarının inkişaf etməsi ilə onların nəzəri anlayışlarında əsas sual hakimiyyətlə şəxsiyyətin bir-birinə olan münasibətidir. Bu sualın həllində nəticə xalq süverenlik ideyasının formalaşmasına, ümummilli süverenliyin yaranmasına gəlib çıxır ki, bu da hüquqi dövlətin əsas xüsusiyyətidir. Xalq süverenliyinin ən ali, təntənəli forması bütün hakimiyyət mənbəyinin bütövlükdə xalq olması və dövlətin ona görə mövcudluğudur.

Hələ orta əsrin nümayəndələrindən olan "Dünya qoruyucusu" adlı kitabın müəllifi M.Poduanski hesab edirdi ki, "süveren dövlətdə xalq qanunvericidir". Bu konsepsiya çox sonralar J.J.Russo tərəfindən də qəbul edilmişdir. Onun süverenlik ideyaları ona əsaslanırdı ki, dövlət ictimai müqavilə və ictimai razılığın nəticəsidir. Hüquqi dövlət nəzəriyyəsinin inkişafında Ş.Monteskiyenin də özünə məxsus fəaliyyəti var. "Onun 1648-ci ildə yazdığı "Qanunların ruhu haqqında" adlı əsərini "qanunlar elminin enisklopediyası" hesab etmək olar" (106, 54). O, qeyd edilən kitabında göstərir ki, siyasi azadlıq ancaq hakimiyyətdən sui-istifadə etməmək şəraitində əmələ gələ bilər. Hakimiyyətdən sui istifadələrin qarşısını almaq üçün elə bir siyasi hakimiyyət təşkilatı olmalıdır ki, onlar bir-birinin səlahiyyətlərinə müdaxilə etməməklə yanaşı eyni zamanda da nəzarət etsinlər. Belə bir hakimiyyət qanunsuzluğun qarşısını xeyli dərəcədə almış olar. Sonra, Monteskye qeyd edir ki, hər bir dövlətdə qanunverici, qanunicraedici və qanunmühafizəedici orqanlardan ibarət üç hakimiyyət mövcuddur. Bütövlükdə bu orqanların birinin digərinin azadlığına toxunmaması və öz səlahiyyətlərindən sui-istifadə etməməsi vətəndaş azadlığını meydana gətirir. Buradan belə nəticə alınır ki, azadlıq- qanuni- hərəkət anlayışından ibarətdir.

Əksinə, əgər qanunverici və icraedici hakimiyyəti bir



şəxsin, bir qurpun, bir təşkilatın əlində cəmləşən ölkənin vətəndaşlarının azad olması mümkün deyil. Mütləq hökmranlıqda monarx özünün və özünə hasar etdiyi tayfasının maraqlarını bərqərar etməklə öz hakimiyyətini qorumaq üçün istənilən ədalətiz, əxlaqsız və qəddər "qanunlarını" irəli sürəcək. Monteskyenin nəzərlərindən belə qənaətə gəlmək olar ki, qanunmühafizəedici orqan yəni məhkəmə hakimiyyəti (yuxarıda göstərilən) digər orqanlardan asılı olmamalıdır və vətəndaşların haqqını müdafiə etməlidir. Ən zərurisi isə, məhkəmə hakimiyyəti əhalinin ədalətli, azad olmasına inandığı və öz seçdiyi hakimlərə etibar edilməlidir. Bu məsuliyyəti kürsüyə can atan və yiyələnməyə cəhd göstərən şəxslərə, yaxud hakimiyyət nümayəndələrinə etibar etmək olmaz. "Ş.Monteskiye göstərir ki, Rum tarixinin analizlərinə əsasən, cəmiyyət o vaxt inkişaf edir ki, orada respublika səhmanı mövcuddur və vətəndaşlar azaddır. Əks halda daxili düşmənlərin və xarici quvvələrin təsiriylə dövlət çökməyə başlayır" (106, 55).

Hüquqi dövlət anlayışının konseptual formalaşması çox ziddiyətli dövr yaşamaqla XVIII əsrin axırları, XIX əsrin əvvəllərinə təsadüf edir və öz ideya bazasını H.Qrotsi, V.Spinoza, T.Hobbs, C.Lokk, Ş.L.Monteskiye, J.J.Russo, İ.Kant, F.Hegel, T.Cefferson, və s. filosoflar, hüquqşünaslar, sosioloqlar və siyasətçilərin yaradıcılığında xeyli genişləndirmiş, zənginləşdirmişdir. Bu ideya keçmişin təcrübəsinə əsaslanan humanist ənənəli konsepsiyalarda irəli sürülmüşdür. Siyasi fikrin görkəmli nümayəndələrindən C.Lokkun, Ş.Monteskyenin və F.Hegelin ideyaları hüquqi dövlət və vətəndaş cəmiyyəti anlayışının reallığına, beləliklə də bu istiqamətdəki konstitusion qaydalara bilavasitə təsir göstərmişdir. Xüsusilə qeyd edilməlidir ki, XX əsrdə formalaşan salidarizm anlayışı Con Lokkun yaradıcılığından qaynaqlanır. Məsələn, bu, ABŞ-ın 1787-ci ildə qəbul olunmuş konstitusiyasında, 1791, 1795 və 1848-ci ildə Fransanın "İnsan və Vətəndaş Hüquqları Bə-

yannaməsi"ndə və bir çox başqa hüquqi aktlarında öz əksini tapmışdır. Məsələn, Cor Vaşinqton diqqətə çatdırırdı ki, "səlahiyyətlərin lazımı qaydada bölündüyü və tənzimləndiyi dövlətdə azadlıq etibarlı şəkildə qorunur. Dövlət, fraksiyaçıların onu parçalamaq cəhdlərinə qarşı duruş gətirmək iqtidarında olmalıdır, o hər bir vətəndaşa göstərməlidir ki, qanunların sərhədləri haradan keçir və o, hamı üçün şəxsi hüquqların və mülkiyyətin tam və sabit riayət olunmasını təmin etməlidir" (14, 334).

Qeyd edək ki, "hüquqi dövlət" termini ilk dəfə XIX əsrin I yarısında Alman siyasi ədəbiyyatında Velkerin və Mollun əsərlərində işlədilir" (134,136). İ.Kantın fikrinə görə "Dövlət hüquqi qanunlara tabe olan kütləvi insanların birləşməsidir. Dövlət özünün çoxtərəfli fəaliyyətində ancaq haqqa arxalanmalı, onun bütün prinsipləri haqqa əsasən olmalıdır. Əks halda dövlət vətəndaşlar tərəfindən ona olan inamı itirəcək" (106, 56). Kant sübut edirdi ki, hüquqi dövlətdə azadlıq tənqid, məntiqi-qınaq azadlığıdır. Hər bir vətəndaş dövlət başçılarının qanunsuz sərəncam və əmrlərini qınaq etmək hüququna malik olmalıdır. Monteskiyenin dövlətin bölünməsi konsepsiyasına əsaslanaraq Kant özünəməxsus orijinallıqla göstərirdi ki, hər bir dövlətdə üç hakimiyyət mövcuddur:

1. Xalqın kollektiv süverenliyinə məxsus olan qanunverici hakimiyyət,

2. Dövlətin ali qanunvericiliyinə tabe olan icraedici hakimiyyət,

3. Dövlət qanunvericiliyinə tabe olan qanunmühafizəedici hakimiyyət.

Bu üç hakimiyyətin bir-birinin səlahiyyətlərinə müdaxilə etməməsi, onların normal münasibəti despotizm mühitini məhv edir və vətəndaşların azadlığına səbəb olur. Kantın fikrilə əsas iki dövlət idarəetmə növü mövcuddur.

1. Qanunların formal olduğu və qanunicraedici hakimiyyətin digər (yuxarıda göstərilən) iki hakimiyyəti özünə tabe etdiyi despotiya.

2. İnsanların bərabərhüquqlu şəraitdə yaşadığı Respublika.

"Hüquqi hərəkətləri ən yüksək səviyyədə həyata keçirtmək, əxlaqın tələbidir" (135,140.) arqumentini irəli sürən İ.Kanta görə Respublikaçılıq qanunverici hakimiyyətlə qanunicraedici hakimiyyətin ayrılığı deməkdir. Despotiyada isə qanunverici hakimiyyətlə qanunmühafizəedici hakimiyyət birbaşa despotun monopoliyasına keçir. Deməli, despotizm şəraitində idarə edən şəxsin azadlığı xalqın azadlığını sıradan çıxarır. Məntiqi ardıcıllıq olaraq Hegelə görə hüquqi dövlətin əsas göstəriciləri hakimiyyətin bölüşdürülməsini sözün əsl mənasında hüquqi dövlətin qarantı hesab etmək olar. Nəticə alınır ki, Hegel də Kant kimi birmənalı olaraq despotiyanı rədd edirdi. Haqqı rəhbər tutma nöqteyi nəzərindən Hegel təsdiq edirdi ki, tək şəxsin, subyektiv qrupun azadlığını, siyasi marağını yox, yalnız ümumi azadlığı icra etmək lazımdır. Ümumiyyətlə hər bir insan azad yaranış nümunəsi və təzahürüdür. "Haqq onunla sona yetir və o deməkdir ki, hər bir fərdlə ayrılıqda azad bir yaradılış knümunəsi şəxsiyyət kimi davranılır və bununla da o başqa insanda təsir qoyur. Bu zaman insan qarşı tərəfin tənqid və tənbehlərini qəbul edir. Əks təqdirdə insani haqdan danışmaq mümkün deyildir" (119, 31).

Hüquqi dövlətdə şəxsiyyət siyasi maraq subyekti kimi cəmiyyətin qurulmasında, sosial-ictimai yeniləşməsində, cəmiyyət və dövlət arasındakı qarşılıqlı münasibətlərin nizamlanmasında böyük əhəmiyyətə malik olur. Burada qeyd edək ki, hüquqi dövlətin özünün də ərsəyə gəlməsində cəmiyyətin uzunmüddətli demokratikləşmə prossesinin müstəsna təsiri vardır və hüquqi dövlət ideyasının inkişafının reallığı şəxsiyyətin sosial-ictimai mühitdə hansı vəziyyətdə yaşaması, hansı hüquqlara yiyələnməsi, nə dərəcədə ictimai-siyasi

fəaliyyətdə iştirakından asılıdır. Başqa sözlə hüquqi dövlətin reallığı insanların hüquqlarının bilavasitə müdafiəsi və təminatı ilə bağlıdır. Hüquqi dövlətin əsas prinsiplərindən birini də ölkədə qeyri-hökumət təşkilatlarının azad və qanuni fəaliyyətinin təmin olunmasıdır.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti konsepsiyaları, demokratik təcrübələrə əsaslanmaqla özü-özlüyündə əxlaqi-mənəvi dəyərlər daşıyıcısına çevrilərək hər növ total prinsiplərlə ziddiyətə girməklə ictimai-siyasi həyatın bütün sahələrində aktualdır. Bu konsepsiyalar bütünlüklə hakimiyyətin bürokratik və avtoritar meyllərinə özbaşınalığına, zorakı cəhdlərini məhdudlaşdırır, totalitar tipli dövlətin alternativi olan obyektiv hüquqa əsaslanan demokratik dövlət sistemini irəli sürür. Hüquqi dövlətdə şəxsiyyətin süverenliyi, onun iradəsinin azad surətdə ifadə edilməsi, hakimiyyətlə şəxsiyyətin bir-birinə münasibətində qarşılıqlı məsuliyyəti müəyyənləşir, onların birinin digəri qarşısında hüquqlarının aliliyi qorunur, idarəedənlərlə idarəolunanlar arasında hər şeyi qanun məhdudlaşdırır və qanun müəyyənləşdirir.

Hüquqi dövlət cəmiyyətin bütün səviyyələrinə, onların fəaliyyətlərinə şərait yaradan, onun daimiliyini qoruyub reallaşdıran əsas dayaqdır. Belə olduqda cəmiyyətin yeniləşdirilməsi, təşkil edilməsi, cəmiyyətdə nizam-intizamın bərqərar edilməsi əsasən iki hissədən ibarət olur.

I. Hakimiyyət orqanlarının demokratik statusu, onların ədalətli seçkilər vasitəsilə seçilməsi və xalqa tabe olması;

II. Şəxsiyyət azadlığı;

Burada vətəndaşın Konstitusiyada təsdiq olunmuş vicdan, söz, müxtəlif düşüncə, toplaşma, təşkilat və partiya yaratma kimi azadlıqları öz əksini tapır. Bu göstərilənlər Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit edilmişdir. Məsələn, I maddənin I bəndində qeyd edilir. "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan Xalqıdır" (1, 5). Yaxud, Maddə 47. Fikir



və söz azadlığı, Maddə 48. Vicdan azadlığı, Maddə 49. Sərbəst toplaşma azadlığı, və s. bu kimi müddəalar qeyd edilmişdir. Ümumiyyətlə hüquqi dövlətdə şəxsiyyətin və dövlət hakimiyyəti sistemlərinin fəaliyyətinə qanunla icazə verilir və ya qanunla qadağa qoyulur. Aydın görünür ki, həm hüquqi dövlət və vətəndaş cəmiyyətinin, həm də siyasi əxlaqın rəhbər tutduğu İNSAN aliliyi, habelə, şəxsiyyət azadlığı və süverenliyi onların vəhdətliyini təşkil edir. Digər bir tərəfdən də siyasi əxlaq da, hüquqi dövlət və vətəndaş cəmiyyəti də, humanist xarakterə malik olmaqla şəxsiyyətin mənəvi-intellektual, sosial-iqtisadi, ictimai-siyasi, inkişafını və fəaliyyətini təmin edir. Elə buradan da təbii olaraq, siyasi əxlaq anlayışı meydana gəlir və siyasi hərəkətlər qanun və əxlaqla nizamlanır. İnsan aliliyinin rəhbər tutulması naminə dövlət müstəqilliyinin və müqəddəsliyinin qorunmasına sadiq qalmaq nəzərdə tutduğumuz siyasi əxlaqdır. "O zaman ki, cəmiyyət kiçikdir, insanlar bir-birini tanıyır və bir yerdə əməkdaşlıq edir. Lakin, cəmiyyət mürəkkəbləşəndə anlaşılmaz olur və bu zaman əxlaq və siyasət tarazlığını itirir. Buna baxmayaraq əxlaq və siyasətin əlaqələri qorunur. Dövlətçilik buna görə də qanun əsasında idarə edilməlidir" (142, 30).

Hüquqi dövlət və vətəndaş cəmiyyətinin siyasi əxlaqlaqı ehtiva edən bir neçə əsas prinsipləri vardır.

1. Ümumxalq iradəsinin süverenliyinə əsaslanan qanun və hüquq aliliyi, ictimai-siyasi həyatın bütün səviyyələrində qanunun rəhbər tutulması. 2.Vətəndaş hüququ və azadlıqlarının tanınması, ona təminat verilməsi. 3.Dövlət hakimiyyəti səlahiyyətinin müəyyən edilməsi, hakimiyyətin qanunverici, qanunicraedici və qanunmühafizəedici orqanlara bölünməsi. (Bu prinsip hakimiyyətin bir şəxsin, bir qrupun, bir orqanın və ya hansısa bir sosial təbəqənin hakimiyyət inhisarının qarşısını almaq, hakimiyyətin bütün sistemlərinin hüquqi tələblərə tabe edilməsinin təmin olunması məqsədinin həyata keçirilməsinə xidmət etməsidir). 4. Şəxsiyyətin şərəf,

ləyaqət, vicdan azadlığı və s. hüquqlarının müdafiəsi ilə yanaşı onun real olaraq təmin edilməsi. 5. Şəxsiyyətin siyasi iştiraka cəlb edilməsi və hakimiyyət bölgüsü. 6. Məhkəmə və qanun qarşısında ümumi bərabərlik. 7.Qanunların həyata keçirilməsində Konstitusiyanın nəzarəti. 8. Dövlət və qeyri-dövlət təsisatlarının funksiya və səlahiyyətlərinin qanunla müəyyənləşdirilməsi. 9.Dövlətin vətəndaş qarşısında vəzifələri, vətəndaşın dövlət qarşısında məsuliyyəti. Bu prinsip mahiyyətcə daha çox siyasi əxlaqı ifadə etməklə şəxsiyyət və dövlət arasındakı mənəvi əsaslara söykənərək ümumbəşəri dəyərlərə və beynəlxalq hüquq və əxlaq normalarına dayaqlanır. Həmçinin "dövlətin möhkəmlənməsi əslində əxlaqi prinsipləri daha çox tələb edir. Çünki möhkəm dövlət zora yox, qarşılıqlı anlaşmaya əsaslanır" (56,169).

Demokratik (sosial demokratiya, liberal demokratiya, plüralist demokratiya və s.) dövlət quruluşları arasında da müxtəlif çalarlar mövcuddur. Bu reallıqları nəzərə alaraq deyə bilərik ki, dövlətin qanuniliyinin və demokratikliyinin dərəcəsini müəyyən etməyi mümkün edən zəruri bir meyarın olması vacibdir. Çünki "hüquqi dövlət dedikdə söhbət ondan getmir ki, o nə dərəcədə universal fenomendir. Söhbət ondan gedir ki, bu şəraitdə cəmiyyət və hakimiyyət orqanları bir-birini necə dərk edir və onların keyfiyyətlərinin reallaşması nə dərəcədədir"(106,5-6). Cəmiyyət və hakimiyyət sisteminin konstruktiv və əxlaqi münasibətləri vətəndaş cəmiyyətini meydana gətirir. "İlk dəfə Aristotel "Politika" əsərində vətəndaş cəmiyyəti haqqında danışmış, onun əsasında xüsusi mülkiyyətin dayandığı fikrinə gəlmişdir. "Vətəndaş cəmiyyəti termini isə ilk dəfə T. Hobbsun 1651-ci ildə yazdığı "Levnafan" əsərində işlənmişdir. O, vətəndaş cəmiyyəti ilə dövləti eyniləşdirirdi" (75,149). Bu problemə subyektiv baxışlarla yanaşan A.N.Arinin dövlətlə vətəndaş cəmiyyəti arasında uzaq bir məsafə olduğunu iddia edir və göstərir ki, "Dövlət başqa bir sfera, vətəndaş cəmiyyəti isə başqa bir sferadır. Belə desək, iki əks təsirdə olan qütblərdir, biri mənfi enerji biri isə müsbət enerji verir. Dövlət vətəndaş cəmiyyətinə «-» işarəsini verir, bir halda ki orda anarxiya və xaos görünür" (110). Ə.F.Abbasov A.N.Arinin tərəfindən səsləndirilən bu fikiri qəbul etmir və qeyd edir ki, "A.N.Arinin fikirləri yalandır və bu yalanın sübutu da çətin deyil" (106,14).



Ümumiyyətlə, vətəndaş cəmiyyəti beş şərt əsasında formalaşır:

I. Demokratik və hüquqi dövlət quruluşu;

II . Şəxsiyyət avtonomiyası. (vətəndaş süverenliyi,)

III. Şəxsi mülkiyyətin mövcudluğu və toxunulmazlığı.

IV. Azad bazar iqtisadiyyatının tənzimlənməsi.

V. Administrativ hakimiyyətin mövcudluğu, hakimiyyətin konstitusion idarəçiliyi.

Sosial mühit vətəndaş cəmiyyəti istiqamətində nə qədər inkişaf edirsə, vətəndaş cəmiyyəti də bir o qədər inkişaf edir. İqtisadi nöqteyi-nəzərdən vətəndaş cəmiyyətinin prossesləri bir başa azad bazar iqtisadiyyatına möhtacdır. Çünki, müxtəlif formalı mülkiyyətinin bazalaşmış forması azad rəqabətə söykənir. "Ümumiyyətlə iqtisadi asılılıqda insan heç vaxt siyasi azadlığa malik ola bilməz" (90,38). Vətəndaş cəmiyyəti və hüquqi dövlət xarakter və elementcə yaxın anlayışlar olsa da tərkib və düşüncədə mənaca fərqlənir. Belə ki, inkişaf etmiş vətəndaş cəmiyyətində "sosial elementlər" hüquqi dövlətin dayağıdır, yaxud əksinə "dövlətin elementləri" vətəndaş cəmiyyətinin qarantı kimi çıxış edir. Bir element digər elementin təhqiq edilməsində həlledici əhəmiyyətə malikdir. Başqa sözlə vətəndaş cəmiyyəti öz inkişaf tendensiyasından asılı olaraq hüquqi dövləti ərsəyə gətirir və hüquqi dövlət öz növbəsində vətəndaş cəmiyyətini qidalandırır və ayaqda saxlayır. Buradan məntiqi nəticə alınır ki, vətəndaş cəmiyyəti yalnız hüququn olduğu cəmiyyətdə mövcuddur. Əlbəttə bu deyilənlərə münasibətdə elmi mənbəələrdə fikirlər birmənalı deyil. Məsələn, T.Spenser, İ.

Bentam, J. Sismondi, L.Fonşteyn və s. bu kimi nümayəndələr vətəndaş cəmiyyəti anlayışına qarşı çıxmışlar. Spenserin bəzi fikirlərinə görə vətəndaş cəmiyyəti dövlətə qarşı olan bir anlayışdır. Hətta T.Peyin dövləti şər qüvvə adlandırır, və göstərməyə çalışır ki, dövlət nə qədər məhdud və az olsa insanların xeyrinədir. Onun fikrilə özünütəşkil və özünüidarə cəmiyyətdə minimum siyasi mexanizm tələb edir. Hegel isə vətəndaş cəmiyyəti ilə dövlətin münasibətini siyasi rasionallıq nöqteyi-nəzərdən müəyyən edilməsinin zəruriliyini irəli sürürdü və bildirirdi ki, vətəndaş cəmiyyəti və dövlət bir-birini ancaq düşüncə və mənəvi haqla dərk edir. Belə ki, birinin inkişafı digərinin inkişafına səbəb olur. Bu dinamik inkişafın mövcud olduğu şəraitdə A.Seliqamın dediyi kimi "vətəndaş cəmiyyəti ideyası bir çoxları üçün sosial quruluşun elə etik idealını təcəssüm etdirir ki, o, fərdi mənafe və sosial xeyir arasındakı ziddiyyətləri aradan götürməsə də heç olmasa, onları barışdırır" (83,21-13).

Mövcud olan real cəmiyyət və dövlət sistemi totalitar və demokratiya kimi əsas iki tipə bölünür. Totalitar tipli sistem xaraktercə bütün dövləti əhatə edir. Bu tip qədim formasiyalarda insanların şüur səviyyəsinin məhdud olduğu dövrlərdə dövlət idarəedənlərin mirasıdır. Lakin, bu miras müasir ictimai-siyasi həyatda yenə də mövcuddur. Bu tipdə yəni, totalitarizmdə bürokratiya mərkəzləşmiş formadá ictimai həyatın bütün sferalarını əhatə edir, nəticə etibarı ilə cəmiyyətdə bütün sosial-iqtisadi, siyasi-psixoloji hətta şəxsi ailə münasibətləri də qəddarcasına idarə olunur. Nəticə alınır ki, bu aqressiya, qəddarlıq, zülm totalitarizmin əsasıdırsa, demək elə totalitarizm bürokratik dövlətdir.



### 1.3. Vətəndaş cəmiyyətinin mahiyyəti, əhəmiyyəti və əsas prinsipləri.

Totalitar sistemdə vətəndaş cəmiyyəti ümumiyyətlə sıradan çıxardılır və yerində mərkəzləşmiş mafiya, monopolyalaşmış iqtisadiyyat, avtoritar məmurluq yaranır və hüquqi sfera inkişafdan dayanaraq bulanlıq görkəm alır. Düzgün məhkəmə sistemi əsasən siyasi ədliyyə sisteminin rolunu oynayır, söz azadlığı başda olmaqla, bütün növ azadlıqlar məhv edilir. Ümumiyyətlə xalqın və şəxsiyyətin süverenliyi pozulur. Nəticədə bu sistem cəmiyyətin harmonik inkişafını, xalqın ehtiyacı müqabilində olan məhsulların artırılmasını və ruhi potensialın yüksəldilməsini təmin etməyə aciz olur. Buna misal olaraq Sovet totalitar bolşevizm sistemindəki kütləvi sürgünlər, represiyalar, kütləvi güllələmə əməliyyatları həyata keçirən, nəhayət, söz azadlığından söhbət belə getməyən Stalin hakimiyyəti dövrünü göstəmək olar. Lakin bunula belə totalitar sistemlər uzunömürlü olmur, istənilən vəziyyətdə zaman keçdikcə total sistem daha çox aşınır, uçuruma və parçalanmaya doğru gedir, öz daxili inkişaf mənbəələrini əldən verir və öz hakimiyyətini itirir.

Corc Vaşinqton qeyd edirdi ki, "Səlahiyyətlərin lazımı qaydada bölündüyü və tənzimləndiyi dövlətdə azadlıq etibarlı şəkildə qorunur. Dövlət, fraksiyaçıların onu parçalamaq cəhdlərinə qarşı duruş gətirmək iqtidarında olmalıdır, o hər bir vətəndaşa göstərməlidir ki, qanunların sərhədləri haradan keçir və qanun hamı üçün şəxsi hüquqların və mülkiyyətin tam və sabit riayət olunmasını təmin etməlidir" (14, 334). Totalitar rejmin əksinə olaraq demokratik tipdə isə siyasi hakimiyyət sisteminin birbaşa rolu məhdudlaşır, vətəndaş cəmiyyəti ondan daha üstün rol oynayır.

Vətəndaş cəmiyyətinin mahiyyəti haqqında böyük alimlər tərəfindən söylənilən fikirlər ki qrupa ayrılır. Birinci qrupa aid olan A.Cefri, D.Xelz, İ.Kravşenko və s. alimlər vətəndaş cəmiyyətini sosiumun bir halı kimi hesab edir, onu şəxsiyyətin hüquq və azadlıqlarını təmin edən sivilizasiyalı cəmiy-

yət, xüsusi tipli dövlət olaraq diqqətə çatdırır. İkinci qurpa aid olan. Habermas, Çkin Vityuk və başqa alimlər isə vətəndaş cəmiyyətini sosiumun xüsusi, müəyyən bir sferası olaraq qiymətləndirir, onu hər cür dövlət nəzarətindən kənarda olaraq qeyri dövlət cəmiyyəti kimi izah edirlər.

Obyektiv yanaşmalarla vətəndaş cəmiyyəti dövlət tərəfindən asılı olmayaraq müstəqil formalaşan və özünü təşkil edən bir hadisədir. Vətəndaş cəmiyyəti şəxsiyyət bərabərliyinin və ideya azadlığının zəminində yaranır. Vətəndaş cəmiyyəti anlayışının məzmunu cəmiyyətdə qeyri-siyasi münasibətlərin ümumi məcmuusunu, yəni həm iqtisadi, həm mənəvi-əxlaqi, həm dini, həm də milli münasibətləri və s. özündə birləşdirir. Belə dövlət sisteminin, ənənəvi demokratiyanın əyani nümunəsini Yaponiyanın timsalında göstərmək olar.

Yaponiyada demokratiya həm müasir həm də ənənəvidir. Çünki çoxsaylı idarəetmə təşkilatlarının yeniləşmə prisipləri, bütün zavod, fabriklərdə, ofis və müəssisələrdə yeridilən metodlar Yaponların çoxəsrli tarixində formalaşan özünü aparma adətləri və əxlaq normaları ilə sıx bağlıdır. Hər hansı bir təşkilatın və idarəetmənin modernləşmiş cəmiyyətinin yaradılması, onun tarixi, milli prossesindən asılıdır. “Nəzərdə tutulan vətəndaş cəmiyyəti bizim milliliyimizə zərbə vurmamalıdır. Qeyri-milli qlobal demokratiyanın ideologiyası bizi tarixin kənarına ata bilər” (91,97). Praktiki olaraq daha çox böyük güclərin maraqlarını ifa edən BMT, ATƏT və s. dünya təşkilatlarının gözü qabağında milyonların çoxminillik doğma torpaqlarından məcburi köçgün, didərgin salındığı, qadınların, uşaqların zorakılığa, kütləvi qırğına, məruz qaldığı və (sarksyanların timsalında) canilərin ixtidarda olduğu dünyada günün faktları sübut edir ki, qlobal hökmranlığa “müvəffəq” olmuş hazırkı modernizasiya son dərəcə etibarsız və təhlükəlidir. Məhz ona görə də hər hansı bir modernizasiya forması ən əvvəldən milli-mənəvi özünüdərk modernizasiyası olmalıdır.

Demokratiyanın nailiyyəti ümummilli dəyərləri nəzərə



almadan dünyaya birməqamlı modernizasiya bağışlamamalıdır. Çunki siyasi nailiyyət uzun müddətdə nəinki təkcə siyasi maraqlara, hətta dərin məişət maraqlarına təsir göstərən tədrici və daimi prossesdir. Əbühəsən Abbasov qeyd edir ki, “çoxları üçün oliqarxların ziyafətləri, əyləncə məclisləri cəzbedici, gəlir gətirən və təhlükəsiz görsənir. Buna görə də onlar “təbii qaydanın” qalmasını istəyəcəklər. Lakin heç olmasa xalqın gələcəyi və cəmiyyətin hüququ naminə süni vəziyyəti real vəziyyətə çevirmək gərəkdir”(106). Başqa sözlə həqiqi modernizasiya daha sivil düşüncəyə malik olmaqla, hansısa bir təbiilikdən çıxmağa və şəxsi çatışmazlıqlara, həm də subyektivizmə qarşı mübarizə aparmaqdır. Siyasi maraqları və siyasi əxlaqı hüquqi dövlət və vətəndaş cəmiyyəti kontekstində dərk etmək siyasi maraqların elə bir sistemini yaradar ki, siyasi maraqlar əxlaqa, hüquqa uyğun olaraq həyata keçirilər. Bu yalnız insan amilinə əsaslanmaqla mümkündür. Bu baxış hər bir siyasi subyekti özünütəşkil, özünütəsdiq istiqamətində inkişafetmə haqqına malik azad yaranış nümunəsi şəxsiyyət olaraq dərk etməyi tələb edir. Yalnız belə olduğu təqdirdə şəxsiyyətlə, başqa sözlə, vətəndaşla hakimiyyət arasında qarşılıqlı məsuliyyət və anlaşmaya əsaslanan münasibətlər qurular və dövlətin inkişafına müsbət təsir göstərən sağlam ictimai, sosial-siyasi sabitlik mövcud olar.

Vətəndaş cəmiyyətinə müxtəlif aspektlərdən yanaşmalar var. Müasir Qərb siyasi elmində böyük alimlərindən olan, Amerika Boston Universitetinin professoru Seliqman Adamın vətəndaş cəmiyyətinə insan amilini əsas tutaraq münasibət bildirmişdir. Bu istiqamətdə Onun irəli sürdüyü ideyalar prinsip etibarilə əsasən siyasi bərabərlik və siyasi ədalət haqqındadır ki, bu gün də dünya siyasətində xüsusi diqqət və ehtiramla qarşılanır. Çünki Seliqman Adam Şərq, xüsusən İslam Şərqi sivilizasiyası kontekstindən çıxış edərək siyasətdə insana verilməli olan qiyməti önə çəkir, insanın digər insana nisbətində tam bərabər olduğunu vurğulayaraq yazır. “Hər

kəs bərabər və müsəqqil olduğu üçün, heç kəs başqasının nə həyatına, nə səhhətinə, nə azadılğına, nə də onun mülkiyyətinə ziyan vurmamalıdır. Çünki insanların hamısı yalnız hər şeyə qadir və son dərəcə müdrik olan Yaradanın məhsuludur. Onların hamısı bir Mütləq Sahibin xidmətçiləridir... Biz biri-birimizin istifadəsi üçün yaradılmamışıq. Yalnız bizdən aşağı təbəqədə olan varlıqlar bizim istifadəmiz üçün yaradılıb". (31)

Buradan belə qənaətə gəlmək olar ki, vətəndaş cəmiyəti hər kəsin fiziki, mənəvi hüquqlarının qarşılıqlı şəkildə etiraf edildiyi, həyata keçirildiyi və qorunduğu bir sosial, ictimai-siyasi mühitdir.

## ƏDƏBİYYAT


1. Санистебан Л.С. Основы политической науки. М., 1992. 122 с.
2. Ильин И.А.О монархии и республике. Вопросы философии 1991.№ 5.129 с.
3. Hüseynzadə Ə. Siyasəti-fürusət. Bakı, Elm. 1994. 236 s.
4. Hüsynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, Təhsil. 2003. 504 s.
5. Abdullayev Ə.Z. Dil, siyasət, sosial tərəqqi. Bakı, Azərnəşr, 1985. 196 s.
6. Политическая наука: новые направления /Пер.с.англ. М.М.Гурбаца, А.Л.Демчука, Г.Б.Якшевой. научный редактор Е.Б.Шестопал. М., Вече, 1999. 316 с.
7. Демидов А.И. Политическая деятелъностъ. Саратов, 1987. 1267 с.
8. Гумплович Л. Обшее учение о государстве. С.П.Б. 1910. 369 с.
9. Ж.Ж.Руссо. Ообщественном договоре. М, 1938.
10. 10.Спенсер Г. Основанные социологии. Г I-II. СПБ. 1908. 405 с.
11. Nizamülmülk. Siyasətnamə. Bakı. Elm. 1989.204 s.





12. 12.Холохов И.И. Наднациональносеь в полиеиле Европейского Союза. М., Междунар. Отношения, 2007.160 с.
13. Политология. Под. Редак. Г.В.Полуниной. М., 2000. 511 с.
14. Şəmsizadə N. Azərbaycançılıq. Bakı, Nurlar. 2006. 192 s.
15. Hüseynzadə Ə. Siyasəti-fürusət. Bakı, Elm. 1994. 236 s.
16. Şəmsizadə N. Azərbaycançılıq. Bakı, Nurlar. 2006. 192 s.
17. Холохов И.И. Наднациональносеь в полиеиле Европейского Союза. М., Междунар. Отношения, 2007.160 с.
18. Холохов И.И. Наднациональносеь в полиеиле Европейского Союза. М., Междунар. Отношения, 2007.160 с.
19. Tağıyev Ə.M. İnsan və siyasət. Bakı. "MBM", 2005. 178 s.
20. Politologiya. İzahlı lüğət. Bakı, Şərq-Qərb. 2007. 350 s.
21. Аббасов А.Ф. Общество и государство. Баку, «MBM». 2007, 108 с.
22. ABŞ Demokratiyası Haqqında Əsas Mətinlər. Melvil İ.Urofsky. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi (FAR CENTRE), 2005. 487 səh.
23. Здравомыслов А.Г.Потребности, интересы, ценности. М., 1986. 250 с.
24. И.Кант. И. Сочинения т. 4. ч. 2, М., 1995.
25. Гегель философия права. М., 1934. 380 с.
26. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. "Hüquq ədəbiyyatı" nəşriyyatı. 2009. 99 s.
27. Мамэд-задэ.И. Введение в этику. Баку, Муаллим. 2004. -160 с.
28. İsmayılov İ. Siyasət xalqın taleyidir. Bakı, Hüquq. 2007. 470 s.
29. Антология мировой политической мысли: В.2т.Т.1. Зарубежная политическая мыслъ: истоки и еволюция. М., Мыслъ. 1997. 832 с.
30. Şəmsizadə N. Seçilmiş əsərləri. Bakı. Elm. 2008. 510 s.
31. Seliqman A. Vətəndaş cəmiyyəti ideyası. Bakı, Nurlar. 2005, 240 s.

*Mehman KƏRİMOV*

## AZƏRBAYCANDA SİYASİ FİKİR TARİXİ VƏ İDEOLOJİ DƏYƏRLƏR

***Açar sözlər:*** siyasi, fikirtarixi, ideoloji dəyər, sosial funksiya.

Qədim sivilizasiyaya mənsub olan Azərbaycan xalqının zəngin siyasi fikir irsi Yaxın və Orta Şərq mədəniyyətinin yaranması və inkişafı ilə sıx şəkildə bağlıdır. Bu bağlılığı formalaşdıran çoxsaylı mədəni, iqtisadi və siyasi səbəblər vardır. "Şərq mədəniyyəti" adlanan bu ümumi mənəvi-siyasi sərvətlərin, dəyərlərin formalaşmasında xalqımızın mütəfəkkirləri önəmli rol oynayıblar. Şübhəsiz ki, belə böyük mədəniyyətin yaranmasında islam dininin bu coğrafiyada yayılması müəyyənedici amil olmuşdur. İslamaqədərki siyasi-mənəvi irsimizdən danışarkən ilk növbədə 1-ci minilliyin ortalarında formalaşan Zərdüştlik dini və onun müqəddəs kitabı olan "Avesta"nın ictimai-siyasi mahiyyəti önə çəkilə bilər. "Avesta"-nın dünyagörüşü üçün ifrat dualizm xarakterikdir. "Avesta"ya görə dünyada həm maddi, həm də xəyali olan hər şey xeyir və ya şər başlanğıca malik olmaqla iki qismə ayrılır. İnsan bu və ya digər mövqeyi seçməkdə sərbəstdir. Qədim yunan müəlliflərinin hesab etdikləri kimi 2 milyon-misranı özündə ehtiva edən və yaxud zərdüştlik ənənəsinin və sonralar ərəb və farsdilli müəlliflərin iddia etdikləri kimi, 12 min öküz (inək) dərisi üzərində qızıl hərflərlə yazılmış "Avesta"nın (və yaxud onun ayrı-ayrı hissələrinin) yazılı mətni Makedoniyalı İskəndərin yaşayıb fəaliyyət göstərdiyi dövrdən xeyli əvvəl mövcud olmuşdur.

Avestanın bizə gəlib çatmış hissələri aşağıdakılardan ibarətdir:

1. Getha (Qatlar)
2. Yəsna
3. Vidivdad (Vəndidad)



4. Yəşt
5. Xurda Avesta

Nə qədər dini xarakter daşısa da "Avesta" Azərbaycan eləcə də bir çox Şərq ölkələrinin qədim tarixi haqqında ən mühüm tarixi mənbələrdən biri, nəhəng ədəbi,mədəniyyət abidəsidir.

Orta əsrlərdə yaşayan siyasi nəzəriyyəçilər içərisində ən nüfuzlu tədqiqatçı Nəsirəddin Tusi (1201-1274) hesab edilir. N. Tusinin yaşadığı XIII əsr Azərbaycanın elm və mədəniyyətinin yüksək səviyyədə inkişaf etdiyi intibah dövrü hesab edilir. N. Tusinin irsi, onun dövlət, qanun, qanunçuluq və siyasət haqqında fikir və mülahizələri, ümumən siyasi və hüquqi konsepsiyası Azərbaycanın siyasi təlimlər tarixinin inkişafına güclü təsir göstərib. Bu təlim sonrakı dövrlərdə yaranan siyasi-hüquqi fikrin tərəqqisinə əhəmiyyətli təsir göstərmişdir.

N.Tusinin yanaşmasına görə, "möhkəm birliyə və ittifaqa malik olmayan dövlətlər "yalqız adama oxşar və nəticədə tək-tək məğlub olarlar". [1,s.32]

Bir ölkənin daxilində insanların həmrəyliyinin əhəmiyyətini nəzərdə tutaraq Tusi yazırdı: "İttifaqa səbəb olan amillərin yoxluğu həmişə dağılmağa və parçalanmağa səbəb olmuşdur". [1, s.25]

N.Tusinin "Əxlaqi-Nasiri" əsəri yaxın və Orta Şərqin təhsil müəssisələrində uzun müddət başlıca əxlaq dərsliyi kimi tanınmışdır.

Azərbaycan xalqının siyasi fikir tarixində dövlətin ilk nəzəriyyəçisi hesab edilən Nəsirəddin Tusi yazırdı: "Hakimiyyət işinə baxan hər bir kəsin şüurunda möhkəm surətdə müəyyən edilməlidir ki, dövlət quruculuğunun prinsipləri əməkdaşlığı və qarşılıqlı yardımı nəzərə alaraq, bir fərdə mənsub olan üzvlər kimi icma üzvlərinin fikirlərinin razılığından irəli gəlir". [1, s.29]

Yeni dövrün mütəfəkkirləri isə tarixi-siyasi problemlərə, xüsusilə milli dövlət quruculuğu, ideologiya məsələlərinə və s. öz yaradıcılıqlarında daha geniş yer vermişlər. Bu dövrün

görkəmli ictimai-siyasi xadimlərindən, çox qiymətli siyasi-ideoloji irsi olan M.Rəsulzadə hesab edir ki, əslində Şərq və Qərb sivilizasiyası anlayışları doğru deyil. Doğru olan müasir və orta əsrlər sivilizasiyasının olmasıdır. Müstəqilliyin əhəmiyyəti, onun bir millət üçün nə kimi misilsiz önəmi ilə bağlı Azərbaycanın istiqlal mübarizəsinin liderlərindən biri olan Məmmədəmin Rəsulzadə yazırdı: "Milli istiqlala malik olmayan bir millət hürriyyət və mədəniyyətini hifz edə bilməz." [2,s.302]

Azərbaycan alimi A.Şükürova görə, etnik münaqişələr millətçiliyin qəbul edilməyən iddialarıdır [7,s.225].

Ölkədə yeni cəmiyyət quruculuğunun, vətəndaş cəmiyyəti və demokratikləşmə proseslərinin çətinlikləri ilə bağlı araşdırmalar aparılmaqdadır. Azərbaycan tədqiqatçısının bu mövzuda fikri qeyd edilən yanaşmalarla uzlaşır: "Uzun əsrlər boyu Şərq adamlarına demokratiya və vətəndaş cəmiyyəti ruhu yad olmuşdur. Əslində tarixən bu ölkələrdə despotlar hökmranlıq etmişdir. Qərb demokratiyasının normalarını Şərq zəminində peyvənd etmək özünəməxsus hibridlər yaratmışdır. Bütün cəhdlərin reallaşması dərin sosial kataklizmlərlə müşayət olmuşdur. Deməli sırf ideal "tiplər" heç vaxt həyata keçməmiş və bundan sonra da olmayacaqdır" [8,s.284].

Müstəqillik illərində ölkədə yeni formalaşan siyasi elmin qarşısında çoxsaylı vəzifələr, məqsədlər dayanırdı. Bu məqsəd və vəzifələr sırasında ölkənin siyasi sisteminin modernizasiyası ilə bağlı islahatların hazırlanmasına konseptual yardım etmək, formalaşan yeni milli ideologiyanın – azərbaycançılığın prinsip və xüsusiyyətlərini işləyib hazırlamaq, bütövlükdə ölkədə indi də davam edən siyasi islahatlara yardım etmək kimi məsələlər dayanırdı. Şübhəsiz ki, ideologiya hər bir cəmiyyətdə dövlətin bütövlüyünü, cəmiyyətdə həmrəyliyi yaradan fundamental mənəvi amildir. "İdeoloji əsasları olmayan dövlətin uzunömürlülüyü və varisliliyi də həmişə şübhə doğurmuşdur. Bu bir həqiqətdir ki, ideologiyası olmayan dövlətlər tarix səhnəsində müəyyən dövr ərzində funksional vahid kimi mövcud olsalar da, milli maraqları uzunmüddətli təmin edə bilməmiş və tarixin səhnəsindən silinmişlər. Bu mənada, əgər dövlətçilik və milli ideologiyadan, dövlətçilik və milli maraqlardan danışırıqsa, burada mütləq milli ideologiya olmalıdır. Çünki hər şeydən öncə, milli ideologiya vətəndaş həmrəyliyini, ümummilli həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən başlıca mənəvi substratdır. Eyni zamanda, ideologiya milli-mənəvi identikliyi də təmin edən vasitədir. Əgər ideologiya bu qədər zəruri bir vasitədirsə, onun cəmiyyətdə olmaması cəmiyyətin əsas atributlarından birinin olmaması deməkdir. Bu isə heç şübhəsiz, həmin cəmiyyətin inkişafına əngəl törətməklə, ciddi maneələr yaratmaqla cəmiyyətin üst qurumu adlandırılan və sosial sifarişindən yaranan dövlətin də uzunömürlü və varisli olmasına mənfi təsir edir". [9]

Milli ideologiya cəmiyyətin siyasi-mənəvi həyatında çox əhəmiyyətli rol oynayır. O milli birliyin əsasını təşkil edən sistemdir. "İdeologiya xalqda kollektiv iradənin oyanmasına və təşkilinə xidmət edir". [10,113]

İdeoloji dəyərlərin ictimai fikrə hakim olmadığı toplumlarda daxili ziddiyyətlər, qeyri-müəyyənlik, çaşqınlıq olur. "İdeyasız potensial cəmlənməyən və istiqamət almayan güc deməkdir". [11]

Hər bir cəmiyyət üçün ən böyük təhlükələrdən biri, şübhəsiz ki, xalqın çoxəsrlik zaman içində qazandığı, formalaşdığı milli-mənəvi dəyərlərin deformasiyaya uğradılmasıdır. Bu əvəzsiz sosial kapital cəmiyyətin bütövlüyünü, xalqın həmrəyliyini gücləndirən başlıca amildir. Azərbaycançılıq cəmiyyətdə siyasi-sosial həmrəyliyi formalaşdıran, ölkənin ritmik inkişafını təmin edən ideologiyadır. Məhz bu ideoloji baza milli-demokratik qüvvələri Azərbaycanın köklü mənafelərinin həllinə səfərbər edə bilər. Azərbaycançılıq yad ideoloji təmayüllərə qarşı ən təsirli vasitədir. Bütün sosial qrup və siyasi qüvvələr dövlətçilik məramı ilə birləşdirilir.

Azərbaycançılıq "Azərbaycan vətənpərvərliyidir və bunun da əsas mahiyyətini dövlət müstəqilliyinin və milli təhlükəsizliyin möhkəmləndirilməsinin, demokratik və iqtisadi islahatlar yolu ilə ölkənin müasirləşdirilməsinin şüurlu tərəfdarı olmaq və şübhəsiz ki, erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, Qarabağ münaqişəsinin ədalətli həll olunması təşkil edir". [12,s.126]

İdeologiyanın sosial funksiyası ilə bağlı tədqiqatçı İ. Ağayevin elmi tezisləri də əhəmiyyətlidir. "Müstəqil, suveren dövlətdə ideologiyanı xarakterizə edən cəhətlər aşağıdakılardır:

ideologiya ictimai idrakın bir tərəfidir. Özündə ictimai, siyasi və iqtisadi münasibətləri, eyni zamanda dövlətin aparıcı qüvvələrinin maraqlarını birləşdirir;

ideologiyanın əsas funksiyası xalqın maraqlarını ifadə etmək, xalqın fikrini elmi-nəzəri baxımdan öyrənmək, sistemləşdirmək və bunu dövlət idarəçiliyinə cəlb etməkdən ibarətdir. [13,s.142]

Azərbaycançılıq ölkədə yaşayan bütün xalqların, etnik qrupların mənafeyinə, tələbatlarına cavab verən cərəyandır. "Azərbaycançılıq - Azərbaycan türkçülüyü və Azərbaycanda yaşayan digər qardaş xalqların mütərəqqi ideologiyalarından ibarətdir, onların birlik və bütünlüyünə xidmət edən ideoloji bir təsisatdır. [14,s.212]

Fikrimizcə, ölkədə milli dövlət quruculuğu prosesinin mühüm vəzifələrindən biri də xalqda vətənpərvərlik dəyərlərinin, milli şüur və tərbiyənin yüksəldilməsi ilə bağlı elmi əsaslandırılmış humanitar siyasətin işlənib hazırlanmasıdır. Fransız sosioloqu J.Qiyomara görə, "millət vətənpərvərlik hissinin təzahürüdür". [15,s.78]

Milli birlik, vahid ideologiya, tarixi dəyərlərə sədaqət hər bir xalqın ən böyük nailiyyətlərindən, onun mövcudluğunun, kimliyinin göstəricilərindəndir. "Millətləşmə və ya millətin formalaşması prosesi milli dövlət və milli kimliklə yaxından əlaqəlidir. Tarixi proses içində "klan"dan millət səviyyəsinə yüksəliş



sosial təkamülün ən son pilləsini təşkil etməkdədir". [16,s.156]

Türkçülüyün banilərindən olan Əlibəy Hüseynzadəyə görə, "Hər bir millət o zaman səadət və nicatda olur ki, əvvəl əmrdə özünü tanıya, yəni hər bir millət öz qövmiyyətini, dilini, dinini, tarixini, adət və əxlaqını, keçmişini, bu gününü və gələcəyini öyrənməlidir".

Qeyd edək ki, ideoloji axtarışlar dövrü ötən əsrin 90-cı illərində başa çatsa da azərbaycançılığın geniş və kütləvi ideologiyaya çevrilməsi ilə bağlı qarşıda ciddi, əsaslı təbliğat işlərinin dayandığı da məlumdur.

Yeni tarixi-siyasi şəraitdə qarşıda olan vəzifələrdən biri siyasi etika ilə bağlı dəyərlərin önə çıxmasıdır. İlham Məmmədzadənin fikrincə, "Siyasi etika – demokratik inkişafın, rəqabətli siyasi mədəniyyətin məhsuludur. Siyasi etika hüquqi dövlətin fundamental xarakteristikasıdır. Bu o zaman mümkündür ki, siyasət qanunlar çərçivəsində könüllü olaraq rəqabətdə olan tərəflərin və maraqların, dialoqların, deməli, dəyərlərin sahəsinə çevrilir". [18,s.179]

Cəmiyyətdə siyasi münasibətləri tənzimləyən ən mühüm ictimai vasitələrdən biri də şübhəsiz ki, siyasi mədəniyyətin, siyasi şüurun və siyasi tərbiyənin daima yüksəldilməsi qayğısına qalınması problemidir. Bu sahədə Azərbaycan Respublikasında görüləsi işlər, fikrimizcə, kifayət qədər çoxdur. Təbliğat vasitələri, təhsil qurumları bu istiqamətdə təyinedici rola sahibdirlər. Ümumiyyətlə, cəmiyyətdə ümumi mədəniyyətin, həmçinin siyasi mədəniyyətin formalaşmasında ölkənin modern təhsil sisteminin olması çox önəmlidir. Modern demokratik dövlətə keçidin əsas göstəriciləri təhsilin yüksəldilməsi, orta sinfin yaranması, iqtisadi ehtiyatların toplanması ilə müəyyənləşdirilir.

Fikrimizcə, ölkəmizdə politologiya elminin qarşısında dayanan vəzifələrdən biri siyasi münaqişələrlə bağlı tədqiqatların davamlı olaraq keçirilməsidir. Çünki hazırda ölkə təcavüzdən əziyyət çəkir, Qarabağ müharibəsinin nəticələri tam olaraq aradan qaldırılmayıb. Konfliktlərin nizamlanması, onların dinc

vasitələrlə həlli yüksək siyasi mədəniyyət və bacarıq tələb edir. Bununla bağlı cəmiyyətimizdə ictimai ənənələrin zəngin olduğunu demək çətindir. Azərbaycan gerçəkliyində real və potensial konfliktləri bu cür təsnif etmək olar:

- separatizm;
- bir dövlətin tərkibindən çıxıb digərinin tərkibinə daxil olmaq meyli;
- dar qrup, qanunsuz məqsədlər güdən – uydurma qurumların və təşkilatların fəaliyyəti;
- cinayətkar qrup və təşkilatların fəaliyyəti –"üfüqi" və "maili" şəkildə hakimiyyətlə elita arasında mümkün konfliktlər;
- dünya siyasəti üçün xas olan meyl: yeni yaranmış dövlətlər arasında ərazi, resurslarını bölmək üzrə mübahisələr, etnik və dini qruplara münasibətlə bağlı konfliktlər.

Konflikt inkişafda olan siyasət üçün normal vəziyyətdir. Lakin konflikti normal vəziyyət və gündəlik həyat mənasında normal həyat şəraiti ilə eyniləşdirmək olmazdı. Buna görə də elə bir qarşılıqlı siyasi münasibətlər yaratmaq lazımdır ki, istər daxili, istərsə də xarici miqyaslı ciddi sabitsizlik təhlükəsi yaranmasın. [21,s.197-198]

## ƏDƏBİYYAT


1. A.Quliyev. XIII əsrin sonu XIV əsrin əvvəllərində Azərbaycanda siyasi və hüquqi təlimlər. Bakı. 1993. Azərbaycan Dövlət Nəşriyyatı. Səh 32. cəmi 120 səh)
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Səh 302. iki cilddə. Ikinci cild. Bakı. 2005. 472 səh kitab. Lider nəşriyyat)
3. Ə.F. Abbasov. Milli dövlətçilik ideologiyamız: şərtləri və prinsipləri. Mənbə Cəmiyyət. İdeologiya. Təfəkkür (məqalələr toplusu) Bakı. 2004. səh 13. Bakı Univesitetinin nəşriyyatı.202 səh kitab)
4. Əli Abbasov.Azərbaycanda kimlik və siyasət. XXI əsrin türk dövlətlərində kimlik seçimi, səh 30. Milli və beynəlxalq araşdırmalar mərkəzi."Qanun" nəşriyyatı. Bakı 2011. 292 səh)
5. Xaləddin İbrahimov. Müharibə psixologiyası və millət. Azərbaycan qəzeti. 24 aprel 1992. sayı 19 (134)
6. Bəbir Quliyev. Sosial fenomen kimi müharibənin səciyyələndirilməsi. Səh 83. Hərbi bilik jurnalı. 2006. sayı 6, 112 səh)
7. A.Şükürov. Etnos, millət və millətçilik. Bakı.2008. səh 221. cəmi 254 səh. Təknur
8. Gender.Mədəniyyət. Adiloğlu nəşriyyatı. Bakı. 2003.
9. www.milli.az/news/politics/152787.html
10. D.Ismayılov. Siyasi ideologiya və onun mahiyyəti. Dirçəliş jurnalı. 2010. Sayı 88-89 iyun – iyul) səh 113
11. Rasim Musabəyov. Azərbaycanda vətəndaş millətinin formalaşması cəmiyyətin etnik, dini və sosial inteqrasiyasından keçir. Gələcək 10 il: Azərbaycanda demokratik islahatların başlıca istiqamət və məqsədləri. 1 cild. Bakı. 2006. "Adiloğlu" nəşriyyatı. Səh 126. cəmi 352 səh)
12. İ.Ağayev. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər. Bakı.2006. "MİM". səh 142. cəmi 180 səhifə)
13. Afqan Veliyev. Azerbaycanda yenilişme ve milliyetçilik hareketi. İstanbul.2005.səh 212 cəmi 304. Kaprol iletişim
14. Cəlil Xəlilov. Milli təhlükəsizlik mənlik şüuru kontekstində. Bakı. 2006. səh 78. cəmi 220 səh. "Vətən" nəşriyyatı
15. Orhan Türkdoğan. Niçin milletleşme? Milli kimliğin yükselişi. İstanbul. 1995. Türk dünyası Araşdırmalar Vakfı. səh 156. cəmi 238
16. F.Mustafa. Asiyadan sivilizasiyaya. Bakı. Qanun..səh 151. cəmi 276.
17. Siyasi biliklərin əsasları. Bakı. 1997. "Ulu" nəşriyyatı. Səh 179. cəmi 192 səh
18. M. Tahirov. İnkişaf etməkdə olan ölkələrin bəzi milli təhlükəsizlik problemləri. Qanun jurnalı. 2005. sayı 1(129) səh 18
19. İlham Məmmədzadə. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı. Təknur nəşriyyatı. 2009. səh 14. cəmi 226.

*Ülviyyə XANKİŞİYEVA*

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASINDA MƏHKƏMƏ – HÜQUQ İSLAHATLARI

***Açar sözlər:*** hüquq sistemi, islahat, məhkəmə cəmiyyəti.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkənin hüquq sistemində köklü islahatlar aparılmışdır. Bu islahatlar ilk növbədə insan hüquqlarının daha etibarlı təmin edilməsinə yönəlmişdir. Demokratik dəyərlər və prinsiplərə uyğun hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul edilmiş ilk demokratik Konstitusiya müddəalarının üçdə biri insan hüquq və azadlıqlarına həsr edilmiş, hakimiyyət bölgüsü prinsipi təsbit edilmişdir. Beynəlxalq ekspertlər tərəfindən dünyanın demokratik konstitusiyalarından biri kimi qiymətləndirilən bu Konstitusiya Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuş, hüquqi islahatların aparılmasına zəmin yaratmışdır.

Məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovetlər birliyindən miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən qurulmuşdur. İslahatlar çərçivəsində uyğun qanunlar qəbul edilmişdir. Bu qanunlara "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və digər qanunlar daxildir. Əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və s. məcəllələr qəbul edilmişdir.

Hüquq sisteminin islahatı nəticəsində ölkədə birinci instansiya, apellyasiya və kassasiya instansiyalarından ibarət yeni 3 pilləli müstəqil məhkəmə sistemi yaradılmışdır. Birinci instansiya məhkəməsi kimi rayon (şəhər) məhkəmələri, ərazi yurisdiksiyası üzrə fəaliyyət göstərən hərbi, yerli inzibati-iqtisadi və ağır cinayətlər məhkəmələri fəaliyyət



göstərir. Yeni məhkəmə sisteminə müvafiq olaraq ölkənin 6 regionunda apellyasiya məhkəmələri fəaliyyət göstərir. Apellyasiya məhkəmələri 4 kollegiyadan - mülki, cinayət, hərbi və inzibati-iqtisadi kollegiyalardan ibarət olmaqla müvafiq ərazi yurisdiksiyası üzrə fəaliyyət göstərirlər.

Kassasiya instansiyası məhkəməsi olan Azərbaycan Respublikasının Ali Məhkəməsinin tərkibində 4 məhkəmə kollegiyası - Mülki, Cinayət, Hərbi və İnzibati-iqtisadi məhkəmə kollegiyaları vardır. Ali Məhkəmə tərəfindən apellyasiya məhkəmələrinin qərarlarına kassasiya qaydasında baxılır.

Yeni məhkəmə sisteminin fəaliyyətə başlaması üçün hakimlərin şəffaf prosedur əsasında, beynəlxalq tələblərə uyğun test üsulu ilə imtahan və müsahibə ilə seçilməsi qərara alınmışdır.

Ölkəmizdə aparılan islahatlar nəticəsində yeni təsisat-məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təşkil olunmuş və 2005-ci ilin fevral ayından fəaliyyətə başlamışdır. 15 nəfərdən ibarət olan Şura əsasən hakimlərdən (9 nəfər) formalaşmış, həmçinin onun tərkibinə hakimiyyətin digər qollarının, habelə məhkəmə prosesində tərəf olan prokurorluğun və vəkilliyin nümayəndələri daxil olmuşlar.

Hakimlərin ilkin və davamlı tədrisinin təşkili, fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir.

Bununla yanaşı, Məhkəmə-Hüquq Şurası yanında hakimlərin və dövlət ittihamçılarının, o cümlədən hakimliyə namizədlərin tədrisi ilə məşğul olan ayrıca sektor yaradılmışdır.

Respublikamızda aparılan məhkəmə-hüquq islahatlarına nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən xüsusi dəstək verilir. Belə ki, ölkədə aparılan islahatlar nəticəsində qısa müddətdə əldə olunmuş nailiyyətləri yüksək dəyərlən-

dirən Dünya Bankı ilə Ədliyyə Nazirliyi rəhbərliyinin təşəbbüsilə "Ədliyyə sektorunun müasirləşdirilməsi" adlı birgə layihə həyata keçirilir. Layihədə çoxsaylı məhkəmə binalarının tikintisi, ümumiyyətlə bu sahədə infrastrukturun tamamilə yeniləşməsi və məhkəmələrdə ən müasir texnologiyaların tətbiqi üzrə tədbirlər nəzərdə tutulmuşdur.

Ölkədə aparılan məhkəmə-hüquq islahatına uyğun olaraq məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının da cəmiyyətdə roluna yenidən baxılmış, onun fəaliyyəti beynəlxalq normalara və demokratik institutların tələblərinə uyğunlaşdırılmışdır. Eyni zamanda müstəqil təsisat olan Vəkillər Kollegiyasının fəaliyyətinin yeni, demokratik əsaslarla təşkil edilməsi və əhaliyə hüquqi yardımın yaxşılaşdırılması məqsədilə 1999-cu ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun qəbul edilmiş, hüquqi yardımın göstərilməsində bu orqanın rolunun daha da artırılması məqsədilə bu sahədə qanunvericilik təkmilləşdirilərək müasir tələblərə uyğunlaşdırılmışdır.

Beləliklə, ölkəmizdə məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin görülməsi daim gündəmdə saxlanılır.



# MÜNDƏRİCAT

Giriş ........ 3
Введение ........ 6

## I FƏSİL. MÜASİR SİYASİ ELM KONSEPTUAL ASPEKTDƏ

*Rəna Mirzəzadə*
Siyasi elm və siyasi sosiologiyaya müasir nəzəri yanaşma ... 9
Müasir ictimai-humanitar nəzəriyyələrin ümumi mənzərəsi ........ 12
*Əlikram Tağıyev*
Siyasi sosiologiya elmi nədir və bizə nə üçün lazımdır? ...... 19
*Ziba Ağayeva*
Siyasi ideologiyaların modifikasiyası ........ 26
*Tahirə Allahyarova*
Ən yeni politoloji və siyasi sosioloji paradiqmaların metodoloji xüsusiyyətləri ........ 41
Postmodern cəmiyyət nəzəriyyəsi politoloji paradiqma kimi ........ 43
*Habil Həmidov*
Müasir siyasi elm və onun inkişaf istiqamətləri ........ 48
*Əli İbrahimov*
Siyasi sosiologiya politologiyada tətbiqi elm sahəsi kimi.... 58
*Məmmədağa Sərdarov*
Müasir dövrün tanınmış siyasi elm məktəbləri ........ 77

## II FƏSİL. MÜASİR PROBLEMLƏRƏ EMPİRİK YANAŞMA

***R.Mirzəzadə, Z.Əliyev***
Xarici ölkələrdə Azərbaycan diasporunun ikt istiqamətində fəaliyyəti ........ 95
***Лала Мовсумова***
Гражданское общество в контексте взаимодействия государства и общества ........ 107
***Şahin Bağırov***
Elitanın funksiyaları və postulatları ........ 115
***Davud Həşimov***
Siyasi institutlar siyasi sosiologiyanın tədqiqat obyekti kimi ........ 122
***Yadigar Türkel***
Azərbaycan cümhuriyətilə Dağlılar respublikasının ilişkiləri haqqında ........ 134
***Etibar Əsədov***
Siyasi elmin inkişaf mərhələləri ........ 142
***Kamilə Qasımova***
Amerika və avropada mədəniyyətlərə və sivilizasiyalara baxış ........ 157
***Sənan Həsənov***
Xəzərin statusunun həlli problemi geosiyasi maraqlar sistemində (siyasi təhlil) ........ 172
***Ruhəngiz Hacıyeva***
Siyasi sosiologiyada mədəniyyət və siyasi dəyər anlayışı ........ 183
***Kamran Məmmədov***
Siyasi sosiologiyada millət və millətçilik məsələlərinin tədqiqinin nəzəri əsasları ........ 189
***Nailə Əlicanova***
Azərbaycan respublikasında insan hüquqlarının təminatı məsələsinə baxış ........ 205



***Sevinc Quliyeva***
Mentalitetin sosial-siyasi məzmunu və dövlətçilik ........ 218
***Sevil Əliyeva***
Uşaq problemi müasir politoloji yanaşmada ........ 235
***Ruşan Ruşanzadə***
Vətəndaş cəmiyyəti: hüquqi dövlətlə qarşılıqlı fəaliyyət kontekstində ........ 243
***Mehman Kərimov***
Azərbaycanda siyasi fikir tarixi və ideoloji dəyərlər ........ 268
***Ülviyyə Xankişiyeva***
Müstəqil Azərbaycan respublikasında məhkəmə – hüquq islahatları ........ 276

**Texniki redaktor:** Əfsanə Səmədzadə
**Operator:** Elnarə Allahverdiyeva
**Dizayner:** Ramin İslamov

Təknur

****************************
Çapa imzalanmışdır: 03.07.14
Formatı: 70x100 1/32, Həcmi: 17,5 ç.v
Tiraj 100
Kitab «Təknur» mətbəəsində hazır elektron variantdan istifadə olunaraq, ofset üsulu ilə çap olunmuşdur.
****************************
Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya və qrammatikasına görə heç bir cavabdehlik daşımır.
****************************
**Mətbəənin direktoru:** Ələkbər Məmmədov
****************************
**Ünvan:** Bakı ş. Qanlı gölün Qərb sahili, 124
**Telefon:** 012-408-86-23